AĞASƏN BƏDƏLZADƏ

# QORXURAM BU DÜNYA SEVGİSİZ QALA

BAKI - 2011

Redaktor: **Məhərrəm HÜSEYNOV**
filologiya elmləri namizədi

Rəyçilər: **Buludxan XƏLİLOV**
filologiya elmləri doktoru, professor

**Kamil BƏŞIROV**
filologiya elmləri namizədi

**Ağasən Bədəlzadə.** Qorxuram bu dünya sevgisiz qala. Bakı, 2011 – 332 səh.

Ağasən Bədəlzadənin ilham çeşməsi folklorumuzun, klassik ədəbiyyatımızın ulu qaynaqlarından baş alır. Sözün qüdrətindən məharətlə yararlanan istededlı şairin bu kitabındakı şeirlərində saf məhəbbət duyğuları, torpaq sevgisi, elə - obaya bağlılıq və dərin bədii - fəlsəfi mühakimələr öz əksini tapmışdır.

## FİKRİN DƏ HÜDUDU VARDIR

Fikir eylədikcə fikir çoxalır,
Fikir qoşun-qoşun, qatar-qatardır.
Fikir ki, bir yerdə dirənib qalır,
Deyirəm, fikrin də hüdudu vardır.

Gah çevrə yaranır fikir-xəyaldan,
Gah fikir uzanıb bir düz xətt olur.
İnsan düşüncədən yorulan zaman
Sonsuzluq özü də dönüb hədd olur!
09.08.2005

## TORPAQ OLMAĞIM BƏS EYLƏR

Bir çinarın budağında
Yarpaq olmağım bəs eylər.
Bir gözəlin dodağında
Soraq olmağım bəs eylər.

Bilirəm ömür-gün nədi,
Könlüm götürmür minnəti.
Neynirəm nisyə cənnəti,
Torpaq olmağım bəs eylər.

Əl açmadım ona-buna
Dözdüm yolun darlığına,
Bu dünyanın varlığına
Ortaq olmağım bəs eylər.

Getmədim nəfsin nəfinə,
Qoşuldum haqq tərəfinə.
Bir məzlumun can evinə
Çıraq olmağım bəs eylər.

Bir sevgidən dada-dada,
Qonaq gəldim bu həyata.
Belə gözəl bir dünyada
Qonaq olmağım bəs eylər.
09.08.2005

## DEMƏ SƏN

Bir ucdan yaş gəlir yaşımın üstə,
Durmuşam qocalıq daşının üstə.
Ulduz sayrışırsa başımın üstə,
Onda ulduzlara uzaq demə sən!

Dağların dumanı üzümə gülsə,
Göydən piltə-piltə qar da tökülsə,
Bir odlu xatirə yarada bilsə,
Qışa da qar demə, sazaq demə sən!

Atəşi bilinməz göz nazlanmasa,
Bir heçdir bu dünya tarazlanmasa.
Qucaqda tərlanlar pərvazlanmasa,
Hər qadın qoynuna qucaq demə sən!

Dörd yanı çiçəklə süslənməyibsə,
Güldə gül həvəsi güclənmsəyibsə,
Altında çeşmələr gizlənməyibsə,
Hər nəmli çəmənə sucaq demə sən!

Sevgidir, kötükdən şumal olursa,
Sevgidir, tikandan şan-bal olursa.
Bir cüt göz önündə dil lal olursa,
Buna möcüzə de, yasaq demə sən!

Qapıdan içəri dost girməyirsə,
Atlını atından düşürməyirsə,
Çörək yox, mərd oğul bişirməyibsə,
Evdəki ocağa ocaq demə sən!

09.08.2005

## MEŞƏLƏR

Dərəsində maral doğma, qurd səfil,
Başı üstdən ötüb keçir gün qəfil.
Göy dənizdir, dalğalanır elə bil,
Göz önündə axır-axır meşələr!

Şirin, sərin nəfəsini yer udur,
Tənha palıd budağını qurudur.
Ayağından qara torpaq bərk tutur,
Göy zümrüddən çələng taxır meşələr!

Min karvandır bir-birinə qoşulub,
Bulaqları min qonağa nuş olub.
Yüz yol namərd baltasına tuş olub,
Açıq-aşkar könül yaxır meşələr!

Min çiçəyi, gülü yatır hər dilə,
Maral burda baş-başadır qurd ilə.
İnsanlardan vəhşilərə dərd ilə,
Gileylənir fağır-fağır meşələr!

Əzəl gündən təbiətə tac olub,
Gözəlliyə, təmizliyə ac olub.
Ürəyimdir yarpaqlanıb açılıb,
Durub mənə gendən baxır meşələr!

09.08.2005

## YALANÇIYA İNANDIM

Yalanadır bu yolların bir ucu,
Çox oğruya, talançıya inandım.
Axıracan danışmadı doğruçu,
Məcbur olub yalançıya inandım.

09.08.2005

## HƏYATİNDAN QİYMƏTLİ BİR ŞEY GÖZLƏMƏ!

Bəlkə bir də dönər o xoşbəxtliyin,
Bəlkə bir də dönər cavanlığın da.
Amma geri dönməz bir də ömür-gün
Ömür-gün heç olur nadanlığında.

Dururuq ölümlə hər gün göz-gözə,
Yaşamaq eşqiylə yanırıq amma!
Həyat ki, bir dəfə verilib bizə,
Həyatdan qiymətli başqa şey umma!

09.08.2005

## TƏZAD

Adam var qulluqdan şan-şöhrət tapıb,
Adam var çürüyüb qulluq içində.

Adam var yoxluqdan var-dövlət tapıb,
Adam var ac qalıb bolluq içində.

Bəhrəyə yetincə yaşayır arzu,
Hər təşnə olanı yarıtmır hər su.
Çiçək var bir içim suya tamarzı,
Bulud var çağlayır kolluq içində.

09.08.2005

## HEÇ OLDU

Tanrı mənə baxt vermişdi qızıltək,
O cür baxtım, əziz dostum, heç oldu.
Daş üstündə mən yetirdim bir çiçək
Taleyini hara yozdum, heç oldu.

Kim baxıbdır bu dünyanın yaşına,
Bənd olmuşuq baharına, qışına.
Dünya məni dolandırdı başına,
Ayağımla dövrə cızdım, heç oldu.

Öz ömrümə bəs eyləyər öz adım,
Durum kimin bostanına daş atım.
Ürəyimə ümid damdı, yaşadım,
Ürəyimdən ümid sızdı, heç oldu.

09.08.2005

## YERDƏ BULUD KÖLGƏSİ

Yerə kölgə salır nənbə buludlar,
Nazlanır çiçəklər, nazlanır otlar.
Meşənin üstündə bir əlçim bulud
Elə yaxındır ki, dur, əlinlə tut.

Aylarla günəşin altda qalsa da,
Meşə ayaq üstdə beləcə durmuş.
Özü ayağına kölgə salsa da,
Başı da göylərdən kölgə umurmuş.

Buludlar kölgənin durur qəsdinə,
Özü kölgəsinə görünməməkçün.

Kölgələr sərilir meşə üstünə
Burda qərar tutur sürünməməkçün.

Kölgələr meşənin hər qarışında…
Fürsət tapan kimi hey düşür yerə.
Kölgə çox dayanmır ağac başında,
Bir cunayı kimi sürüşür yerə!

Yaxşı bax dünyaya, təbiətə sən,
Bulud ağlamırmı görən bu dərdə?!
Özün səmalarda cövlan edəsən,
Kölgən qarın-qarın sürünə yerdə!

Vecsiz atəş verən bir od olunca,
Kölgə bir arzunun naxşıdı bəlkə.
Göydə bir ağaca bulud olunca,
Yerdə kölgə olmaq yaxşıdı bəlkə!

Baxaq ibrət üçün biz təbiətə,
Onun hər hikməti bir xəzinədir.
Hər şey öz yerində minir qiymətə!
Hər şey öz vaxtında bilinir nədir!
10.08.2005

## SƏNİN DAŞ ÜRƏYİN MƏNDƏ OLAYDI

Nə qədər dərd tutur qəlbim, nə bilim,
Bir hesaba çəkən bəndə olaydı.
Belə ki, zalımsan, deyirəm, gülüm,
Sənin daş ürəyin məndə olaydı!

Toxundur əlini, aç ürəyimi,
Kədər kotan çəkər, sinəm şum olar.
Versən də sən mənə daş ürəyini,
Bir günün içində dönüb mum olar!
13.08.2005

## SƏNDƏN KÜSMÜŞƏM

Sənsiz öz-özümə alışmaq üçün
Səndən küsmüşəm!

Sənin surətinlə danışmaq üçün
Səndən küsmüşəm!

Canımı həsrətlə göynətmək üçün
Səndən küsmüşəm!
Gözümü həsrətə öyrətmək üçün
Səndən küsmüşəm!
Bir yol incitmisən ümidgahımı,
Görməyə qorxuram könül şahımı.
Bir az yumaq üçün öz günahımı
Səndən küsmüşəm!

Sənin qiymətini ucaltmaq üçün
Səndən küsmüşəm!
Dərdimi bir azca qocaltmaq üçün
Səndən küsmüşəm!

10.08.2005

## DÜNYA Kİ, BELƏ FIRLANIR

Dünya ki, belə fırlanır,
Quş olub uçmalı idi.
Bu qədər ki, ömür yanır,
O, işıq saçmalı idi.

Belədir dövri-binadan,
Ayırmır ağı qaradan.
İnsan ki, doymur dünyadan
İnsanı qucmalı idi.

Dünya bizimlə kəc düşür,
Hər gün damına köç düşür.
Damına ki, bu güc düşür,
O çoxdan uçmalı idi!

Torpaqdır torpaqda yatan,
Göyərir torpağa batan.
Ölən köçsəydi dünyadan
Yük ilə köçməli idi.

Torpaq canıma can verib,
Dünya arzuma kam verib.
O ki mənə məkan verib,

Qanımı içməli idi.
Bu dünya qanana haydı,
Bu dünya qanmaza vaydı.
Yollar dünyadan aşsaydı,
Qəlbimdən keçməli idi.
24.07.2007

## YAXŞI ADAM

Könül vermədiyin çiçək
Sənin könül mülkün deyil.
Lap yaraşıqsız bir böcək
Gül üstündə çirkin deyil.

Yaxşılıq olsa qəlbində
Artar ağlın, ədəbin də.
Yaxşılıq quyu dibində
Daş altda da ölgün deyil.

Yaxşılıq min bir dondadır,
Yaxşılıq dil altındadır.
Yaxşılıq qanda, candadır,
Hər gül suyu gülgün deyil.

Yaxşılıq elə səsdir ki,
Haqq işə bağlıdır ilki.
Yaxşı adam o kəsdir ki,
Pis olmağı mümkün deyil!
10.08.2005

## BAĞBAN EYLƏRƏM
(Mahnı)

Aç ətirli tellərini,
Dərim, öpüm güllərini.
Sənin zərif əllərini
Könlümə bağban eylərəm.
Bircə ümidin zoruna,
Gəlmişəm gül hüzuruna.
Dünyanı üzün nuruna,
Salıb çıraqban eylərəm.

Dolubdur könlüm dəftəri,
Təzə dərdim var, gəl bəri.
Səndən aldığım dərdləri
Dərdimə loğman eylərəm.

Baxtım eşqindən məst olub,
Oyanmır, ona qəsd olub.
Gözüm yaşıyla dost olub
Naleyi-əfqan eylərəm.

12.08.2005

## HEÇ NƏ İSTƏMİRƏM DAHA DÜNYADAN

Bu qaya, bu çəmən, bu da göy meşə,
Min illik bir palıd sığınıb döşə.
Təbiət beləcə qala həmişə,
Heç nə istəmirəm daha dünyadan!

Elə tikan qala tikanlığında,
Elə yovşan qala yovşanlığında.
Yenə yemşan qala yemşanlığında,
Heç nə istəmirəm daha dünyadan!

Qala bu qaydada nəşəm, nəşidəm,
Nə çəmən yandırım, nə gül üşüdəm.
Evdən çölə çıxam, xoş söz eşidəm,
Heç nə istəmirəm daha dünyadan!

Dərdimə ürəkdən yananım olsun,
Sabahkı ruzimə gümanım olsun.
Məni mənim kimi qananım olsun,
Heç nə istəmirəm daha dünyadan!
Canım ki, üzüldü, dönüb sim ola,
Deyəm simsarım kim, yönüm kim ola.
Bir gülün xəyaı təsəllim ola,
Heç nə istəmirəm daha dünyadan!

Bir gözüm Kür olub, bir gözüm Araz,
Baxtım rəvan deyil, taleyim taraz.
Üzüsulu gedəm dünyadan bir az
Heç nə istəmirəm daha dünyadan!

Yağışlar diriltsin bağı-əkini,

Tanıyam yerimi, biləm çəkimi.
Açıb, deyə billəm qəlbimdəkini,
Heç nə istəmirəm daha dünyadan!

Həmişə xeyirə açılsın səhər,
Məsum anaları boğmasın qəhər.
Qorusun özünü dünya birtəhər,
Heç nə istəmirəm daha dünyadan!

25.07.2007

## DÜNYADAN XƏBƏRİM YOXDUR

Ömür bir yuxudur haqdan,
Röyadan xəbərim yoxdur.
Elə bil ki, heç bir dağdan,
Qayadan xəbərim yoxdur.

Taleyin yolu sərt imiş,
Yanmaq özü də şərt imiş.
Ömrün mayası dərd imiş,
Mayadan xəbərim yoxdur.

Dərd baxtımdan tez oyanmış,
Dərdim baş-başa dayanmış.
Dünya yalana boyanmış,
Riyadan xəbərim yoxdur.
Vardan yoxa üç addımmış,
Qəlbimi dərd ucaldıbmış.
Dünya məni qocaldıbmış
Dünyadan xəbərim yoxdur.

12.08.2005

## MƏNİM YERİM OLMALIDIR

Kol-kosdan qızıl dərsələr,
Bütün yollara sərsələr,
Dünyanı mənə versələr,
Öz qədərim olmalıdır.

Açmalıyam, açanamsa,
Solmalıyam, xəzanamsa,
İnsan oğlu insanamsa,
Öz kədərim olmalıdır.

Dünyaya nəfə gəlmirik,
Beş-altı dəfə gəlmirik.
Dünyaya kefə gəlmirik,
Dərdi-sərim olmalıdır.

Arzum qəlbimə şahdısa,
Əhdim, əməlim haqdısa,
Qəlbimdəki allahdısa,
Allah kərim olmalıdır!

Dünyanın çoxu sudusa,
Yaşı qurunu yudusa,
Onun ur üzü budusa,
Ölüm-dirim olmalıdır.

Bu hal mənim halım deyil,
Əzəlki xəyalım deyil.
Dünya «gəlim-qalım» deyil,
«Gəlim-görüm» olmalıdır.
Lap bir uçuq dərəyəmsə,
Nöqtəyəmsə, zərrəyəmsə,
Bu dünyada hər nəyəmsə,
Burda yerim olmalıdır!

25.07.2007

## ÖMÜR NƏĞMƏDİR

Ömür qəribədir, gün qəribədir,
Zəhər içində də şəkər-qəndi var.
Yollar bir məzara üz tutub gedir,
Di gəl bu yolların min bir səmti var!

Bir gün quruyarsan, pöhrən də olsa,
Solar lalə kimi çöhrən də olsa,
Ömür yollarında köhlən də olsan,
Zaman cilovu var, vaxt kəməndi var!

Bu dünya xar gəlir hərdənbir mənə,
Hardasa deyəsən laxlayıb binə.
Dünya yiyəsizdir, elə bil yenə
Baxma min şəhəri, min bir kəndi var!

Sən demə, hamıya dünya bir verib,
Mənə Araz verib, sənə Kür verib.
Təbiət insana bir ömür verib,
Amma gör ölümün neçə fəndi var!

Əgər alışmırsa, ömür bayatdır,
Məhəbbət ömürçün bir ehtiyatdır.
Qovan ölüm deyil, qovan həyatdır,
Həyatın ölümə başqa zəndi var.

Gələnlər hey gəlir, köçənlər köçür,
Kimin əkdiyini görün kim biçir.
Zülümlər cürbəcür, dərdlər cürbəcür,
Hər dərdin özünün dərdiməndi var.
Gülüm, mən bilirəm daha qəm nədir,
Mənə qəmli-qəmli nəğmələr gətir.
Bizim ömrümüz də elə nəğmədir,
Bir allah bilir ki, neçə bəndi var!

25.07.2005

## MƏNDƏN QALAN XATİRƏNİ

Gözdən salma bu sevgimi,
Dərd yeriyir bir dev kimi.
Közərdərəm kösöv kimi
O qaralan xatirəni!

Bir vaxt sənlə canbir idim,
Canımı aldın, yeridim.
İndii bəs necə kiridim,
Sənin nalan xatirəni!

Məhəbbətə könül bağla,
Yol gedər qarla-sazaqla.
Məndən sonra yaxşı saxla
Məndən qalan xatirəni.

27.07.2005

## YOLLAR

Sevmişəm dolanbac, əyri yolları,

Həmişə yolların başı qal çəkir.
Bir yandan dünyanın sərt sualları,
Bir yandan fikrini qara kol çəkir!

Birdən dəli külək yolu kürüyür,
Elə bil yol boyu güllər yeriyir.
Bir də görürsən ki, duman bürüyür,
Yolların üstünə bomboz şal çəkir.
Dünya öz işində, dünya hərlənir,
Ürək heydən düşür, göz qəhərlənir.
Otun bir başından qurd zəhərlənir,
Otun bir başından arı bal çəkir.

Şahiddir min qəlbin məhəbbətinə,
Xəyal gedib çatır bəla həddinə.
Yolun ağrısına, yolun dərdinə
Ürək möhür vurur, həsrət qol çəkir.

Hərdənbir ayrılıq yolu kəsəndə,
Düşür ürəklərin gümanı bəndə.
Yollardan heç kəsi gözləməsəm də,
Yollara zillənib, gözün yol çəkir!
26.07.2005

## POZULAR

Şərt pozular, qara dönüb ağ olsa,
Zərrənin də öz hökmü, öz yeri var.
Quş yerinə bir qarışqa doğulsa,
Bu dünyanın tarazlığı pozular!
27.07.2005

## YAŞADIQ

Yuxu kimi gəlib keçən bir ömrin
Yarısını qafil yatıb, yaşadıq.
Qayğılarda cilalandı ömür-gün,
Dərd gölünə yelkən atıb, yaşadıq.

Getdiyimiz boz cığırlar daraldı,
Yarpağımız xəzansız da saraldı.

Günlərimiz kösöv kimi qaraldı,
Kösövlərdən ocaq çatıb, yaşadıq.
Göz yumuldu, ürək yazıq yatmadı,
Ümidimiz göyərmədi, artmadı.
Yaxın günə əllərimiz çatmadı,
Uzaq günə əl uzadıb, yaşadıq.

Yarımadı bağça bizə, bağ bizə,
Dağ olsaq da, dövran çəkdi dağ bizə.
Nübar kimi pay verildi haqq bizə,
Nübar kimi haqqı dadıb, yaşadıq.

Gözümüzlə diri açdıq səhəri,
Silinmədi gözümüzün qəhəri.
Billə-bilə, gülə-gülə zəhəri
Əlimizlə bala qatıb, yaşadıq.

Elə bildik çayın bəndi düzəldi,
Elə bildik gələn günlər gözəldi.
Ha gözlədik, arxımıza su gəldi,
Arxımızda lilə batıb, yaşadıq.

Gözümüzə nur verəni pislədik,
Bizdən qaçıb, gen düşəni izlədik.
Yaman deyib, yaxşısını gözlədik,
Nisyələrə nağdı satıb, yaşadıq.

Ömür boyu yolda qaldı gözümüz,
Ağzımızda közə döndü sözümüz.
Aldatdılar, bəs olmadı, özümüz
Özümüzü hey aldadıb, yaşadıq.
08.08.2005

## BƏS EYLƏR

Könül sevsə, təsəlliyçün gözəlin,
Yaylığının bir saçağı bəs eylər.

Sevgi olsa, milyon-milyon insana,
Bu dünyanın bir bucağı bəs eylər.

Qocalarda təmkin olsa, nur olsa,

Cavanların qanacağı bəs eylər.

Günəş sönsə, el mehriban dolansa,
Hər bir kəsə od-ocağı bəs eylər.

Min-min namərd minbir düyün vursa da,
Bircə mərdin bir bıçağı bəs eylər.

Aran yanıb, al günəşdən qaralsa,
Dağlarımın qar-sazağı bəs eylər.

İstəmərəm mənim olsun dünyalar,
Öz yurdumun öz qucağı bəs eylər.

Bu dünyanı öyrən uşaq dilindən,
Nəfsi, qəlbi təmizdir yaz gülündən.

Bir çöpü ver, dünyanı al əlindən
Ona bir çöp oyuncağı bəs eylər.
08.09.2005

## ÇATMIR

*Molla Pənah Vaqifə*

Dünya beşik kimi bizi yellədir,
Hayıf ki, bir şirin laylası çatmır.
Dövranlar, zamanlar pilə-pillədir,
Mehri-məhəbbətdən mayası çatmır.

Ümidi qırılmış qoca dünyadır,
Günü-gündüzü də gecə dünyadır.
Bilmirəm bu dünya necə dünyadır,
Məcnunu görünmür, Leylası çatmır.
Toylar uzaq düşüb öz havasından,
Qaçır qoca, cavan saz havasından.
Qış günü seçilmir yaz havasından,
Gecələrin şirin röyası çatmır.

Fələyin çarxı da tərsə dolanır,
Qızılgül kolundan ocaq qalanır.
Çaylar bəndə düşür, göllər bulanır,
Göllərin dupduru aynası çatmır.

Dünyada çox ölüm-itim görürəm,
Daha düz yolu da çətin görürəm.
Atalı, annalı yetim görürəm,
Yanında atası, anası çatmır.

Haram pullar ilə keflər görürəm,
Bu kef məclisində divlər görürəm.
Hər yerdə şahanə evlər görrəm,
Ağıllı-kamallı sonası çatmır.

Haqdan uzaq olan min baxıcı var,
Hərənin əlində dərd kağızı var.
Çoxunun yalançı dil-ağızı var,
Bir ürəkdən gələn duası çatmır.

Meyvələrin eyni dadı var, ancaq
Ocaqların bir cür odu var, ancaq
Qanunun, qaydanın adı var, ancaq
Bütöv, etibarlı binası çatmır.

Dünyaya baxırsan, yer-göy gözəldir,
Bu məclis gözəldir, o mey gözəldir.
Üzdən hər şey qəşəng, hər şey gözəldir,
Amma könül açan mənası çatmır.
08.09.2005

## MƏKTUBLAR

Məktublar var idi bir zaman, könül,
Sevgi rayihəli, sevgi ətirli.
Elə bil içində nur saçardı gül,
Hicran nişanəli, nəğmə sətirli.

Gahdan ağlayardı, gühdan gülərdi,
Gah bulud kimiydi, gah da gün kimi.
Neçə kənd, şəhəri keçib-gələrdi,
Gəzərdi əllərdə göyərçin kimi.

Könül intizarda, ürək halbahal,
O başdan-bu başa dərd süzülərdi.
Gedib çatanacan min fikir, xəyal,
Gəlib çatanacan can üzülərdi.

Məktublarda idi inamın, gücün,
Gizli kaman kimi səs eləyərdi.
Ağrını ürəkdən qoparmaq üçün
Bir sirdaş məktubu bəs eləyərdi.

Məktub! Min ürəyə təsəlliydi bu…
Analar, bacılar yanar, yanardı.
Qoyun-qoltuğunda saxlar məktubu,
Elə bil bir dağa arxalanardı.

Həm təsəlli idi, həm qubar idi,
O eldən bu elə uçardı hər gün.
Qanun sənədiylə hökmü var idi,
Əhdinamə idi sevgililərçün.

Məktublar güclüydü silahdan belə,
Ürəklər çıxardı məktub içindən.
Uşaqkən duymuşam, uşaqkən hələ
Üçkünc məktubların qüdrətini mən.

Məktublar elçidir əzəldən bəri,
Məktublar insanın söz sinəsiydi.
Məktublar ürəyin şah əsərləri,
Məktublar bir sirlər xəzinəsiydi.

Məktublar bir elə zəfər çaldılar,
İnsan taleyini döndərərdi də!
Məktublar heç nədən dava qaldıran,
Məktublar davanı söndürərdi də!

Məktublar var idi quşdan sürətli,
Məktublar var idi hələ yuxulu,
Məktublar var idi ölüm sifətli,
Məktublar var idi ənbər qoxulu.

Telefonlar gəldi ruhsuz, ürəksiz,
Xəbərlər bir anlıq yol gəlir indi.
Kağız məktublara hər yerdə şəksiz,
Bir əl telefonu do gəlir indi.

Getdi o əvvəlki ürək, intizar,
Sirri yox dostun da sevən yanında.

İndii sirr dediyin aşıq-aşikar,
Dolanır havanın dalğalarında.

Daha müqəddəslik yoxdur cahanda,
Daha yoxdan xeyir götürür insan.
Elə vaxt gəlib ki, bir qazananda
Bəlkə də milyon qat üfürür insan.

İndi nə gizli sirr, nə gizli söz var,
Hər şey açıqdısa, ülvilik hədər.
Açıqda olsaydı ürək aşikar,
Şirin olmaz idi bəlkə bu qədər.

Gecənin öz yeri, günün öz yeri,
Çox vaxt gizli əllər açır dünyanı.
Hər şey açıq-aşkar olandan bəri
Dünya da itirib gözəlliyini.

08.09.2005

## BİR AZ

Bir haqq sözün nə taxtı var, nə tacı,
Qanan qanır, gah şirindir, gah acı.
Öz səmtinə yıxma heç vaxt ağacı,
Balta vursan, özgə səmtə yıx bir az!

Dost-qardaşdır ağır günün gərəyi,
Şəri-şeytan iblis eylər mələyi.
İstəsəm ki, tanıyasan ürəyi,
Əlin kimi ürəyi də sıx bir az.

Fikir-xəyal ayıq olur sübhəcən,
Şübhələrə yem olurmuş bir bədən.
Məhəbbəti qorumaqçün şübhədən
Ürəyinə sən nifrət də yığ bir az.

Pis görünər yaxşını da pisləsən,
Elə bilmə sən hamıdan üstdəsən.
Sən el üçün haqq söz demək istəsən,
Hərdənbirdən eldən kənar çıx bir az.

06.09.2005

## NİZAMI YOXDUR

Düşüb boynumuza cahanın yükü
İnsanın qüdrəti cahanda yoxdur.
İnsan əzab çəkir ölüncə, çünki
Cahanın nizamı insanda yoxdur!
08.09.2005

## HÜNƏR İSTƏYİR

Çeşmənin sakitcə axmağı kimi
Coşub, dinməyi də hünər istəyir.
Yerdən təyyarənin qalxmağı kimi
Yerə enməyi də hünər istəyir.

Odun öz hökmü var, əgər yanırsa,
Gücü, qüdrəti var, vaxt dolanırsa.
Alov göyə necə havalanırsa,
Onun sönməyi də hünər istəyir.

Sədası da olur hərdən heçliyin,
Sonu səs-küy olur bəzən dincliyin.
Hünərlə qaynayıb-daşan gəncliyin
Birdən dönməyi də hünər istəyir.
06.09.2005

## BELƏ OL, AY BELƏ OLMALI DÜNYA

*Xalq rəssamı Səttar Bəhlulzadəyə*

Laləli, nərgizli, tər bənövşəli,
Dağları meşədən çalmalı dünya.
Palıdlı, qovaqlı, vələs meşəli,
Heyvalı, armudlu, almalı dünya!

Hərdən calamalı, hərdən kəsməli,
Hərdən barışmalı, hərdən küsməli.
Hərdən titrəməli, hərdən əsməli,
Hərdən boşalmalı, dolmalı dünya.

Bircə günəşin var, işıq saçmalı,
Bircə dünyamız var, hara qaçmalı?

Gahdan göyərməli, gahdan açmalı,
Gahdan saralmalı, solmalı dünya!

Əməlin özündən, şərtin özündən,
Namərdin özündən, mərdin özündən.
Tufanın özündən, dərdin özündən,
Hanı başqa çarə qılmalı dünya!

Verirsən sən mənə kədər, qəm yenə,
Başımda sevdamı eylə cəm yenə.
Öləndən sonra da səninəm yenə,
Ay qoynunda ölüb, qalmalı dünya.

Mən sənə deməřəm daha kür olma,
Belə qal, cilvəsi, rəngi bir olma.
Sən belə gözəlsən, başqa cür olma,
Belə ol, ay belə olmalı dünya!

05.09.2005

## PAYIZIM MƏNİM

Nədən incimisən, nədən küsmüsən,
Ay gözləri nəmli payızım mənim!
Nədən ağrımısan, nədən bezmisən,
Ay taleyi qəmli payızım mənim!

Dərələr məxməri, dağlar qızılı,
Bostanın, gülşənin, bağın ruzulu.
Çöllərin obalı, qoyun-quzulu,
Obası sənəmli payızım mənim!

Nə düşdü yadına, nəyi unutdun?
Özünə qapanıb, dərdini uddun.
Mənim könlüm kimi həmişə tutqun,
Qüssəli, ələmli payızım mənim!

Dağın xanımlıdır, çölün kənizli,
Ayağın çeşməli, başın dənizli.
Ay xəstə vücudlu, solğun bənizli,
Ay loğman məlhəmli payızım mənim!

05.09.2005

## VƏTƏN ƏBƏDİ BİR YOLDUR

İtən torpaq – arımızdır,
Bir əbədi ağrımızdır.
Sızıldayan bağrımızdır,
Ağrısından yatmaq olmaz.

Meşədir, torpaqdır, sudur,
Gözəlliyin hamısıdır.
Vətən kişi namusudur,
Qardaşa da satmaq olmaz.

Təmənnasız qənimətdir,
Şirin həyata zinətdir.
Vətən bir şirin nemətdir,
Məhəbbətsiz dadmaq olmaz.

Bir sevgi – çiçəyi, şehi,
Bir nəğmə – küləyi, mehi.
Sevgidir Vətən zirehi,
Qılıncla da batmaq olmaz.

Bir atəşdir yanar, sönər,
Zaman-zaman dərdə dönər.
Torpaq ağızda çeynənər,
Amma onu udmaq olmaz.

Başını duman alsa da,
Yolu tikanla dolsa da,
Tək kolu, daşı qalsa da,
Onu ucuz tutmaq olmaz.

Torpaq könül mülkümüzdür,
Son donumuz, kürkümüzdür.
Torpaq biim ilkimizdir,
Ona haram qatmaq olmaz.

Sevgisi, duyğusu boldur,
Eşqiylə qəlbini doldur.
Vətən əbədi bir yoldur,
Axırına çatmaq olmaz.

21.08.2005

## BƏLKƏ DƏ

Hər səmtə dönsəydi ömrümün yönü,
Həyatda ən uca yerim olardı.
Ömrümə yazsaydım hər ötən günü,
Bəlkə də bir uzun ömrüm olardı.

***

Tənhalıq istəyir çayda balıq da,
Təklikdə çox dərdə ilişirəm mən.
Könlümə xoş gələn bir tənhalıqda,
Daha çox insanla görüşürəm mən!

17.08.2005

## AZALSA

Bir təmiz niyyətdən min sevinc gələr,
Dərdi-sər gəlsə də, gələr, dinc gələr.
Bir dost nəfəsindən sənə güc gələr,
Yorulan sinəndən nəfəs azalsa.

Alışır, öyrəşir insan hər səsə,
Nəğmə var titrəməz həsrət dəyməsə.
Quş var ki, mehrini salar qəfəsə,
Darıxar, dünyada qəfəs azalsa.
Duysan bu həyatın min-min səsini,
Sevincdən taparsan zülmün səsini.
Aşkar eşidərəm ölmün səsini,
Yanımdan-yörəmdən bir səs azalsa.

İnsan əzəl gündən sinədağlıdır,
Bəşər bir-biriylə kökdən bağlıdır,
Aşkar yox, gizlicə səni ağrıdır,
Hardasa dünyadan bir kəs azalsa!

Elə ki, nəs gəlir arzu, ümidi,
İnsan öz-özünün müttəhimidir.
Onsuz da ürəklər məhbəs kimidir,
Nə xeyri həyatda məhbəs azalsa.

Yaşamaq eşqiylə can şəfəq salar,
Nə qalsa, yaşamaq eşqindən qalar.
Ən qəşəng gülə də meylin azalar,
Əgər yaşamağa həvəs azalsa.

Görürəm həqiqi yar azlığını,
Bağban dərd eyləyər bar azlığını.
Bu dünya itirər tarazlığını,
Ölən sevgilərə əvəz azalsa!

15.08.2005

## ÖZÜM-ÖZÜMÇÜN

Qarışır, dolaşır fikrim arada,
Xəlvət axtarıram özüm-özümçün.
Əvvəl bir dərdi-sər tapıb, sonra da
Həmdərd axtarıram özüm-özümçün.

Həyatım yaramır kef-damaq üçün,
Bir donu kəsməzlər bir yamaq üçün.
İnsan olmaq üçün, yaşamaq üçün
Min şərt axtarıram özüm-özümçün.
İnsanlığa da bax, quduzluğa da,
Bahalığa get, ucuzluğa da.
Getmək istəmirəm sonsuzluğa da,
Sərhəd axtarıram özüm-özümçün.

Hərdən tərlan kimi göydə süzməyə,
Nigaran-nigaran bir gül üzməyə,
Namərdə üzbəüz durub dözməyə,
Bir mərd axtarıram özüm-özümçün.

Dünyada çox gördüm bəd sifətləri,
Ələyib tapıram həqiqətləri.
Kəsib atmaq üçün əyri xətləri,
Düz xətt axtarıram özüm-özümçün.

19.08.2005

## YOXDUR

Qurtara bilmirik biz qaçhaqaçdan,
Gah hacdan umuruq, gah da ki tacdan.
Min cür zər qutu var adi ağacdan

Tabutdan qorxulu bir qutu yoxdur!

Fürsət ayda, ildə bir şəfəq saçar,
Gözünü qırpdınsa, əlindən qaçar.
Aləm var görünməz – sübutu aşkar,
Aləm var göz görür – sübutu yoxdur.

Fələyin də dişi hamıya batmaz,
Məzlumu su gələn vaxtda oyatmaz.
Dərə var yamyaşıl, çəməni atlas,
Zirvə var bir çəngə göy otu yoxdur!

Deyirlər hərənin öz cəzası var,
Nisyə nəqdi udar, başdan dərd aşar.
Niyə cəhənnəmdə yansın günahkar,
Məgər bu dünyanın öz odu yoxdur?!

Didir, parçalayır varlığı yoxluq,
Nəyimə gərəkdir yalançı şuxluq.
Dünyada insandan bir incə məxluq,
Dünyada insandan kobudu yoxdur!

Dinməmiş içində qırılır səsin,
Dilin taqəti yox daha söz desin.
Sabahı həsrətlə gözləyən kəsin
Bu gündən sabaha umudu yoxdur!
02.08.2005

## GİZLİ QALIR

İnsan məğrur yanmalıdır,
Gözündə nur yanmalıdır.
Ürək gur-gur yanmalıdır,
Tüstüləsə, hisli qalar.

Bir gün sınar daş olsa da,
Yeri sevər quş olsa da,
Gündə yüz yol boşalsa da,
Ürək yenə sözlü qalar.

Arzu qonar dodağına,
Qor tökülər yatağına.

Sığınar can otağına,
Öz içində gizli qalar.

Çaş-baş gümanlar tor olub,
Daha fikir də yorulub.
Elçün ağlayan kor olub,
Elçün yanan gözlü qalar!
03.08.2005

## ÖLDÜ-YAŞATDI

*M.Y.Lermontova*

Hardasa açıldı namərd gülləsi,
Çiçəklər ağladı Maşuq dağında.
Qırıldı bir cavan ömrün pilləsi,
Bir könül boğuldu qan çanağında.

Bir bahar ömrünü aldı qar-qırov,
Cavan şair ömrü soldu gül kimi.
Öldürdü şairi qatil Martınov,
Dolandı dillərdə bir qatil kimi.

Kimdi Martınovu tanıyan indii,
Bir şərəfsiz əməl onu tanıtdı.
Qafqaz bir ölümdən qara geyindi,
Zaman iki adı bir əldə tutdu.

Yaxşı da, yaman da yaşayır, düşün,
Kim bilir tarixdən kim nə alacaq.
Martınov öldürdü şairi bir gün,
Şairsə qatili yaşatdı ancaq.

Ölüm də anlayır həyatın gücün,
Ölüm ömür üçün həmişə sərvaxt.
Ölüm də adını yaşatmaq üçün
Ömürlər dalınca süründü hər vaxt.
06.03.1993

## İNSAN

Bir ayrı dünyadır insan büsbütün,
Bir gün payız olar, bir gün yaz olar.
Sən gülər gördüyün adamı bir gün

Ağlayan görəndə tanınmaz olar.

Yanar ürəyindən, tökər dilindən,
Ömrü yük olsa da, atmaz belindən.
Varını-yoxunu tut al əlindən,
Bir damcı ümid ver, kefi saz olar.

Daşı da ucaldıb müqəddəs eylər,
Haranı axtarsan, ordan səs eylər.
Hər şeyə bir yandan baxsan, bəs eylər,
İnsana yüz yandan baxsan, az olar!
19.07.2005

## ÇAYLARIN HAMISI DƏNİZƏ AXMIR

Arzular ürəyi yandırıb-yaxır,
Amma ki o gözün bu gözə baxmır.
Sular var, zirvədən çağlayıb axır,
Dərədə ilişir, heç düzə axmır.

Bir yanım vadidir, bir yanım meşə,
Bir əlim daş olur, bir əlim şüşə.
İllər üzümüzə gülür həmişə,
O üzə döndümü, bu üzə baxmır.

Ömrünü payıza verir ilk bahar,
Payızın gözündən leysanlar yağar.
Nə olsun ki, mənim arzularım var,
Çayların hamısı dənizə axmır.

Çox üzlər görübdür dünyanın üzü,
Min-min ömür udub, doymayıb gözü.
Yollar şirnikdirib çağırır bizi,
Yollara çaxarsan, yol sözə baxmır.

Gül-çiçək əkirik, yer sulayırıq,
Ömrə çığmayanı arzulayırıq.
Vaxtı çəpərləyib ömür sayırıq,
Dolanıb gedəndə vaxt bizə baxmır.
11.07.2005

## DAYANMAZ

Ömürdən doymadıq, gündən doymadıq,
İllər sular kimi keçər, dayanmaz.
Dünya nə bilir ki, yaxınıq, yadıq,
Dünya əkdiyini biçər, dayanmaz.

Nə qədər vaysındıq, qalmadıq cavan,
Nə loğman kar etdi, nə dava-dalaş.
İnsan saribandır, ömürsə karvan,
Karvan yük altdadır, köçər, dayanmaz.

Arzumuz düşmədi dildən, dodaqdan,
Bilmədən nə deyir ömür qabaqdan.
Təşnəyə bənzərik – axan bulaqdan
Bulanıq suyu da içər, dayanmaz.

İllər yaş artırar yaşımız üstə,
Çox durmaz pisimiz, yaxşımız üstə.
Zaman münsif olar başımız üstə,
Yaxşını-yamanı seçər, dayanmaz.

Gedirik, yükümüz arzu yüküdür,
Yaxşı ki, arzu bir, ümid ikidir.
Əcəl də bizimlə can şərikidir,
Götürər payını, ölçər, dayanmaz.

Həmişə gözlədik, yol üstə çıxdıq,
Həmişə niyəsə elə darıxdıq.
Dünyaya sığmadıq, arzuya sığdıq,
Bir qına sığmasa, xəncər dayanmaz.

Bəhrəsiz acizsən, gücün dağ olsa,
Zaman qulun olar, üzün ağ olsa.
Yaşamağın sirri yaşatmaq olsa,
Ömrün qabağında əcəl dayanmaz.

19.09.1974

## OLMAZ

Ulduz yanar, ay fırlanar, gün yanar,
Amma elsiz ömür olmaz, gün olmaz.
Vətənsizin dərdi ərşə dayanar,
Gedib haqqın dərgahına yön olmaz.

Yollarımı elə hicran kəsib ki,

Bu dünyadan könlüm elə küsüb ki,
Ürəyində ya kin olsun, ya sevgi,
Sevgi ilə bir yuvada kin olmaz.

İnsaf umma hər camalı gözəldən,
Gör kim oldu ocağını közərdən.
Mələkliyə köklənibsə əzəldən
Mələk gəlib şeytan olmaz, cin olmaz.

Daş yığılsa, daş topası deyərlər,
El yığılsa, el obası deyərlər.
İmarətin xarabası deyərlər,
Bir imarət uçanda da hin olmaz.

Şir ürəkli səhrada da şir olar,
Nahaqqın yox, haqqın yolu bir olar.
Bir yol tutan bir olsa da, pir olar,
Gün naminə xırdalanıb min olmaz.

Qırılıbdır Qıratımın ovsarı,
Nə bilsin ki, hara düşüb güzarı.
Satqınların xəlvətdədir bazarı,
İşıq olsa, daha xəlvət tin olmaz.

Aç sinəmi, qəm qoruğu görərsən,
Aç könlümü, min bir duyğu görərsən.
Kənarda da şirin yuxu görərsən,
Yuxuların eldən kənar çin olmaz.

Tüfəngimiz boş-boşuna atılır,
Qapımıza namərd qanı qatılır.
Bir Vətən ki, ada, pula atılır,
O Vətəndə allah olmaz, din olmaz.

12.05.1999

## DEYİRLƏR

Bir harını haram pullar güldürür,
Fürsətdəndir, macaldandır, deyirlər.
Bir yoxsulu dərd yandırıb-öldürür,
Qismətdəndir, əcəldəndir, deyirlər.

Bir dilbərə öz canını qıyan yox,
Məhəbbətin röyasına uyan yox.
Sevgidəki sərməstliyi duyan yox,
Məhəbbət baş gicəldəndir, deyirlər.

24.07.1999

## SƏN BİR ZORXANA DÜNYASAN

Yolu vardır, cığırı yox,
Qazanı var, naxırı yox.
İş var, işin axırı yox,
Yaman karxana dünyasan.

Hərdən yolun ikiləşir,
Haq-hesabın yüngülləşir.
Haqq ilə nahaq üzləşir,
Sən bir zorxana dünyasan.

Hökmün, fərmanın kəsərli,
Yaşıl çəmənin xəzəlli.
Həm qorxudana təsəlli,
Həm də qorxana dünyasan.
Heç kim görməyib boyunu,
Hər su doldurmaz quyunu.
Əməlin qumar oyunu,
Bir qumarxana dünyasan.

Zaman keçir, bel bükülür,
Başımızdan qəm tökülür.
Gülənlər də dərddən gülür,
Sən qumarxana dünyasan.

24.07.1999

## İLAHİ, BU MİLLƏT NƏ GÜNƏ QALDI?!

Daşdı budaqların dərdi, illəti,
Göyərmək ağacın kökünə qaldı.
Belə də bilməzdim mən bu milləti,
İlahi, bu millət nə günə qaldı?!

Düşüncə özgənin, beyin özgənin,
Pal-paltar özgənin, əyin özgənin,

Daha toy özgənin, düyün özgənin,
İlahi, bu millət nə günə qaldı?!

Ceyranı çölündən, düzündən qaçaq,
And içən əhdindən, sözündən qaçaq.
Özündən bədgüman, özündən qaçaq,
İlahi, bu millət nə günə qaldı?!

Niyə kasad sanır öz bazarını,
Salır yad yoluna hey güzarını.
Özgəyə tapşırıb öz ovsarını
İlahi, bu millət nə günə qaldı?!

Özgənin daşını simuzər bilir,
Özgənin gülünü daha tər bilir.
Özgə bulağını bir kövsər bilir,
İlahi, bu millət nə günə qaldı?!
Yadından çıxarıb öz qiymətini,
Unudub özünün müsibətini.
İtirib başabaş öz sifətini,
İlahi, bu millət nə günə qaldı?!

Özünün tərəzi-mizanı yoxmu?
Özünün ocağı, qazanı yoxmu?
Bu dərdin bir dənə yozanı yoxmu?
İlahi, bu millət nə günə qaldı?!

Atıb zərxaranı, çulu bəyəndin,
Qırıb bənövşəni, kolu bəyəndin.
Azdıran, bezdirən yolu bəyəndin,
İlahi, bu millət nə günə qaldı?!

Nə qədər dirənib bərkə bu millət,
Salır ö üstünə kölgə bu millət.
Özünü tanımır bəlkə bu millət,
İlahi, bu millət nə günə qaldı?!

Qazancı bu qədər itib-batan yox,
Belə huş aparan, belə yatan yox.
Özünü bu qədər ucuz satan yox,
İlahi, bu millət nə günə qaldı?!

Yaman qorxuludur səmt işarəsi,

Qorxuram qalmaya heç nişanəsi.
Belə bir bəlanın dərdi, çarəsi
Simurq lələyinin tükünə qaldı,
İlahi, bu millət nə günə qaldı?!
01.06.1999

## YOLÇU DEMƏZLƏR

Qiymətə qoylmaz, ömür bitməsə,
İllər ömür olmaz keçib getməsə.
Pusquda dayanıb bərə güdməsə,
Hər güllə atana ovçu deməzlər.

Kiminin dərdidir, kiminin nəfi,
Bənövşə açılır, kol çəkir kefi.
Hər kəsin üzünə şirin tərifi
Hər kəsin üzünə suçu deməzlər.

Sözün nə qiyməti, sonalanmasa,
Yerində deyilib, mənalanmasa.
Alnı, ayaqları xınalanmasa,
Hər qoça toy-nişan qoçu deməzlər.

Mənimçün qoymayıb mənə ad qoyan,
Axı başqasıdır məni haylayan.
Gözlər özü dolub, olmasa giryan
Hər dərdə insanlıq borcu deməzlər.

İnsanın ömrü də bir yoldur, düzü,
Qoy öz ayağımız aparsın bizi.
Özümüz yaşayaq öz ömrümüzü,
Yolu getməyənə yolçu deməzlər.
16.06.1999

## AĞILLI DƏLİ OLMASA

Dünya divanə olmasa,
Tərsinə fırlanmaz, bala!
Yanan pərvanə olmasa,
Çıraq da nurlanmaz, bala!

Ömrü havayə verməsə,
Ömrə qəm tayı verməsə,
Ömrə qəm payı verməsə,
Dünya ağırlanmaz, bala!

Gedir hey ömür karvanı,
Çaşqın olubdur sarbanı.
Getdi Qıratın dövranı,
Bir daha çullanmaz, bala!

Bəla – sevincindən keçər,
Ömrün kərpicindən keçər.
Baxt odun içindən keçər,
Od üstdən tullanmaz, bala!

Demə ki, göylər enəcək,
Demə günəşi sönəcək.
İnsan gedirsə, dönəcək,
Heçliyə yollanmaz, bala!

Bura yoxuş, ora düzən,
Qatışıb gecə gündüzə.
Ağıl dəryasında Üzən
Hər balıq pullanmaz, bala!

Sonu, əvvəli olmasa,
Dərddən qüvvəli olmasa,
Ağıllı dəli olmasa,
Dünya ağıllanmaz, bala!
01.06.1999

## AXTARIRAM

*Ürəyi gül kimi təmiz,*
*Mənimçün həmişə əziz –*
*Əziz Axundova – gözəl*
*tələbə dostumuza!*

Daha dünya öz yolunu unudub,
Dərd tonqalı göz yaşımı qurudub.
Dövran mənim gözlərimə tor tutub,
Yanar çıraq axtarıram, ay Əziz!
Nəyə baxsan qaranlıqdır bir yanı,

Kimə baxsan bir dərdi-sər giryanı!
Bəlkə xəlvət dəyişiblər dünyanı,
Mən durub haqq axtarıram, ay Əziz!

O günlərin gül üzünü ver mənə,
Gecəsini, gündüzünü ver mənə.
O günlərin ən pisini ver mənə,
Soraq-soraq axtarıram, ay Əziz!

Elə bilmə ocağımız gurlaşıb,
Elə bilmə gözlərimdə nur daşıb.
Gördüyümüz o ocaqlar cırlaşıb,
Təzə calaq axtarıram, ay Əziz!

Hər sevginin bir çiçəkdə gözü var,
Hər sevginin qayası var, düzü var.
Bir ağacda sevgimizin izi var,
Budaq-budaq axtarıram, ay Əziz!

İl dalınca ağır-ağır il gəlir,
Namərdlərin səsi yaman zil gəlir.
Sən gördüyün bulaqlardan lil gəlir,
Təmiz bulaq axtarıram, ay Əziz!

Yaman gəlir bu dövranın avazı,
Kara gəlməz min möminin duası,
Haldan düşüb zəmanənin libası,
Mən də yamaq axtarıram, ay Əziz!

Duman ola, keçib gedə bu möhnət,
Tale bizə nə ruh verir, nə möhlət.
Təmizlik ver, nə var-dövlət, nə şöhrət,
Nə kef-damaq axtarıram, ay Əziz!

İnsan ömrü bir taledi, qədərdi,
Ümidsizlik ölümdən də betərdi.
Mənə dərman bir dərd var ki, bu dərdi
Səndən qıraq axtarıram, ay Əziz!

Vaxta nə var, biz astagəl, o çevik,
Alışsaq da, ərisək də, bütövük.
Ayrı-ayrı tüstülənən kösövün
Bir gur ocaq axtarıram, ay Əziz!

Saf çeşməsən, hara axsan gül, çəmən,
Ürək həmən, gülüş həmən, söz həmən.
Ancaq bil ki, bu dünyada səni mən
Səndən qabaq axtarıram, ay Əziz!
17.10.1999

## ÇƏRÇİVƏ

Kök üstdə yeri var neçə budağın,
Durur bir çevrədə baba, nəvə də!
Həmişə narahat, həmişə dalğın,
Çırpındıq, dolandıq bir çərçivədə.

Sükunət ürəyi yeyən nüvədir,
Özün öz içinjə daldalanırsan.
Bu dünya özü də bir çərçivədir,
İçində darıxır, sıxılır insan!

Dünya bir çevrədə dolandığıyçün,
Dolanıb təzədən qayıdır zaman.
Dünya bir dövrədə fırlandığıyçün
Vaxt haman, taxt haman, talelər haman.

Dəniz dalğalarla daşlar sahilə,
Dartınıb can atır göylərə zirvə.
Qızıl haşiyədə qalsa lap belə,
Cansız bir şəkli də sıxır çərçivə.

Hayana baxırsan, sərhəd, çərçivə,
Çərçivə içində bir can neyləsin?
Məhəbbət çərçivə, nifrət çərçivə,
Çərçivə içində insan neynəsin?

Aşkarda, xəlvətdə bir lal çərçivə,
Qanunlar boyuna biçilir insan.
Düşüncə çərçivə, xəyal çərçivə,
Qısıb öz-özünü, kiçilir insan.

Çevrəyyə sığınan bir nüvəyə bax,
Elə bil çərçivə göyə dirənmiş.
Sonsuzluq içində çərçivəyə bax,

Demə sonsuzluğa bu da gərəkmiş.

Arzular, diləklər düzülür səfə,
Çərçivə içində ürək təntimiş!
Beşikdən məzara yollar çərçivə
Məzarın özü də çərçivə imiş!

Dalğalar çırpınıb aşır sahilə,
Aşırmaq istəyir, yıxmaq istəyir.
Dünya milyon illər dolanır belə,
Bəlkə çərçivədən çıxmaq istəyir.

Biz sevgik həyatı hey ehtirasla,
Qönçələr açılır gül həvəsindən.
İnsan ölüb-getmir dünyadan əsla,
İnsan çıxır ömrün çərçivəsindən.

Gördüm aclığı da, susuzluğu da,
Çərçivə bir ömrü yeyən güvədir.
Vallah, istəmirəm sonsuzluğu da,
Sonsuzluq özü də bir çərçivədir!
01.06.1999

## ARXAYIN-ARXAYIN

Getmə sevgisiz bu yolu,
Haşa, arxayın-arxayın.
Gedir bu yolun bir qolu
Qışa arxayın-arxayın.

Xam olduq ömrümüz boyu,
Yol boyu qazılır quyu.
Özü çırpılır çay suyu
Daşa arxayın-arxayın.

Asan doğular arzular,
Bərkə düşdümü, sarsılar.
Amandır, axmasın sular
Başa arxayın-arxayın.

Gəlməz bu sevgi çiçəyə,
Sevgi bölünməz itkiyə.

Tapşır ömrünü sevgiyə
Yaşa arxayın-arxayın.

Bu yol hey gedib, bitməyib,
Bu yolun səmti itməyib.
Sevgi özü də yetməyib
Başa arxayın-arxayın.
12.06.1999

## AZADLIQ

Otağıma dolan bahar küləyi,
Elə bu dünyanın özü – azadlıq.
Min-min əsrlərin arzu, diləyi,
Min-min ürəklərin sözü – azadlıq!

Vaxt olub, dirənib ağzım yoxuşa,
Yaşıl çəməndə də mən bezikmişəm.
Budaqdan havaya uçan bir quşa,
Uşaqkən nə qədər həsrət çəkmişəm.

Arzulardan qəlbin harayçıları,
Təsəllisiz ömrü xəzan bilmişəm.
Eldən-elə köçən qaraçıları,
Dünyada ən xoşbəxt insan bilmişəm.

Gəl otur bir qaya daşının üstdə,
Bax mavi göylərin dərinliyinə.
Fikrin azaddırsa, başının üstdə
Cəllad da dayansa, azadsan yenə.

Həsrət özü səni silkələmirsə,
Ürəyin yaxşını, yamanı seçməz.
Ürək azadlığı dərk eləmirsə,
Min tərif də desən, ürəyə keçməz.

Dərdsizlik ürəkçün təmizlik deyil,
Könüllər oxuyar dərdli gündə də!
Azadlıq dərdsizlik, qəmsizlik deyil,
Azad olmaq olar dərd içində də!

Azadlıq gül kimi üzünə gülsə,
Ən gizli duyğuya gur işıq düşər.

Köksündə ürəyin azad deyilsə,
Dilində sözlərin dolaşıq düşər.

Hər baxtın, taleyin elçisi olmur,
Azadlıq bir elin haqqından doğar.
Azadlığın ayrı ölçüsü olmur,
Hər qəlbin özünün azadlığı var.

Azadlıq sayılmaz hər saxta şadlıq,
Bağban hər ağacın barını dərməz.
Göydən səpilsə də yapma azadlıq,
Qara torpaqda da bitib göyərməz!
O xalqa gərəkdir, xırda dərdə yox!
Odun hərarəti köz içindədir.
Azadlıq bayraqda, nəğmələrdə yox,
Azadlıq ürəyin öz içindədir!

Şirin xəyallarda könül uyuyar,
Qundağın içində böyüməz çağa.
Yapma azadlığın sözü böyüyər,
Özü xırdalanıb düşər ayağa.

Duyur ləzzətini ömür, ömürsə…
Haqqını zori lə alır azadlıq.
Ürək qəbul edib həzm eləmirsə,
Tıxanıb boğazda qalır azadlıq.

Azadlıq nemətdir, azar da görsə,
Barını min yerə bölə bilər o!
Əgər harınlara yedirdilərsə,
Yazıq kasıblara dedirdilər o!

Azadlıq yaranır, hazır doğulmur,
İşıqtək nur saçır baxt gündüzündə.
Azadlığı heç vaxt gizlətmək olmur,
Hopur damarına, yanır gözündə.

Nə xeyri, bir könül abad olmasa?!
Onsuz cəhənnəmdir şirin yuxu da!
Ürəklər, diləklər azad olmasa,
Yalandır Vətənin azadlığı da!

Azadlıq ən şirin ömür neməti,

Nə bazarlıq olur, nə satdıq olur.
Bütün ürəklərin odu, qeyrəti,
Bir yerə yığılsa, azadlıq olur!
07.06.1999

## AY SƏHƏR YELİ

Sənin ixtiyarın məndən ziyadə,
Yox qoruq-qaytağın, ay səhər yeli.
Titrəyir əlimdə sonuncu badə,
Bu yoldan gəl saqın, ay səhər yeli!

Gəl uyu könlümün qəm mənzilində,
Oyna gözəllərin qıvrım telində.
Sevgi havasında, sevgi dilində
Oxuyur dodağın, ay səhər yeli!

Gəl aç qanadınla qapımı hər gün,
Bircə sevgidədir mənimlə fərqin.
Mənim könlüm kimi sən də didərgin,
Yox yerin, yatağın, ay səhər yeli!

Sındır xəyalımın sal buzunu sən,
Çək çöl nanəsini, yarpızını sən.
Açdın Füzulinin qapısını sən
Gördün qəm otağın, ay səhər yeli!

Ömrü şərbət kimi içə biləydim,
Dərdi zəmi kimi biçə biləydim.
Sən keçən yerlərdən keçə biləydim,
Olaydım ortağın, ay səhər yeli!

Əzizsən, məhrəmsən sən şəhərimdə,
Mənim həm gecəmdə, həm səhərimdə.
Əs mənim həmişə həndəvərimdə,
Ürəyimə yaxın, ay səhər yeli!

Bu tora gah yosun, gah balıq düşür,
Hər ömrə bir kərə ucalıq düşür.
Sən hardan biləsən qocalıq düşür,
Tökür qaş-qabağın, ay səhər yeli!

Sürünən insandır, illər sürünmür,
İllər gedib bir də geriyə dönmür.
Ömür də sənin tək gözə görünmür,
Köçür axın-axın, ay səhər yeli!
12.06.1999

## BU ÖMÜR DEDİYİN

Gəldi-gedərdisə, ömür qəribdir,
Hər aya, hər günə qəm süzülübdür.
Bu ömür yolları bir kövrək ipdir,
Üstünə min dənə dərd düzülübür.
20.06.1999

## QARANLIQ QORXUDUR, AMMA…

Salır bu qaranlıq xəyalı bəndə,
Ən soyuq ürək də oda bələnir.
Qaranlıq qorxudur, axşam düşəndə
Adam evində də vahimələnir.

Ürək alışmasa əgər sinəndə,
Qaranlıq köksündə çox çətin dözər.
Qaranlıq qorxudur, işıq sönəndə
Elə bil şübhəylə baxır göz-gözə.

Qaranlıq otaqda insan yatanda,
Elə bil asılır sinəndə bir daş.
Qaranlıq dəhşətdir, günəş batanda
Dünyanın rəngləri itir başabaş.

Qaranlıq müsibət, qaranlıq zülm,
Zülmətdə gizlənr çox vaxt şər ancaq.
Qaranlıq dəhşətdir, qaranlıq ölüm,
Qaranlıq axtarır canilər ancaq.
Gecələr bir qayğı, həsrət, intizar,
Fikir zirvəsinə yetirir bizi.
Qaranlıq qorxudur, qaranlıq məzar
İşıqlı dünyadan itirir bizi.

İnsan qaranlıqda doymur arzudan,

Üzülə-üzülə vaxt gəlib gedər.
Amma sevgililər görüşən zaman
Qaranlıq şirindir işıqdan betər.

Qaranlıq gecədir xəyal yeri də,
Demə ki, qəlbimi qaranlıq sıxır.
Elə ən işıqlı fikirləri də,
Dünyada qaranlıq gecələr doğur.

Qaranlıqda elə işıq yatar ki,
Min il də oyanmaz, yuxulu olsa.
Du dünyada elə işıq da var ki,
Qaranlıqdan daha qorxulu olar!
21.07.1999

## HƏLƏ VAR DEYİL

Sən əvvəl şum idin, malalanmısan,
Daş idin, daş üstdə qalalanmısan.
Gül kimi açılıb cilalanmısan,
Meyvənin çiçəyi hələ bar deyil!

Hər ürək min dərdin nişanəsidir,
Qəm özü məhəbbət işarəsidir.
Qəm-kədər həyatın nişanəsidir,
Hələ qəm eləmək ahu-zar deyil.

Gücü ürəkdədir biləklərin də,
Pərvaz qanadı var diləklərin də.
Səmti, nişanı var küləklərin də,
Xəzri də xəzridir, gilavar deyil!
Basıb dərdlərimin üstünə bir daş,
Sən necə olarsan bəs mənə sirdaş?!
Canavar gücünə güvənmə, qardaş,
Candır insan oğlu, canavar deyil!

Bəzən həqiqətdən şirindir röya,
Sən daşa dönəndə mən döndüm suya.
Dünya sənə dardır, mənə bu dünya
Lap ürəyim boyda olsa, dar deyil!

Darda mən sınaram, sən əyilərsən,
Mənim sınmağıma baxıb gülərsən.

Var nədir, yox nədir, sən nə bilərsən,
Sənin var bildiyin hələ var deyil.

Qəlbimdən keçənə gözsüz baxıram,
Doğru söz deyənə sözsüz baxıram.
Sənin qorxduğuna mən düz baxıram,
Mənim ar bildiyim sənə ar deyil!

Sevgidən yoğrulub xəmrim də əlbət,
Eşqim ürəyimdə yanmadı xəlvət.
Ən böyük dövlətim, varım məhəbbət
Kim deyir haqq mənə havadar deyil.

Min insan xisləti, arzu çeşidi,
Kim udar, uduzar, tale işidir.
Qəlbindən nə keçir, allah işidir,
Göylərin qulağı, qardaş, kar deyil!

Ağasən sevgiyə könül bağlayıb,
Yaş ötüb, könlünü uşaq saxlayıb.
Yıxılıb, büdrəyib, yanıb ağlayıb,
Amma el içində hələ xar deyil!

12.06.1999

## PALIDIM, AY PALIDIM!

Başın üstdə
buludlar
göylərimin
yelkəni,
Yollar ömür
yükünün,
qayğıların
örkəni.
Xalça kimi
yoluma
döşənən tünd
kölgəni
Kölgələrin
içində tanıdım,
ay palıdım!

Tənhasan,
uzaqdakı
kolumu
gözləyirsən?
Yağışmı
gözləyirsən,
dolumu
gözləyirsən?
Yol üstündə
dayanıb
yolumu
gözləyirsən,
Dövrəndəki
havanı mən
udum, ay
palıdım!

Solub,
göyərəcəksən
bu dünya
sayağımı?!
Torpağa enən
kökün
dünyanın
dayağımı?
Bir zəhərli
tikanla
qanayan
ayağımı
O məlhəm
yarpağınla
sarıdım, ay
palıdım!

Sən yuxuma
girirsən hər il
payız gələndə,
Torpağına
sığınar yaşayan
da, ölən də.
Bir ürəksiz
kölgənə sərilib
dincələndə,

Ürəksizi min
kərə darıdım,
ay palıdım!

Haçan könlüm
bulandı, səni
gördü, duruldu,
Gözəllik
olmayan da
yollarımız
yoruldu.
Haçan ki xəstə
düşdüm,
ümidlərim
qırıldı,
Həsrətinlə
əridim, zarıdım,
ay palıdım!

Dərdin varsa,
ver mənə, qoy
dərdimə
qarışsın,
Mənim
uşaqlığımdan
budaqların
danışsın.
Nəyim var ki
sonacan
alovlansan,
alışsın,
Bir atımlıq
barıtım!
Palıdım, ay
palıdım!

Sən durursan,
yarpağın dəyişir
zaman kimi,
Sən durursan
yol üstdə bir
tunc pəhləvan
kimi.

Qocalmazsan
dünyada əbədi
cavan kimi,
Gör mən necə
qocaldım,
qarıdım, ay
palıdım!

Qoy qaldırsın
göylərə o şax
qol-qanad məni,
Al ölümün
əlindən, götür
amanat məni.
Düşən yarpağın
kimi torpağına
qat məni,
Bəlkə bir
yarpağına
yarıdım, ay
palıdım!

28.04.1994

## DAĞ DİBİ OL SƏN

Nifrətin ağası, sevginin qulu,
Ömrünün-gününün sahibi ol sən.
Baxtsızı quyudan çəkib çıxardaq,
Bir haqq kəndiri ol, haqq ipi ol sən.

Gündüzün günü ol, axşamın şamı,
Haqqın bələdçisi, nahaqqın xamı.
Könül dünyasının müdrik xəyyamı,
Tamah dünyasının rahibi ol sən.

Dərdə bir dərd verən cilvə olunca,
Daş ol, qar olunca, girvə olunca.
Bir qarlı-sazaqlı zirvə olunca,
Çəmənli, çiçəkli dağ dibi ol sən!
12.06.1999

## KÖÇMƏLİ İDİ

Dünya ki belə fırlanır,
Quş olub uçmalı idi.
Bu qədər ki, ömür yanır,
O, işıq saçmalı idi!

Hər şey canına yatsaydı,
Hər dərdi dərdə qatsaydı,
İnsanı çox yaşatsaydı,
Sirrini açmalı idi.
Belədir dövri-binadan,
Ayırmır ağı-qaradan.
İnsan ki, doymur dünyadan,
İnsanı qucmalı idi.

Dünya bizimlə kəc düşür,
Hər gün damına köç düşür.
Ona ki, belə güc düşür,
O, çoxdan uçmalı idi.

Torpaqdır torpaqda yatan,
Göyərir torpağa batan.
Ölən köçsəydi dünyadan
Yük ilə köçməli idi.

Torpaq canıma can verib,
Dünya arzuma kam verib,
Torpaq canıma qan verib,
Qanımı içməli idi.

Bu dünya qanana haydı,
Bu dünya qanmaza vaydı.
Yollar dünyadan aşsaydı,
Qəlbimdən keçməli idi!

03.05.1999

## SIĞIŞMAZ

Dağ ovulub, çöl düzünə yığışar,
Dağın sirri çöl düzünə sığışmaz.

Daldalanıb bir komaya sığışar,
İnsan oğlu öz-özünə sığışmaz.

Gələn günün bir ayağı sayalı,
Bir ayağı qara rəngə boyalı.
Bir gecənin bir pərişan xəyalı,
Dünyanın min gündüzünə sığışmaz.
Baxma dünya umsuq edər umanı,
Axıracan puç eləməz gümanı.
Bir ürəyin bir üzünün tufanı
Bir dünyanın bir üzünə sığışmaz.

Bu sulardan elə adam içir ki,
Nə yanğısı yoxa çıxır, nə çirki.
Ürəyimdən elə bir söz keçir ki,
Dilimin lap yüz sözünə sığışmaz.

Elə bir ki, nə bülbül var, nə gül var,
Nə haqq sözə arxa duran vəkil var.
Ürəyimin güzgüsündə şəkil var,
Bir Göy gölün güzgüsünə sığışmaz.

Tale ilə mən üzbəüz dayansam,
Baxtım yatar, mən çırpınıb oyansam,
Günahımı ha yontasam, ha yonsam,
Tərəzinin bir gözünə sığışmaz.

İzsiz-tozsuz getmək olmaz, əzizim,
Ürəklərdə qalacaqmı söz izim.
Hər nə qədər kiçik olsa öz izim,
Bir nəhəngin yol izinə sığışmaz.

15.04.1999

## NADANIN DİLİNƏ DÜŞMƏYİM YENƏ

Bir cüt bulaq axsa bir cüt gözümdən,
Çeşmələr üstündə təşnəyəm yenə.
Ürəyim arifdir mənim özümdən,
Ürəyim yanında heç nəyəm yenə!

Ürəyimdə bir az dərd ağıllanıb,
Mənim dəli dərdim bir az nurlanıb.
Üyüdür dərdimi dövran fırlanıb,

Dərdimin altında təknəyəm yenə.

Dərəyə əyilir yolun bir ucu,
Düşmüşəm bu yola mən axırıncı.
Koroğlu deyiləm çəkəm qılıncı,
Qırat da deyiləm kişnəyəm yenə.

İndi zil də mənəm, indi bəm də mən,
İndi sevinc də mən, indii qəm də mən.
Bənd-bərəm bağlanıb, üzülsəm də mən
Arx suyu deyiləm, çeşməyəm yenə.

Arxayınam küldə itən qorumdan,
Ölsəm, alov olub çıxar gorumdan.
Düşüb parçalanam daş uçurumdan,
Nadanın dilinə düşməyəm yenə.

Yanıb bu dünyaya od yayıram mən,
Yanıram, od ilə oynayıram mən.
Bu boyda gur odda qaynayıram mən,
Qorxuram gedəndə bişməyəm yenə!
16.04.1999

## BÜLBÜLÜM

Açılmayıb gözü hələ səhərin,
Nədir yenə bu hay-həşir, bülbülüm!
Mən illərə məhrəm olan kədərin,
Ürəyimi söküb-eşir, bülbülüm!

Məhəbbətin bu tarixi çox uzun…
Bu tarixi başa vurmaz çoxusu.
Dərddən-qəmdən təki bülbül oxusun,
Onda qəm də gözəlləşir, bülbülüm!

Tənha qalıb, ayrılmısan axından,
Oxu, bülbül, dünya yansın ahından.
Bir nadanın səsi gəlir yaxından,
Qulağımı yaman deşir, bülbülüm!

Bir də gözüm bir cüm gözə sataşsa,
Bir də sönməz daha könlüm tutaşsa.

Söz ürəkdə ha qaynasa, ha daşsa,
Yenə gəlib dildə bişir, bülbülüm!

Ha gündüzə, ha gecəyə baxırsan,
Ətir saçan gül-çiçəyə baxırsan.
Ha boylanıb gələcəyə baxırsan,
Keçən günün yada düşür, bülbülüm!

Hər könüldə bir bülbülün naləsi,
Hər çəmənin sinədağlı laləsi.
Min illərdir yox bu dərdin çarəsi,
Lap ürəyim dərddən şişir, bülbülüm!

Bu atəşlə mən sığmaram yuvaya,
Bülbül olum, bəlkə dözdüm cəfaya.
Qanadında qaldır məni havaya,
Göyə qaldır, yerə düşür, bülbülüm!

15.04.1999

## SARIL, SARMAŞIĞIM

Qoy görüm nə çıxır bu piyalədən,
Meydimi, neydimi məni lal edən?
Açıl qərənfildən, açıl lalədən,
Sarıl sarmaşığım, sarıl boynuma!

Sən daşa-dəmirə çox sarılmısan,
Ota, vələmirə çox sarılmısan.
Çox yaşıl ömürə çox sarılmısan,
Sarıl sarmaşığım, sarıl boynuma!

Sən hər əhli-kefdən sevgi umursan,
Baxıb hər tərəfdən sevgi umursan.
Sən otdan, ələfdən sevgi umursan,
Sarıl sarmaşığım, sarıl boynuma!

Sevginin çırağı, şamı da vardır,
Sevginin badəsi, camı da vardır.
Sevilmək həsrəti hamıda vardır,
Sarıl sarmaşığım, sarıl boynuma!

Sarılıb anaya körpə döş istər,

Şirin bal eşqinə arı iş istər.
Bir quru budaq da nəvaziş istər,
Sarıl sarmaşığım, sarıl boynuma!

Sevginin öz yolu, işarəsi var,
Yanmaqdan savayı nə çarəsi var.
Səndə bir qurbanlıq nişanəsi var,
Sarıl sarmaşığım, sarıl boynuma!

O gülün, çiçəyin üzü soyuqdur,
Demə ki, sevginin gözləri toxdur.
Təmiz məhəbbətin cavabı yoxdur,
Sarıl sarmaşığım, sarıl boynuma!

Dünyaya bu odla gəlib-gedirsən,
Dünya bilməyəni bilib gedirsən.
Sarmaşa-sarmaşa ölüb gedirsən,
Sarıl sarmaşığım, sarıl boynuma!

Gah duman qorxudur, gah bulud məni,
Ya mənə çarə qıl, ya unut məni.
Gəl sarıl boynuma, gəl qurut məni,
Sarıl sarmaşığım, sarıl boynuma!

Sinəmdə pərişan könül mülkü var,
Dərdin tarixi var, dərdin kökü var.
Boynumda bir ömrün ağır yükü var,
Sarıl sarmaşığım, sarıl boynuma!

25.04.1999

## KÜSDÜRÜB, SİNSİTMƏ ŞAİRİ, DÜNYA!

A dünya, özündən mənə bir xəbər,
Şairlər səninçün yanar sərasər.
Dərdimin çəkisi sənə bərabər,
Dərd ya xırda olsun, ya iri, dünya!

Bir yanım göyərir, bir yanım batır,
Bir gözün oyanır, bir gözün yatır.
Bir şair qəlbi də elə dünyadır,
Baxma ki, ayrıdıir zahiri, dünya!

Dərdini deməmiş, uzaqdan bilər,
Yananla alışar, gülənlə gülər.
Diriynən dirilər, ölənlə ölər,
Şair gah ölüdür, cah diri, dünya!

Əli əkindədir, başı biçində,
Bir allah gücü var onun gücündə.
Sakitcə dayanan insan içində
Həm quzunu görür, həm şiri, dünya!

Bir eli azdırar, yolu burulsa,
Dünyası dağılar, qəlbi qırılsa.
Ayaqdan oxlansa, başdan vurulsa,
Yenə ürəyidir dərd yeri, dünya!

Şairdir dünyanı dilə salan da,
Sultanın olan da, qulun olan da.
Şairdir səninçün dərdə qalan da,
İncitmə, sinsitmə şairi, dünya!

03.04.1999

## YAZI AÇILMAZ

İnsan nəşələnər, gülər, oynayar,
Elə düyün düşər, arzu açılmaz.
Bir sucaq altında çeşmə qaynayar,
Amma hər sucaqdan gur su açılmaz.

Həmişə insanın ayağı bərkdə,
Yol itsə, tərsinə əsər külək də.
Min arzu doğular nakam ürəkdə,
Yarsı qönçə qalar, yarsı açılmaz.

Qəlbindən od-alov saçılmayanın,
Özü-öz baxtına tac olmayanın.
Gün görüb, ürəyi açılmayanın,
Daşlar göyərsə də, yazı açılmaz.

15.04.1999

## KİMİN KİSƏSİNƏ NƏ DÜŞƏR-DÜŞƏR

Könüllər narahat, baş qarışıqdır,
Dilin təsəllisi boş danışıqdır.
Hamının gündüzü üzdən işıqdır,

Kimin gecəsinə nə düşər-düşər.

Bülbül şübhə ilə baxır yuvaya,
Yananlar inanmır xeyir-duaya.
Gülənlər yağışı qısır havaya,
Kimin küçəsinə nə düşər-düşər.

Gəzdi insan oğlu ömür boyunca,
Ömrü baxt əlində oyun-oyuncaq.
Biri saf çeşmədən içər doyunca,
Qalan neçəsinə nə düşər-düşər.

Ömür var, nə xeyri, nə şəri məlum,
Ömür var şəkəri, zəhəri məlum.
Üzüm giləsinin şəkəri məlum,
Üzüm cecəsinə nə düşər-düşər.

Şübhələr ürəyi ayırdı haqdan,
Keçdik qorxa-qorxa qardan, sazaqdan.
Dövrün köhnəsinə baxdıq uzaqdan,
Dövrün təzəsinə nə düşər-düşər.

Mən görən deyildir bu çəmən-çayır,
Üşüdür içəri, yandırır bayır.
Allah taleləri göydən tullayır,
Kimin kisəsinə nə düşər-düşər.

12.04.1999

## İNSAN ÖZ-ÖZÜNÜ DƏYİŞƏ BİLMİR

O vələs əyridir, bu əbrişim düz,
Naxışda əyridir, tar üstdə sim düz.
Kim əyri böyüyüb dünyada, kim düz,
İnsan öz-özünü dəyişə bilmir!

Binədən kökünü nəsə əyibdir,
Kimsə budağını zədələyibdir.
Əyrilik bəlkə də bilmir, eyibdir,
İnsan öz-özünü dəyişə bilmir!

Söz içdən köklənir, sinədən gəlir,
Dil çaşır, bilmirsən, bu nədən gəlir.

Dürüstlük, əyrilik binədən gəlir,
İnsan öz-özünü dəyişə bilmir!

Ha gizli saxlasan, göz bildirəcək,
Ha sakit danışsan, söz bildirəcək.
Addımın əslini tez bildirəcək,
İnsan öz-özünü dəyişə bilmir!

Başında min cürə xəyal olsa da,
Gözündə min dənə sual olsa da,
Susub bir məclisdə lap lal olsa da,
İnsan öz-özünü dəyişə bilmir!

Görür ki, bir işi kəmdi, dəyişir,
Görür ki, meydanı nəmdi, dəyişir,
Yolunu dəyişir, səmti dəyişir,
İnsan öz-özünü dəyişə bilmir!

İnsan öz əsliylə elə döyüşür,
Əslindən gen qaçır, söyür, söyüşür.
Bu boyda dünyanı qurur, dəyişir,
İnsan öz-özünü dəyişə bilmir!

Qondarma ağılan xoşdur dəlilik,
Çox şey bu dünyada üzdən yaxşıdır.
Vallah, kökdən gələn tərslik, əyrilik,
Baltayla yaranan düzdən yaxşıdır!

İnsan öz-özünü dəyişə bilmir,
Dəyişsə, zamanla döyüşə bilmir.
Elə dəyişməsə, yaxşıdı, vallah,
Əsl kök insanın naxşıdı, vallah!
04.08.1999

## SARI BÜLBÜLÜN

Elə bil çəməndə gül o gül deyil,
Ola bir nazənin yarı bülbülün.
Elə bil bülbül də o bülbül deyil,
Qalmayıb taqəti, karı bülbülün.

Boşalan bir ürək təzədən dolur,
Gün görür, sünbülə təzə dən dolur.

Gülə bax, xəzana can verib solur,
Can vermir eşqinə sarı bülbülün.
Hər yaşın hikməti il üstündədir,
Nifrət də, sevgi də dil üstündədir.
Bülbülün nəvası gül üstündədir,
Sevgidir dövləti, varı bülbülün.

Dağların qoynunda duman dəyişib,
Fikir haçalanıb, güman dəyişib.
Gülün təbiəti yaman dəyişib,
İtməyib abırı-arı bülbülün.

Qoşur naləsinə mənim naləmi,
Nəğməsi yandırıb-yaxır aləmi.
Tək özünün deyil bülbülün qəmi,
Yarı dünyanındır, yarı bülbülün.

13.04.1999

## ÇIXACAQ

Bir baxtsız qızıl quş olsan,
Yuvan da bərbad çıxacaq.
Bir dar körpüdə tuş olsan,
Qohum-qardaş yad çıxacaq.

Lap yolu sal quzeylərə,
Uyma bahalı şeylərə.
İmarət ucalt göylərə,
Divarları çat çıxacaq.

Əl vurma namərd ipinə,
İlişsə yemşan çöpünə,
Balı tök namərd küpünə
Ordan acı dad çıxacaq.

Bulud gəlsə göy üzünə,
Qoyma mərdin boyu sına.
Lap sala dərd quyusuna,
Arsız ordan şad çıxacaq.
Bu dünya baxmır arzuya,
Qurddan dost olmaz quzuya.
Pullu adamı at suya
Gör necə rahat çıxacaq.

Dər bir azca nəfəsini,
Gəl öldürmə həvəsini.
Verdiyinin əvəzini
Dünya ikiqat çıxacaq.
05.08.1999

## BU GECƏ
(Qəzəl)

Dərdimə ərk eləyib, dərdə sığındım bu gecə,
Dəli-divanə kimi dərddən uğundum bu gecə.

Güldən ötrü, demə sən, daş da dönüb bülbül olar,
Bülbül oldum, tikanın üstünə qondum bu gecə.

İşıq oldum ki, məni sındıra bilməz kədərim,
Qarışıb mən gözümün yaşına sındım bu gecə.

Dupduru çeşmə idim, dərd də bulandırdı məni,
Su soyuqdan donar, ancaq oda dondum bu gecə.

Neçə yerdən dəbərib, dərd yenə tərpətdi məni,
Tərpənib bir yaralı dərdə toxundum bu gecə.

Bir şirin nəğməyə döndüm, səsimi boğdu qəhər,
Sığınıb can evinə xeyli ovundum bu gecə.

Gecələrdən çox umub aşiq olanlar həmişə,
Bu gecəmdən, Ağasən, mən də çox umdum bu gecə.
06.08.1999

## GƏLƏCƏK

İmansız adamın qəm-qubarı yox,
İnanma imansız dinə gələcək.
Arzunun, umudun etibarı yox,
Sabah səndən qopub mənə gələcək.

Yolların dərədi, təpədi, bilmə,
Dünyanı istinad məbədi bilmə.
Təzə binaləri əbədi bilmə,

Sabah da bir təzə binə gələcək.

Özümdən hürkürəm rahat olanda,
Fikrim gah qaraquş, gah at olanda.
Dəqiqələr dönüb saat olanda,
Saatlar da dönüb günə gələcək.

İnsan kara gəlməz öz baxtı puçsa,
Dönüb tikan olar çiçəyi qucsa.
Bir quş ha ucalıb hündürə uçsa,
«Şığıyıb tordakı dənə gələcək».

Qorxmuram sinəmdən daş asılanda,
Qorxuram ümidim lap az olanda.
Biryolluq yazılır baxt yazılanda,
Demə ki, düzəlib yönə gələcək.

Daşdan-daşa dəyib sular durulur,
İnsan əlçatmayan gülə vurulur.
Fürsət əyri-üyrü yolla burulur,
Sanma ki, durduğun tinə gələcək.

Səhər də, axşam da könül havalı,
Hər şeyin dünyada var bir zavalı.
Günəşdir dünyada bircə vəfalı,
Gedəndə bilirsən yenə gələcək.

05.08.1999

## SƏBƏBİ BİLİNSƏ

Qəlbindən elə bir atəş qopar ki,
Dilinə çatanda dönüb buz olar.
Elə anlaşılmaz duyğu da var ki,
Səbəbi bilinsə, mənasız olar!

27.07.1999

## VƏTƏNÇÜN YAŞAMAQ GƏRƏK

Yaranan günündən ürək sevgidir,
Ona işıq gərək, ona haqq gərək.
Ürək çırpınarsa, demək, sevgidir,
Bir azca nifrət də daşımaq gərək!

Nifrətsiz məhəbbət müqəddəs deyil,
Vətən bir tanrıdır, adi səs deyil.
Vətənçün can verib ölmək bəs deyil,
Vətənçün can alıb yaşamaq gərək.
27.07.1999

## XIRDA GÖRÜNƏNDƏN QORXURAM YAMAN

Xırdalar iynənin gözündən keçər,
Ötər, qarışqanın izindən keçər.
Darıtək dizinin altına qoysan,
Görməzsən, sivişib dizindən keçər.
Kiçikdən, xırdadan aman, əl-aman,
Xırda görünəndən qorxuram yaman.

Bir milçək çatdadıb şiri öldürər,
Nəhəngi vecsizin biri öldürər.
Nadanın bir kiçik köntöv kəlməsi
Aqili lap diri-diri öldürər.
Üzür su üzündə xırda bir saman,
Xırda görünəndən qoruram yaman!
Baxanda saniyə bir göz qırpımı,
Amma saniyədən yaranır zaman,
Xırda görünəndən qoruram yaman!

Xırdaya dəymədik filə dönüncə,
Yağışdan qorxmadıq selə dönüncə.
Günlərə baxmadıq ilə dönüncə,
Xırda görünəndən qoruram yaman!

Keçib xırda-xırda yalan böyüdü,
Əjdaha olunca ilan böyüdü.
Gözümdən yayınıb qalan böyüdü,
Xırda görünəndən qoruram yaman!

Birinə gic deyib, baş qoşmamışıq,
Birinə bic deyib, baş qoşmamışıq.
Kiçiyə heç deyib, baş qoşmamışıq,
Xırda görünəndən qoruram yaman!

Xırda səs eləmir, xırda kiriyir,
Xırda yavaş-yavaş səni bürüyür.

Xırda yavaş-yavaş qana yeriyir,
Xırda görünəndən qoruram yaman!

Böyüyə nə var ki, açıq-aşikar,
Bilirsən nə zaman qudurar, qızar.
Amma xırdaların öz qorxusu var,
Xırda görünəndən qoruram yaman!

Zərrə-zərrə qalxır dağ boyda yük də,
Min bəla yaradar bir zərrə tük də.
Xırdadan yaranır elə böyük də
Xırda görünəndən qoruram yaman!

Gözü kor edənlər nəsə görünmür,
Çırpılır şillə tək üzə, görünmür.
Ən böyük bəlalar gözə görünmür.
Xırda görünəndən qoruram yaman!

Kiçik görünənə nəzarət qoyun,
Böyük dərdi-sərə hazırdır sinəm!
Xıra qorxulardan məni qoruyun,
Böyük qorxulara özüm zaminəm!

29.07.1999

## MƏNİM BOYNUMA

Ovutmaz göy məni, tutmaz yer məni,
Ovutmaz nə fikir, nə tədbir məni.
Adamlar içində sən say, gör məni,
Min bir dərd daşımaq mənim boynuma.

Yolda qismətimə düşən mini ver,
Yolun açarını, kilidini ver.
Sən mənə yaşamaq ümidini ver,
Lap min il yaşaaq mənim boynuma.

Gəl mənim ömrümə sən yaraşıq ver,
Ölümə acıq ver, dərdə acıq ver.
İynənin gözüycən mənə işıq ver,
Günəşə oxşamaq mənim boynuma.

Yoluma daş atıb, yoluma dəymə,

Açsın arzularım qoy düymə-düymə.
Könlüm ki, açıldı, könlümə dəymə,
Könlümdə kef-damaq mənim boynuma.

Eşqimin nə daşı, nə tikanı var,
Sinəmdə canımın şirin canı var.
Desələr allahın lap məkanı var,
Günahı baş-ayaq mənim boynuma.

Ancaq ürəkdədir dərdlərin kökü,
Bədən bir çəkidir, ürək bir çəki.
Təki xar olmayım, dünyanın yükü,
Lap hamıdan qabaq mənim boynuma.
29.07.1999

## ÖLÜMÜN ƏLİNDƏ DAHA NƏ QALDI?

*Dostum Bəxtiyarın əziz xatırəsinə*

Torpaqdan ucalan daş bu həyatın,
Gözlərdən süzülən yaş bu həyatın.
Dolu bu həyatın, boş bu həyatın
Ölümün əlində nə qalır daha?!

Baxtı başdaşına yazdıran həyat,
Ölümün yolunu azdıran həyat,
Ölümü torpaq altda basdıran həyat,
Ölümün əlində nə qalır daha?!

Oxunan duanı həyat eşidir,
Ölümü həyatın səsi üşüdür.
Nə iş görülürsə – həyat işiir,
Ölümün əlində nə qalır daha?!

Qəbrin dövrəsində iz – qalanların,
Qəbrin dövrəsində söz – qalanların.
Həyat eşqi yanan göz – qalanların,
Ölümün əlində nə qalır daha?!

Ölümün əlindən həyat sürüşür,
Məzarlar üstündə illər görüşür.
Məzar da bir həyat şəklinə düşür,
Ölümün əlində nə qalır daha?!

Bir insan ömründən pay udan həyat,
Ölümlə həyatı ayıldan həyat,
Təzədən geriyə qayıdan həyat,
Ölümün əlində nə qalır daha?!

Baxma ki, can yanır, sinə dağlanır,
Məzarla elə bil yer pardaxlanır.
Kəfənlə ölümün əli bağlanır,
Ölümün əlində nə qalır daha?!

Gələn yaz məzardan güllər göyərir,
Məzarın yanından əllər gül dərir.
Həyat gah gül açır, gah xəzəl sərir,
Ölümün əlində nə qalır daha?!

Baxma məzarüstü daş – çəpər olur,
Yerə düşən tumdan yer xəbər olur.
Məzar torpaq ilə bərabər olur,
Ölümün əlində nə qalır daha?!

01.08.1999

## TORPAQ

Torpaq bu həyatın, ömrün zinəti,
Torpaq diri gözlü, torpaq azadə.
Bir cür sifəti var, min cür neməti,
Yolları çalpaşıq, hikməti sadə.

Çoxları torpağa könül bağlımır,
Çoxları qudurub, kəm baxır ona.
Yiyəsi ölünü üç gün saxlamır,
Torpaqsa əbədi alır qoynuna.

Bizim günahları torpaq unudur,
Yarada-yarada dönüb allaha.
Bu torpaq o qədər qara baxt udub,
Özünün də üzü qaralıb daha.

Torpaq olmaz sənə qarın torpağı,
Bir ovuc dən verən bir dən yerinə.
Qürbətdə bir ovuc Vətən torpağı,

Səni ovundurar Vətən yerinə.

Fikrini həmişə çəkir qabağa,
Onun haqq-hesabı tər-təmiz çıxır.
Tərsəvand atırsan dəni torpağa,
Vaxtı yetişəndə əyri düz çıxır.

İnsanın bu qədər dəyanəti yox,
Əslini min illər saxlayıb yenə.
Heç vaxt əmanətə xəyanəti yox,
Nə versən, ikiqat qaytarar sənə.

Eşirsən-tökürsən, hay salan deyil,
Elə «həyat» deyib səni gözləyir.
Bircə qarış yerin bir payında gül,
Bir payında isə tikan bəsləyir.

Yorulsam, torpaqdan güc alar dizim,
Əlimin, qolumun qüvvəsi artar,
Nə belə ovsun var, nə belə tilsim,
Torpağa ölü at, diri çıxardar.

Ayaq altda qalan gen sinəsi var,
Gedən kim, gələn kim, fərqinə varmır.
Altında bir belə xəzinəsi var,
Özü lovğalanıb üzə çıxarmır.

Quru bir çubuğu safa çıxardar,
Gah şərbət yaradır, gah mey yaradır.
Torpağın möcüzə karxanası var,
Bu torpaq heç nədən hər şey yaradır.

Üstündə nə qədər gör el-oba var,
Altına nə qədər hələ köç olur.
Torpaq altında ki, bu zər-ziba var,
Nahaq deyirlər ki, ölən heç olur.

Sular buxar olub göydə dolanır,
Nə qədər ucalsa, enir torpağa.
Gah qara torpaqdan insan yaranır,
Gah da insan oğlu dönür torpağa.

Tutaq ki, söz ilə onu bəzədim,

Torpaq götürərmi əgər haqdısa.
Torpağı qiymətdə nəyə bənzədim,
Hər şeyi yaradan bu torpaqdısa?!

Torpaq görür, duyur, torpaq eşidir,
O da qiymət qoyur yaxşı-yamana.
Dünyada ən ağır ölüm işidir,
Onu da bu torpaq salır sahmana.

Daha mən ömrümün son baharıyam,
Bəlkə də bu ömrün axır səsiyəm.
Hələ ki, torpaqdan bir az ayrıyam,
Torpağa qovuşdum – göyərəsiyəm!

Hərdənbir torpaq da girir yuxuma,
Yaş ötür, mətləbi tez qanıram mən.
Nədənsə torpaqdan yarandığıma
Bu yaşda daha çox inanıram mən!
11.08.1999

## ƏYƏN ONSUZ DA ƏYƏCƏK

Çox baş aparma laf sözə,
Deyən onsuz da deyəcək.
Sən ver fikrini saf sözə,
Öyən onsuz da öyəcək!

Kimi heç bilir dünyanı,
Kimi boş bilir dünyanı.
Çoxu leş bilir dünyanı,
Yeyən onsuz da yeyəcək!

Bülbül vurulur çəmənə,
Can verir sevən sevənə.
Min nifrət eylə kəfənə,
Geyən onsuz da geyəcək!

İnsan bir möhnət qalası,
Ürək təzadlar talası.
Lap ol peyğəmbər balası,
Döyən onsuz da döyəcək!

Lap ver evsizə daxmanı,
Yedirt sonuncu loxmanı.
Lap ol bir elin loğmanı,
Söyən onsuz da söyəcək!

Mən öz yolumu gedirəm,
Təmiz yolumu gedirəm.
Mən düz yolumu gedirəm,
Əyən onsuz da əyəcək!
31.07.1999

## MƏNİM ÜRƏYİMƏ GİRƏYDİN, ALLAH

Tapındın hökmünə, sənə yar oldum,
Eşqinlə qışda da mən bahar oldum.
Mən dili neynirdim, dindim, xar oldum,
Dili ürəyimə verəydin, allah!

Həm sevgi gizlənir qəlbimdə, həm kin,
Nifrət də, sevgi də, ilahi, bir din!
Hər şeyi görürsən, səndən nə gizlin,
Səni görməyəni görəydin, allah!
Qəlbini bir kəsə verməyənləri,
Bir kəsin qəlbinə girməyənləri.
Ayağı altını görməyənəri,
Ayaqlar altına sərəydin, allah!

Dəhşətlər baş alıb gedir cahanda,
Qalır düz baxan da, əyri baxan da!
Mənim ürəyimdən ahlar çıxanda,
Mənim ürəyimə girəydin, allah!

Gör nələr yaradır nahaq haqq üçün,
Gör nələr yetirir aran dağ üçün.
Bir ömrün zülmündən baş açmaq üçün
Kaş bir insan ömrü sürəydin, allah!
1998

## HAMININ YOLU

İnsanları ancaq ümid bağlayır,
Xəyali bir ümid yeri – hamının.

Hər insan oğlunun öz yolları var,
Amma bu yollardan biri – hamının.
16.08.1999

## TORPAQ GÜCÜMÜZDÜR

Yerdir ancaq buludların gümanı da,
Sən deme ki, bulud Yerdən yuxarıdır.
Elə göyün yağışı da, tufanı da,
Yer üstdəki dənizlərin buxarıdır!

Göyün Yerə zaman-zaman minnəti var,
Zaman elə bu dünyanın axarıdır.
Göydə yanan karvan-karvan o ulduzlar,
Yer üzündə insanların ahlarıdır!
Torpaq qəlbin, torpaq eşqin, torpaq gücün,
Qalmaq üçün insan onda itməlidir.
Diz üstündə çökən insan qalxmaq üçün
Bir əli ni yerə dayaq etməlidir.

Dalğalanıb, göy dənizlər küləkləyib,
Qol-qanadsız yarpaqlar da uça bilib.
İnsan oğlu əvvəl Yerdə iməkləyib,
Sonra durub yer üstündə qaça bilib!

Dünən itən düşür yenə bu gün yada,
Qoca dünya nələr görüb bu günədək.
Torpaq, insan olmasaydı bu dünyada,
Allah gizli qalmazdımı xəzinətək!

Min qayğıyla ömrümüzə sədd çəkirik,
Düşünmürük gündüz dönüb gecə olar.
Göyə baxıb, başımızçün dərd çəkirik,
Ayaq altdan bəs Yer qaçsa, necə olar?
1998

## YOL AYRICI

Ən böyük borcumuz ömür borcudur,
Borc da qılınc kimi qından sıyrılır.
Ürəyimin başı yol ayrıcıdır,

Dünyanın yolları burdan ayrılır?

1998

## KÖNÜL

Mənimçün payız da, bahar da birdir,
Daha ömür keçir yarıdan, könül!
Olanım-qalanım bircə ömürdür,
Ömür gəlməyəcək ayrıdan, könül!

Ömür karvanını min xəyal çəkir,
Özüm intizarda, gözüm yol çəkir.
Zəhərli otdan da arı bal çəkir,
Gərək ibrət alaq arıdan, könül!

Həyatan hələ nə öyrənmişik biz,
Həmişə yanmışıq, göynəmişik biz.
Ömür yarı olub, neyləmişik biz,
Sən də mənim kimi bir utan, könül!

Arzunun hamısı birdən deyilmir,
Baş əyilə bilir, ürək əyilmir.
Bəzən bir nəfəri yarıda bilmir,
Bu boyda dünyanı yarıdan, könül!

Düşübsə saçıma dən də – alışım,
Düşübsə yolumuz bəndə – alışım.
Sən elə alış ki, mən də alışım,
Yaş da od götürər qurudan, könül!

Ömrünün yolları nəsə gedəcək,
Həyat ha tərəfə desə, gedəcək.
Adi yol deyil ki, kəsə gedəcək,
Ya da ki, aşasan barıdan, könül!

Dağlar da görünməz gecələr asan,
Dağda işıq yansa, seçilər asan.
Əgər odun varsa, tanınacaqsan,
Atəşdir adamı tanıdan, könül!

Yolları yollara arzudur qatan,
Həm işə imtahan gəlir qarşıdan.

Arzudur insanı belə yaşadan,
Həm də ki, qocaldıb-qarıdan, könül!

1995

## İŞIQ

*Əmim qızı Yaquta*

Aydınlıqda bir işığın,
Nə qiyməti, nə gücü var!
Ona görə işığı da,
Qaranlıqda axtarırlar!

İşığı qılıncla doğramaq olmaz,
İşığı zəncirlə bağlamaq olmaz.
İşığa dağ çəkib dağlamaq olmaz,
İşıq olmaq gərək, nur olmaq gərək!

Əllərim açılıb, guya azadam,
Özümə dünəndən bu gün çox yadam.
Suyun içində də bulanır adam,
İşığın içində durulmaq gərək!

Gecədə min sual, giley gizlənər,
Gecə ha çalışsa, gündüz dağılmaz.
Qaranlıq gecədə hər şey gizlənər,
Təkcə işıqdır ki, gizlətmək olmaz!

Min dünya yığılsa, Günəşsiz hədər,
O, dünya durduqca uludur bizə.
Min illik yol vardır Günəşə qədər
Günəşsə bir an da əl tutur bizə!

1975

## YOX İMİŞ

Neyləyim, baxt mənim yolumu burdu,
Doğrudan, yazıya pozu yox imiş!
Kimə bel bağladım, belimi qırdı,
Mənim çörəyimin duzu yox imiş!

Varı var gətirər, ha varam desək,
Tapdığın da itər, taparam desək.

Qismətin halaldır, yüz haram desək,
Qismətdən yuxarı ruzi yox imiş!

Namərdə söz dedim, namərd kefində,
Namərdlər görmüşəm dörd tərəfimdə.
Bir izim qalmadı namərd evində,
Bəlkə ayağımın tozu yox imiş!

Gizli əl yandırar baxt ulduzunu,
Qara gün ağarmaz ömrü uzunu.
Kim qoşa görübdür qurdla quzunu,
Görübsə, qurd görüb, quzu yox imiş!

Ən böyük tanrımız alın təridir,
Halal ev – könlümün səcdə yeridir.
Qəlbimə ha ümid saldım, əridi,
Qəlbim bir ad imiş, buzu yox imiş!

Pozma halal yola ibadətini,
Elə səadət bil bu adətini.
Hərə bir cür yozub səadətini,
Sən demə, heç onun özü yox imiş!

1998

## QÜSUR

Dünya bir meydandır, ömür bir haray,
Bəxtinə sığınır, bəxtdən küsən də.
Qüsur da bir paydır, qəribə bir pay,
Sənindir, istəsən, istəməsən də!

Qüsur var, haqqını bilən insanın,
Nahaq hökmlərə üsyan səsidir.
Qüsur var – dünyaya gələn insanın,
Dünyada əbədi nişanəsidir.
Qüsuru dünyada qazanır insan,
Açılmaz bir ipin çətin düyünü.
Qüsur var, insandan onu ayırsan,
İtirər bu insan bütövlüyünü!

Qüsur üstələyər bəzən zinəti,
İnsanın özüylə əkiz doğulur.
Hər kəsin sevimli bir təbiəti,

Hər kəsin sevimli qüsuru olur.

İki haqq dayağa söykənir insan,
Qüsurdur dayağın bir tərəfi də.
İnsanın özüylə çarpışmasından
Qalan nişanədir onun səhvi də.

Qüsur var insanın tam hakimidir,
Onu yoldan-yola çəkən səhv olar.
Qüsur var – ağacda düyün kimidir,
Kəsərsən ağacın özü məhv olar.

Yoldur yaxşılığa və pisliyə də,
Qüsurların üzü yaman bərk olur.
Qüsuru – ev yıxan acizliyə də,
Böyük qüvvəyə də çevirmək olar.

Qəribə xisləti vardır insanın,
Qəribə yollardan keçir arzular.
Elə kəm-kəsiri var ki, dünyanı
Düzəltsən, dünyanın hökmü pozular.

1998

## ENƏK QƏLBİMİZİN DƏRİNLİYİNƏ

*Bütün tələbə dostlarıma*

İlk insan xoşbəxtmiş, xoşbəxtmiş yaman,
Var bunun səbəbi, var niyəsi də!
Elə ki, özündən ayrıldı insan,
Başlandı bəşərin faciəsi də!

Az qulaq asmışıq ürəyimizə,
Bizdən də min hikmət üz döndəribdir.
Bunu bilmədik ki, təbiət bizə
Bizim qəlbimizi ustad veribdir.

Mənim yandığımı, göynədiyimi,
Ürəktək bir duyan tapılsa, nə qəm.
Ürəkdən bir anda öyrəndiyimi,
Min il min kitabdan öyrənənmərəm!

Yoldan-yola salar hey səni aqil,

Düz yol – ürəklərin öz buyruğudur.
İnsanın ən böyük düşməni ağıl,
İnsanın ən böyük dostu – duyğudur.

Ürəkdir ən əvvəl yanan halına,
Ürəkdən qananın çoxdur zavalı.
Cavab ver ürəyin bir sualına,
Açılsın dünyanın min bir sualı.

Ürək haray çəkib, qalxmışıq göyə,
Fikrimiz yorulub, usanıb ancaq.
Zilləyib gözünü məchul nöqtəyə,
Ürəklə danışan qazanıb ancaq.

Çox şirin xəyallar bizi uyudur,
Çox zaman ürəyi bir dindirən yox.
İnsanın ürəyi dibsiz quyudur,
Kim gedib, kim çatıb – xəbər verən yox!

Açılmaz üzünə bir nurlu səhər,
Yoxdusa ürəyi bir dahinin də!
Ürəyin səsini eşitməyənlər
Eşitməz səsini ilahinin də!

Ağıl bizi bizdən alıb aparır,
Çırpınan ürəyi salmırıq yada.
Ürək sinəmizdə fəryad qoparır,
Dəhşətlər yaradır ağıl dünyaya.

Ürəyin vəhy ilə eşitdiyini,
Yaddan çıxarmışıq, azmışıq ancaq.
Bizim duyğumuzun kəşf etdiyini
Ağlın hesabına yazmışıq ancaq!

Ürək ümman kimi çalxalanırsa,
Ürəyin nüvəsi göz içindədir.
Hər kəs ürəyinə arxalanırsa,
Hər kəsin allahı öz içindədir.

Hər sözü ürəkdə boğan insanın,
Görünür hər eybi, hər nadanlığı.
Ürəkdən kənara çıxan insanın
Başlanır mənəvi sərkərdanlığı.

Uymayaq biz ağlın sərinliyinə,
Qoşulaq ürəyin həvəsinə biz.
Enən ki, ürəyin dərinliyinə,
Ucalaq idrakın zirvəsinə biz!
1998

## YANIM-YANMAYIM?!

Necə yanmayasan, necə yanasan,
Ürəyin bir yana, sən bir yanasan.
Yanırsan – əriyib külə dönürsən,
Yanmırsan – qaralıb tüstülənirsən!
1998

## DÜŞÜR

*Əziz Firuzə bacımıza*

Bu dünya bir nərdivandır,
Biri çıxar, biri düşər.
İnsan qaçır irəliyə,
Ancaq ömrü geri düşər.

Daşdan ümid yaradarıq,
Dərd-qəmə də xiridarıq.
Min arzuya əl atarıq,
Payımıza biri düşər.

Ümid gərək könül üçün,
Pay saxlayır min il üçün.
Dağ olsan da, bir gü üçün
Tağ olarsan, yeri düşər.

Dünya baxtı belə bölər,
Biri ağlar, biri gülər.
Baxtı olan göydə ölər,
Ancaq yerə diri düşər.

Yollarında bu dünyanın
İzi qalmaz hər insanın.
Çiynində yük aparanın

Ayaq izi iri düşər!

1993

## İŞIQ – ÜMİD

Getməyək hər işıq gələn tərəfə,
Bəlkə tələ qurub namərd işıqdan.
İşıq dönə bilər əngəl-kələfə,
Sən demə, nə ziyan, nə dərd işıqdan!

Hər işıq yerindən sevinc ucalmaz,
İşıq var ki, ancaq yaraşığı var.
Bil ki, hər işığın ümidi olmaz,
Ancaq hər ümidin bir işığı var.

1993

## AXTARIN

Ölməmişəm, mən itmişəm dünyada,
Çöl-çəməni, dağı-daşı axtarın.
Əz üzməyin, bir gün düşsəm mən yada,
Ürəkləri yaxşı-yaxşı axtarın!

1989

## DAĞLARA

Əvvəlcə qar düşər uzaq dağlara,
Yaxşı dağlara da bir xəbər düşər.
Qışın zəhmi keçər bağça-bağlara,
Dumandan yollara bir çəpər düşər.

Qış dözüm öyrədər əzəldən dağa,
Ocaq qışa borclu, qış da ocağa.
Dağ elə öyrəşər qara-sazağa,
Dağın üzərinə bir təpər düşər.

Dağ mənə məlhəmdir qubar eyləsəm,
Ölmərəm, gülündən nübar eyləsəm.
Qışda da dağlara güzar eyləsəm,
Yadıma gülüzlü bəxtəvər düşər!

Dağ məni kövrəldər, dərd kəm olsa da,
Dağ mənə arxadır, dərd-qəm olsa da.
Bu dağlar nə qədər möhkəm olsa da,
Baxanda qəlbimə bir qəhər düşər.
Dağda gizli-gizli kövrəklik olur,
Bir yandan sökülür, dağ da uçulur.
Mən hələ doğmayam, gözlərim dolur,
Qəribin könlünə gör nələr düşər.

Torpağın dağıdır bəlkə də dağlar,
Gör neçə həsrətin dilini bağlar.
Dağların altında xəzinələr var,
Ancaq yadımıza zirvələr düşər.

Könlüm qanad çalar dağ zirvəsilə,
Aranda gəzərəm dağ həvəsilə.
Mən ömür sürməsəm dağ həvəsilə,
Ömrümə şaxtalar, girvələr düşər.

1989

## SON BAHARIN SON GÜNLƏRİ

Ağaclar bir azca taqətdən düşüb,
Dağlara təzəcə duman-çən düşüb.
Yarpaqlar yarpaqdan bir az gen düşüb,
Meşələr başqa cür əlvanlaşıbdır.

Bağ-bağçanın arxı dönüb çay olar,
Yazın məstliyindən dünya ayılar.
Günlər köçür, – deyə yalçın qayalar
Düzülüb sıraya, karvanlaşıbdır.

Bir soraq yetişib elə-obaya,
Narahat quşlar var, sığmaz yuvaya.
Dərələr ağzını açıb havaya,
Yarğanlar bir az da yamanlaşıbdır.

Güllər var – ömürlük dağ-dərənindir,
Güllər var, qədrini bilsən, sənindir.
Qızıldan qiymətli otlar var indi,
Qalıb künc-bucaqda loğmanlaşıbdır.
Dəndən buğadında bir quş sozalıb,

Sevdalı bülbülün dili qısalıb.
Dağın ətəyində otlar qocalıb,
Zirvədə təzəcə cavanlaşıbdır.

Baxıb kövrəlirəm bu son bahara,
Vədə yetişəndə güc gəlmir kara.
Həyatın bir üzü çıxıb aşkara,
Həyatın bir üzü pünhanlaşıbdır.

1995

## İNSAFDIMI

Meşəbəyi at üstündə,
Kabab yanır od üstündə.
Atlas kimi ot üstündə
Od qalamaq insafdımı?!

Pöhrələri qulac-qulac,
Həzin-həzin ötür turac.
Bir igiddir hər bir ağac
Parçalamaq insafdımı?!

Torpaq bizə ana-bacı,
Dağlar baxır acı-acı.
Qubar çəkən qarağacı
Baltalamaq insafdımı?!

Palıd qopub, düşüb yerə,
Viran olub bu dağ-dərə.
Elin gözü görə-görə
El talamaq insafdımı?!

Könül qonub hər yarpağa,
Hər budağa can sadağa.
Maral gəzən bu torpağa
Qan calamaq insafdımı?!
Bağlar dönüb xəzəlliyə,
Çarə qalıb təsəlliyə.
Göz oxşayan gözəlliyə
Əl bulamaq insafdımı?!

Kimə deyim gileyimi,
Kimə açım diləyimi.

Mənim şair ürəyimi
Ovxalamaq insafdımı?!
1994

## TOXUNDUR ƏLİNİ TALEYİMƏ DƏ

Elə bilirəm ki, sənin əllərin
Daşa da toxunsa, daş da yumşalar.
Əllərin zərifdir, əllərin şirin,
Toxunsan, tikan da gül-çiçək açar.

Bəlkə əlin dəyib ürəyimə də,
Ürəkdə bu qədər yumşaqlıq olmaz.
Toxundur əlini taleyimə də,
Bəlkə taleyim də yumşalar bir az.
1989

## ÖMRÜMÜ

Hara getdim, məni çəkdi gözlərin,
Oda saldın çəkə-çəkə ömrümü.
Yolçusuyam bu dağların, düzlərin,
Yol gedirəm, tökə-tökə ömrümü.

İtirirəm, axtarıram yönünü,
Ömrüm-günüm hey dəyişir donunu.
Necə bilim əvvəlini, sonunu,
Doğramısan tikə-tikə ömrümü?..
1989

## PAMBIQ İÇİNDƏ OD

Gəzirəm eşqindən mən başılovlu,
Bir atəş qaladıq, yandıq içində.
Ürəyim yumşaqdır, eşqim alovlu,
Od da gizlənərmiş pambıq içində.
1989

## MƏNİMDİR

Ünvanı vardırmı son mənzilimin,
Bilirəmmi hansı yollar mənimdir.

Mənasız ötüşən illər ölümün,
Mənalı ötüşən illər mənimdir.
1988

## NİGARANÇILIQ

Taqətdən düşməzmi sevgisiz ürək,
Sevgilər azalır nədən get-gedə.
Şah təkcə şahmatda düşüb qalan tək
Sevgi də qalmasın təkcə nəğmədə.

Sevgi lalələrin qara xalıdır,
Bülbül çırpınmasa, açılarmı gül.
Sevgi ürəklərdə qorunmalıdır,
Sevgi muzeylərdə qorunan deyil.

Dinini, eşqini verən insanı
Mən özüm bir ikən dönüb min ollam.
Bəşərin ilkini qaytarın ona
Bəşərin sonuna zaman olaram.
1989

## ÖZÜNDƏN YÜKSƏKDƏ AXTARIR İNSAN

Göylərdən umuruq biz taleyi də,
Yerdə daş qoparır, dağ yarır insan.
Bəzən ayaq altda qalan şeyi də,
Özündən yüksəkdə axtarır insan!
1982

## XAM OLDUQ

Bu dünyada yana-yana şam olduq,
Yandıq – ancaq ölənəcən xam olduq.
1982

## ƏBƏDİ

Yaşamaq həvəsi çırağa dönür,
İşıq da əbədi, göz də əbədi.

İndi ki, insanlar torpağa dönür,
Demək, yaşayırıq biz də əbədi!
1982

## TORPAQ SÖKDÜRƏR

Niyə soyuq-soyuq gedib-gəlirsən,
Odsuz ürək səni necə dindirər?
Alış, yan, nə qədər yana bilirsən,
Qorxma, həddin aşsa, torpaq söndürər.
1983

## TƏZAD

Bu qoca dünyaya beşgünlük dedin,
Dünyadan yüz illik ömür istədin.
1981

## ŞÜBHƏ

Elə ki, meşəyə bir cığır düşür,
Axırda böyüyüb cığır yol olur.
Elə ki, ürəyə şübhə ilişir,
Bütün düşüncələr ona qul olur.
1983

## DÜNYANIN İŞİ

Dağlar sudan bezarlaşıb,
Boz səhralar suya möhtac.
Sərv ağacı aşıb-daşıb,
Qızıl güllər boya möhtac.
İllər var – qayğıdan doyub,
Günlər var – qayğıya möhtac,
Sən arzunun baxtına bax:
Onu doğan da ehtiyac,
Onu boğan da ehtiyac.
1983

## BİLİR

Çiçəyin ətrini, otun iyini,
Sən elə bilmə ki, nadanlar bilir.
Bu dünyada ömrün şirinliyini,
Ömrün acısını dadanlar bilir.
1980

## QARIŞSIN

Görürsən ki, illər bizdən soyuyur,
Heç olmasa, qoy könüllər alışsın.
Qəlbimizdə neçə arzu uyuyur,
Gəl, dil verək, dilə glsin, danışsın.
Duyğular da bir vaxt gələr, yorular,
Arzuların qol-qanadı qırılar.
İllərimiz, günlərimiz durular,
Qoy ömrümüz bir-birinə qarışsın!
1980

## YAŞAMAĞI ÖYRƏNİRİK

Bu dünyada
Sevinirik, ağlayırıq, göynəyirik.
Bu dünyada yaşamırıq,
Yaşamağı öyrənirik!
1980

## GÜNƏŞ KİMİ YANARAM

Ay insafsız, etibarın budumu?
Od vurulmuş küləş kimi yanaram!
Yerə vurdun – görəmməzsən odumu,
Göyə qaldır – günəş kimi yanaram!
1980

## BİR AN

Bir anın zəhmi də, hökmü də çoxdur,
Sən demə, an nədir, il var əlimdə.
Baxma an kiçikdir, ölçüsü yoxdur,
Həyat da sığışar ona, ölüm də!
1980

## ÜRƏK

Ürək bir zərrəni ümman edərdi,
Qəlbin çox diləyi, qəsdi örtülüb.
Ürək bu dünyada tufan edərdi,
Bəlkə ona görə üstü örtülüb.
1980

## YENƏ

Qalxırıq göylərin ənginliyinə,
Enirik dünyanın dərinliyinə.
Yenə özümüzə sığışırıq biz,
Necə qəribədir bizim ömrümüz?!
1985

## MƏHƏBBƏTİN DƏLİSİYƏM

Hamı bilsin bu dərdimi,
Bir afətin dəlisiyəm!
Söz-söhbəti şəkər kimi,
Söz-söhbətin dəlisiyəm.

Könlüm yanır dilim-dilim,
Həsrətiyəm ayın, ilin.
Ala gözün, şirin dilin,
Şux qamətin dəlisiyəm.

Məni məndən yaxşı görən,
Taleyimə yol göstərən
Bir dünyaya ağıl verən
Məhəbbətin dəlisiyəm.
1985

## BİR YERƏ DÜŞSƏ

Ömür pardaxlanır qızılgül kimi,
Gəncliklə ucalıq bir yerə düşsə.

Xeyir-bərəkət də daşar sel kimi,
Həvəslə bacarıq bir yerə düşsə!

Arzumuz uzundur, ömrümüz gödək,
Bu qoca dünyaya gəlmişik, gedək.
Ömür qan ağlayır viranələrtək,
Möhnətlə qocalıq bir yerə düşsə!

Ürək hər səs ilə bəhsə girişmir,
Can odsuz olanda ağıl da bişmir.
Ağıl imkan ilə bir yerə düşmür,
Gör nələr açarıq – bir yerə düşsə!
1985

## BİR ÜMİD GƏLİR ARXANCA

Yandır, sovurma külümü,
Külüm yandırar dilimi.
Ayrılıq əydi belimi,
Həsrət yükləyə-yükləyə!

Yollarına od tökürəm,
Allah bilir nə çəkirəm.
Yollar boyu dərd əkirəm,
Yolu ləkləyə-ləkləyə.

Qəm taxtından endir məni,
Bir sözünlə söndür məni.
Bir saz kimi dindir məni,
Dərdə kökləyə-kökləyə.

Mən mizrabam, sən telli saz,
Mən dünyayam, sən güllü yaz.
Ölüm də məni qorxutmaz,
Məni təkləyə-təkləyə.

Ümid var bir bağlı qonça,
Ümid var duvaqlı xonça.
Bir ümid gəlir arxanca,
İməkləyə-iməkləyə!
1999

## BAHAR

Təbiət oyandı qış mürgüsündən,
İlıq nəfəsindən dirçəldi torpaq.
Təbiət kövrəlib tökdü gözündən,
Ürəyi yuxalıb incəldi torpaq.

Dərələr səksəndi dağ sellərindən,
Dağların diləyi çöllərə çatdı.
Müqəddəs günəşin nur tellərindən,
Dünya min naxışlı ilmə yaratdı.

Xilqətə iki bənd nəğmə dağıldı,
Bir bəndi könlümdür, bir bəndi dünya.
Təbiət işvəli məşşatə oldu,
Gəlin taxtıı kimi bəzəndi dünya.

Yamaclar geyindi zümrüd donunu,
Bəzənib günəşlə görüşə çıxdı.
Çəmən ətirlənib açdı qoynunu,
Maral asta-asta örüşə çıxdı.

Göy otun içində gizləndi yollar,
Canından çıxartdı yorğunluğunu.
Düşdü ürəklərə şirin nağıllar,
Gizlədə bilmədi vurğunluğunu.

Bürüdü dünyanı çiçək qoxusu,
Meşələr dəyişdi pal-paltarını.
Tutdu bənövşəni bahar yuxusu,
Lalələr geyindi al paltarını.
Bu qoca dünyada yer-göy dəyişdi,
Təzədən biçildi torpağın donu.
Bu qoca dünyada hər şey dəyişdi,
Bir qaldı – dünyanın köhnə qanunu!

1985

## BƏDBƏXTLİK

Bədbəxtlik gələndə min cür yol bilər,
Gəldiyi yollara baxmaz gedəndə.
Gəlsə, bacadan da bədbəxtlik gələr,

Böyüyər, qapıdan sığmaz gedəndə.
1980

## ZORLA VERMƏK OLMAZ

Ey könül, alış, yan hər söz üstə sən,
Hər ürək istəməz hər dediyini.
Zorla almaq olar nəyi istəsən,
Zorla vermək olmaz istədiyini.
1980

## OĞUL VAR Kİ...

Yol yaxşı tanımır bəzən yolçunu,
Bəzən tikan bitər gül ayağında.
Oğul var, ödəyər bir el borcunu,
Oğul var, borc qalar el ayağında.

Vaxt olar laxladar kökü budaqlar,
Vaxt olar, dağ kimi durar dalında.
Oğul var, qolları bir eli saxlar,
Oğul var, qandaldır elin qolunda.

Döşənsən də elin əl-ayağına,
Qeyrətin yoxdusa, el baxmayacaq.
Oğul var, güc verər el ayağına,
Oğul var, ayağı ilişər ancaq.

Oğullar tanınar fırtınalarda,
Tufanın içində, Selin içində.
Dağ olsa, görünməz eldən kənarda,
Təpə də görünər elin içində.

Hər şey borclu olur öz dayağına,
Ayağını yerə basıbdı dağ da!
Oğul var ki, düşər el ayağına,
Elin başı olar çətin ayaqda.

Qucaqda gizlənən oğul gülüncdür,
Yox, insan həmişə qucaqda yatmaz.
Oğul – tək Vətənə güvənsə – heçdir,

Vətən oğullara güvənsə – batmaz!

«Sevirəm» deyənlər qalar qıraqda,
Vətən kimi sevsə – əsl kişidir.
Anasını sevər körpə uşaq da,
Ananı yaşatmaq oğul işidir.

Ana döşlərini uşaq oynadar,
Nə bilər ağ süddə var hansı rənglər.
Ana qucağında uşaqlar yatar,
Vətən qucağında şirlər, pələnglər.

Bizə oğul deyib, bizə yananın,
Qayğısı, köməyi birə-beş gərək.
Bizim nazımızı çəkən ananın,
Özünə min belə nəvaziş gərək.

Hələ axıracan oyanmamışıq,
Vətən möhtac qalıb köməyimizə.
Ana ətəyindən bəsdir yapışdıq,
Qoy ana söykənsin kürəyimizə.

Yollara günahsız qan calanıbdır,
Bir xalqın ürəyi oyulur yenə.
Vətən Babək kimi şaqqalanıbdır,
Vətən Nəsimitək soyulur yenə!

Kəsilib qol-qıçı, göynəyir Vətən,
Ona qollar gərək, qıçlar gərəkdir.
Qurbanlıq quzunu neynəyir Vətən,
Ona kəllələşən qoçlar gərəkdir!

1981

## UŞAQ İKƏN – BÖYÜK İKƏN

Vaxt oldu ki, gah alışdım, gah söndüm,
Düşündükcə gah sevincdir, gah da qəm.
Uşaq ikən böyüklərdən çəkindim,
Böyük oldum – uşaqlardan çəkinnəm.

1980

## HƏVƏSSİZ

Ölüm də, ömür də həyatın əmri,
Dağa da dirənsən, qoparar ölüm.
Həvəssiz-həvəssiz keçən bir ömrü
Həvəssiz-həvəssiz aparar ölüm.
1980

## SON BAHAR

Üç ayı ucaldır öz qüdrətilə,
Bu pərişan gözəl, bu pərişan qız.
Bahara bənzəməz təbiətilə
Son bahar adını qazanar payız.

Kamala yetişər hər şey yerində,
Xəzəllər altından gör nələr baxır.
Solan yarpaqların həndəvərində
Yüz cür allı-güllü meyvələr baxır.

Saralıb-solmağın özgə hüsnü var,
Dünyada hər qəmə zülm deməzlər.
Xəzəllər içində gülür budaqlar,
Hər xəzəl olana ölüm deməzlər.

Hikmətə nə var ki, vaxtın əlində
Bu gün bir daş olan sabah da zərdir.
Çovğunun, boranın gəlhagəlində
Bar verib yaşamaq – böyük hünərdir.
1980

## PİLLƏKƏNLƏR

Gələnin-gedənin diləyi bitmir,
Ay daş pilləkənlər, daş pilləkənlər.
Bəs niyə yandırıb, sizi əritmir,
Sizin üstünüzdə boyun bükələr.

Adam var, pillədə dağ görünsə də,
Bir diləyi yox ki, ürək tərpədə.
Gündə yüz pilləkən qalxıb-ensə də,

Qalır düşüncəsi bir mərtəbədə.

Bəzən can əridir, qol-qanad qırır,
Bəs eylər bir ömrü döndərmək üçün.
Kimini ucaltmaq üçün qaldırar,
Kimini qaldırar endirmək üçün.

1980

## BİGANƏLİK

Bu palıda ildırımlar batmadı,
Biganəlik necə yıxdı, görürsən?
Dağ suları, çay suyuna çatmadı,
Ürəyimi necə sıxdı, görürsən?

Bir sevdalı göz axtarır tər çiçək,
Könül umur, sevgi umur hər çiçək.
Gül üstündə tor qurubdur hörümçək,
Şeyda bülbül daha yoxdu, görürsən?

Bir bax görüm nə tarazdır dünyada,
Gör kimlərin kefi sazdır dünyada.
Sevən ürək necə azdır dünyada,
Ürəksizlər necə çoxdu, görürsən?

İnsaf, mürvət ürəklərdən yığışır,
Ürəklərə kin-küdurət sığışır.
Sevgililər bir-birinə baxışır,
Bu baxışlar nə soyuqdu, görürsən?

Bir ürəkdən o ürəyə körpü yox,
Söz deyilir, sədası var, zərbi yox.
Adamların bədəni var, qəlbi yox,
Başdan-başa bir uyuqdu, görürsən.

Gözlər sönən ocaq kimi görünür,
Bir tənha ev boz tüstüyə bürünür.
Daldakılar iplik kimi sürünür,
Öndəkilər bir qıyıqdır, görürsən.

Mən bilirəm hələ güllər təmizdi,
Təmizliyi damla-damla qəm üzdü.
Dünya özü bir baxımsız dənizdirr,
Ömür sınıq bir qayıqdı, görürsən.

Qəlbimizin dili batıb – ney olub,
Başımızın ağlı çaşıb – key olub.
Göz yaşımız yaddan çıxıb – mey olub,
Kim sərxoşdu, kim ayıqdı, görürsən.

Doğma yurdda yad ilanlar bəslənir,
Dodaqlarda yad havalar səslənir.
Layiqsizlər pul içində gizlənir,
Yaşamağa kim layiqdi, görürsən.

1999

## QƏRİBSƏYİRSƏN

Doğmalar gözündən uzaq olanda,
Yollara qar düşüb, sazaq olanda.
Dost ilə aranda bir dağ olanda,
Çiskində – dumanda qəribsəyirsən.

Öz səmtinə düşər daş atılanda,
Bulaqlar da azar yol tutulanda.
Söhbət yad olanda, söz yad olanda,
Öz doğma komanda qəribsəyirsən.

Baxdım üfüqlərə dağlar göründü,
Dərin dərələrə duman süründü.
Dağlar elə doğma, elə şirindir,
Gözünü yumanda qəribsəyirsən.
Saçda dən üşüdür, üzdə qırışıq,
Gözündə sozalıb, çırpınır işıq.
Hərdən ürəyinə ümid qarışıq
Bir həsrət damanda qəribsəyirsən.

Yaş keçir, baxırsan bir də özünə,
Bir eyib qoşursan hər ötən günə.
Sən vaxtdan umanda ar gəlmir sənə,
Vaxt səndən umanda qəribsəyirsən.

1986

## ÜRƏK İSNİŞİR

Ağır günün üzü bərk olduğuyçün
Dərdi-sər odunda tez bişir ürək.
Bəlkə sinəmizdə tək olduğuyçün

Hər cür dərdi-sərə isnişir ürək!
1986

## ETİRAF

Ürək sözüm gözdə olub,
Bağrım başı közdə olub.
Nəyim varsa, üzdə olub,
Boz dağların döşü kimi.

Səhra oldum, qar görmədim,
Kar baxtımdan kar görmədim.
Zillət çəkdim, bar görmədim,
Yandım manqal şişi kimi.

Nahaq könül yıxmamışam,
Öz donumdan çıxmamışam.
Min illərə baxmamışam,
Bir darağın dişi kimi!

Tikan üstdə gül bağladım,
Daş qapıya tül bağladım.
Mərd qadına bel bağladım,
Ömür sürdüm kişi kimi!

Sevincimi qəm hürkütdü,
Ömür gəlib məni ötdü.
Bu dünyada İşim getdi,
Bu dünyanın işi kimi!
1990

## SÖZ VAR Kİ...

*Can sözdür, əgər bilirsə insan,*
*Sözdür ki, deyirlər özgədir can.*
***Füzuli***

Söz də xam külçədir yandır dilində,
Zərrə-zərrə bişib, zərə tən olsun.
Söz quyu deyil ki, sənin əlində,
Yonduqca yoğnusun, daha gen olsun!

Sözün doğulması elə bir anlıq,

Sonra da naməlum bir taleyi var.
Quyu dərindisə, mütləq qaranlıq,
Əgər söz dərinsə, işıqlı olar.

Söz insan qəlbində görüklənən köz,
Ayrı yanğısı var hər çalarının.
Sənin öz qəlbində doğulsa da söz,
Yaşayar qəlbində başqalarının.

Dəyəndə zamanın daş zərbələri,
Sıxılıb ürəkdə qara qan olur.
Söz can qəlpəsidir, bu qəlpələri
Bir yerə yığanda yenə can olur.

Sözdə sehr olur, sözdə güc olur,
Bir dəniz söndürməz sözün odunu.
Can ağızdan çıxır, insan puç olur,
Söz ağızdan çıxır – dirildir onu.

Söz var ki, ürəkdə dustaq saxlanır,
Tapılmır söz qanan, qədirbilən də!
Söz var ki, bazarı yüz il bağlanar,
Yüz qat bahalaşar vaxtı gələndə.

Söz atəş, külü də çəkilən ahdır,
Yanır söz udan da, sözü deyən də.
Karlı söz bazarda elə matahdır,
İstəyən də alır, istəməyən də!

Sözün də üstünə duman, çən düşür,
Gözdən şimşək qopur ürək dolanda.
İnsan boğulanda taqətdən düşür,
Daha da güclənir söz boğulanda.

Könül boş otaqdır dünyada sözsüz,
Hər sözün canında qəm-kədər olur.
Ürəkdə yığılıb deyilməyən söz,
Xərçəng şişindən də beşbetər olur.

Sözə atəş verir qanı insanın,
Ocağın istisi közdə gizlənir.
Kökü, mahiyyəti, canı insanın,
Deyə bilmədiyi sözdə gizlənir.

Sözdür ən amansız, qadir hökmran,
Ondan həm qaranlıq, həm işıq qalıb.
Sözün ucbatından elə bir zaman
Babil qülləsi də yarımçıq qalıb.

Hər sözün içində bir cahan yatıb,
Sözü öz yerindən dövran tərpədər.
Allah bu varlığı sözlə yaradıb,
İnsan bu varlığı sözlə məhv edər!
1998

## NƏ QALDI

Gənclik ötdü bir yamaqlı çarıqda,
İndii bildim bu çarıqda nə qaldı.
Nişanədir əlimdəki yanıq da,
Yanan bilər bu yanıqda nə qaldı?!

Bircə ömrün başındadır hər oyun,
Öz ilkim var, öz ruhum var, öz boyum.
Can allahın, su dəryanın, güc suyun,
Öz adına bəs balıqda nə qaldı?!

Qəmsiz insan ömür-gündən nə dadıb,
Yalxı sevinc ömrümüzə nə qatıb.
Ağıl verib, səni insan yaradıb,
Umacağın bəs xalıqda nə qaldı?!

Uçan yerdə biz süründük, uçmadıq,
Gərəklini qol uzadıb, qucmadıq.
İli basıb, il üstündən sıçradıq,
Heç demədik aralıqda nə qaldı?!

Ömür keçib, arxasında il qalıb,
Arx quruyub, su yerində lil qalıb.
Axır bildik – yanğımızdan kül qalıb,
Heç bildikmi bu qalıqda nə qaldı?!
1998

## SÖZ

Söz ürəkdə doğur, qaynayır, coşur,
Bəzən doğulduğu binaya sığmır.
Ağıza sığışır, dilə sığışır,
Ağızdan çıxdımı, dünyaya sığmır!

## DƏRDİM-ÜRƏYİM

Nə vaxtım tarazdır, nə taxtım taraz,
Qəlbimdə, könlümdə nə var, demişən.
Ürəyim bəlkə də toxtayar bir az,
Onu qəm koluyla çəpərləmişəm.

## ZİRVƏ

Sən demə, anbaan ucalır başın,
Görürsən qəfildən yol haçalaşır.
Zirvəyə can atma, çox da qardaşım,
Zirvədə duranlar balacalaşır.

Uşaq da dayanır zirvədə bəzən,
Aparıb qoyaram daşı zirvədə.
Uca o kəslərə deyərəm ki, mən
Ayağı yerdədir, başı zirvədə.

Arsızdır qayğısız, kədərsiz olan,
Arsız dağ olsa da, şöhrəti heçdir.
Dağın ətəyindən xəbərsiz olan
Dağın zirvəsinə qalxsa da heçdir.

Buluddan yuxarı lap ucalsa da,
Yenə də torpağa sığışıb enir.
Qartal zirvələrdə qanad çalsa da,
Yem üçün gözləri yerə zillənir.

## YALAN-DOĞRU

Gün gecəni qovur, gecə gündüzü,
Yalanlar çox işıq saçır həmişə.
Yalanla açılıb bəşərin gözü,

Onunçün doğrudan qaçır həmişə.

Həqiqət o qədər dərd doğurur ki,
Fikir-xəyalımız çəkilir dara.
Həqiqət o qədər bizi yorur ki,
Gedib sığınırıq ağ yalanlara
2007

## LAP HƏYAT ZƏHƏRİ VERSƏN SƏN MƏNƏ
*(Ölümə xitab)*

Çox gəlib keçirsən sən yan-yörəndən,
Ay ölüm, tapmazsan mən istəyəni.
Lap həyat zəhəri versən mənə sən,
Razıyam, ay ölüm, gəl apar məni.

Bir zərrə bir həyat duyğusu versən,
Min illik bir həyat yuxusu versən,
Dəryaca sən həyat qayğısı versən,
Razıyam, ay ölüm, gəl apar məni.

Həyatın özütək başını qatsan,
Mənim tək həyatın ətrini dadsan.
Özünə bir damcı sevgi yaratsan,
Razıyam, ay ölüm, gəl apar məni.

Məzarım üstündə mən oda dönsəm,
Hər il açıb-solan bir ota dönsən,
Milyon ildən sonra həyata dönsən,
Razıyam, ay ölüm, gəl apar məni.
2007

## BİR ÜRƏK AĞLAYIR

Gör neçə illərdir odlu sinəmdə,
Bir ürək ağlayır səssiz-səmirsiz.
Özəyi dəmdədir, bəzəyi qəmdə,
Min bir sirr saxlayır səssiz-səmirsiz.

Həmdərddir mənimlə əzəldən bəri,
Nələri yaşadıq birgə, nələri?
Ömrümdən yaranan xatirləri,

Açıb varaqlayır səssiz-səmirsiz.

Mənim bu ürəyim dəryadı, gizli,
Sevgisi, nifrəti, həyatı gizli.
Arzusu gizlidr, fəryadı gizli,
Gizlində çağlayır səssiz-səmirsiz.

Canına bir qətrə sevda düşəndə,
Haqqa yetməyəndə, vaxt ötüşəndə,
Ömürdən küsəndə, gündən küsəndə,
Məni qucaqlayır səssiz-səmirsiz.

Yanıb sal daşlara bitişirəm mən,
İçində dərd olub yetişirəm mən.
Elə ki, özümdən gen düşürəm mən,
Məni soraqlayır səssiz-səmirsiz.

Yanıb külə dönmür, o hey yansa da,
Ümman bazları tək əgər donsa da.
O mənim sinəmə mismarlansa da,
Əriyir, laxlayır səssiz-səmirsiz.

Toxdadır kiriir çılğın könlümü,
Qaldırır göylərə vurğun könlümü.
Narahat könlümü, yorğun könlümü,
Dünyaya bağlayır səssiz-səmirsiz.

2007

## QƏRİBƏ TƏZAD

Bəzən şir yeminə urcah olur quş,
Çöl yanır, gör sular tələsir hara?
Var-varlı olana qismət olurmuş,
Xoşbəxlik – xoşbəxtlik qanmayanlara!

2007

## MƏNİ DÜNYA İLƏ BARIŞDIRIRSAN

Şəfəqlər çilənir əziz adından,
Şirinsən bir könül xatıratından.

Keçmisən dərdimin dəmir qatından,
Susmuş ürəyimi danışdırmısan.

Bir vaxt bilməmişəm xeyir-şərimi,
Hədər axtarmışam alın tərimi.
Közərib-qaralan ümidlərimi,
Məhrəm nəfəsinlə alışdırmısan.

Gecələr od-alov dolub yerimə,
Sən ortaq olmusan dərdi-sərimə.
İşıq gətirmisən gecələrimə,
Gecəni gündüzə qarışdırmısan!

Xətrini qəlbimə öz ruhum çəkib,
Min təmiz duyğunu bir duyğum çəkib.
Kotantək alnına qayğı şum çəkib,
Qibləgah alnını qırışdırmısan.

Sən demə, mələklər yerdə yox olub,
Göydəki mələk də yerdə doğrulub.
Yerdəmi, göydəmi sevgi çox olub,
Yerlə göyü belə yarışdırmısan.

Vardan yarımayıb yoxdan küsəndə,
Nahaqdan dərd görüb haqdan küsəndə.
Dünyadan küsəndə, vaxtdan küsəndə,
Sən məni dünyamla barışdırmısan.

Bu əyri dövranın düz üzü ol sən,
Atdığın addımın öz üzü ol sən.
Həmişə allahın əzizi ol sən,
Çünki haqq yoluna sən tuş durmusan.
2007

## HEÇ NƏYİM YOXSA DA

Soruş dərdlərimi birbəbir deyim,
Mənim dərdlə dolu can dəftərim var.
Nədən gileylənim, nədən inciyim,
Heç nəyim yoxsa da, dərdi-sərim var.

El məndən öyrənib qəm sevərliyi,
Özgədir qəmin də təzə-tərliyi.
Eşib dərddən tapır bəxtəvərliyi,

Mənim könül adlı bəxtəvərim var.

Böyüdüm, bərkidim qəm savaşında,
Axır qüdrətini gördüm yaşın da.
Məni gözləyən var yolun başında,
O kimdir, nəçidir, ta xəbərim var!
2007

## BU QOCA DÜNYANI NECƏ TANIYIM?!

Dərdimə dərd tutan könül sazı var,
Ürəkdə bir cürə, sözdə bir cürə.
Allahın güllərdə təcəllası var,
Qayada bir cürə, düzdə bir cürə.

Sözün ə ürəkdə söz taqəti var,
Sözün dünya dolu sədaşəti var.
Ocağın iki cür hərarəti var,
Alovda bir cürə, közdə bir cürə.

Ötən günahımı necə mən yuyum,
Dünyaya baxmamış necə uyuyum.
Bu qoca dünyanı necə tanıyım,
Xəlvətdə bir cürə, üzdə bir cürə?!
2007

## AÇILDI

Bahar gəldi, dolub qaldı buludlar,
Buldların şimşəkləri açıldı,
Ürəyimdə tonqal çatdı bu odlar,
Bu odların ləçəkləri açıldı.

Kirpiklərin naxış vurdu bu dərdə,
Atəş tutan baxışlara nə pərdə?
Çox şükür ki, səni gördüm bu yerdə
Xəyalımın çiçəkləri açıldı.

Bir günəşin odu qopur dodaqdan,
İndi sənə allah baxır uzaqdan.
Sən bəzənib elə çıxdın otaqdan,
Bir dünyanın bəzəkləri açıldı.

Sən göründün, qəlb unutdu dünyanı,
Gözəlliyin tamam unutdu dünyanı,
Üzun nuru elə tutdu dünyanı,
Bir dünyanın bəzəkləri açıldı.
2007

## İNSAN GÜNAHKAR

Fikir niyə bitmir dünya dardısa?!
Saç niyə ağarır arzu vardısa?!
Payızın özü də sonbahardısa,
Solan çiçəklərə xəzan günahkar.

Ömür bir qismətdən asılıbdısa,
Min arzu bir ömrə qısılıbdısa,
Taleyim əzəldən yazılıbdısa
Onda taleyimi yazan günahkar.

Tələsib yolları tez gedirəmsə,
Dilimdə yarımçıq söz gedirəmsə,
Haqq qoyan yolları düz gedirəmsə
Onda bu yolları pozan günahkar.

Qəlbimi açmağa mən qorxuramsa,
Düz sözü deyəndə karıxıramsa,
İnsanlar içində darıxıramsa,
Onda bu dərdimə insan günahkar!
2007

## QOCALIQ

Zirvəyə qaldırdı mənim ömrümü,
Qocalıq insanın ömrünə tacdır.
Cavanlıq ehtiyac olduğu kimi,
Qocalıq özü də bir ehtiyacdır.

Nə bilsin ki, nədir qulaq dincliyi,
Cavanlıq dağ seli, dağ sularıdır.
Qocalıq – qaynayıb-daşan gəncliyin
Ömrü tələsdirən arzularıdır.

Haqq olan bir yerdə qoca da xoşbəxt,
Mən yaşı heç zaman dərd bilməmişəm.
«Ax, namərd qocalıq» deməyək heç vaxt,
«Ax, namərd zəmanə» deyək həmişə.
2007

## YALANLAR – TALANLAR

Yalanlar çaşdırır bizi də tez-gec,
Yalan ömürlərə əbədi kölgə.
Bu qədər yalanlar olmasaydı heç,
Bu qədər talanlar olmazdı belə.
2007

## HEÇ KƏS ÖZÜ ÜÇÜN DOĞULMAYIBDIR

Arzudan doğulub dünyaya gəldim,
Sonra da arzular dönüb min oldu.
Ana diləyilə qalxdım, dikəldim,
Arzu kimin oldu, can kimin oldu!

Çoxundan xəbərsiz gəldim cahana,
Bir evin yolları uzandı, artdı.
Mənim gəlişimlə artdı bir ana,
Bir atanın ömrü kamala çatdı!

Gör neçə qohumluq adı yaratdım,
Bu əmi, bu dayı, bir də daha kim.
Ana laylasıyla yuxuya batdım,
Bir sevgi kəsildi ömrümə hakim.

Bələdəm dünyanın mən hər üzünə,
Bu dünya mənimlə şərikli oldu.
Bir yaş kağızı da yazdılar mənə,
Bir parça kağız da gərəkli oldu!

Özünə qalsaydı hər kəsin adı,
Ad da qoymazdılar insana heç vaxt.
Mənə ad qoydular, ad mənim oldu,
Onu başqaları çağırdı ancaq.

Tək mənim deyildir, bəli, ömür-gün,

Təkcə boğulardı avazım indii.
Əgər doğulsaydım tək özüm üçün,
Onda gözlər mənə nə lazım idi?!

Harda ulduz olub parlayırıqsa,
Biz də pay oluruq böyük niyyətə.
Harda özümüzü korlayırıqsa,
Bir zədə vururuq biz cəmiyyətə!

Bu insanlıq adı dərindi çox-çox,
Bu addan ayrılıb, qaçmaq çətindir.
Ad qoyulan gündən özümüzün yox,
Bizim varlığımız cəmiyyətindir.

2007

## QORXULU OLMAZ

Deyirəm, arzunun nazı olmasa,
Könüllər bu qədər yuxulu olmaz.
Deyirəm, dünyada arzu olmasa,
Ölüm də bu qədər qorxulu olmaz.

1995

## UŞAQ – DAHİ

Uşaq öz-özündən xəbərsiz gəzər,
Dahi öz-özündən uzaq kimidir.
Uşaq – sualıyla dahiyə bənzər,
Dahi – ürəyilə uşaq kimidir.

1995

## AĞIL

Dünyada idraka qoyulmaz yasaq,
Dənizlər çalxanar idrakımızda.
Hər şey xərcləndikcə azalar, ancaq,
Ağıl xərcləndikcə artar bir az da.

1998

## YARIMÇIQ

Axır arzu çayı bu qədər, yenə,

Dənizim yarımçıq, gölüm yarımçıq.
Söz ilə, köz ilə doludur sinəm,
Sözüm yarımçıqdır, dilim yarımçıq.
Üzüm gülə-gülə qəlbim hönkürüb,
Nə baxım, gözlərim gördüyüm görüb,
Mənim ümidlərim nə ömür sürüb,
Çiçəyim yarımçıq, gülüm yarımçıq.

Ən uzun tarixdir bir ömür yolu,
Hər ömür yolunda bir ölüm qolu.
Kədərə gələndə könlüm dopdolu,
Sevincə gələndə könlüm yarımçıq.

Torpaq çiçəklərin, göy ulduzundur,
Qəlbin söz-söhbəti xısın-xısındır.
Dərdi-sər tutmağa əlim uzundur,
Qismətə çatanda əlim yarımçıq!

Bu dünyanın işi ölümsüz ötmür,
Ölmün də heç hökmü axıra yetmir.
Torpağa basdırır bizi, göyərtmir,
Yarımçıq iş görür, ölüm, yarımçıq!
2007

## YAPIŞMAZ

Budaqlarım həşəm oldu, qurudu,
Calaq vursan budağıma yapışmaz.
Mən neynirəm indii daha bu odu,
Oda qatsam, ocağıma yapışmaz.

İndii mənə niyə elə baxırsan,
İllər dönüb geri baxar çağırsam.
Gülüşünü göz yaşımla yoğursam,
İnnən belə dodağıma yapışmaz.

Ötən illər dağ olubsa, çaparam,
Bircə günlük öz dünyamdan qoparam.
Cavanlığı mən birtəhər taparam,
Ancaq gəlib bu çağıma yapışmaz.
Qazancımdır, bundan sonra yaşasam,
Gərək daha ürəyimdən daş asam.
Bu dərd məni torpaq eylər daş olsam,

Torpaq olsam, torpağıma yapışmaz.
2007

## KEÇİR

Fırlanır, dolanır dünya narahat,
Zaman bir ümidin gücündən keçir.
Ölümə qisməti olmayan həyat
Sivişib qılıncın ucundan keçir.

Vaxt keçdi, bürünür dumana sağ, sol,
Hayana baxırsan – bir qaraltı kol.
Ölümdən qaçmağa yoxdur başqa yol,
Ölüm də həyatın içindən keçir!
1999

## BU DÜNYA

Bu dünyanın işi bir tapmacadır,
Hazır dəyirmandır təzə dən üçün.
Sən çox da demə ki, dünya qocadır,
Təzədən doğulur hər gələn üçün.

Gah dünya qocadır, gah könül qoca,
Bir yandan göyərir, bir yandan solur.
Başa düşməyəndən min-min il qoca,
Başa düşənlərin yaşıdı olur.
1999

## QIZILDIR

Nə var ki, insana torpaqdan yaxın,
Astarı qızıldır, üzü qızıldır.
Nə ağı, qarası axı torpağın,
Torpağın qarası, bozu qızıldır.

Dünyada nə desən, axtaran tapar,
Hər qaya daşından bir cür zər qopar.
Zərgər dükanında gərəksiz nə var,
Torpağı qızıldır, tozu qızıldır.

Hər nadan torpağın qədrini bilməz,

Torpaq hər gülənin üzünə gülməz.
Qızıla min ilə də ruzi deyilməz,
Ancaq torpaq verən ruzi qızıldır.

Bir dəndən bir ovuc gən gətirirsə,
Daşın da üstündə od bitirirsə,
Qızıl yetirirsə, bar yetirirsə,
Demək bu torpağın özü qızıldır.

Nə lazım dünyada mənə bər-bəzək,
İbrəti torpaqdan gətirən gərək.
Halal ruzi ilə dolana bilsək,
Süfrəmin çörəyi, duzu qüızıldır.
2007

## YOXDUR

Gözlərin könlümü salıbdı bəndə,
Tilsimi açmağa bir bəndə yoxdur.
Çalxandım, çırpındım qəm dənizində,
Sahilə çıxmağa yelkən də yoxdur.

Mənə dərd verərsən, mənsiz qalarsan,
Bəs sonda atəşi kimdən alarsan?!
«Dedim bir üstümə kölgə salarsan,
Elə büllursan ki, kölgən də yoxdur».

Dağları dolandım, yolu itirdim,
Ömür-gün yerinə həsrət gətirdim.
Tökdüm göz yaşımı, sünbül yetirdim,
Baxdım ki, üstündə bir dən də yoxdur.

Sevənlər atəşi canandan alar,
Canan da can alsa, yanandan alar.
Gözəllər can verər, sonra can alar,
Belə bir nişanə tək səndə yoxdur.
1995

## ARZU TAPMIRAM

Yaz elə dəyişib, heçə çıxıb ki,

Gül-çiçək içində yazı tapmıram.
Arzular o qədər puça çıxıb ki,
Arzu eləməyə arzu tapmıram!
1998

## YAXŞILAR – YAMANLAR!

Yaxşılar yamanın əlindən tutar,
Arada yamanlıq olmasın deyə.
Yamanlar yaxşının dilindən tutar,
Haqq sözü yadına salmasın deyə.

Qönçələr ayılar bülbül səsindən,
Qarğalar gen durar gül nəfəsindən,
Dağlar pay göndərər öz zirvəsindən,
Aranda çiçəklər solmasın deyə.

Yaxşı gün görsə də, yaxşı qudurmaz,
Namərd pis gündə də heç dinc oturmaz.
Yaxşılar yamandan aralı durmaz,
Araya bədgüman dolmasın deyə.

Yaman yoldan çıxar, yaxşı ar eylər,
Yaman bir söz deyər, eli xar edər.
Tanrı yaxşıları tezbazar eylər,
Yamanlar içində qalmasın deyə!
1998

## DAMCI-DAMCI

Bulud su olsa da, çay olub axmır,
Səpir başımıza göy damcı-damcı.
Od vurub biryolluq ürəyi yaxmır,
Yandırır ürəyi ney damcı-damcı.

İtirə-itirə yol gedir ömür,
Arzu haray salır, ürək kirimir.
Mey də damarlara birdən yerimir,
Hopur damarlara mey damcı-damcı.

Dünya haqq-hesabı bir əldə tutmur,
Mizan tərəzini zaman unutmur,

Şir də bir dönəyə ovunu udmur,
Didir öz ovunu ley damcı-damcı.

Əvvəl bir arzuya yar olmuşuq biz,
Haçandan-zaçana car olmuşuq biz.
Yoxdan damcı-damcı var olmuşuq biz,
Yox olub gedirik hey damcı-damcı.
1999

## NƏ HƏYATA, NƏ ÖLÜMƏ HAZIRIQ

Hər gələnə, hər gedənə yoluq biz,
Özgələrin ciblərində puluq biz.
Yad yanında başıbağlı quluq biz,
Hər əzaba, hər zülümə hazırıq.
El soyuldu, el qoyuldu qumara,
Dil deməkdən dilim döndü qabara.
Həm o yoldan, həm bu yoldan avara,
Nə həyata, nə ölümə hazırıq.
1999

## AXIR Kİ, ÖLÜM DƏ BƏXTİYAR OLDU

*Böyük şairimiz Bəxtiyar Vahabzadəyə*

Ölümlər yox idi insandan qabaq,
İnsan yaranandan ölüm var oldu.
Müdrik babaları uddu bu torpaq,
Dünya da bir müdrik ixtiyar oldu.

Şair yiyə çıxdı gör neçə dərdə,
Qalmadı haqq sözün qisası yerdə.
Yalana getmədi hey döysələr də,
Yalan onun üçün bir diyar oldu.

Döndü hər kipriyi yanar bir oda,
Yandı min həsrətə dəm tuta-tuta.
Xəyalı göylərdə döndü buluda,
Özü dağa döndü, başı qar oldu.

Səs aldı çayların qıjıltısından,
Fikri ayıq oldu dan ulduzundan.

Qəlbinin narahat pıçıltısından,
Zəmanə sarsıldı, dünya kar oldu.

Vaxt oldu, göylərdən həsrət töküldü,
Milyonların gözü ona dikildi.
Sözündən bir əsrin beli büküldü,
Dövrana üz tutdu, dövran xar oldu.

Şahı da tərpətdi onun şah sözü,
Savaba döndərdi min günah sözü.
Əvvəl onun qəlbi doğdu haqq sözü,
Sonra da dünyaya bu söz car oldu.

Haqqı, kişiliyi sözə o qoşdu,
Başının üstündən tufan sovuşdu.
Bəxtiyar şairlə ölüm qovuşdu,
Axır ki, ölüm də bəxtiyar oldu.
2009

## DALBADAL

Yamanı yol tapır yaxşıdan qabaq,
Namərdə tuş edir mərdi dalbadal.
Sən zalım fələyin insafına bax,
Sevinci bir olur, dərdi dalbadal.

Kim bilir nə umar, nə dilər fələk,
Sevinci bir anda dərd edər fələk.
Yarımçıq bir sevinc vəd edər fələk,
Onun da yüz ağır şərti dalbadal.
1999

## GİZLİ – AŞİKAR

Mən daha eşmirəm bu xəzəlliyi,
Xəzəllik altında bahar qəmi var.
Aşikar olmağın öz gözəlliyi,
Gizli qalmağın da öz aləmi var.
1999

## SƏHƏR AÇILMIR

Min xəyal sıyrılır qəm buludundan,
Dərdi-sər yeriyir, səhər açılmır.
Alışan tutaşan könlüm odundan,
Gecələr əriyir, səhər açılmır.
Ürəyim qabarır dar qəfəsindən,
Qorxuram ürəyin titrək səsindən.
Çəkdiyim ahların od nəfəsindən
Ulduzlar korüyür, səhər açılmır.

Yorğundur, məst olub sabahın gözü,
Ayırmaq çətindir dərədən düzü.
Çəkir məhkəməyə gecə gündüzü,
Cavablar kiriyir, səhər açılmır.

Başqadır gecənin çəkdiyi yollar,
Vaxtın, saatın da öz qanunu var.
Günəşin yoluyla coşqun xəyallar,
Hey məni sürüyür, səhər açılmır.

Könüllər umsunur, umur yarından,
Aran can istəyir zirvə qarından.
Xəlvəti tökülən göz yaşlarından
Gecələr çürüyür, səhər açılmır.

Uydurma təsəlli tutur qolundan,
Dərd sağından ötür, ümid solundan.
Həsrətin qarını şübhə yolundan
Gümanlar kürüyür, səhər açılmır.

Nə çoxdur dünyada qəm fiqurası,
Tapılmaz çarası, sızlar yarası.
Gör neçə taleyin, baxtın qarası,
Dünyanı bürüyür, səhər açılmır.

Gecəyə sığınan gizli ürəklər,
Tüstülü ürəklər, közlü ürəklər.
Sirli gecələrə sözlü ürəklər
«Hələ getmə» deyir, səhər açılmır.
2005

## MƏN NECƏ İNANIM

Mən necə inanım belə zalimə,
İçi yalançıdır, çölü yalançı.
Mən necə inanım belə alimə,
Əməli yalançı, dili yalançı!

Necə can tapşırım naşı loğmana,
Necə göz tapşırım çil-çirağbana.
Mən necə inanım belə bağbana,
Sünbülü yalançı, gülü yalançı.

Kimə can deyirsən, dönür talxaya,
Kimə üz verirsən, dönür darğaya.
Necə bel bağlayım belə arxaya,
Arxası yalansı, beli yalançı.

Özümdən özümə çatmır avazım,
Nəğmə qanmayana nəğmə nə lazım?!
Mən hansı gözəlin telindən yazım,
Saçları yalançı, teli yalançı.

İndii kimdən umum, umsunum daha,
Ova kar eləmir ovsunum daha.
Kimin ocağına qızınım daha,
Odu yalançıdır, külü yalançı.

Mənim bir rəngdədir çölüm-bayırım,
Hər nə var özüdür gülüm-çayırım.
Diriylə ölünü necə ayırım?!
Diri yalançıdır, ölü yalançı?

Yollar azdıracaq hayana getsəm,
Qanqal göyərəcək hayanda bitsəm.
Təbiətdən kənar nə səs eşitsəm,
Bəmi yalançıdır, zili yalançı!

2005

## İNSAN NƏFƏSİ

Yananı dağ qarı üşüdə bilməz,
Ürəyin könülsüz nəğməsi qədər.
Bir evi günəş də isidə bilməz,
Bir məhrəm insanın nəfəsi qədər.

2005

## DƏRD UYDURURUQ

Ötür dərdlərimiz ürəkdə dil-dil,
Dərddən könlümüzdə dünya qururuq.
Yaşaya bilmirik dərdsiz elə bil,
Dərd keçir, təzədən dərd uydururuq.

Möhnətdir şələmiz, dərddir yükümüz,
Dərdin bostanına kimdir daş atan.
Dərddən danışırıq min illərdi biz,
Görünür, insanı dərddir yaşadan.
2005

## GÖRÜNÜR

Arzularım bir vaxt sarı sim idi,
Ömür keçdi, nağıl oldu ümidi.
Xatirələr də ulduzlar kimidir,
Gün batanda qaranlıqda görünür.

Mənim baxtım yaman yerdə döndü, bax,
Mənim günüm sən sevdiyin gündü, bax.
Viran olmuş ürəyimə indi bax,
Xəzinələr viranlıqda görünür.

Ürəyimdə məbədi var sevginin,
Göz yaşında neməti var sevginin.
Gözlərimdə qiyməti var sevginin,
Əsl sevgi heyranlıqda görünür.

Sərrafiyam gözəlliyin, gözəlin,
Taleyimdən qoy yapışsın öz əlin.
Bir atəş var, uşaqlıqdan közərir,
Ancaq gəlib cavanlıqda görünür.

Qış da gəlsə, mən sevgimlə baharam,
Yağış olub çəmənimə yağaram.
Mən sənli də, mən sənsiz də ağlaram,
Mənim qəlbim giryanlıqda görünür.

Bir dövranın tarixidir bir ömiür,

Qabaq-qənşər ölüm gəlir, o dönmür.
Bu dünya göz işığında görünmür,
Qocalıqda, torandıqda görünür.
2005

## CAN BAHADIR DEYƏ-DEYƏ

Haqqa könül bağlamadıq,
Öz vaxtında ağlamadıq.
Nəfsimizi saxlamadıq,
İştahadır deyə-deyə.

Uyduq ərdin avazına,
Oynadıq qəm havasına.
Nə gəldi atdıq ağzına,
Əjdahadır deyə-deyə.

Arzu var ki, şir gücündə,
Ölümdür ölüm üçün də.
Gizləndik qəlbin içində,
Qəlb kahadır deyə-deyə.

Baharı qışa dəyişdik,
İlləri yaşa dəyişdik.
Canı bir daşa dəyişdik,
Can bahadır deyə-deyə.
2005

## KİMDƏN ÜMİD İSTƏYİM?

Kimə yaxşı, kimə indii pis deyim?
Kim pozubdur intizamı dünyada?
Kimdən durub indi ümid istəyim?
Ümidsizdir indi hamı dünyada.
2005

## ÖMRÜM GƏLİB BELƏ KEÇDİ

Əzəl andım bəndə idi,
Fələk vurdu, zilə keçdi.
Könlüm sarı simdə idi,

Sonra teldən-telə keçdi.

Hər şey uçuldu təməldən,
Bir şər çıxdı hər əməldən.
Hər şey, hər şey getdi əldən,
Bir kor ümid ələ keçdi.

Nahaq haqqı tanımadı,
Haqq qocaldı, qarımadı.
Doğulandan yarımadı,
Ümid ildən-ilə keçdi.

Həyat kədər, yuxu kədər,
Varı kədər, yoxu kədər.
Azı sevinc, çoxu kədər,
Ömrüm gəlib belə keçdi.

2006

## BAŞQA CÜR İNSAN OLAYDIM

Yaz deyir gül dərən, gül dərməyən də,
Mənsə istərdim ki, xəzan olaydım.
Canı görəydilər mən can deyəndə,
Mən də canı verib cəzan olaydım.

Hanı o çöllərin otu, küləşi,
Üzümə bir odlu həsrət dirəşib.
Çiskinli dağlarda bir yay günəşi,
Yanğınlı səhrada leysan olaydım.

Dövran var, heç səmti burulmayaydı,
Yollar hərəkətdən qırılmayaydı.
Ya bu dünya belə qurulmayaydı,
Ya da mən başqa cür insan olaydım!

2006

## MİN CÜR TALEYİ VAR ÖLÜMLƏRİN DƏ

Neçə şəklə düşüb, bar olur çiçək,
Daş da əzəlki tək qalmır yerində.
Ömürlərin min cür taleləri tək
Min cür taleyi var ölümlərin də!

2006

## EY HƏYAT, NƏ VAR Kİ, SƏNDƏN BAHALI

Ey həyat, nə var ki, səndən bahalı,
Hansı insan oğlu sənə baş əyməz.
Dünyanın ən böyük cahi-cəlalı,
Həyatın bir quru anına dəyməz.

Az pay olduğuyçün bəlkə şirindir,
Yüz il yaşayan da ah çəkib gedib.
Ölümün quyusu elə dərindir,
Gizlində hamıya dağ çəkib gedib.

Həyatın ölümdən çox sirləri var,
Ümid bu dünyanın mələk qızıdır.
«Ölmək istəyirəm!» - deyən adamlar,
Dünyanın ən böyük yalançısıdır.

Mən də gedəcəyəm bir gün dünyadan,
Ümiddən savayı nə var əlimdə.
Lap min il sonra da dönsəydi insan,
Qorxulu olmazdı bəlkə ölüm də.

Həyat – tüstülənən, yanan bir ocaq,
Həyat insan eşqi, həyat haqq eşqi.
Ölüm qorxusundan yaranıb, ancaq
Əzab içində də yaşamaq eşqi.

Ölüm də qanundur, pis demirəm mən,
Çırpına-çırpına qala ha ömrüm.
Təzədən doğulmaq istəmirəm mən,
Asta-asta gedə bir azca ömrüm!
2007

## NAMƏRDİN SÖZÜ DÜZ ÇIXIR

Hər sevincə qəm dürtülür,
Hər şeyin sirli bir dili,
Hər şeyin üstü örtülü,
Külün altından köz çıxır.

Min odda yanır bir bədən,
Ümid var – doğur zərbədən.
Qorxursan uca zirvədən
Görürsən bura iz çıxır.

Könül, çox illər gözlədin,
Minbir gümanlar bəslədin,
Səhərə olan həsrətin
Aydan-ulduzdan tez çıxır.

Kəlmə var – sözə nur verir,
Söz var, sözə uğur verir.
İşıq var, gözə nur verir,
İşıq var, ondan göz çıxır.

Şər xeyri elə dandı ki,
Saf qəlbim elə yandı ki…
Gör bu necə dövrandı ki,
Namərdin sözü düz çıxır.

2006

## YAŞAMALI DÜNYADIR

Gülzarı var, sevdasına düşməli,
Könüllər var, atəşində bişməli.
Qayası var, daş divarı çeşməli,
Çeşməsinə susamalı dünyadır.

Şirin dillər balı şandan ayırar,
Gözəllər var, ruhu candan ayırar.
Dünya malı səni ondan ayırar,
Elə bilmə dünya malı dünyadır.

Nəğməsi var boşalançun, dolançun,
Gümanı var gedəsiçün, qalançun.
Ürəyində zərrə sevgi olançun
Bir gözəlin qara xalı dünyadır.

Yollarına sərhəd, divar qoymuşuq,
Çöllərinə min bir qubar qoymuşuq.
Dünya üçün nə etibar qoymuşuq?
Vallah, yenə o vəfalı dünyadır.
Şirin olmaz bəlkə ömür uzansa,

İtən bitər bu dünyada haçansa.
Bu dünyadan ağıl, kamal qazansa,
Hər bir kəsə öz kamalı dünyadır.

Halal payı yiyəsinə qıysalar,
Ürəyində yanan odu duysalar,
İnsan kimi yaşamağa qoysalar,
Dünya özü yaşamalı dünyadır.
2005

## SUAL DOĞURUR

Sevdiyin dünyanı öyrənmək savab,
Hər zərrə bir aləm xəyal yaradır.
Hər çətin suala verilən cavab,
Təzədən bir çətin sual yaradır.
2005

## ZAMANLARIN HÖKMÜ

İnsan min ümidlə ölçüb-biçsə də,
Yenə də çiyninə ağır yük düşür.
İllər bir nizamla ötüb keçsə də,
Dövranların hökmü dəyişik düşür.
2005

## BİR DƏNDƏN BİR SÜNBÜL

İnsan öz əliylə min gül bitirsə,
Bu güllər insanın öz həyatıdır.
Bir dəndən bir sünbül gəlib yetirsə,
Artıq dən əkənin mükafatıdır!
2005

## YAŞANAN İLLƏR

Sığındıq bir ömrün daş çevrəsinə,
Can qoyuq çevrəinin hər dövrəsinə.
Döndü ömrümüzün bünövrəsinə,
Qatarla keçmişə daşınan illər.

Dəyişir hökmünü zərgər də, zər də,
İllərdir salan da illəri dərdə.
Vulkan da yaradır, xəzinələr də,
Qoca dağlar kimi aşınan illər.

Bir üzü vardadır, bir üzü darda,
Qanadı hardadır, fəryadı harda.
Gör nələr yaradır bax, aşikarda,
Gəlintək gizlənən, yaşanan illər.

Alışır gecən də, hey gündüzün də,
Sənin öz çəkin var ayaq izində.
Kömür qarasıtək qalır üzündə,
Ömür yollarında boş yanan illər.

Pis günü unutsan bir gün özün də,
Ağrısı, acısı qalar dizində.
Dönüb bir suala, donar gözündən
Əzəldən əzabla yaşanan illər.
2005

## AXTARMAQ EŞQİ

*Təbiət gizlənməyi sevir*
***Heraklit***

Arzu, istək insanların taqəti,
Kəsməz onun qabağını dörd divar.
Təbiətdə bir gizlənmə adəti,
İnsanlarda bir axtarmaq eşqi var.
2005

## DARIXIR

Bu güllü çiçəklik, bu bağça-bağlıq
Hələ qışa qalıb, xəzan darıxır.
Şir sultanlıq edir, pələng də şahlıq,
Yenə pələng susur, aslan darıxır.

Könül alışırsa bir təb içindən,
Nə dərman olacaq bir həb içində?
Bəlkə səbəbi var səbəb içində,
Səbəbli-səbəbsiz insan darıxır.

Bizə təsəllidir çöl-bayır hələ,

Saralıb-solmayıb gül-çayır hələ.
Qoynunda milyonlar yaşayır hələ,
Yenə də fırlanıb, cahan darıxır.

Dərd evi tikilir binəmin üstə,
Min qəm də yığılır bir qəmin üstə.
Həmişə bir əlim sinəmin üstə,
Sinəmin altında bir can darıxır.

Vaxt olur, könlümü özüm qırıram,
Özümə zərbəni özüm vururam.
Bəlkə mən zamanı darıxdırıram,
Bəlkə mənə baxıb, zaman darıxır.

Qış olur ürəyim, tələsir yaza,
Yaz olur, sevincim günümdən qışa.
Elə bilirəm ki, indii hardasa,
Mənim taleyimi yazan darıxır.

Aylar ilə dönür, il gedir bada,
A dostlar, neyləsək, ömürdür bu da.
Bilmirəm nədəndir, yanınızda da
Ürəyim sizinçün yaman darıxır!
2005

## GÖZƏLLİYƏ TƏSLİM

Hər çiçəkdə, hər yarpaqda göz izim,
Bu gözəllik allaha da gərəkdir.
Gözəlliyə təslim olmaq, əzizim,
Nadanlığa qalib gəlmək deməkdir.
2005

## DÖZƏ BİLMİRƏM

Dərdə dözənlərdir dərdli gəzənlər,
İnsanı özünə alışdırır qəm.
Həmişə ölüncə dərdə dözənlər
Deyirlər, mən daha dözə bilmirəm!
2005

## KİMİ

Hərə bir məqama, vaxtı göz dikib,

Hər kəsin baxtından dərd kəsib bir az.
Kimi doğulmağa bir az gecikib,
Kimi doğulmağa tələsib bir az.
2005

## ENMƏYİ DƏ VAR BUNUN

Göynən getmə, yerdir sənin oylağın,
Bir gün göydən enməyi də var bunun!
Lovğalanma, birdən dönər növrağın,
Çox alışma, sönməyi də var bunun!

Bir heç nədən ha kükrəmə, ha daşma,
Odun yoxsa, yad oduna tutaşma.
Hər fağıra, lal-dinməzə sataşma,
Tərpənməyi, dinməyi də var bunun.

Təsəlli ver yanar oddan çıxana,
Köks ötürmə ayaq altdan çıxana.
Ağız büzmə bu gün yaddan çıxana,
Bir hörmətə minməyi də var bunun!

Şah olsan da, qızıl taxta güvənmə,
Qolundakı gücə çox da güvənmə.
Bir qəfildən gülən baxta güvənmə,
Bir qəfildən dönməyi də var bunun!
2005

## QADINLAR

Yarımasa yerdən-göydən narazı,
Yarıyanda yerə-göyə dönərlər.
Düz yolunda ayın-günün parası,
Yoldan çıxdı, bir ləkəyə dönərlər.

Sözündən söz çıxaracaq o şərsə,
Şər tapacaq söz boxçasın eşərsə,
İkicə şər bir məclisə düşərsə,
Bir davaya, mərəkəyə dönərlər.

Yarasına çarə olmur sınanda,
Min arifdən üstün olur qananda.

Dərdi-sərin təndirində yananda
Yanıq-yanıq bir kökəyə dönərlər.

Əsil-kökü halal eldən çıxıbsa,
Pir-ocağa düşən küldən çıxıbsa,
Halal beldən, halal əldən çıxıbsa,
Şirin-şirin bir tikəyə dönərlər.

Ya atəşə bürünəcək, ya hisə,
Həmtay olar ya yaxşıya, ya pisə.
İstəsələr evlər yıxan iblisə,
İstəsələr mələkəyə dönərlər.
Külə dönər, sevgisinə yad olsan,
Gülə dönər sevgisinə qatılsan.
Qadınların başı üstə od olsan,
Başın üstdə bir kölgəyə dönərlər.

Kişiləri kişi kimi yarınsa,
Yaraları məhəbbətlə sarınsa,
Qadınların ləyaqəti qorunsa,
Bir Vətənə, bir ölkəyə dönərlər!
2005

## ÖLDÜRÜR

Özünə halalca bir ad-san gətir,
Yalançı ədalar ülfət öldürür.
Əcəl də, azar da bir bəhanədir,
İnsanı söz yıxır, xiffət öldürür.

Vaxtın bir çəmi var, baxtın bir çəmi,
Yaşadığı suda qərq olur gəmi.
Kimini dünyada yoxsulluq qəmi,
Kimini havayı dövlət öldürür.

İnsana ən gözəl zinət sevgidir,
İnsana ən böyük qiymət sevgidir.
Bəlkə ən qiymətli nemət sevgidir,
Məhəbbət yaşadır, nifrət öldürür.

Böyüdər səmimi tərif insanı,
Aman, tərifləmə hərif insanı.
Tikansız insanı, zərif insanı,

Bir soyuq, sevgisiz sifət öldürür.

İnsana verilən qiymət ikidir,
Ən böyük qiymətsə qəlbindəkidir.
Hamıdan qabaqda gedən igidi
Gecikən, bezikən qiymət öldürür.
Təmiz bir həyatın adı başqadır,
Halal bir ocağın odu başqadır.
Minnətsiz çörəyin dadı başqadır,
Halal yeyənləri minnət öldürür.

Uca dağ gah duman, gah çən qazanır,
Göylərdən quş enib bir dən qazanır.
Şöhrət – sahibinə düşmən qazanır,
Gör neçə insanı şöhrət öldürür.

Göz ən bəd sifətə, üzə öyrəşir,
Çıraq yana-yana hisə öyrəşir.
Dünya yaxşıya yox, pisə öyrəşir,
Məni bu əcaib ibrət öldürür.
2005

## QOCALAR

Ömrün zirvəsinə qalxır qocalar,
Həmişə başında duman, çən olur.
Elə ki, gənclikdən söhbət açalar,
Ürəyinin başı lap dən-dən olur.

Bir ömrün yükünü çəkir çiyində,
Səbəbsiz kövrəlir toyda-düyündə.
Səksəkəliyində, kövrəkliyində,
Bir uşaq qəlbinə qəlbi tən olur.

Qocalığı onun başına çaxma,
Küsdürüb könlünü, qəlbini yaxma.
Bükülüb yumağa dönsə də, baxma,
Ürəyi həmişə yaman gen olur.

Göyərər, açılar qeydinə qalsan,
Dağ olar qolunu boynuna salsan,
Bircə kəlmə ilə könlünü alsan,
Ən xoşbəxt adamdan daha şən olar.

Ocaq başında da bir dağ kimidir,
Küsdürdün, bir sınıq budaq kimidir.
Bir ana itirən uşaq kimidir,
Kimdən ülfət görsə, ona yön olur.

Yollara bələddir, səmti çaşsa da,
Ölümü unutmur baş qarışsa da.
Başından milyonlar aşıb-daşsa da,
Bir oğul payına göz dikən olur.

Dərdi-sər ayından, ilindən gələr,
Fələyin zərbəsi belindən gələr.
Əlindən gəlməyən, dilindən gələr,
Onunçün qocalar deyingən olur!
2005

## BİR DÖVRAN VAR İDİ

*Ölməz Leninə*

Bir namərd əliylə döndü növrağı,
Hələ borclu idi Leninə dünya.
Yıxdılar haqq ilə qurulan dağı,
Yandı uzununa, eninə dünya!

Bir gözəl gəminin qopdu sükanı,
Gördük gül yerinə qaratikanı.
Yıxdılar o boyda cənnətməkanı,
İlişdi bir tələ dininə dünya!

Arı pətəyindən arı dağıldı,
Yarı oğurlandı, yarı dağıldı.
Böyük bir ölkənin varı dağıldı,
Düşdü bir dilənçi gününə dünya!

Dəryaları elə durulmuşdu ki,
Zalım qollar elə burulmuşdu ki,
Elə adil dünya qurulmuşdu ki,
Dəyərdi cənnətin mininə dünya!

Dünya qurulmuşdu tufan içində,
Yaxşı da getmişdi yaman içində.
Ayrı dövran idi dövran içində

Nəğmələr qoşurdu şəninə dünya!

Azadlıq adıyla bəhanə gəldi,
Bir eybəcər dövran cahanə gəldi.
Bir quru buludlu zəmanə gəldi,
Düşdü dumanına, çəninə dünya!

Saxta pula döndü «vətən», «vətəndaş»,
Dəydi qardaşına məndən ötən daş.
Kəsdi ayaqları yolda bitən daş,
Düşdü cəhənnəmin yönünə dünya!

Onda gördüyümüz yuxu çin idi,
O gün bir bəşərçün gözəl gün idi.
O, şəriət idi, o, bir din idi,
Qayıdacaq yenə dininə dünya!
2005

## QƏBUL EYLƏMƏZ

Sən demə, bu necə ömürdür, gündür,
Gəl elə düşün ki, məni düşündür.
Ürəyim çox böyük dərdlər üçündür,
Xırda qayğıları qəbul eyləməz.

Dünya mənim üçün bir mənzərədir,
Mən geri baxıram, yol qənşərədir.
Gözüm gözəlliyə bir pəncərədir,
Şeirin uyquları qəbul eyləməz.

Ürəyim şah evi, könlüm kənizdir,
Yolu daş-kəsəkli, məramı düzdür.
Ürəyim bir dərin, təmiz dənizdir,
Bulanıq suları qəbul eyləməz.

Gah həzin bir kaman, gah sazdı könlüm,
Qəlbin hər telindən dərd asdı könlüm.
Odlu duyğulara həssasdı könlüm,
Soyuq duyğuları qəbul eyləməz.
2005

## TANIMAQ GƏRƏKDİR DÖNGƏLƏRİ DƏ

Yollarla yorulmaq hələ dərd deyil,
Dərd odur gümanın qala geridə.
Yolları düz getmək hələ şərt deyil,
Tanımaq gərəkdir döngələri də.
2005

## QÜRUB GÜNƏŞİ

Min rəngə boyanır üfüq uzaqda,
Gün özü ləngiyir bu son bucaqda.
Sabahkı günəşi unutmasaq da,
İnsanı kövrəldir qürub günəşi.

Həsrətlə baxırıq gün gedən yola,
Hamımız bilsək də qayıdar dala.
Düşürük min fikrə, min bir xəyala,
Ürəyi göynədir qürub günəşi.

Onda ümid də var, bir gizli qəm də,
Həsrəti od olub yanır sinəmdə.
Həm ölüm yolunu göstərir, həm də
Yaşamaq öyrədir qürub günəşi.
2005

## ÜRƏK

Qolları idmanla dəyişmək olar,
Əlləri daş edib döyüşmək olar.
Yerişi, yürüşü dəyişdirərsən,
Görüşü, gülüşü dəyişdirərsən,
Sifəti edərsən dəmirdən betər.
Üzü qaraldarsan kömürdən betər.
Bədəni yüz kərə təzələyərsən,
Gözləri başqa bir göz eyləyərsən.
Amma tək ürəyi dəyişmək olmaz,
Ürəkdən ayrılıb gen düşmək olmaz.
Ürək kainatmış, ürək cahanmış,
Ürək həm dərs imiş, həm imtahanmış,
Yamanmış, yamanmış, ürək yamanmış.
2007

## İNSANIN TALEYİ

Ayaq açan gündən insan sürünür,
Su umduğu yerdə oda bürünür.
Baxma ki, üzündə bir dərd görünür,
Min bir dərd göyərir bir dərd içində.

Namərd yol göstərir, yolu çaşırıq,
Qəmdən qaçıb qəmə yaxınlaşırıq.
Bir mərdin sözüylə aşıb-daşırıq,
Namərd bizi boğur zülmət içində!

Baxma ki, dilində sözün azaddır,
Gücün var, sözünü yerinə çatdır.
Xoşbəxtlik dünyada quru bir addır,
İnsan ömür sürür möhnət içində.

Fürsət qılınc verir, vurmağa qol yox,
Gerçəkdən doymuşuq, şirin nağıl yox.
Bir nöqtə içindən kənara yol yox,
Düşüb çırpınırıq bir hədd içində.

Dünyanın mərdindən namərdi gümrah,
Doğrular oğruya gətirir pənah.
Ən böyük cinayət, ən böyük günah,
Çox zaman gizlənir şöhrət içində.

Mən daha neynirəm karsız öyüdü,
Barsız deyə-deyə əydik söyüdü.
İnsanı dünyada sevgi böyüdür,
İnsan itir-batır nifrət içində!

2007

## BİR KƏSİ BAŞACAN TANIYAMMADIM

Nəyi öyrənmişik biz bu dünyada,
Yarısı qaranlıq, yarısı bəlli.
Könül tanrısını kim salır yada,
Amma yerin, göyün tanrısı bəlli.

Hər kiçik nöqtədən mən umuramsa,
Mən çoxdan yanmışam, mən küləm daha.

Özüm öz səsimi tanımıramsa,
Mən necə deyim ki, kamiləm daha?

Amalım, qərarım düzgün olmasa,
Arı pətəyində balı tapmaram.
Əgər qabağımda güzgü olmasa,
Axtarıb üzümdə xalı tapmaram.

Çox arzu-diləyi mən daşa verdim,
Bir bütöv şam oldum, yarı yanmadım.
Bir insan ömrünü mən başa vurdum,
Bir kəsi başacan tanıyammadım.

Baxıb bu hikmətə mat qalır könül,
Gah payız aldadır bizi, gah bahar.
Torpaqdan insana yol var milyon il…
İnsandan torpağa doxsan, yüz il var.

Dünyaya başacan ərk eləsəydik,
Onun bir çiçəyi solmazdı bəlkə.
Dünyanı başacan dərk eləsəydik,
Dünya belə gözəl olmazdı bəlkə.

Düşdük ömrümüzdən özümüz qaçaq,
Gəlib ömrümüzə axır hədd olduq.
Dünyanın dərdini tanıdıq, ancaq
Qalan hər nəyi var nabələd olduq!
2007

## SUSMAQ

Sükutla keçməsin qoy ömrüm-günüm,
Gözümün önündə yaxşı-yaman var.
Dinməkçün bir azca vaxtım var, dinim,
Sonra susmaq üçün sonsuz zaman var!
2007

## GEDƏNLƏR QALANDAN ARXAYIN OLSA

Vaxt elə gələr ki, gülə xar düşər,
Dağlar dura-dura çölə qar düşər.
Yüz mərdin əliylə obalar düşər,

Yüz oba dağılar bir xair olsa.

Düz axar, fələyin çayı əilməz,
Əyridir, bir daha yayı əyilməz.
Atın qıvraq gedər, tayı əyilməz,
Yolçular içində öz tayın olsa.

Boyuna baxarsan, boy da verərsən,
Bir haray salana hay da verərsən.
Gələnə, gedənə pay da verərsən,
Allahdan əlində bir payın olsa.

Ümid verə bilsən, daş da səs eylər,
Lal olan dilini göz əvəz eylər.
Bütöv bir ilinə bəlkə bəs eylər.
Uğurlu bir günün, bir ayın olsa.

Arzular taleyin kor qulu olmaz,
Əcəl ayıq gəzir, yuxulu olmaz.
Ölüm zərrə qədər qorxulu olmaz,
Gedənlər qalandan arxayın olsa.
2005

## PAYIZ KÜLƏYİDİR BU KÜLƏK DAHA

Yay sürdü ömrünü, könül, darıxma,
Yaz-yay xəyalından gəl əl çək daha.
İstisinə baxma, səsinə baxma,
Payız küləyidir bu külək daha.

Başqa cür tərpənir daha budaq da,
Eşilir, burulur meşə uzaqda.
Bu səs bir ondadır, bir yalquzaqda,
Payız küləyidir, bu külək daha.

Günün günortası hava qaralır,
Quş tək çırpınsa da, yarpaq saralır.
Elə bil fikrin də yolu daralır,
Payız küləyidir, bu külək daha.

Bir bax bu küləyin sədasına sən,
Dəli şıltağına, ədasına sən.
Çəkinmə, düşməzsən qadasına sən,

Payız küləyidir, bu külək daha.
Yarpaqlar elə bir quş libaslıdır,
Könüllər oxşayır, xoş libaslıdır.
Bunun bir tərəfi qış libaslıdır,
Payız küləyidir, bu külək daha.

Dərələr yataqdır duman, çən üçün,
Quş dumandan keçir bircə dən üçün.
Əsir bu küləklər Ağasən üçün,
Payız küləyidir, bu külək daha.
2005

## KÖNLÜM, GÖZÜM

Görməyə-görməyə könlüm vuruldu,
Amma görə-görə gözüm kor oldu.
Ürəyin məkanı gizli bir bucaq,
Dil deyib qurtarmaz könül deyəni.
Gözüm gözünəni görübdür ancaq
Ürəyim göz ilə görünməyəni.
2007

## HEÇ KİM AXIRACAN SÖZÜN DEMƏYİB

Könül otağına zər bəzəyənlər,
Otağın qubarın, tozun deməyib.
Ömür yollarına qısa deyənlər,
Ömür sınağına uzun deməyib.

Ürəyə gah alov, gah köz deyilib,
Gah bir dağ deyilib, gah düz deyilib.
Ürəyk barəsində çox söz deyilib,
Hardasa səhv edib, düzün deməyib.

Hər açıq bir sözün üstündə kölgə,
Söz gəlib dil üstdə düşübdü bərkə.
Dünyanın axırı çatıbdı bəlkə,
Heç kəs axıracan sözün deməyib.
2010

## BAĞIŞLAYARAM

*Xalq şairi Hüseyn Arifə*

Könül, şahdan belə çəkmə minnəti,
Qəlbin öz eşqidir ömrün zinəti.
Min gülşəni olsa, nisyə cənnəti,
Zümrüd dağ döşünə bağışlayaram.

Hansı nemət verər ömrün dadını,
Bir inam yolunda pozma andını…
Dünyanın ən baha brilyantını
Bircə fil dişinə bağışlayaram.

Hədər uçurmadım könül quşunu,
Çəksə də sinəmə dərd naxışını.
Pələngin ən güclü sıçrayışını
Ceyran yerişinə bağışlayaram.

Ağasən, neynirəm mən o dahini,
Azır haqq səmtini, haqq cinahını.
Bir qafil insanın min günahını,
Bir savab işinə bağışlayaram.
2010

## AY İSMAYILLI

Göylə yer arası dağlar divardır,
Hər daşı tarixdən qalan qubardır.
Baxıram, dağın da dağ dərdi vardır,
Qopub lay-lay düşür, ay İsmayıllı!

Yazıb saxlamışam can dəftərində,
Ürəkdən kim yanıb xeyir-şərində.
Ağar var, çiçəyi, gülü yerində,
Meyvəsi zay düşür, ay İsmayıllı!

Qorxağam dağlardan ayaq çəkəli,
Dağlar güc heykəli, ümid heykəli.
Orda maral hürkür, burda dağ kəli,
Dağlara hay düşür, ay İsmayıllı!

Min xəyal calanır xatiratıma,

Yollar da dar gəlir köhlən atıma.
Tutaşıb yananda birdən yadıma
Girdimançay düşür, ay İsmayıllı!

Ordan sevinc qurur, burdan qəm baxır,
Hərdən güllərinə naməhrəm baxır.
Elə ki, baxtına dövran kəc baxır,
Könlümə vay düşür, ay İsmayıllı!

Əlim öyrəşməyib, bil ki, harama,
Gülünü sevməmiş qoyma yarama.
Gizlində səninlə mənim arama
Bir haqqı-say düşür, ay İsmayıllı!

Daha o duman yox, daha o çən yox,
Haqq ölüb, boyuna gələn kəfən yox.
Gözəllik çoxalır, gözəl sevən yox,
Ömrə haray düşür, ay İsmayıllı!

Gör ümid nə boyda, imkan nə boyda,
Gör ürək nə hayda, illər nə hayda.
Ölüm bu taydadır, ömür o tayda,
Mənə bu tay düşür, ay İsmayıllı!

Haqq-hesab qurtardı, bitdi bazarlıq,
Gəlirəm, könlümdə bir intizarlıq.
Pay ver torpağından sən bir məzarlıq,
Mənə də pay düşür, ay İsmayıllı!
2006

## SƏRHƏD QOYMUŞUQ

Kim deyib bir ömür hardan-haradır,
Biz niyə hər sözə minnət qoymuşuq?
Hər dərman içində bir az dərd yatır,
Biz hər dərd üstünə bir dərd qoymuşuq.

Qırx il də pas atmaz bulaq novçası,
Suyu kəsiləndə car olur pası…
Qəm ömrün hüsnüdür, yoxsa cəzası,
Ömürçün nə qədər gör şərt qoymuşuq!

Necə imtahan var bir ürək üçün,
Nə çəkdik bir halal duz-çörək üçün.
Biz bir arzu üçün, hər dilək üçün
Bu ildən o ilə möhlət qoymuşuq.

Yolumuz qurulub min qalmaqaldan,
Biz çıxa bilmərik daha bu yoldan.
Göylərə şığıyan fikir, xəyaldan,
Aya da, ilə də sürət qoymuşuq.

Bəlkə göz kökünü nəm bərkidirmiş,
Ömrün binəsini qəm bərkidirmiş.
Qəm bizi həm üzüb, həm bərkidirmiş,
Qəm üstdən biz qara bir xətt qoymuşuq.

Ağasən, xam olduq, görən niyə biz,
Niyə düz baxmadıq yerə, göyə biz.
«Qocalan vaxtımdır!» deyə-deyə biz,
Cavanlığa nə tez sərhəd qoymuşuq!

2010

## DÜNYADA

Dünya bizi haqqa şərik alacaq,
Torpağına bir töhfəlik alacaq.
Dünya bizi birdəfəlik alacaq,
Az ömrümüz hələ behdir dünyada.

Bir də gördüm haqq divanı çəkildi,
Ölüm hakim, həyat eşqi vəkildi.
Dünya özü bir ilahi şəkildi,
Şəkil üstə ömür zehdir dünyada.

Həyat özü zər qəfəsli ömürdür,
Gah möhnətli, gah həvəsli ömürdür.
Həyat bizə bir nəfəslik ömürdür,
Bu nəfəs də qısa mehdir dünyada.

Dünya özü gözəllərin göyçəyi,
Ümidimiz işıldaquş böcəyi.
Həsrətimiz gözdə payız çiçəyi,
Göz yaşımız təzə şehdir dünyada.

Həyat qədər dövlət hanı, var hanı?

Sevga kimi bəhrə hanı, bar hanı?
Həyat qədər bir sevgili yar hanı?
Yar nəşəsi pəhəpəhdir dünyada.

Ölüm atlı, ömrümüzsə piyada,
Ölüm gəlir həyat eşqi oyada.
Ölüm özü vurğundusa həyata,
Cinayətdir ölüm cəhdi dünyada.

Dünya bizi yoğurub haqq eyləyib,
Torpağına bir gün ortaq eyləyib,
Dünya bizi ölməz torpaq eyləyib,
Qorumağa cavabdehdir dünyada.

Mən həyatla dərdi dərman eylədim,
Mən həyatla eşqi loğman eylədim.
Mən həyatla əhdi-peyman eylədim,
Unutmaram mən bu əhdi dünyada.
2010

## ÇİYNİMDƏ QALDI

Gəlib nələr keçir xatiratımdan,
Vaxt məni düşürtdü köhlən atımdan.
Öyüd var, bir anda çıxdı yadımdan,
İbrət var, əlli il beynimdə qaldı.

Ayrı düşməmişəm öz ürəyimdən,
Halallıq ummuşam haqq çörəyimdən.
Paltarım süzülüb çıxdı əyindən,
Amma od köynəyim əynimdə qaldı.

Ağasən, nə qorxun daha ölümdən,
Xoşbəxtlik fürsəti çıxdı əlimdən.
Bir dövran şələsi düşdü belimdən,
Bir tale şələsi çiynimdə qaldı.
2010

## ÜMİD

Gözlər donub qalar, ürək sıxılar,
İrəli yeriyən ayaqar ümid.

Dayaqsız bir ömür mehdən yıxılır,
Ən böyük dirəkdir, dayaqdır ümid.

Gülürsən, üzünə nur çiləyəndə
İşıqdır qəlbində dərd mələyəndə.
Bütün duyğuların mürgüləyəndə,
Gecə də gündüz də oyaqdır ümid.

Ağasən, baxtından nə istəyirsən,
Tor olar qızıldan sap da əyirsən.
Sən ümid üstündən ümid deyirsən,
Özün də bilirsən nahaqdır ümid!
2010

## BİLƏR

El gözü tərəzi, el gözü haqdır,
Dil-dodaq biləni el çoxdan bilər.
Qananın gümanı yanar çıraqdır,
Varın gümanını o, yoxdan bilər.

Hanı o babalar, hanı yaşlılar,
Getdilər, yolçular yolu çaşdılar.
Ayaq yerişinə baxar başlılar,
Başın qiymətini ayaqdan bilər.

Fikirdən insanın ürəyi doymaz,
Fikrin nəşəsini özgəyə qıymaz.
Bir andan sonrakı sevinci duymaz,
Amma dərdi bir ay qabaqdan bilər.

Hər şeyə gücü yox dövlətin, varın,
Dərddisə, nə fərqi, yağışın, qarın.
Bilənlər qarşıdan gələn baharın
Halını qışdakı sazaqdan bilər.

Uşaq qanmaz ömrün qəm-möhnətini,
Umar bu dünyanın naz-nemətini.
Qoca var, bir ömrün min hikmətini,
Uşaqdan öyrənər, uşaqdan bilər.

Can candan od alsa, yanar gendə də,
Gümanlı gündə də, yaman gündə də.

Dərd bilməz kar olar lap böyründə də,
Dərd bilən dərdini uzaqdan bilər.
Ağac var, kökünə əyər budağı,
Budaq var sürtünüb yeyər budağı.
Bağban həssas olar, əyər budağı,
Kökün qüdrətini budaqdan bilər.

Dünyanın min dərdi keçər könüldən,
Dəyişir dünyanın halı il-ildən.
Canın yanğısını bilici dildən,
Dilin yanğısını dodaqdan bilər.

Boş yerə ağartma saç-saqqalını,
Kim dərman eyləyib dünya malını.
Yolçular mərhumun dərdi-halını
Məzar üstündəki torpaqdan bilər.

Ağasən, dünyadan könül küsdümü?
Mənzil dürüstdümü, yol dürüstdümü?
Qananlar başımdan çıxan tüstümü
Odu görünməyən ocaqdan bilər.

2010

## ANA

Vücudum torpağa dönübdür indi,
Amma həsrətinin qəfəsi evdə.
Mən necə deyim ki, məzar evindi,
Dolanır sevginin nəfəsi evdə.

Şəklini umuram yanar ocaqdan,
Ömürdən, həyatdan, dolanacaqdan.
Elə bil boylanır kücdən-bucaqdan,
Nənə laylasının nəğməsi evdə.

Bir dahi rəssamın kaş əli ola,
Əlləri fırçalı, tişəli ola.
Ana dərdlərinin heykəli ola,
Səcdə qıla oğlu, nəvəsi evdə.
Ruhu gecə ola, dönəm gecəyə,
Dönüb çiçək ola, dönəm çiçəyə.
Evi analarını ruhu bəzəyə,
Olmaya xalçası, gəbəsi evdə.

Tez sönər məhəbbət içdə olmasa,
Ömür-gün xar olar, heç də olmasa.
Bir evdə anaya səcdə olmasa,
Qalarmı bir ömrün həvəsi evdə?

Analar həyatın nəfəsi olar,
Dünyanın ən şirin töhfəsi olar.
Evdə günəşin də əvəzi olar,
Olmaz anaların əvəzi evdə!

2010

## DƏRD VAR Kİ...

Əyilməz insanı sözlə əyərlər,
Sirr var ki, heç zaman agah olunmaz.
Dərd var ki, sağalmaz bir dərd deyərlər,
Dərd var ki, adı da izah olunmaz!

2010

## SORUŞUN

Bir ürəkdə sözüm qalıb,
Bir sinədə közüm qalıb.
Hardasa bir izim qalıb,
Arandan, dağdan soruşun!

Ömür mülküm oldu talan,
Sizinkidir yerdə qalan.
Yolumuza kölgə salan
Çarpaz budaqdan soruşun.

Ölüb getsəm, bir sükutam,
Məzarda da yanar odam.
Ya çiçəyəm, ya bir otam,
Məni torpaqdan soruşun.

Doymasam da yaşamaqdan,
Ölüm bir gün salar taxtdan.
Kəm taleyimi nahaqdan,
Özümü haqdan soruşun!

2010

## SUAL VAR...

Bəzən ögey olur arzun, muradın,
Həsrətin ürəkdə od olub qalır.
Sual var, cavabı gün kimi aydın,
Amma dil-ağızda tutulub qalır.
2010

## NECƏ DUYAQ BİZ

Dünən birdi, bu gün iki, sabah üç,
Gəlmişik ki, bu günləri sayaq biz.
Gen dünyadan dar mənzilə köçhaköç,
Arzumuzu hansı küncə qoyaq biz?

Hər kəlmədə bir bayır var, bir iç var,
Haqq görməyən söz içində nə güc var.
Qəlbimizdə qəm qarışıq sevinc var,
Yar-yoldaşa bundan necə qıyaq biz.

İllər bizə ümid verib aldadır,
Ümid də ki, dil üstündə bal dadır.
Bu dünyanın başı hələ qaldadır,
Hansı şirin bir ümidə uyaq biz.

Keçən günün dərdi yenə dünyada,
Daşdan olsa dözməz sinə dünyada.
Necə dözək bu tərsinə dünyada
Başsız gəlib baş sayılır, ayaq biz.

Dünya haçan hayımıza hay verib?
Bir sevincə kədər adlı tay verib.
Ömür adlı bir dadımlıq pay verib,
Belə paydan indii necə doyaq biz?
2010

## TUT AĞACI

*Ata və anamın xatirəsinə*

Hanı həsrətimin od-ocaq yeri,

Beş arzum ölüdür, on arzum diri.
Fikrimin qibləsi, könlümün piri
Məhlə ağacıdır yurd ağacıdır.

Ən uca budağı könül tacımız,
O vaxt ki, ən böyük ehtiyacımız.
Elə bilərdim ki, tut ağacımız
Bizə su ağacı, od ağacıdır.

Qorxuram danışam, xəyalım küsə,
Yağar yağış kimi göydən dərdi-sər.
Anaların südü çəkilərdisə,
Sanardıq tutumuz süd ağacıdır.

Deməyin sönübdür həsrət odumuz,
Qocalır bizimlə boş umudumuz.
Qoca tutumuzla qələm tutumuz
Uşaqlıq ömrümün cüt ağacıdır.

Yaşamaq da haqdır, ölüm-itim də,
Hamının payı var bu həsrətimdə.
Daha bütpərəstəm, mənim bütüm də
Ata yardundakı tut ağacıdır!

2010

## QALIR

Heç demə ki, illər ötür, başdan olur,
İllər ötür, dərdi bizə miras qalır.
Sən demə ki, hər dərdi-sər yaşdan olur,
Dərdi-sərlə ömür yolu taraz qalır.

Nərdivanla qalxmaq olmur ucalığa,
Hər şey baxmır mal-dövlətə, bacarığa.
Qocalıq tək qala bilməz qocalığa,
Uşaqlıqdan, cavanlıqdan bir az qalır.

Dağlar qalır, dağ ömrünü sürə-sürə,
Gül saxlayır öz ətrini min illərə.
Çaylar daşar, yolu itməz, ona görə
Min illərdir Kür yaşayır, Araz qalır.

2010

## ÖMÜR

Mən sual verirəm, olarmı xoşbəxt,
İnsanın dərd dolu şərəfli ömrü.
Açılmaz sonacan, açılmaz heç vaxt,
İnsanın düyünlü, kələfli ömrü.
2010

## BƏNDƏDƏN ALLAHA NƏ ZİYAN YETƏR

Sərgərdan könlümə bağrım başında,
Yer versən bir kiçik aşiyan, yetər.
Harayçı qalmışam dərd savaşında,
Bəlkə ürəyimə bir güman yetər.
Könül, gələn də gün, gedən də gündür,
Olana, keçənə demə neçindir.
Allahın dərdləri bəndə üçündür,
Bəndədən allaha nə ziyan yetər!
2010

## İNNƏN BELƏ BU YOLLARI NEYNİRƏM

Dərya kimi könlüm tufan qoparır,
Arzuları dalğa-dalğa qabarır.
Yollar məni ayrılığa aparır,
İnnən belə bu yolları neynirəm!

Çarpazlaşıb yol üstündən yol aşır,
Ayrılıqda dərd də dərdə yaraşır.
Yollar daha ayağıma dolaşır,
İnnən belə bu yolları neynirəm!

Bu yollarda əlim, qolum itirsə,
Bu yollarda sağım, solum itirsə,
Bu yollarda öz ilk yolum itirsə,
İnnən belə bu yolları neynirəm!
2010

## KOROĞLUNU DANAN ÇOX

Şoran çöldə bitən gülün ətri nə?

Boş nəğmənin qızıl xətli sətri nə?
Beş-on dənə şər oğlunun xətrinə
Neçə-neçə ər oğlunu danan çox!

Bu millətin arzusu nə, kamı nə?
Kim götürür haqq deyəni zaminə?
Qanımızı soranların naminə,
Nəbi kimi nər oğlunu danan çox!

Sən işə bax, yanan kürdür, yaman pir,
Gəl belə bir kor zamanda ömür sür.
Yaddan çıxıb, oddan çıxan Cavanşir
Bir yalanla min doğrunu danan çox!

Öyünmə ki, sularımız durudur,
Namərd əllər çeşməmizi qurudur.
Həmzələr var Koroğlunu unudur,
Qırat yoxdur, Koroğlunu danan çox!

Tərsə yozduq bu vətənin zillətin,
Sabir demiş, dostu olduq zülmətin.
Dini, günü əldən gedən millətin
Babək kimi bir oğlunu danan çox!

Ümidimiz haydan-küydən yapışıb,
Kimi neydən, kimi meydən yapışıb.
Ayaq yerdən, əllər göydən yapışıb,
Göyə baxıb, yer oğlunu danan çox!
2010

## PAYIZ ÖMRÜMƏ

*Şəmşirə sən ərməğansan!*
***Aşıq Şəmşir***

Gülüm, cansız qalan sinəmdə cansan,
Məni yandıransan, məni yaxansan.
Bir ilahi paysan, bir ərməğansan,
Mənim ərməğansız, paysız ömrümə!

Mənə Araz gətir, mənə Kür gətir,
Atəşim, alovum heç sönmür, gətir,
Sükutdan qorxuram səs-səmir gətir,
Haraysız ömrümə, haysız ömrümə!

Canım nə dərd desən, çəkər dünyada,
Sənsiz dizim yerə çökər dünyada,
Yüz ömrüm olsaydı, əgər dünyada,
Səni şah seçərdim bu yüz ömrümə.

Yaztək, payızın da öz şehi vardır,
Gülün bir yanı gül, bir yanı xardır,
Əzizim, payız da elə bahardır,
Bir sən yaraşarsan payız ömrümə!
2006

## ÖLÜMDƏN QORXURUQ

Kimlər gəlib-getdi dünyada, kimlər,
Ölümün sifəti həmişə bərkdir.
Ölümdən qorxuruq, çünki ölümlər
Dünyada əbədi yoxluq deməkdir.

Zaman öz yolunda dönərsə tərsə,
Bir şikayət çıxmaz insan dilindən.
Ömür min il sonra bir də dönərsə,
İnsan rahat olar, qorxmaz ölümdən.
2010

## YENƏ DƏ QALMIŞIQ QURU YERDƏ BİZ

Dərdlə can evini dağıtdıq, allah,
Dünyada nə qədər ah udduq, allah.
Bu qədər göz yaşı axıtdıq, allah,
Yenə də qalmışıq quru yerdə biz.

Bu sular payızdan, qışdan bulanıb,
Sən demə, atılan daşdan bulanıb.
Bu dünyanın suyu başdan bulanıb,
Hardan tapıb üzək duru yerdə biz.

Nahaqqa tərs baxıb, haqqa cummuşuq,
Paysız baxtımızdan çox umsunmuşuq.
Göydən gileylənib, göydən ummuşuq,
Özümüz qurmuşuq toru yerdə biz.

Elə dik tutsa da başını dağlar,
Bir üzündə qar var, bir üzündə xar.
Nə əcəb, nə əcəb, göydə günəş var,
Necə tapasıydıq nuru yerdə biz?!
2010

## DAŞIN DA ÜRƏYİ VARDIR

Buludlar toqquşub şimşək çaxarsa,
Qara buludun da diləyi vardır.
Qəlpə daşdan qopub, od çıxarırsa,
Deməli, daşın da ürəyi vardır.
2010

## MƏNİM SƏHVLƏRİM

*Böyük şairimiz B. Vahabzadəyə*

Mənə çox deyirlər: aşıb-daşırsan,
Söz-sözə gələndə lap tutaşırsan.
Hər deyilən sözə fikir vermə sən,
Hər söz qabağına söz gətirmə sən.
Filan alim deyib, filan cür yaşa,
Sakitcə, səbirli bir ömür yaşa!

Siz də başa düşün mənim qəlbimi,
Səhvim var, səhvimi heç vaxt danmıram.
Özgəyə oxşayıb, özgələr kimi,
Vallah, ömür sürüb yaşayammıram.

Bu cür doğulmuşam, vallah, neyləyim,
Mənə yol göstərən qəlbin səsidir.
Mənim ömrüm üçün mənim ürəyim
Ən böyük qanunlar məcəlləsidir.
Mən ha çırpınsam da, şah olammaram,
Şah da bir şah ikən «mən» ola bilməz.
Necə doğulmuşam, o cür mən varam,
Fitrətim təzədən doğula bilməz.

Özgələşmək məni çox keyləşdirir,
Ürəyim ağlımdan daha dərindir.
Məni səhvlərim bütövləşdirir,
Məni mən eləyən səhvlərimdir!

2010

## İNSANLAR İNSANSIZ KEÇİNƏ BİLMƏZ

Ocaqlar qaralar, ümidlər sönər,
Dost-tanış olmasa, ürək də gülməz.
Havasız keçinər, günsüz keçinər,
İnsanlar insansız keçinə bilməz.
2010

## SALMIŞAM FƏLƏYİ ÖZ GÜNÜMƏ MƏN

Hicran ağrısından cəzan olmuşam,
Yuxumu tərsinə yozan olmuşam.
Bahar baxışından xəzan olmuşam,
Batmışam çənimə, çiskinimə mən.

Öz könül yuvamdan köçkün olmuşam,
Eşqin yollarında miskin olmuşam.
Demirsən: «Dərdimdən düşkün olmuşam,
Bir gedim baş çəkim düşkünümə mən».

Mən bir sevgi adlı ömür sürmüşəm,
Mən göz yaşlarımdan nəşə görmüşəm.
Elə pis gündəyəm, köks ötürmüşəm,
Əvvəllər gördüyüm pis günümə mən.
Min yol ocaq kimi yanıb sönmüşəm,
Bahara göz dikib, qışa dönmüşəm.
Dünyadan o qədər gileylənmişəm,
Salmışam dünyanı öz günümə mən.
2010

## DÖVRAN TƏRSİNƏ

Bu yalçın qayadır, bu gözəl meşə,
Dayanarmı bu dağ, aran tərsinə.
Hər şey öz səmtinə axır həmişə,
Zəmanə tərsinə, dövran tərsinə!
2010

## QALIR

Can arada qalır, cahan dağılır,
Dünyanın nizamı yaman dağılır.
Əzəldən gördüyün karvan dağılır,
Nə sarban görünür, nə dəvən qalır.

Fikir haçalanır, yollar bölünür,
Ürəyin yanğısı çöldən bilinir.
Könül dəftərindən hər şey silinir,
Bir sevilən qalır, bir sevən qalır.

Ətirli saçlarda tellər – həyatın,
Şirin nəğmə deyən dillər – həyatın.
Gözəllər üzündə güllər – həyatın,
Ölümə bir sümük, bir kəfən qalır.

Qardaş, bu həyatın gur nəfəsi var,
Onun öz eşqi var, öz həvəsi var.
Həyatın özünün fəlsəfəsi var,
Sənə uydurduğun fəlsəfən qalır!

2010

## ÖYRƏTDİM ÖZÜMÜ KƏMƏ DÜNYADA

Ürək yox nadanın dar sinəsində,
Tufan binəsində, qar sinəsində.
Sarı sim inləyir tar sinəsində,
Qoşuldum bu sarı simə dünyada.

Dost payı daş olsa, döz, birtəhər ye,
Dərdə alışmaqçün hərdən qəhər ye.
Qismətinə düşsə acı zəhər ye,
Minnətli çörəyi yemə dünyada.

Yüz kərə dedilər – ruzi qədərdir,
Ağıldan kəm olan başın nə dərdi?!
Dərdi deyəcəyim məndən betərdir,
Dərdi kimə deyim, kimə, dünyada.

Zəmanəm bəd gəldi zaman dalınca,
Boylandım həmişə güman dalınca.
Süründüm yollarda dərman dalınca,
Dərmanım dərd imiş, – demə dünyada.

Haqq deyib yamanın ocağı küldür,
Yeganə çarəsi ağzında dildir.
Halalın fəryadı həmişə zildir,
Zili kimi endirər bəmə dünyada.

Yananın dərdini yananlar qanar,
Həyatı sevənlər həyatdan kənar.
Baxtlının ocağı havadan yanar,
Qoyular qazanı dəmə dünyada.

Od oldum, vaxt məni saldı nəzərdən,
Dost ümidi oldu məni közərdən.
Çoxun bəlasını bildim əzəldən,
Öyrətdim özümü kəmə dünyada.

2010

## DİV GÖRƏSİYƏM

Dosta nə üz tutum, dost məndən betər,
Harda gülüş dolu ev görəsiyəm?
Bu qədər dərdi-sər gördüyüm yetər,
İnnən belə necə kef görəsiyəm?

Sürünə-sürünə sürdüm ömrümü,
Həmişə zillətdə gördüm ömrümü.
Dəyər-dəyməzinə verdim ömrümü,
Mən hansı bazarda nəf görəsiyəm?

Vaxt nə o taylıqdır, nə də bu taylıq,
Qurtaran deyildir bu hay-haraylıq.
Birinin əlində göz yaşlı yaylıq,
Birinin əlində dəf görəsiyəm.

Nə ipək istəyər yoxsul, nə atlas,
Nə yolda şər görsün, nə evində yaş.
Susasam, suyumun içində lil, pas,
Acısam çörəkdə kif görəsiyəm.

Nağıl dünyasına gəlib çıxıram,
Bir yolayrıcında durub baxıram.
İt hürən tərəfdə itdən qorxuram,
İşıq gələn yerdə div görəsiyəm.

2010

## QURTARMIR

Gəlir insan oğlu dünyaya min-min,
Ömür yollarında karvan qurtarmır.
Dərdi var dəryada qalan gəminin,
Nuh dərddən qurtardı, tufan qurtarmır.

Hər duyğu dalınca min sual gəlir,
Dünyaya baxıram qəlbim kövrəlir.
Dağların başında duman seyrəlir,
Fikirdən, xəyaldan duman qurtarmır.

Durub nə umasan boş tərəzidən,
Pərsəngi atalar kaş tərəzidən.
Yaman gileyliyəm daş-tərəzidən,
Yaxşılar azalır, yaman qurtarmır.

Daha qızılgüllə tikan görüşür,
Nadanlar yığılıb dərdə gülüşür.
Düz yolda namərdə yaxan ilişir,
Yanıb-yaxılsan da, yaxan qurtarmır.

Kükrəyən çayların bəndi qırılıb,
Haqq sözə nahaqqın mehri vurulub.
Adəmdən bu yana divan qurulub,
Haqq-hesab tərs düşür, divan qurtarmır.

Ağasən, illər öz köçhaköçündə,
İnsanlar yenə də əkin-biçində.
Dünyanın bu qədər dərdi içində
Ümid üzülməyir, güman qurtarmır.

2010

## HEÇ VAXT

Daraşıb canıma dərd qudursa da,
Baxtım yollarımı tərsə bursa da,
Namərdlər belimi yerə vursa da,
Çökdürə bilmədi dizimi heç vaxt!

Başımın üstündən şimşək ötüşsə,

Vədəsi çatmamış əcəl yetişsə,
İzim üstə divin ləpiri düşsə,
İtirməz yollarda izimi heç vaxt!

Yolda nişanəmi yıxmamaq üçün,
Özümü tünlüyə sıxmamaq üçün,
Yolumdan əbədi çıxmamaq üçün,
Yolumdan çəkmədim gözümü heç vaxt!

Mən çox ağlamışam, mən az gülmüşəm,
Çəkimdə nə artıb, nə əksilmişəm.
Mən qiblə deyəndə haqqı bilmişəm,
Nahaqqa tutmadım üzümü heç vaxt!

Yol uzun olsa da, getmədim kəsə,
Dözüb qane oldum, qismətim nəsə.
Yerimi dəyişdim sözüm keçməsə,
Ancaq dəyişmədim sözümü heç vaxt!

Qorudum ocaqda zərrə közümü,
İtirdim baxtımı, tapdım dözümü.
Özgələr içində oldum, özümü,
Özgə eyləmədim özümü heç vaxt!
2010

## BALA GƏLİRLƏR

Ey könül, gör necə dəyişdi dövran,
Sağa öyrəşənlər, sola gəlirlər.
Dost olub oynaşır meymunla ceyran,
Bir yerdə yollaşıb, yola gəlirlər.

İndi zərif əllər gedib daş yarır,
İndi var dalınca varlılar varır.
Gedənlər davadan, qaldan qurtarır,
Gələnlər davaya qala gəlirlər.

Divlər var içində eşələnirlər,
Demə, cilalanıb, tişələnirlər.
Qurdlar göz yaşından nəşələnirlər,
Sonra şərab içib hala gəlirlər.
Hərə öz gözüylə baxır cahana,
Dərdi-sər qəfildən qorxur yaxana.

Babalar dünyanı salır sahmana,
Nəvələr dünyaya bəla gəlirlər.

Dərdi-sər nadanın gəlmir eyninə,
Şələ aqillərin düşür çiynınə.
Cavanlar nə gəldi taxır əyninə,
Qocalar yaşıla, ala gəlirlər.

Ağıllı qızlar var, könül bəzərlər,
Baxtına dəyməsin qoy bədnəzərlər.
Kəpənəktək gülə qonan gözəllər,
İndi milçək olub, bala gəlirlər.
2010

## YOXMUŞ

Səyyah oldum tarixlərə
Çox dərdi-sər görə-görə.
Bağrım oldu zədən-zədən
Çox dərd gördüm, amma Vətən
Bu zillətdə, bu zülmətdə
Sənə heç tay olan yoxmuş!

Çiçəklərin ütük-ütük,
Meşələrin kötük-kötük.
Parça-parça, didik-didik,
Bərəkətli torpağından
Özgələrə
Heç belə pay olan yoxmuş!

Azalıbdır o dağ-dərə,
Hanı ovçu, hanı bərə?
Haray çəkim lap min kərə
Qapıları özgələrə
Lap bu qədər tamam açıq,
Lap taybatay olan yoxmuş!

Heç bu qədər göz yaşı çay,
Heç bu qədər sevinci pay
Olan yoxmuş.
Hay da versək, pay da versək,
Bizə haray olan yoxdur.

Bizim kimi bu dünyada
Hörməti zay, zəhməti zay
Olan yoxmuş.
Taleyinin yollarında
Belə yoxuş, belə dolay
Olan yoxmuş!
2010

## YARAŞIR

Mərd əlləri al əlinə,
Haqq sözləri sal dilinə.
Çay suyuna, çay selinə,
Çayın daşı da yaraşır.

Bax gecənə, gündüzünə,
Sən sahib ol öz sözünə.
Duman çökən göy üzünə
Dağlar başı da yaraşır.

Sevgi qıymaz yerə-göyə,
Daşdan-daşa dəyə-dəyə.
Təmənnasız bir sevgiyə,
Qoca yaşı da yaraşır.

Könül vermə qurd olana,
Məlhəm olmaz dərd olana.
Binəsindən mərd olana
Mərd savaşı da yaraşır.

Sevgi qədri bilənlərə,
Sevincini bölənlərə,
Saf gülüşlə gülənlərə
Saf göz yaşı da yaraşır!
2010

## TƏK BEYTLƏR

Qatdı başımızı, tovladı dövran,
Gəlib bu dövranı qovladı dövran.
***

Qüvvəsi tükəndi, saat dayandı,
O, elə bildi ki, həyat dayandı.
***
Dal budaqda beş-altı qoz tapdılar,
Bu budağı sınanacan çırpdılar.
***
İlk eşqin son vaxtı, tacı ayrılıq,
İlk eşqi yaşatdı acı ayrılıq.
***
Pis görəndə hey salırıq hay-həşir,
Bu pisə də üz-gözümüz öyrəşir.
2010

## AY RƏMİŞ

*Əvəzsiz sənətkarımıza*

Bir ürəyin telləridir o tellər,
O tellərə gəl asta vur, ay Rəmiş!
Sevgi belə haray çəkib min illər,
Ovut bizi gəl bir hovur, ay Rəmiş!

Dondur bizi, bir tel üstə düzlənək,
Qoy alovdan paltar geyək, süslənək.
Çək bizi də tellər altda gizlənək,
Vaxt tələsir, illər qovur, ay Rəmiş!

Bu dünyanı ha ucaltdıq, ha yıxdıq,
Alov üstə alov düşdü, karıxdıq.
Yerdə yandıq, göylər üçün darıxdıq,
Yandır bizi, göyə sovur, ay Rəmiş!

Zaman bizi dara çəkir, ağladır,
Baxtımıza duman çökür, ağladır.
Zaman bizi hönkür-hönkür ağladır,
Nədir görən bu vurhavur, ay Rəmiş!

Dərdi-sərdir amanatı sevginin,
Daha yolu dumanadı sevginin.
Qopub-düşüb bir qanadı sevginin,
Bu dərd məni ovur, ovur, ay Rəmiş!

Min illərdir dünya ayıq, biz naşı,
Qəm evidir bu dünyanın bir başı.

Min illərdir leysan olur göz yaşı,
Bu göz yaşı hara hopur, ay Rəmiş!

Düşək yenə biz tarixin izinə,
Ocaq sönür, çırpı ataq gözünə.
Qaytar yenə bu dünyanı özünə,
Bir haray sal, dünya qopur, ay Rəmiş,
Yandır bizi, göyə sovur, ay Rəmiş!
2003

## NƏ DƏRDİM

Dağ idim, dağıldım dağ sularından,
Qaçmadım taleyin yazılarından.
Tonqal qalamışam arzularımdan,
Damla göz yaşınla sönsəm, nə dərdim!
Əriyib oduman xəyal olmuşam,
Mən neçə xəyala sual olmuşam.
Çox-çox suallara mən lal olmuşam,
Dilim sözə gəlsə, dinsəm, nə dərdim!

Sevgiyə bənd olan baş əyməz şaha,
Hər ocağın odu qalmaz sabaha.
Onsuz da göylərdən enirəm daha,
Daşlara dəyməmiş ensəm, nə dərdim!

Gəzir səyyar xəyal hey orda-burda,
Qopur qəlpə-qəlpə, can xırda-xırda.
Ömür xatirəyə dönür axırda,
Şirin xatirəyə dönsəm, nə dərdim!
2010

## BİR GÜL İLƏ YAZ AÇILAR

Bir güllə yaz olmaz – yanlış deyilmi?
Burda lal sözlərin ağzı açılır.
Sən bircə gülümsən, sən gələn kimi
Ömrümün baharı, yazı açılır.
2010

## ÖMÜR ŞİRİN OLUR AZ OLDUĞUYÇÜN

Hər günün, hər ayın müntəziri var,
Sevgi əsiri var, qəm əsiri var.
Güllü baharın da kəm-kəsiri var,
Vurulmuşuq ona yaz olduğuyçün.

İllər arzuların gücünə gəlmir,
Əkinə gələn su biçinə gəlmir.
Adam var, dağ olur, vecinə gəlmir,
Dözür zəmanəyə saz olduğuyçün.
Yaxşı da, yaman da ömrün rəngidir,
Kiçik təpədən də duman-çən gedir.
Naz-qəmzə özü də yolu ləngidir,
Yatır canımıza naz olduğuyçün.

Başımız üstündən dərd şabaş gəlir,
Sellərdə gah çiçək, gah da daş gəlir.
Adam var, gözündən zorla yaş gəlir,
Ağlayır eləcə yas olduğuyçün.

Bax, gör necə dondur, bu çöllər geyir,
Bir gün zümrüd geyir, bir gün zər geyir.
Torpaq ayaq altda qalır, bərkiyir,
Toz qalxır havaya toz olduğuyçün.

Ömrün çöldə gülü, dağda qarı var,
Hər açan çiçəyin deme barı var.
Ömrün min acısı – ağrıları var,
Yenə şirin olur az olduğuyçün

1999

## HALIMA BİR BAX

Ədası, xətası elmindən artıq,
Hər işi allahın zülmündən artıq.
Sağ ikən söz gəzir ölmündən artıq
Alimə bir bax!

Dərd qoyur, yükünü bir millət çəkir,
Millət özü bilir nə zillət çəkir.
Min haqqın üstündən birdən xətt çəkir,
Zalıma bir bax!

Qan ilə qadanın arasındayam,
Sualla nidanın arasındayam.
Zalımla nadanın arasındayam,
Halıma bir bax!
Güllərin içində mən itə billəm,
Bu gülü, çiçəyi incidə billəm.
Bu yolda nə qədər yol gedə billəm,
Gəl, ay falçı qardaş, falıma bir bax!
1999

## BU ÖMÜR DEDİYİN…

Gəldi-gedərdisə – ömür qəribdir,
Hər aya, hər günə qəm süzülübdür.
Bu ömür yolları bir kövrək ipdir,
Üstünə min dənə dərd düzülübdür.
1999

## QOCA – CAVAN

Cavanlar sığışmaz evə-eşiyə,
Qocalar kəm baxar çəmən-çayıra.
Qış adı gələndə qoca üşüyər,
Cavan istilənib çıxar bayıra.
1999

## TƏZADLAR

Ayaq açan gündən insan sürünür,
Su umduğu yerdə buza bürünür.
Baxma ki, üzümdə bir dərd görünür,
Min bir dərd göyərir bir dərd içində.

Namərd yol göstərir, yolu çaşırıq,
Qəmdən qaçıb, qəmə yaxınlaşırıq.
Bir mərdin sözüylə aşıb-daşırıq,
Namərd bizi boğur zülmət içində.

Baxma ki, dilində sözün azaddır,

Gücün var, sözünü yerinə çatdır.
Xoşbəxtlik dünyada quru bir addır,
İnsan ömür sürür möhnət içində.

Fürsət qılınc verir, vurmağa qol yox,
Gerçəkdən bazmişik, şirin nağıl yox.
Bir nöqtə içindən kənara yol yox,
Düşüb çırpınırıq bir hədd içində.

Mən daha neynirəm karsız öyüdü,
Barsız deyə-deyə əydik söyüdü.
İnsanı dünyada sevgi böyüdür,
İnsan batıb-qalıb nifrət içində!

2007

## AXTARA-AXTARA

Gah bir bahar olur, gah da bir xəzan,
Bir suala dönüb, gedir özü də.
İtirə-itirə axtarır insan,
Axırda yollarda itir özü də!

2006

## GÜLMƏYİ SONRADAN ÖYRƏNİB İNSAN

Yorulub həyatın həqiqətindən,
Nağıllar uydurub, əylənib insan.
Qorxmayıb taleyin daş sifətindən,
Dildə nəğmə olub, söylənib insan.

Xəyalı sərhədsiz, çəpərsiz olub,
Həmişə yolunda duman, çən olub.
Özü-öz qəlbindən xəbərsiz olub,
Özü-öz səsindən küylənib insan.
Gecələr gizlənib ağ gündüzündə,
Bəzən çaşıb qalıb çölün düzündə.
Bir allaha dönüb haqqın gözündə,
Nahaqqın dişində çeynənib insan.

Gör neçə ayrılıq düşür araya,
Hərdən bir təsəlli gəlir haraya.

Duyub ağlamaqçün gəlib dünyaya,
Gülməyi sonradan öyrənib insan
2006

### YARAŞDIRIBLAR

Baxdıq baxtımızı yazana ancaq,
Daha ölçünü də qarışdırıblar.
Gülmək çox yaraşır insana, ancaq
Bizə ağlamağı yaraşdırıblar.
2007

### UCALIQ

*Hüseyn Arifə*

Ucalıq şöhrətdir əzəldən bəri,
Amma hər ulduzun öz odu yoxdur.
Gendən alçaq sanma sən üfüqləri,
Geniş üfüqlərin hüdudu yoxdur.

Hər zirvə yaradan əl xalıq deyil,
Zərrədən yuxarı durmaq gərəkdir.
Bil ki, hər zərrədə ucalıq deyil,
Ucalıq əlçatmaz göylər deməkdir.

Zirvədə duran kəs yerə baxdısa,
Zirvədə duranın gücü qurtarır.
Zirvədən yuxarı bir yol yoxdusa,
Demək ucalıqçün ölçü qurtarır.
Kiçicik zamanın burulğanından
Yanan arzusuna heç kəs pis deməz.
Yüksəyi alçaltmaq istəyən insan
Özünü alçaldır istər-istəməz.

Ölçülər dəyişdi, getdi ucalıq,
Biz bir tamah boyu ucarıq ancaq.
Zirvə qurtardımı, getdi ucalıq,
Sonsuzluq deməkdir uücalıq ancaq.
2007

### ÖMÜR DÜŞÜNCƏLƏRİ

Yaş desən, yüz də var, yüz əlli də var,
Bağ desən, güllü də, xəzəlli də var.
Yaxşı ki, dünyada təsəlli də var,
Təsəlli ürəyə bir sığal imiş!

Gülü ya sarmaşıq, ya tikan qucar,
Gül yenə açılar, o qalmaz naçar.
«Bir yandan bağlayan bir yandan açar»,
Demə dədələrin ağzı fal imiş.

Gördüyün saçıma daha çal düşür,
Hər tükün ucundan bir sual düşür.
Sevgidən ürəyə qara xal düşür,
Bu xal həm gözəllik, həm zaval imiş!

Boş qəlbi bəzəməz nə dövlət, nə pul,
Dolu sandıqlara vurular qıfıl.
Sən boş ürəklərə düşün, çarə qıl,
Dolu olduğundan ürək lal imiş.

Yanğı da, alov da bağlıdır eşqə,
Bir dağı yandırar bircə tilişgə.
Füzuli demişkən, eşqdən özgə
Cahanda nə varsa, qeylü-qal imiş.
Neynirəm cənnətdə mən baxam kefə,
Dünyanın nəfəsi yoxsa bir dəfə.
Bu dünya insana hikmət, fəlsəfə,
O dünya eləcə tar-qaval imiş.

Kədər bir çəməndə gül bitiribsə,
Dünyanı sevinqcdən yaxşı görübsə,
Bizi düşündürüb, ağıl veribsə,
Kədər bizim üçün cah-cəlal imiş.

Uyduq sevgilərə, ömür yazına,
Saldıq mehrimizi könül sazına.
Uyduq gözəlliyin tamaşasına,
Ömür də tez ötən bir macal imiş.

Ürəyə haradan elə qəm çökür,
Üstündə min dünya gəzdirir fikir.
Bir ömür muzduna yüz il yük çəkir,
İnsan nə cəfakeş bir hambal imiş.

2009

## KƏNDİM-KƏSƏYİM – ÖMÜR BƏZƏYİM!

Bu necə ayrılıq, bu necə gündür,
Göndər küləyini, könlümü dindir.
Yolun üstündəki palıd şirindir,
Neynirəm qürbətdə palıdı sənsiz.

Gəl məni qınama, demə çaşırsan,
Küskün xəyalımda dumanlaşırsan.
Sən yenə hər bahar cavanlaşırsan,
Ürəyim qocaldı, qarıdı sənsiz.

Tikanın, yovşanın doğmadır mənə,
Dağda kahaların daxmadır mənə.
Həsrətin ən ağır boğmadır mənə,
Könlüm xəstə kimi zarıdı sənsiz.
Bulaqtək gah üzgün, gah da guram mən,
Sənsiz lalam, karam, sənsiz koram mən.
Sənin adın ilə tanınıram mən,
Məni kim axtarıb tanıdı sənsiz.

Gözüm dolub-qalır sən boşalınca,
Quş olmaq istərəm göz yaşarınca.
Yuvalar dağılar mən quş olunca,
Kim kamına çatıb, yarıdı sənsiz.
2009

## DANIŞA BİLMƏZ

Çaylar yaz gələndə kükrəyər, daşar,
Ürək daşan kimi çay daşa bilməz.
Şaxtalı qışda da ocaq tutaşar,
Yaydakı alovla alışa bilməz.

Gün yana, yanğıdan səhra mələyə,
İnanma göy yerə yağış çiləyə.
Soyuq sevgilər də keçər ürəyə,
Ürəyin qanına qarışa bilməz.

Məkan gülə bağlı, gül də məkana,
Ayaq cüt qoyulmaz bir pilləkana.

Sarmaşıq sarışar kola, tikana,
Tikan sarmaşığa sarışa bilməz.

Dağlar səhra olmaz, səhra dağ-dərə,
Güney bağa dönməz, bağ güneylərə.
Tüstü oddan qopub, qalxar göylərə,
Göydə ulduz olub, sayrışa bilməz.

Ömrün hər addımı insana ibrət,
Ən böyük ustaddır işığa zülmət.
Bir ürəkdə yatar sevgiylə nifrət,
Ancaq ömür boyu barışa bilməz.
Bulaq həsrəti var sucaqlığın da,
Öz zirvəsi olur ucalığın da.
Ayrı sevgisi var qocalığın da,
Cavanlıq dililə danışa bilməz.

Demə ömür yolu dolanbac olar,
Həyat aşıb-daşar, ölüm ac olar.
Məzarlar üstündə güllər açılar,
Ölüm həyat ilə yarışa bilməz.

2009

## DÜNYADA

Nə var bu dünyada dünyadan şirin,
Ölsən də, qalsan da dünyadır yerin.
Min bir əfsanənin, min əsatirin,
Budağı göydədir, kökü dünyada.

Səmti dəyişirmi gör heç dünyamız?
Bir qal dünyamız var, bir köç dünyamız.
Bir yer dünyamız var, bir iç dünyamız,
Demək yaşayırıq iki dünyada.

Göydə yox, yerdədir azın, çoxun da,
Göyü yox, görürsən yeri yuxunda.
Çəkin də yerdədir, ağırlığın da,
Qismət ölçüsüdür çəki dünyada.

Qismətin biri tez, birisə gecdir,
Bir üzü qəmdirsə, biri sevincdir.
Haqdan gəlməyirsə işıq, bir heçdir,

Yansa min simurğun tükü dünyada.

Demə ki, dünyanın üzü dönükdür,
Hayıf ki, arzumuz bizdən böyükdür.
Həyat da, ölüm də dünyaya yükdür,
Qalır bu dünyanın yükü dünyada.
Heç odsuz-ocaqsız yanmamısansa,
Sözü işarədən qanmamısansa,
Gözəllik önündə donmamısansa,
Bir daş  doğulmuşam de ki, dünyada.

Bir ibrət almırıq səhv eləyincə,
Dərd artır dərdləri dəf eləyincə,
Milyon il cənnətdə kef eləyincə,
Yüz il yoxsul qallam təki dünyada.
2009

## ÖMÜR MƏNZƏRƏLƏRİ

Daşlara çırpılıb, durular sular,
Bir sözə toxunsa, könül sarsılar.
Çiçəkdən-çiçəyə qonar arzular,
Al-əlvan naxışlı kəpənək kimi.

Bu dünya bir heyrət mənzərəsidir,
Ağrılar bir ömrün dağ-dərəsidir.
Ömür-gün dediyin ov bərəsidir,
Ölüm pusqudadır bir pələng kimi.

Varmı bir əbədi mehribançılıq,
Gah dostluq görürük, gah duşmançılıq.
Həyatda hər addım peşimançılıq,
Dəyir başımıza dəyənək kimi.

Xəyal könlümüzün köhlən atıdır,
Zirvəsi göylərin yeddi qatıdır.
Bircə ümid ömrün mükafatıdır,
Qalıb boynumuzda bir çələng kimi.

Görünməz taledir sahibimiz də,
Boş əllərdən umur boş cibimiz də.
Özümüzdə deyil öz ipimiz də,
Uçuruq göylərdə çərpələng kimi.

Durmuşuq ölümlə nəfəs-nəfəsə,
Onu həyat eşqi salıb qəfəsə.
Ağ baxt verilməyib hələ heç kəsə,
Sən bax ağ rəngə də yeddi rəng kimi.

Bir çinar boy atır bir tum içində,
Bir dən necə artır gör şum içində.
Ömür naməlumdur məlum içində,
Halal-haramı var duz-çörək kimi.

Sabah həm qönçəmiz, həm çiçəyimiz,
O həm yalanımız, həm gerçəyimiz.
Cizlədir üzünü gələcəyimiz,
Gülür üzümüzə bir mələk kimi.

Sevgidir sığmayan çəkiyə ancaq,
Od tutar, bölünməz ikiyə ancaq.
Sevgiyə arxalan, sevgiyə ancaq,
Hər şeydən güclüdür o fələk kimi.
2009

## MƏN DƏ İNSANAM

Fikir çəkməyəni naşı bilirəm,
Özüm bir allaha bəndə insanam.
Həyatda yerimi yaxşı bilirəm,
Arxada bir daşam, öndə insanam.

Qurdlar oylağında qurdalanmasam,
Könüllər mülkündə yurd alammasam,
Zamanın əlində xırdalanmasam,
Göydəki ulduzlar təndə insanam.

İnsanın taleyi min bir naxışda,
Gedirəm, əcəlin barmağı tuşda.
Çovğunda, boranda, qarda, yağışda,
Güneydə, dumanda, çəndə insanam.
Dövrəmdə min dənə yollar dolanar,
Mənim ocağımda öz odum yanar.
Bir addım çıxmaram qəlbimdən kənar,
Bax, mən də belə bir yöndə insanam.

Xəzana dönürəm xəzan görəndə,

Leysana dönürəm leysan görəndə.
Min adam içində insan görəndə,
Onda bilirəm ki, mən də insanam.
2007

## YAXŞI Kİ, KEÇMİŞİ QAYTARMAQ OLMUR

İnsan çaş-baş olar keçmiş qayıtsa,
Yaxşı ki, keçmişi qaytarmaq olmaz.
İnsan keçmişini bir də ayıltsa,
Bu günü sabaha aparmaq olmaz.

Yerində qurulub mizan-tərəzi,
Daşı daş üstündən götürmək olmaz.
Hər günün, hər ayın öz mənzərəsi,
Dövranı dövrana ötürmək olmaz.

Divarda saat da vaxtın quludur,
Yaman narahatdır, vaxt qayğılıdır.

Əqrəbin yerini dəyişmək ilə
Vaxtı tamamlayıb bitirmək olmaz.
Zamanla vuruşub, döyəşmək ilə
Vaxt da qazanıb itirmək olmaz.

Nələrə əl atdıq, könül, nələrə,
Dönüb uca dağlar dümdüz oldumu?
Böldük saatları dəqiqələrə,
Gecələr dəyişib gündüz oldumu?

Meşələr dəyişir öz donlarını,
Kimi danlayırıq, yamanlayırıq.
Biz ancaq zamanın qanunlarını,
Zamana görə də sahmanlayırıq.

Hər saralan yarpaq xəzəl olmayıb,
Hər budaq təzədən kökünə sığmaz.
Hər keçmişə dönən gözəl olmayıb,
Hər keçmişdən qalan bu günə sığmaz.
2009

## XATİRƏ DƏFTƏRİNDƏN

Xatirə elə bir xoş duyğudur ki,
Sevinci, kədəri gərək tən olsun.
Qəlbimdə çırpınan arzum budur ki,
Bu dəftər ən şirin xatirəm olsun.
2009

## EPİTAFİYA

Dünyada nə qoyduq, nəyi apardıq,
Verdik ömrümüzü havayı dərdə.
Bəsdir bu dünyada yaşadım artıq,
Bir az da yaşayım xatirələrimdə.
2009

## MƏNİM ƏQİDƏM

Bəzən səadətə xırda qəm hopur,
Demə ki, səadət qüssədə olmur.
Sevgi atəş olub damardan qopur,
Sevgi bir xəlvəti busədə olmur.

Sözün can-cövhəri söz içindədir,
Odun hərarəti köz içindədir.
Allah hər ürəyin öz içindədir,
Kəbədə, məsciddə, kilsədə olmur.

Uzaqdan yolların ucu görünməz,
Ömürdəki şirin, acı görünməz.
Talelərin taxtı-tacı görünməz,
O hazır pay kimi kisədə olmur.

Bir selə dönsə də gözlərimdə nəm,
Mənimçün həyatdır yenə qüssə-qəm.
Yerdədir dediyin cənnət, cəhənnəm,
Onlar nağda baxır, nisyədə olmur.
2009

## ƏN BÖYÜK ARXA

Qaçma can qayğısından,

Sən qaç can uyğusundan.
Ürəyin duyğusundan,
Bir güclü dalğa yoxdur.

Demə qubardır xəzəl,
O da bir budaq bəzər.
İbrət dərsindən gözəl,
Qulaqda sırğa yoxdur.

Ötüb-gedir ömür-gün,
İllər tarixə sürgün.
Hər şeyə calğa mümkün,
Sevgiyə calğa yoxdur.

Zorlu bir şimşək çaxır,
Könülsüz yağış yağır.
Girov çələngdən ağır,
Boyunda halqa yoxdur.

Dərdi-sər içindəyik,
Ağırdır o yük-bu yük.
Can sağlığından böyük,
İnsana arxa yoxdur.

2009

## TƏK BƏNDLƏR

Taleyin hökmünə bağlıdır çiçək,
Açılır yerində, solur yerində.
Ömürlərin min cür taleləritək,
Min cür taleyi var ölümlərin də.

***

Ağlın özünə də ürək nur saçır,
Zəhər olanı da bala döndərir.
Ağıl gələcəyə cığırlar açır,
Ürək cığırları yola döndərir.

***

Dar gəlir elə bil ürəyə yer, göy,
Bəzən arzunu da tez ötürük biz.
Ölümün üzündən qaça-qaça hey,
Ölümün səmtinə yol gedirik iz.

2009

## VURĞUN ŞAİRİM

*Böyük şairimiz S. Vurğunun xatirəsinə*

Yatdığın məzarda bir qan-qada yox,
Uyu torpağında, yorğun şairim!
Bu dünyada imiş, o dünyada yox,
Sən demə, qan-qada, qırğın, şairim!

Məhşər göydən enib, gora gələrmiş,
Sözün də taleyi qara gələrmiş.
Ölümlər öləndən sonra gələrmiş,
Başlarmış sualın, sorğun, şairim!
Sözün ruha dönüb, hopar məzara,
Necə yaraşarmış bahar məzara.
Sən necə sığışdın o dar məzara,
Alovlu şairim, çılğın şairim!

Söz ta səndən sonra bir heçə qaldı,
Gündüz ötüb keçdi, tək gecə qaldı.
O dünya dediyin beləcə qaldı,
Fikirli, qayğılı, dalğın şairim!

İndi söz soyuqdur, çox soyuq daha,
Sözün yalanlardan gözü tox daha.
Oduna yandığın sevgi yox daha,
Sevgi də solğundur, solğun, şairim!

Çox yalan deyəni yanıltmısan sən,
Sözü allaha da tanıtmısan sən.
Ömrü yox, ölümü yarıtmısan sən,
Sözü tox şairim, dolğun şairim!

Naşılar dolanıb, izindən keçər,
Bu Vətən şeirinin gözündən keçər.
Söz hara dolansa, sözünən keçər,
Daşdan-daşa dəyən durğun şairim.

Sevgisiz bir insan dünyaya yükdür,
Allah eşqə dönən sözə şərikdir.
Məhəbbət könüllü divanəlikdir,
Divanə şairim, vurğun şairim.

Söz canından keçib, fikir qanından,
Üzü ağ çıxmısan haqq divanından.
Yox daha ölümdən qorxun, şairim,
Uyu, rahat uyu, yorğun şairim.
2006

## QİSMƏT

Namərdin yoluna qəm dağılsa da,
Dərdi dağıtmağa fürsəti olur.
Xoşbəxtlik hamının payı olsa da,
Ancaq yamanların qisməti olur.
2009

## BATAN GÜNƏŞ SABAH DÖNƏCƏK YENƏ

Əbədi qurumaz arxın suları,
Göylərdən qar-yağış enəcək yenə.
Dövran yetirəcək Koroğluları,
Koroğlu Qıratı minəcək yenə.

Mərd mərd iş görər, alçaq da alçaq,
Namərdin sifəti dəyişir ancaq.
Qorxaqlar döyüşdən qorxub qaçacaq,
Kolların dibinə sinəcək yenə.

Hər duyan könüldə donub sarı sim,
Bu sarı simləri kim dindirir, kim?
Toz-torpaq içində itən tarixim,
Daşların üstündə dinəcək yenə.

Çiçəklər duracaq tikana qarşı,
Qaranlıq qalacaq günə tamarzı.
Ən böyük ehtiras, ən böyük arzu,
Yanğısı qurtarsa, sönəcək yenə.

Arzular insanı tutur dünyada,
Sonra da insanı udur dünyada.
Ən böyük həqiqət budur dünyada:
Batan günəş sabah dönəcək yenə.
2009

## ZƏMANƏ

Zəmanənin min üzü var,
İnsan adını unudar.
Bir dərya olsa, qurudar,
Bir damcı eyləyər səni.

Səni aldada-aldada,
Verər gül ömrünü bada.
Gah səni döndərər ata,
Gah səni qamçı eyləyər.

Alar əlindən ağrını,
Yaxıb-yandırar bağrını.
Canda bir damcı ağrını
Kəsilməz sancı eyləyər.

Əyri «yol çəkər» düz üçün,
Başdan keçərsən söz üçün.
Bizi öz ömrümüz üçün
Yaman talançı eyləyər.

Zəmanə belədir, tanı,
Haylamaz yolu çaşanı.
Yüz il doğru danışanı
Bir gün yalançı eyləyər.

2009

## ADAMLAR YALANA QAÇIR NƏDƏNSƏ

Min illər demişik elə can şirin,
İnsanı nə kökə saldı pul, görün.
Daşı ləl olsa da lap tamahgirin,
Dolanıb talana qaçır nədənsə.

Ağ tükə satırıq qara tükləri,
Budaqlar çürüdür bəzən kökləri.
Ha vurub-qovursan bədbəxtlikləri,
Saralıb-solana qaçır nədənsə.

İnsan gah gül üzür, gah kol axtarır,
Pulu çox olanlar çox pul axtarır.

Üzdə insan oğlu düz yol axtarır,
Döngəyə-dalana qaçır nədənsə.

Baxmırıq, şahımız ürək olsa da,
Ürək ağlımızdan zirək olsa da,
İnsana həqiqət gərək olsa da,
Dolanıb yalana qaçır nədənsə.

2009

## KEÇ DÜNYADAN

Ömür bir nigaran yuxu,
Dərd içində keçir çoxu.
Öyrən, qardaş, doğruluğu,
Min fənd bilən bic dünyadan.

Xəyal bir dərin quyudur,
Aldadır, səni uyudur.
Zəmzəm dünyanın suyudur,
Zəmzəmi sən iç dünyadan.

Öz ömrünə yaraşıq ol,
Dünya ilə qarışıq ol.
Ömür boyu bir işıq ol,
Zərrə-zərrə keç dünyadan.

Yollar bu dünyada bitir,
Hər şey onun içindədir.
Dünyaya bir sevgi gətir,
Sonra özün köç dünyadan.

Arzu üstündə hey durduq,
Min bir təsəlli uydurduq.
Dünyanı dərdlə doydurduq,
Doyammadıq heç dünyadan.

2009

## MİN DON İÇİNDƏ DƏ ÇİRKİNDİR YALAN

İnsan dəli olur fikir elədikcə,
Demə hər əvvəlin bir sonu da var!

Dünyanın aşikar hökmündən özgə,
Gizli saxladığı qanunu da var.

Yalan ömrü boyu nəf içindədir,
Bir doğru yüxünü daşıya bilmir.
Yalan, aşikarda kef içindədir,
Doğru gizlində də yaşaya bilmir.

Dolanır dünyanı hey min bir yalan,
Tez uçur, yığılıb bir dağ olanda.
Min don içində də çirkindir yalan,
Doğru gözəl olur çılpaq olanda.
2009

## ƏZABLARIN SONU ƏZAB

Fikir-xəyal karvan-karvan,
Dərdi-sərin yolu rəvan.
Yalanların rəngi əlvan,
Həqiqətin donu – əzab.

Haqqın xeyir duası yox,
Günəşin var, şüası yox.
Dərdi-sərin yuvası yox,
Sevincinin qını –əzab.
Əbəs xərc olur kamalım,
Puç olur arzum, amalım.
Hansı arzudan kam alım,
Beşi qəmdir, onu əzab.

Könül otağım dörd divar,
Gülüşün canı qəm-qubar.
Əzabların sonu da var,
Əzabların sonu əzab.
2007

## HƏLƏ QƏLƏM TUTAN ƏLLƏRİM QALIB

Sarbanım yorulub, karvanım gedib,
Kim bilir arxada nələrim qalıb.
Zəmanəm qocalıb, dövranım gedib,
Hələ gecəm qalıb, səhərim qalıb.

Daha keçən günü gəl umma məndən,
Gözümü yığmışam sərvü-səməndən.
Nişanə qalmayıb o göy çəməndən,
Bostanım sovulub, çəpərim qalıb.

Bir hal soruşmağa halım qalmayıb,
Pətəyim uçulub, balım qalmayıb.
Dəymişim tökülüb, kalım qalmayıb,
Demə dal budaqda bəhərim qalıb.

Qocalıq zirvədir, enə bilmirəm,
Bu yol elə yoldur, dönə bilmirəm.
Boğazdan yuxarı dinə bilmirəm,
Boğazdan aşağı qəhərim qalıb.

Olmayan fürsəti necə qapım sən,
İtirdiyim günü necə tapım mən.
Atımı səyridib hara çapım mən,
Yəhəri belində kəhərim qalıb.
İnsanın özündən eşqi güclüdür,
Sevgidən doymursa demə, suçludur.
Ürəyim bir gizli qızıl mücrüdür,
İçində görünməz gövhərim qalıb.

Dolanıb calanır uc-uca dövran,
Cavanlar yorubdur bu qoca dövran.
Qocalıq özü də ayrıca dövran,
Mənim də başqa cür hünərim qalıb.

Deməyin həsrətdir gündüzüm-gecəm,
Sonuncu sınaqdan barı düz keçəm.
Nə qədər yaşasa nəvəm, nəticəm,
Mənim də o qədər qədərim qalıb.

Keçmə babaların daşının üstdən,
Kim bir yaş azaldar yaşının üstdən.
İtim nəvələrin başının üstdən,
Bilim ki, boy atan sərvətim qalıb.

Hər arzum ətirli bir güllə olsun,
Könlün sən istəyən könüllə olsun.
Yetmiş yaş zirvə yo, qoy pillə olsun,

Deyəsən yarımçıq dəftərim qalıb.

Ağasən, haqq dilə, haqdır dirəyim,
El-oba canımdır, dostlar gərəyim.
Hələ tutaş olub yanan ürəyim,
Hələ qələm tutan əllərim qalıb!
2008

## İNSAN NEYNƏMƏZ DAHA?!

Yol gözdən düşəndə azarsan gülü,
Səndə nə can qalar, nə nəfəs daha.
Çirkaba bulaşan təmiz bir qulu,
İnsan ələ alıb iynəməz daha.
Sərxoşun nəşəsi mey oluncadı,
Çəmənin ləzzəti göy oluncadı.
Bədəndə can, cürət key oluncadı,
Elə ki, key oldu, göynəməz daha.

Söz qəlbə güllədən daha bərk dəyər,
Nadan bir söz tapar, əlli il deyər.
Diş dadlı tikəni yüz yol çeynəyər,
Dadsızı otürər, çeynəməz daha.

Dünya sığınmağa bizə künc verib,
Özümüz azmasaq, yolu dinc verib.
Allah ki, insana belə güc verib,
Allahla bir olsa, neynəməz daha.
2008

## DÜNYADA ƏN BÖYÜK BƏXTƏVƏRƏM MƏN

Kimi sinsitsələr, kimi atsalar,
Onu həmdəm bilib mən sevərəm, mən!
Adi bir sözün də min çaları var,
Ürəkdən nə desəm, xoş xəbərəm mən.

Dövlətdən yoxsulam, ülfətdən bolam,
Gül olam, arzumca açılam, kolam.
Bəlkə kiminçünsə açıq bir yolam,
Bəlkə kiminçünsə bir çəpərəm mən.

Əgər yananları yanlayıramsa,
Çaşanda özümü danlayıramsa,
Bədbəxt olduğumu anlayıramsa,
Dünyada ən böyük bəxtəvərəm mən!
2008

## DÜNYANIN QƏRİBƏ QANUNLARI VAR

Dünyanın qəribə qanunları var,
Ağac var, gül açır, meyvəsiz gedir.
Dünyaya növbəylə gəlir adamlar,
Ancaq bu dünyadan növbəsiz gedir.
2008

## ÖLƏNDƏN SONRA

Məni yüz tərif elə, boşdu öləndən sonra,
Bir kərə üstümə gəl, xoşdur, öləndən sonra.

Mənə cənnət şərabı vəd eləmə, ey vaiz,
Ruhuma şəbnəmi-gül nuşdu öləndən sonra.

Xatirəm, bir gül olar, gözdə-könüldə yaşayar,
Xatirə bir köçəri quşdu, öləndən sonra.

Cənnət də, cəhənnəm də bu dünyadadır, ancaq
Yaz da, yay da eləcə, qışdı öləndən sonra.

Sağlığında, Ağasən, külli qohum, dost tapılar,
Taparam əsl qohum, dostu, öləndən sonra.
2009

## DƏRD VAR Kİ…

Dərd var ki, içində dərd təmizlənir,
Tutaşıb od yanar kül üstündə də.
Qızıl saraylarda bəla gizlənir,
Xoşbəxt olan olur kol üstündə də.

Dikbaş olmaq ilə baş göyə çatmaz,
Yola kəc baxanlar yolu qısaltmaz.
Keçəl həmzələri yəhər ucaltmaz,
Koroğlu pələngdir çul üstündə də.

Kötüklər də yanar çör-çöpü varsa,
Ürəkdən ürəyə bir körpü varsa,
Sönməz, yananların od qəlbi varsa,
Körpü salmaq olar qıl üstündə də.

Bu dünya həmişə hey vurhavurdur,
İçi boş olanın sədası gurdur.
Dərə dibində də ağıllı nurdur,
Ağılsız gözünməz yol üstündə də.

Hər azan dostunu dost yola versə,
Gücü qəzəbə yox, ağıla versə,
Hamı bir-birilə qol-qola versə,
Dünyanı saxlayar qol üstündə də.

Ağasən, dərd oldu dərdinə dərman,
Gün gələr, dəyişər yolunu karvan.
Pul üstdə dayanan məkrli dövran,
Bir gün dağılacaq pul üstündə də.
2008

## İNSAN VAR Kİ...

İnsan var, dərd ilə açılır gözü,
Heç bilir dünyanın daş-qaşını o.
İnsan var, yaşamaq istəmir özü,
Yaşatmaq istəyir başqasını o.

İnsan var, gecəyə qatır gündüzü,
Artır dövləti də, artır varı da.
İnsan var, yaşamaq istəyir özü,
İstəmir yaşasın başqaları da.

İnsan var, min arzu dilində əzbər,
Düşündürmür onu ömrün sonu da.
İnsan var, həm özü yaşamaq istər,
Həm istər yaşatsın başqasını da!

2008

## ZİRVƏ BAĞLA YAR

Cənnətməkan olar ümid olan yer,
Yoxsa yollar donar, girvə bağlayar.
İnsana bir zərrə ümid yeri ver,
Zərrənin ucuna zirvə bağlayar.
2008

## DAĞLAR

Daha xar görünür gözümə dünya,
Daha görəmmirəm uzağı, dağlar.
Kimə pir olmusuz, kimə övliya,
Tanrısız, tanrıdan aşağı, dağlar!

Belinizdən uzaq, belim əyildi,
Zəvvarlar çox oldu, yolun yeyildi.
O qədər tərifli sözlər deyildi,
Yığılıb söz oldu söz dağı, dağlar!

Od tutdum, kül oldum, oda qarışdım,
Dərd oldum, dərdimi dərdə danışdım.
Həsrətin güc gəldi, elə alışdım,
Çıxdı ürəyimin cızdağı, dağlar!

Xəyalım dolaşıb, fikrim dağılıb,
Saçlarım üzümə daha ağ olub.
Onsuz da həsrətdən dərdim dağ olub,
Çəkdirməyin mənə göz dağı, dağlar!

Bir gizli od yanır ən içəridən,
Qəlbimə nə deyim, sön içəridən.
Dərdim içəridə, mən içəridə,
Olmuşam özümün dustağı, dağlar!
2008

## QANIN OLSA, QANIM ÇƏKƏR

Deyirsən ki, vətəndaşam,

Vətənimə nə dərd gəlsə,
Canım çəkər!
İnanmıram sənə, qardaş,
Damarında qanın olsa,
Qanım çəkər!

2009

## İNSAN TALEYİ

Göylərdə bir qərib hava dolanır,
Ürək çalxalanır, könül bulanır.
Göydə günəş yanır yerdə yer yanır,
Amma görürsən ki, üşüyür insan.

Bayırdan bir hədə, içdən bir hədə,
Bir qiblə yoxdu ki, gümanım gedə.
Yoxuş çıxanda da, düz gedəndə də
Nəfəsi təngişir, töyşüyür insan.

Dörd yandan üstünə bəla yeriyir,
Ürək nalə çəkir, dilin kiriyir.
Səhər dərd qazanır, axşam qəm yeyir,
Gecələr bu dərdi göyşüyür insan.

Nahaq haqq önündə çökə bilməyir,
Yüz əl sınıq qəlbi tikə bilməyir.
Bir günün dərdini çəkə bilməyir,
Min ilin dərdini daşıyır insan.

Qayalar dağılıb, ta qum olubdur,
Dərd kotana dönüb, can şum olubdur.
Ölüncə göylərə məhkum olubdur,
Axır yenə yerə baş əyir insan.

2008

## NECƏ SIĞIŞIR

Ah-vay ilə keçir ömrün yarısı,
Dərd seli bir çaya necə sığışır?!
İnsan əzabları, insan ağrısı,
Bir haya-haraya necə sığışır?!

Arzu bir qanaddır, güman bir qanad,
Əvvəli həyatdır, axırı fəryad.
İnsan ürəyində yatan kainat,
Bir balaca boya necə sığışır?!

Daha ərşə çıxıb ağıl, mərifət,
Kimdə bir sifət var, kimdə min sifət.
O yanda ülfətdir, bu yanda nifrət,
Sevgi bu araya necə sığışır?!

Qəlbin işığında insan karıxmır,
Sevgiylə çırpınan ürək darıxmır.
Bir insan arzusu ürəyə sığmır,
Ömür günə-aya necə sığışır?!

Demə ki, gedəndən qalanı çoxdur,
Qalanın qəlbində talanı çoxdur.
İnsandan insanın yalanı çoxdur,
Bu yalan dünyaya necə sığışır?!

Hər sevən ürəyin qəm sarayı var,
Hər yanan arzunun hay-harayı var.
İnsanın bir zərrə ömür payı var,
Min arzu bu paya necə sığışır?!
2008

## DÜNYA

Dünya öz yükünü tullaya bilməz,
Bu boyda yük alıb çiyninə dünya.
Torpağa  çirkinlik yollaya bilməz,
Torpaqdan don geyib əyninə dünya.

İnsanın min duyğu yığır könlünə,
Açır gül-çiçəkli cığır könlünə.
Sığır ürəyinə, sığır könlünə,
Heç sığmır insanın beyninə dünya.

Dönür gül-içəyə, qəlbi yuxalır,
Özü yaralanır, özü sağalır.
Bir dövrə içində artır, çoxalır,
Artmır uzununa, eninə dünya.

Dolanır, fırlanır, yellərdən yeyin,
Borcunu hesaba çəkir hər şeyin.
Dəyişir yönünü min-min taleyin,
Fırlanır özü-öz yönünə dünya.

Bu dünya insana könül bağıdır,
İnsan bu gülzara qanlar axıdır.
İnsan bu dünyanı dartır-dağıdır,
Ağlamır insanın gününə dünya.

İnsan sevgisindən nələr dərməyib,
İnsan tamahından nələr görməyib.
Nələr yaratmayıb, nələr verməyib,
Naxələf insanın şəninə dünya.

Dünyanın hər daşı sual yığını,
Bilir öz varını, bilir yoxunu.
Göstərir zorluya allahlığını,
Hərdənbir düşəndə tininə dünya.

Arzu da ondadır, minnət də onda,
Cəhənnəm də ondla, cənnət də onda.
Allah da ondadır, ümmət də onda,
Bay əyməz insanın dininə dünya.
2003

## HÜNƏRMİŞ

Sinəm altda bir od-ocaq tutaşır,
Bir ah ilə həm yanar, həm sönərmiş.
Arzum yanır, suya dönür, su daşır,
Bu su gözdə göz yaşına dönərmiş.

Yola dönüb, heç ömür-gün sürünər,
Gah şəfəqə, gah dumana bürünər.
Allah sözdə, közdə, gözdə görünər,
Gizlin-gizlin ürəklərə enərmiş.

Ürək yurddur, tarixi var bu yurdun,
İstisi də, soyuğu da var odun.
Söz-söhbəti dildən çoxmuş sükutun,

Bir lal baxış dildən yaxşı dinərmiş.

Belə düşüb bu dünyanın binəsi,
Bir səhradır bir insanın sinəsi.
Bu səhrada bircə kibrit dənəsi,
Bir qızıldan çox qiymətə minərmiş.

İnsan oğlu hey yol salır, izləyir,
Bir naməlum xəbər, soraq gözləyir.
Ölüm bizi addım-addım izləyir,
Ölümlə bir yolu getmək hünərmiş!
2008

## BULAQLAR

Daşlarda məhəbbət oyatmaq üçün,
Daşların dibindən sızır bulaqlar.
Tələsir gül olub, boy atmaq üçün,
Dolanbac cığırlar cızır bulaqlar.

Gah palıda dönür, gah yasəmənə,
Oddur sevilənə, oddur sevənə.
Hərdən əl-qol atır çölə, çəmənə,
Hərdən əl-qolunu qısır bulaqlar.

Yanan ürəkləri sərinlədəndə,
Arxların boyunca otlar bitəndə.
Bir qız dodağına suyu yetəndə,
Dönüb damcılara uçur bulaqlar.

Nəğməli suları köçhaköçündə,
Dirilik aparır kollar üçün də.
Coşur, köpüklənir daşlar içində,
Gül-çiçək içində susur bulaqlar.

Üzür köpükləri sonalar kimi,
Zümzümə eyləyir durnalar kimi,
Sevgisi sönməyən analar kimi,
Neçə çöl-çəməni qucur bulaqlar.

Min-min dərd əlində sınan ürək var,
Suallar içində donan ürək var.

Nə qədər tutaşıb, yanan ürək var,
Ürəklərə axa bu gur bulaqlar.

Qafil ürəklərdə sevgi oyadır,
Daşlar sehrlənib səsindən yatır.
Quzu da, ilan da suyundan dadır,
Hamıya yarıyır şır-şır bulaqlar.
2003

## TALELƏR KİMİ

Bir sevgi ardınca dünya sürünür,
Ürəklər alışıb, oda bürünür.
Sevginin həsrəti gendən görünür,
Çəmənlər içində lalələr kimi.

Sevənin ürəyi büllur bir şüşə,
Sevgi bir dərd olur, yanmaq bir peşə.
Ömrün dövrəsndə qalır həmişə,
Günəşin başında halələr kimi.

Gün kimi üzünə gah bulud salır,
Hərdən daş ürəyə qəfil od salır.
Ürəkdə doğulur, gözdə yurd salır,
Aşikar olmayan nalələr kimi.

Sevginin öz dərdi, öz gileyi var,
Onun öz dünyası, yeri-göyü var.
Sevginin ayrıca öz taleyi var,
Görünmür  o biri talelər kimi.
2003

## ÜRƏKLƏR

Bir günəşdir, gizlin axır şüası,
Bir iqlimə uyuşammaz havası.
Min xəyalın, min həsrətin yuvası,
Min ümidin güzarədir ürəklər.

Yerə, göyə sığışmayan hər nə var,
Daşa dönüb, ürəklərə atılar.

Sevinc qəmə, qəm sevincə qatılar,
Yaxşı-yaman bazarıdır ürəklər.

Duyğusu var, ölümdən də qorxulu,
Duyğusu var, ömür boyu yuxulu.
Çox sualın, çox cavabın qıfılı,
Çox tilsimin açarıdır ürəklər.

Bir vurğusu min qurğunu sındırar,
Bir duyğusu min naşını qandırar.
Üzdə olsa, yeri, göyü yandırar,
Yerlə göyün hasarıdır ürəklər.

Dərdi-sərdir bünövrəsi, özülü,
Gizli qalan həm bəmi var, həm zili.
Min kədərin, min sevincin mənzili,
Min arzunun məzarıdır ürəklər.
2003

## OLMAYIB

Hərə bir tərəfdən bir cür gileyli,
Bu cahan heç dürüst cahan olmayıb.
Yamanlar yaxşıdan görübdür xeyri,
Yaxşının üzünə baxan olmayıb.

Bəşər ömrü boyu əl tutb göyə,
Haqqın taleyinə tapılmır yiyə.
Gedənlər bir daha qayıtsın deyə,
Yollara nişanıə taxan olmayıb.

Didib fikir-xəyal bizi qurd kimi,
Könüllər viranə qalıb yurd kimi.
Peşimançılıqdan doğan od kimi,
İnsanı yandırıb-yaxan olmayıb.

Elə hay deməmiş dünya qarışır,
Nahaq suya düşür, suda alışır.
İnsan min illərdir haqdan danışır,
Hələ ki, bu haqqı doğan olmayıb.

Bir ümid üstündə keçir ömür-gün,

İnsanın keçdiyi yol düyün-düyün.
Həyatın yadından çıxanlar min-min,
Ölümün yadından çıxan olmayıb.
2003

## BİR KÖK OLMUŞAM

Yanmağa gəlmişəm, ömür bəhanə,
Ömrümdə Vətənə mən yük olmuşam.
Bir gözəl eşqilə dəli-divanə,
Bir Vətən eşqilə müdrik olmuşam!

Arzum ümman qədər, ürək bir tikə,
Könlümdə təlatüm, dava-mərəkə.
Budaqdım – o qədər əyildim kökə,
İndi özüm bitib, bir kök olmuşam!
1980

## NABƏLƏD OLDUN

Deyirdim sonsuzdur fikir, nə bilim,
Sən gəlib fikrimə axır hədd oldun.
Bu qədər qəlbimdə yaşadın, gülüm,
Bu qədər qəlbimə nabələd oldun.
1980

## SU MURDAR GÖTÜRMƏZ

Qarışıb dövranda daha ağ, qara,
Cahillər aqili girinə çəkər.
Su murdar götürməz, atar kənara,
Cəmiyyətsə onu dərinə çəkər.

Zər çatı bağlanar bir mal başına,
Kim baxar aqilin o çal başına.
Zəmanə sığalı zaval başına,
Qapazı məzlumun birinə çəkər.

Bu dövran cəhənnəm mənzərəsidir,
Hər nə var – dövranın qəsd-qərəzidir.
Bu həyat qəribə bir tərəzidir,

Nisyəni də nağdın yerinə çəkər.
1980

## KİŞİLƏR

Kişilər görmüşük rezin çarıqda,
Beş günlük bir yolu gedib bir günə.
Kişilər görmüşük xarabalıqda,
Min ümid gətirib könül mülkünə.

Kişilər görmüşük ömründə bəlkə
«Dərdim var» deməyib, içindən yanıb.
Kişilər görmüşük çörəklə birgə
Bir eli tərpədən söz də qazanıb.

Kişilər haqqından üz döndərməyib,
Səbrlə aşıblar dərd qalasını.
Kişilər görmüşük, «balam» deməyib,
Çəkib balasının min bəlasını.

Başları sığınıb nimdaş papağa,
Bu başlar içində yatıb xəzinə.
Batıb əl-ayağı toza-torpağa,
Ürəyi gün kimi parlayıb yenə.

Həm vüqarı olub, həm fağırlığı,
Sinəsi bir dava səngəri olub.
Köhnə kişilərin öz ağırlığı,
Bütöv bir dünyanın ləngəri olub.

Büküb bellərini ömrün gərdişi,
Tapdığı qismətə baxıb kiriyib.
Beşcə qarış boyu olan bir kişi,
Gedəndə elə bil bir dağ yeriyib.

Bir dilək yolunda alışıb-sönüb,
Ümid zirvəsindən enməyib, amma
Qismətindən dönüb, baxtından dönüb,
Verdiyi sözündən dönməyib amma.

Dilində vird olub allahın əmri,
Qabarlı əllərlə açıb düyünü.
Bəzən bada verib bütöv bir ömrü,

Kişilər qoruyub kişiliyini.

Rəftarı mənalı, söhbəti duzlu,
Arzusu özündən çox gənc görünür.
Kişilər görəndə torpaqlı, tozlu,
Harınlar gözümdə iyrənc görünür.

Əli daşa dəysə, daş da açar gül,
Ümidi allaha sarı olubdur.
Kişilik onlara quru ad deyil,
Kişilik onlara tanrı olubdur.

Qalıbdır ağzımız daha o daddan…
Daha kişi sözü ikiləşibdir.
O ağır kişilər köçüb dünyadan,
Həyatın mənası yüngülləşibdir.
Mühitin içində adam boğulur,
Yaxşı ki, hələlik kişilər də var.
Qadınlar anadan qadın doğulur,
Kişilər iş görüb kişi olublar.

Allahsız – Kəbələr uçulub gedər,
Kişisiz – çörəyin bir dadı olmaz.
Allahsız – ürəklər puç olub gedər,
Kişisiz – dünyanın urvatı olmaz!
1985

## SÖZ

*Dahi Füzulimizə*

Zəhər ikən birdən dönüb qənd olar,
Pəhləvanlar meydanında fənd olar.
O zaman ki, bir işığa bənd olar,
Yüz illərin dərd yükünü çəkər söz.

Söz üstündə dağlar boyda daş durar,
Alov olar, ürəkləri daşdırar.
Fürsət versən, bir dünyanı çaşdırar,
Bir dünyanın sirrin açıb tökər söz.

Yasaq olsa, baxışlardan oxunar,
Yol tapmasa, boğazına tıxanar.

Deyilməsə, çaylar kimi boğanar,
Bir xılt kimi ürəklərə çökər söz.

Tufan qopar sözlü gözlər baxışsa,
Söz qayıtmaz, bütün dünya yığışsa.
İki düşmən bir söz üstə sığışsa,
Aralıqdan daş hasarı sökər söz.

Görünəcək, ha daş divar çəkələr,
Yanasıdır lap sal buza bükələr.
Şəkər sözdən viran evlər dikələr,
Bir də gördün evlər yıxdı şəkər söz.

Ürəklər var – sözdən yanıb, kababdır,
Könül almaq haqq səsinə cavabdır.
Bir şirin söz sədəqədən savabdır,
Sınan qəlbi bircə anda tikər söz.

Boş ürəyi viran qoyar kasadlıq,
Baş ürəkdə nə qəm olar, nə şadlıq.
Öz taxtından dəbərməzdi azadlıq,
Öz vaxtında deyilsəydi əgər söz.

1998

## OD OCAQDA OLAR

Ürəyim səninçün yad olub qalıb,
Qubara, nisgilə qatılıb qalıb.
Ürəyim bir küncə atılıb qalıb,
Gərəksiz olanmı bucaqda olar?

Sevgi gah ağladar, gah da güldürər,
Arzu yaşadanı arzu öldürər.
Gərəksiz arzunu göz də bildirər,
Gərəkli arzular yasaqda olar.

Bahar da gərəkdir, qar da, qırov da,
Bəlalı olubdur həmişə sevda.
Sevginin bir əli yanır alovda,
Bir əli şaxtada – sazaqda olar.

Sən elə bilmə ki, oddan qaçağam,

Nə qədər ömrüm var, alışacağam.
Gülüm, sən odsansa, mən də ocağam,
Yaxın gəl, axı od ocaqda olar.

Bu dövran kəmfürsət, mənsə utancaq,
Dövrün dərdi-səri yaxamda sancaq.
Xoşbəxtlik xəyaldır, xəyaldır ancaq,
Xəyalsa – həmişə uzaqda olar.
1995

## HEÇ ŞEY İNSAN KİMİ

Nə nifrət yaşayır, nə sevgi xəlvət,
Sən demə, heç onlar üz-üzə durmaz.
Heç şey insan qədər sevgi, məhəbbət,
Heç şey insan qədər nifrət doğurmaz.
1995

## NURDUR BAXIŞLARIN

İlahi baxışlar göylərdən dərin,
Göyərçin gözünün yağışlarında.
Nurdur baxışların, nurdur gözlərin,
Qoy dünya yuyunsun baxışlarında.

Şüşədir ürəyim, bunu bilirsən,
Gəlməsən, könlümə duman, çən keçər.
Gözünün nuruna arxayınam mən,
Şüşəni sındırmaz, şüşədən keçər.
1994

## İTİRRƏM, GÜLÜM

Qorxutmur dünyada məni qəm-qubar,
Hamsını kamala yetirrəm, gülüm.
Qəlbimdə o qədər qəm tünlüyü var,
Bir sevinc gətirsən, itirrəm, gülüm.
1992

## TOZ ZƏRRƏSİ – KAİNAT

Zərrə-zərrə qopar yer kürəsindən,
Toza dönə bilər dağ da, qaya da.
Bu dünya yaranıb toz zərrəsindən,
Sən bir toza da bax, bu dünyaya da.

Yaxşı bax dünyanın mənzərəsinə,
Zərrə yox olursa, dünyadan gedir.
Zərrələr birləşsə, dünyadır yenə,
Dünya ovxalansa, yenə zərrədir.
1992

## OLMAZ

Allah da qaldırmaz könlümü, yıxsan,
Hər könül könüldən xəbərdar olmaz.
Sən odlu könlümə belə soyuqsan,
Niyə deyirlər ki, yayda qar olmaz.

Dəyişməz havamı bu soyuqluğun,
Mən yenə odluyam, mən yenə çılğın.
Mənə min dərd verib sənin yoxluğun,
Niyə deyirlər ki, yoxdan var olmaz.

Daş olub dözürəm bu nisgillərə,
Daş olmuş ürəyin yanmır bir kərə.
Göyə ucalıram, vurursan yerə,
Niyə deyirlər ki, göylər dar olmaz?

Od olar gizlində qalan məhəbbət,
Hər sudan göyərməz solan məhəbbət.
Əzəldən yaralı olan məhəbbət,
Vaxtında gül açar, ancaq bar olmaz.

Doğru söz üstündə dayanar cahan,
Yalanı qorxudan yaradıb insan.
Yalandır insanı xar edib, yaxın,
Yoxsa hər xətadan insan xar olmaz.

Yolum daş olsa da, doğru sözüm var,
Daşdan-daşa dəyib, durular sular.
Yavaş yalandan da qulaq tutular,
Doğru gurlasa da, qulaq kar olmaz.
1994

## GƏLİN GƏLİR

O obadan bu obaya ün düşür,
O qapıdan bu qapıya gün düşür.
İki ocaq bir-birinə yön düşür,
Bir cəvahir dəryasından ayrılır.

Ana qoyub əllərini qoynuna,
Çırmalanıb əldən düşür qaynana.
Şələ düşür təzə bəyin boynuna,
O əzəlki dünyasından ayrılır.

Sevgi kimi şirin olur yuxular,
Yuxu kimi şirin olur duyğular.
İlk gecədən haçalanır qayğılar,
İki cavan röyasından ayrılır.

Ana şirin eyham vurur oğluna,
Oğul gülür, nələr gəlir ağlına.
Gəlin basır gəlinciyi bağrına,
Keçən günün havasından ayrılır.

...Günlər keçir, körpə gəlir cahana,
Şirin-şirin gülüş verir baxana.
Oğul doğan baxır nəvə doğana,
Ana köhnə duasından ayrılır.

İllər keçir, biri namərd, biri mərd,
Arzular var bir-birinə nabələd.
Təzə arzu, təzə sevinc, təzə dərd,
Bir sevginin şüasından ayrılır.
1994

## ULDUZLAR

Biz dünyanın sərhəddindən çıxırıq,
Könlümüzdə göy həsrəti yaşayır.
Ulduzlara biz həsrətlə baxırıq,
Ulduzlarsa yerə baxıb baş əyir.
1992

## NÖVBƏSİZ GEDİR

Hamı təşnə kimi can atır suya,
Yenə də arzu var meyvəsiz gedir.
Hamı növbə ilə gəlir dünyaya,
Dünyadan gedəndə növbəsiz gedir.
1992

## VERDİM ÖMRÜMÜ

Sevincim də oldu, qəmim də oldu,
Ömür həvəsinə verdim ömrümə.
Eşqim yaşa doldu, körpəm doğuldu,
Körpə nəfəsinə verdim ömrümü.

Vaxt oldu, yoluma illər daş atdı,
Mənlə bir yastığa kədər baş atdı.
Ürəyim qəfəsdə məni yaşatdı,
Könül qəfəsinə verdim ömrümü.

Doymadı ömürdən, gündən məhəbbət,
Baxmadı ömrümə gendən məhəbbət.
Bir dünya istədi məndən məhəbbət,
Dünya əvəzinə verdim ömrümü.

Bildim qiymətini bütövün, tamın,
Həmişə ardınca getdim inamın.
Anam məni sevdi, mən də anamın
Körpə nəvəsinə verdim ömrümü.

Hər kiçik düyğuda aləm duyanda,
Arzular sinəmdə od qalayanda.
Arzular ömrümə qiymət qoyanda,
Dəyər-dəyməzinə verdim ömrümü.
1992

## TƏCNİS

Sən bilmədin ürəyimi dərd üzər,
Ürəyimi dövrələdi dərdi-sər.

Qoy mən açım ürəyimi – dərdi-sər,
Yaxında dur,  gendə durub gülüncə.

Bənövşə də, yasəmən də güldülər,
Adam var ki, gül içində güldilər.
Ağılsızlar ağıllıya güldülər,
Gülmədilər gülməliyə gülüncə.

Almaz məni öz yolumdan bir para,
Sənsiz mənim qəlbim olar bir para.
«Gülüm» dedim, sən incidin bir para,
Bilmədim ki, sən incəsən, gül incə?!

Meyl etmərəm ya gül olsun, ya səmən,
Yad gül üçün batmamışam yasə mən.
Özün bahar, yanaqların yasəmən,
Bu dünyada gül görmədim gülüncə.

Mənim könlüm kədər yeyir, qəm udur,
Demərəm də tez ol söndür odu, dur!
Ustadım da bu qəmlərin odudur,
Mən ağlayıb ağlayıram, gülüncə.
1992

## GƏLƏNLƏR – GEDƏNLƏR

Sən həyat eşqinin gücünü gör ki,
Dözür ağlayanlar gülənlər ilə.
Gedənlər dünyadan necə gedir ki,
Yollarda görüşmür gələnlər ilə.

Gedənin yolunu gələn unudur,
Gedənin yolları dönür iz olur.
Gələnlər gedəndən bir xəbər tutur,
Gedənlər gələndən xəbərsiz olur.

Könül zəmisində arzu salar şum,
Daşdan da bir bəhər almaq istəyər.
Hamı bu dünyada ölümə məhkum,
Hamı bu dünyada qalmaq istəyər.
1993

## SƏN İNSAN QƏLBİNDƏ

Ölüm ayağında həyat istəyir,
Qanadsız xəyaldan qanad istəyir,
Sən insan oğlunda cəsarətə bax!

Oğullu utanır oğulsuz üçün,
Ağıllı utanır ağılsız üçün,
Sən insan oğlunda xəcalətə bax!

Yananın yanında alışır, yanır,
Donanın yanında soyuyur, donur,
Sən insan oğlunda ədalətə bax!

Küdurət selini quruda bilmir,
Yüz illik pisliyi unuda bilmir,
Sən insan oğlunda ədavətə bax!

Qadını, ananı asar saçından,
Körpə başı kəsər nəfsi ucundan,
Sən insan oğlunda rəzalətə bax!

Yüz il qəmə yatar, qəmlə oyanar,
Əzabı artdıqca dözər, dayanar,
Sən insan oğlunda əsarətə bax!

Bir heyrət doğurur qoçaqlığı da,
Bir heyrət doğurur alçaqlığı da,
Sən insan oğlunda bu xislətə bax!

1992

## SÜFRƏ

Açdı sinəsini el yığılanda,
Neçə yol açıldı, yığıldı süfrə.
Ortada göründü dolu olanda,
Elə ki, boşaldı, yox oldu süfrə.

Qonaq yola saldı neçə qış, bahar,
Hamının yanında üzü ağ oldu.
Onun şöləsinə gəldi adamlar,
Adam olmayanda o uzaq oldu.

Vaxt oldu üstündə təkcə duz-çörək,
Vaxt oldu üstündə hər nemət oldu.
Süfrələr üstündə düz oldu ürək,
Əl boyda çörəyi qənimət oldu.
Qonaq qabağına o səriləndə,
Könül sındırmadı, ürək sıxmadı.
Ağrılı-acılı günlər gələndə,
Vaxt oldu, günlərlə üzə çıxmadı.

Bəzən neçə yerdən vuruldu yaman,
Ancaq itirmədi öz büsatını.
Şirnisi çor oldu, pendiri sumax,
Ancaq itirmədi süfrə adını.

Baxanda hamıya üzünü tutdu,
Hamının yanında şax durdu süfrə.
Yerdəykən hamını yerə oturtdu,
Qalxanda hamını qaldırdı süfrə.

Üstündə həmişə xeyir-dualar,
Üstündə həmişə bərəkət oldu.
Nə qədər ki, onda halal çörək var,
Süfrəyçün ən böyük şan-şöhrət oldu.

Süfrə ev zinəti, ev yaraşığı,
Süfrənin açdığı min qapı oldu.
Ürəyin taqəti, gözün işığı,
Ellərin müqəddəm mehrabı oldu.

Mərdə qüvvət verib, açıb alnını,
Namərdin başını qarışdırıbdır.
İllərlə «qan» deyən iki qanlını
Süfrə öz başında barışdırıbdır.

Heç kim qalmayaydı süfrəyə həsrət,
Süfrə toxunmasın möhnət daşına.
Süfrələr yaradır məhəbbət, ülfət,
Süfrələr hamını yığar başına.

Xeyir-dualarla süfrə doludur,
Süfrədən baxıblar müqəddəs göyə.
Süfrə müqəddəsdir, süfrə uludur,

Həmişə and içək halal süfrəyə.

Göz dağı görübdür vətən, göz dağı,
Ağrıyır sinəsi burda daşın da.
Süfrətək açılıb Vətən torpağı,
Düşmən oturmasın süfrə başında.

Süfrəmiz açıqdır, qəlbimiz təmiz,
Namərd pusqudadır, mərd də keşikdə.
Baxtımız belədir, bizim süfrəmiz
Pələng də yetirib, siçan, pişik də!
1985

## «ÇAĞIR GƏLSİN DƏN, KOROĞLU»

Viran oldu Çənlibelin,
Yolu basdı çən, Koroğlu!
Sənin yurdun, sənin elin
Viranəyə tən, Koroğlu!

Biz nələr görmüşük, nələr,
Bunu koroğlular bilər.
Çoxaldı keçəl həmzələr
Düşdün bizdən gen, Koroğlu!

Qeyrət ucuzmuş paradan,
Seçmədik ağı-qaradan.
Qeyrət ki, çıxdı aradan,
Neyləyəsən sən, Koroğlu!

Tutub ürəyimi sancı,
Yoxdur dərdimin dilmancı.
Çünki oldun dəyirmançı,
Çağır gəlsin dən, Koroğlu!

Haqmı çəkilib qırağa,
Çırpınırıq sola-sağa.
Torpaqdasan – qalx ayağa,
Göylərdəsən – en, Koroğlu!

Hanı o Qıratın, çapam,
Gedib dəliləri tapam.

Bu dünya dolanır, babam,
Bir də dolan, dön, Koroğlu!
1995

## GÖZƏLLƏŞİRLƏR

Qızlar ürəkləri salırlar oda,
Oğlanlar çarəsiz yanıb-bişirlər.
Qızlar sevənlərdən uzaq qaçsa da,
Sevənlərə baxıb gözəlləşirlər.
1992

## AXTARIR İTİRMƏYƏN DƏ

Dərd desən, özünü dərdliyə qoşur,
Çiynində bir şələ götürməyən də.
Oturub kədərdən, qəmdən danışır,
Başından bir duman ötürməyən də.

Hərə keçən günü bir yerə yozur,
Hərdən ümid gəlir, ümmanlar susur.
Həyatdan dad çəkir, ömürdən küsür,
Hələ ömrü başa yetirməyən də.

Dillənməz ellərə toy gətirənlər,
Pay umar dünyaya vay gətirənlər.
Pay ümmaz dünyaya pay gətirənlər,
Aparmaq istəyir gətirməyən də.
İnsan var baş verib, beyin axtarır,
Yeri alt-üst edir, göyü axtarır.
İtirən bilir ki, nəyi axtarır,
Dərd odur, axtarır, itirməyən də!
1987

## MƏNASI OLUR

Bir gözəl hardasa ərsəyə çatır,
Gəlib bir ocağın sonası olur.
Odlu məhəbbəti həyat yaradır,
Məhəbbət həyatın anası olur.

Daşdan dözümlüdür qəm yeyən ürək,
Ağlayıb, sıtqayıb dərd deyən ürək.
Həyat yollarında bərkiyən ürək
Gəlib bir sevgidə sınası olur.

Həm yanan könüldür, həm duyan könül,
Bir çəmdə dayanmır hər zaman könül.
Ömrün baharında soyuyan könül,
Ömrün payızında yanası olur.

Gəzsə də, arxamca qəm dizin-dizin,
Eşq üçün alışır gecəm, gündüzüm.
Heç yerdə mənası olmayan sözün,
Məhəbbətdə böyük mənası olur.
1986

## BEZƏ-BEZƏ GETMİŞİK

Bu dünyada qəlbimizdən keçəni,
Neçə yerə yoza-yoza getmişik.
Dəyişmişik biz gündüzü, gecəni,
Yana-yana, dözə-dözə getmişik.

Bağlanmışıq gah torpağa, gah daşa,
Haqlı, haqsız biz düşmüşük təlaşa.
Yalanlara yol salmışıq birbaşa,
Həqiqətə aza-aza getmişik.

Doydurmaqçün arzuların gözünü,
Hər kəs gərək tanıtdırsın özünü.
Bizdən qabaq gedənlərin izini,
Biz ayaqla poza-poza getmişik.

Taleyimiz düşübsə nə oyuna,
Biz yıxmışıq bu dünyanın boynuna.
Sığınmışıq bu dünyanın qoynuna,
Bu dünyadan bezə-bezə getmişik.
1986

## GƏLİN SADƏLƏŞƏK TƏBİƏT KİMİ

Həm mehi aləmdir, həm də çovğunu,
Təbiət könlümidə hey alqışlanar.
İldə iki kərə dəyişər donu,
Hər dəfə də ondan könül xoşlanar.

Təbiət min aləm qurar könüldə,
Əl boya torpaqda gül qucaq-qucaq.
Yarpaqlar bir kərə saralar ildə,
Onda da gözəllik yaradır ancaq.

Dəyişməz heç zaman rəngini torpaq,
Bu torpaq daş üstə çiçək bitirir.
Bircə kərə solur ildə bağça-bağ,
Onda da bar verir, bəhər yetirir.

İldə bircə kərə uyuyur, ancaq
Torpağı yatırıb əzizləməkçün.
İldə bircə kərə soyuyur, ancaq
Onda da dünyanı təmizləməkçün.

İldə bircə kərə yarpaq tökülür,
Torpağın qəlbini yumşaltmaq üçün.
Yarpaqlar bir kərə çürüyür, ölür,
Onda da ağacı yaşatmaq üçün.

Durnalar bir kərə köçür vətəndən,
Vətənin eşqini böyütmək üçün.
Bülbül bircə kərə küsər çəməndən,
Hicran yarasını keyitmək üçün.

Təbiətdən ümid gözləyiriksə,
Qoruyaq torpağı bir nemət kimi.
İnsantək yaşamaq istəyiriksə,
Gəlin sadələşək təbiət kimi!

1995

## BİR GÜL İLƏ YAZ AÇILAR

Sənsiz ürəyimdə nə var – açılmaz,
Sən gəldin min təzə arzu açıldı.
Deyirlər, bir güllə bahar açılmaz,

Sən gəldin, ömrümün yazı açıldı.
1987

## YUXU

Ömrü yaşayırıq yuxularda biz,
Ürək gecə-gündüz yanır köz kimi,
Bəzən yuxu kimi keçir ömrümüz,
Yuxularımız isə ömrümüz kimi.
1992

## ÇALPAŞIQ DÜŞƏR

Ömür yollarında belədi qayda,
Çıraqdan uzağa gur işıq düşər.
Səhra suya dönsə, bundan nə fayda,
Yananın payına bir qaşıq düşər.

Hərə bu dünyada bir cür yaşayır,
İtib-batanı da ömürdən sayır.
Yolların içində tapdanar çayır,
Güllərin üstünə sarmaşıq düşər.

Çox sirdaş görmüşük az yaşımızda,
Ürəkdir ən böyük sirdaşımız da.
Sınar gün işığı göz yaşımızda,
Göz yaşı üstünə yaraşıq düşər.

Sahibi kim olur gör gülzar yerin,
Nadana təlx olan mənimçün şirin.
Nədənsə dünyada xoşbəxtliklərin,
Həmişə ünvanı qarışıq düşər.

Ey könül, qismətə heç çatmaz gücün,
Sən deyən olunca başlanar köçün.
Çox yola əl atma yaşamaq üçün,
Çox yol da ip kimi dolaşıq düşər.
1992

## NAMƏRD

Xeyir məclisinə aparsan onu,

Axtarar, şər üçün sorağa düşər.
Hamar bir çəmənə salsan yolunu,
Yenə oğurlanıb, qırağa düşər.

Gecələr gözündə bir yuxu olmaz,
Bir gülün, çiçəyin aşiqi olmaz.
Onun ömrü boyu işığı olmaz,
Kölgəsi həmişə çırağa düşər.

Yaza böhtan atar, qışa çıxartsan,
Daş da zinhar elər, daşa çıxartsan.
Namərdi nə qədər başa çıxartsan,
Sürüşüb yenə də ayağa düşər.
1990

## OLDU

Gül-çiçək bəslədim mən dost yolunda,
Güllər yolu kəsib, bir hasar oldu.
Durdum bir ceyranın qaravolunda,
Həsrəti böyüyüb dərd-azar oldu.

Dərdi-sər gələndə tapır çəmini,
Bəla da axtarır öz həmdəmini.
Göylər dolu tökdü, döyüdü zəmini,
Kolluqlar böyüyüb laləzar oldu.

Yanan əzəl başdan yazıb əmrini,
Gör kimlər yoğurdu kimin xəmrini.
Pislər yaxşıların yedi ömrünü,
Yaxşılar dünyadan tezbazar oldu.

Bilmirəm fələkdə nədir bu hoqqa,
Qatıb-qatışdırır haqqı nahaqqa.
Doyan qarın oldu, qırıldı toqqa,
Gör kim kef eylədi, kim bezar oldu.

Dərdi hər dərd ilə tən tutmaq olmaz,
Yamanı buzla da soyutmaq olmaz.
Bülbülü güllə də ovutmaq olmaz,
Qisməti əzəldən ahu-zar oldu.

Sevincdə nə qədər olsa da qüdrət,
Kədərim veribdir ömrümə qiymət.
Bir ömür vermişdi mənə təbiət,
O da ki, yolüstü bir güzar oldu.
1993

## SAHİB OL SƏN MƏNİM SƏADƏTİMƏ

Gülüm, yandır məni, qoyma dincimə,
Yandır, ürəyimdə bəlkə iz qalar.
Sahib ol sən mənim hər sevincimə,
Yoxsa bu sevincim sahibsiz qalar.

Göz yaşı içirtdim mən həsrətimə,
Ürəyim əhdinə min il düz qalar.
Sahib ol, sən mənim səadətimə,
Yoxsa səadətim sahibsiz qalar.

Sinəmə dağ çəkən bir sözü demə,
Qəlbimdə ömürlük duman-çis qalar.
Sahib ol, sən gülüm, mənim ömrümə,
Gedərəm, ruhum da sahibsiz qalar.

Sənsiz ömrü, günü daşımaq zülüm,
Bu yükü mən hara yetirəsiyəm.
Sahib ol ömrümə, sahib ol, gülüm,
Yoxsa mənə qalsa – itirəsiyəm.
1993

## QANUNLAR

Qanun nə bilər ki, nədir avazım,
Gəlib əyri kəsir düzü yarıda.
Düzlüyə qalsaydı, qanun nə lazım,
Əyrilik yaradıb qanunları da!
Bəşər tarixinin ilk çağlarında,
Hansı günahansa doğuldu qanun.
Səsləndi kimlərin dodaqlarında,
Kimlərin əlində yox oldu qanun!

Qanunlar korşaldır ağlı da bəzən,

Çıxa çərçivədən – yol sonsuz ola.
Əyrilər silinə yer üzərindən,
Bütün bəşəriyyət qanunsuz ola!

Verə tarixlərə qanun sözünü,
İnsanın istəyi qalmaya qında.
Bütün bəşəriyyət tapa özünü,
İnsana məhəbbət qanunlarında!

Gümandan gümana düşməyə həsrət,
Ürəkdə bir dözüm, bir taqət ola!
Bir dövlət yarana – adı «Məhəbbət»,
Gerbi od, himni də sədaqət ola!
1992

## GÖYƏRMƏZ

Payızın qisməti yağış, çisəkdir,
Min leysan töksə də, budaq göyərməz.
Haqqı göyərtməkçün yanmaq gərəkdir,
Göz yaşı tökməklə bu haqq göyərməz.
1993

## DALĞALAR

Dalğa çalxalanar, dalğa sürünməz,
Üsyankar bir aləm yapar sulardan.
Sakit havalarda dalğa görünməz,
Dalğalar yaranıb fırtınalardan.
Coşğun dalğaların öz aləmi var,
O boyda dənizi birdən yırğalar.
Suların qoynunda coşar, çarpışar,
Gəlib sahillərdə ölər dalğalar!
1991

## MƏNİM GÜNDÜZÜM DƏ GECƏLƏR OLUR

Gündüzlər küçələr dərdimdən doyur,
Bilmirsən, gecələr heç nələr olur.
Gecədən keçdimi, evlər uyuyur,

Təkcə oyaq qalan küçələr olur.

Daş yanar, söyləsəm başdan keçəni,
Sevənlər əridir, gülüm, gecəni.
Yanında tanınmaz oluram,.. məni
Mənə tanıtdıran özgələr olur.

Gözlərin ulduzdur, könlümün yarı,
Gündüzlər mən ulduz görürəm barı.
Gecələr görmürəm o ulduzları,
Mənim gündüzüm də gecələr olur!
1991

## PİRƏSURƏ

*Pirəsurə kəndimizdə bulaq adıdır*

Bir qurtum içsəydi suyundan Kərəm,
Sönərdi atəşi, od tutmazdı heç.
Dağların qarıyla dolsaydı dövrəm,
Yanğımı bu qədər soyutmazdı heç.

Allah min dərd verib, min bir də dərman,
Hikmətə nə qanun, eşqə nə fərman.
Belə ki, ovudur məni bu orman,
Bir dünya yığılsa, ovutmazdı heç.
Bir büllur bulaqdır burda hər çüxur,
Suların daşlardan qaynayıb çıxır.
Üstündə ölüm də, dərd də karıxır,
Bu hökmü Loğman da unutmazdı heç.

Sən bir can cövhəri, sən bir xəzinə,
Uşaq da, qoca da tapınıb sənə.
Günəşin üstündən axsaydın, yenə
Günəş də suyunu qurutmazdı heç.

Burda nadana da vergi verilər,
Koroğlu ruhuna dəysə, dirilər.
Ölüm qiymətini bilsəydim bilər,
Yapışıb yaxamı qəm yırtmazdı heç.

Təbiət beləcə qurulmasaydı,
Sular yerdən sızıb durulmasaydı,
Yer altında belə nur olmasaydı,

Bəlkə insanı da yer udmazdı heç.

Burda çox görmüşəm səndən doyanı,
Hayıf, az görmüşəm səni duyanı.
Gözəlliyə baxıb yarımayanı
Allahın özü də yarıtmazdı heç!
1991

## KƏND YOLLARI

Çəkilibdir dağ belinə örkən kimi,
Gah yox olur, gah görünür yelkən kimi.
Boylandıqca göz aparır kənd yolları.

Ümidlidir yoxuşu da, enişi də,
Nabələdçün dərdə dönməz dönüşü də.
Təzə-təzə iz aparar kənd yolları.

Doyunca bax, sağı şirin, solu şirin,
Bu yollarda xəyalın da yolu şirin.
Şirin-şirin söz aparar kənd yolları.

Kənd çayının qırağında qırılsa da,
Daralsa da, əyilsə də, burulsa da,
Son mənzilə düz aparar kənd yolları.
1991

## KİŞİLƏR GƏLDİ DÜNYAYA

Kişilər gəldi dünyaya,
Kişilik edib getdilər.
Bir söz dedilər dünyaya,
Bir söz eşidib getdilər.
Cahillər gəldi dünyaya,
Dünyaya dəyib getdilər.
Kişilər sevən dünyanı
Doyunca söyüb getdilər.
Kişilər ümid gətirdi,
Cahillər yeyib getdilər.
1992

## ŞÜBHƏ

Şübhə qədər tez göyərən ağac yoxdur,
Göyərdisə, solmağına əlac yoxdur.
1991

## İNSANA BORCLUSAN, DÜNYA

Gedən də sən, qalan da sən,
Sən iki uclusan, dünya!
Verən də sən, alan da sən,
Sən belə suçlusan, dünya!
Can vermisən, böyütmüsən,
Böyütmüsən, üyütmüsən.
Belə kamala yetmisən,
Sən belə güclüsən, dünya!

Alovlar yağdı üstünə,
Bəşər kor oldu tüstünə.
Başın nələr çəkib yenə,
Başı qaxınclısan, dünya!

Tələ qurub, tələsmisən,
Verdiyin candan bezmisən.
Min-min ömürdən kəsmisən,
İnsana borclusan, dünya!
1992

## DEMƏ BELƏ OLURMUŞ

Yandım, bu yanğıdan qaça bilmədim,
Nə şirin olurmuş bu yanmaq demə.
Utandım, dərdimi aça bilmədim,
Yanğıdan olurmuş utanmaq demə.

Yanğının da tərsi, avandı varmış,
Od var ki, yıxarmış, od var qurarmış.
Dərdi damcı-damcı damızdırarmış,
Bir şirin xəyala dadanmaq demə.

Kül oldum, istimi aldın külümdən,
Ümid zərrəsini saldın əlimdən.

Hər nə qazandımsa, aldın əlimdən,
İtirmək deməkmiş qazanmaq demə.

Mənimçün atəşin ən nurunu seç,
Yandıra-yandıra ürəyimə keç.
O boyda Füzuli usanmadı heç,
Çətinmiş sevdadan usanmaq demə.
Sındırdın könlümü, çarən budumu?
Sındırdın, yollara yaydın odumu.
Budadın, göyərtdin qol-qanadımı,
Göyərmək üçünmüş budanmaq demə.

Şirin xəyallara açdım qolları,
Bir də göz açdım ki, ömür tən yarı.
Aldana-aldana getdim yolları,
Nə şirin olurmuş aldanmaq demə.

1992

## MƏHƏBBƏT

Sevinci qanadlı, dərdi piyada,
Ondan yarısan da, yaralanarsan.
Bir odlu köynəkdir sevgi dünyada,
Geyməsən – donarsan, geysən – yanarsan!

1992

## EL TAPAR

El-obanın ocağından ayrılan,
Dönüb gəlsə, od yerinə kül tapar.
Özgə yurdda yuxusundan ayılan,
Nalə çəkər, gözlərində sel tapar!

Biganələr sevgi ummaz dünyadan,
Hər işıqda yolu görməz hər nadan.
Ağıllılar dürr çıxardar dəryadan,
Ağılsızlar qəvvas olsa, lil tapar!

Dağda qalmaz dağın qarı, boranı,
Yağış umur boz çöllərin şoranı.
Dağ olsa da, dağ unutmaz aranı,

Dağ selləri nə itirsə, çöl tapar!
Meylim çəkib mey olunca şüşədə,
Zərrə olam naxış vuran təşədə.
Bir qarışqa yol tapmasa meşədə,
Zənn eləmə bu yolları fil tapar.

Çiçək var ki, ona daşdan çarə var,
Çöllər var ki, ona qışdan çarə var.
Əl itirsə, yenə başdan çarə var,
Baş itirsə, inanma ki, əl tapar.

El yolunda daş da olsan, bitərsən,
Eldə ayrı bir gün bada gedərsən.
Əl içində qorusalar, itərsən,
El içində itənləri el tapar.

Eldən ayrı acı ollam, bal olsam,
El nəfəsi yetişdirər, kal olsam.
Ağrımaram, el yolunda lal olsam,
Harda olsam el mənimlə dil tapar.
1992

## SEVGİM – NİFRƏTİM

Təkcə sevgi üçün doğulmur ürək,
Bəzən nifrətlə də qəlb təmizlənib.
Güclü bir nifrətim vardırsa, demək,
Ürəkdə bir güclü sevgim gizlənib.
1994

## ODUMU GİZLƏTDİN

Mən tamarzı qaldım şirin dilinə,
Qovruldum ləpətək qabıq içində.
Mənim ürəyimi aldın əlinə,
Sən odu gizlətdin pambıq içində.
1994

## FİKİR LÖVHƏLƏRİ

Dünya şərik olur verdiyi paya,
Bu dünyanın üzü gör necə bərkdir.
Məni mənim üçün solduran dünya,

Məni özü üçün göyərdəcəkdir!

Arzuya, ümidə bel bağlayırıq,
Gözləyə-gözləyə vaxt çatır sona.
Sağ ikən torpağı ayaqlayırıq,
Ölənə arxamız söykənir ona!
1993

## YAMAN GÜNLƏR

«Yaman günün ömrü az olur» dedik,
«İnsan zəmanəyə saz olur» dedik.

Gərdik sinəmizi dağ-düyünlərə,
Arzumuz çox oldu, fikrimiz dərin.
Həsrət çəkə-çəkə yaxşı günlərə
Uzatdıq ömrünü yaman günlərin.

Səpildi yollara illər qum kimi,
İtirdik gərəkli izi dünyada.
Yalançı səadət bir ilğım kimi,
Aldatdı həmişə bizi dünyada.

İllərlə yol getdik sirdaşımızla,
Ürək yenə qaldı bağlı qututək.
Yaman günlərimiz göz yaşımızla
Sulandı, göyərdi payız otu tək.

Səadət görünmür gözə can kimi,
Hər yaxın olana əl çata bilməz.
İnsan öz-özünü aldadan kimi,
Bir dünya yığılsa, aldada bilməz.
Zəhərə qatırıq bəzən şərbəti,
Nə səhra görürük, nə çəmən-çayır.
Yaxşı gün hardasa gizli, xəlvəti,
Yaman günlər üçün yer rahatlayır.

Yadıq özümüzə əzəldən bəri,
Təkcə xəyal ilə nə mümkün oldu?
Bölüşdük hamıyla yaxşı günləri,
Özümüzə qalan yaman gün oldu.

Bizi şirin xəyal elə udur ki,

Əldə olanı da atırıq yerə.
Dünyada yaxşı gün elə odur ki,
Öyrəşə biləsən yaman günlərə.
1993

## ÖMÜR YOLU

Tapdığı qismətdən bir az dadmamış,
Ömür bir gecəlik yanan şam oldu.
Arzusu ürəkdə dilə çatmamış,
Yolu başa çatdı, vaxt tamam oldu.
1993

## GEDƏNLƏR – GƏLƏNLƏR

Sən həyat eşqinin gücünü gör ki,
Dözür ağlayanlar gülənlər ilə.
Gedənlər dünyadan necə gedir ki,
Yollarda görüşmür gələnlər ilə.

Gedənin yolunu gələn unudur,
Gedənin yolları dönür, iz olur.
Gələnlər gedəndən bir xəbər tutur,
Gedən gələnlərdən xəbərsiz olur.
Könül zəmisində arzu salar şum,
Daşdan da bir bəhər almaq istəyir.
Hamı bu dünyada ölümə məhkum,
Hamı bu dünyada qalmaq istəyir.
1992

## HƏYAT YUXUDUR

Nabələd adama çöp də qorxudur,
Sağ ikən çox şey görmür gözümüz.
Ölüm yox, həyatın özü yuxudur,
Ölüm gələn zaman ayılırıq biz.
1993

## ÖMÜR ŞƏRİKİ

Adam var payından özgəyə qıymır,
Doyunca yeməkçün təklik axtarır.
Bu adam ömürdən, gündən də doymur,
Ancaq ömrü üçün şərik axtarır.

Şərik tapılanda pay azalsa da,
Ürəyi şəriksiz xoş etmək olmur.
Ömrümüz çox şirin nemət olsa da,
Onu təkbaşına nuş etmək olmur.
1998

## QİYMƏT VERSƏK

Bəzən öz qiymətin görünmür gözə,
İnsanın özünə çox şübhəsi var.
Zərrə qiymət qoysaq öz-özümüzə,
Özgə bu qiyməti beş qat artırar.
1998

## DÜNYA ARXAMIZDIR

Arxasız dinmədi, arxalı qızdı,
Arxalı bilmədi bir gün soyuyar.
Dünya həm dirəksiz, həm arxasızdır,
Gör ona nə qədər arxalanan var.
1998

## İNSANIN ƏL İZİ

Ölümlər gələndə özümüzü yox,
Arzunu, əməli alır dünyada.
Deyirəm, insanın ayaq izi yox,
Əllərinin izi qalır dünyada.
1997

## KƏSİLMƏZ

Çox da mənim ürəyimdə qubar var,
Qubarımda dağlar boyda vüqar var.
Nə qədər ki, qışdan sonra bahar var,

Bülbül səsi budaqlardan kəsilməz.

Bülbül olduq, sevəmmədik qəfəsi,
Hər obamız bir cənnətin əvəzi.
Gözəllərin sudan duru nəğməsi,
Sərin-sərin bulaqlardan kəsilməz.

Çeşmə gözü düşmən gözü çıxardar,
Gözəlliyim düşmənimi çoxaldar.
Nə qədər ki, dağlarımda maral var,
Güllə səsi bu dağlardan kəsilməz.

Zəvvarıyıq bir müqəddəs torpağın,
Öz odu var burda qarın, sazağın.
Min il əvvəl yandırılan ocağın,
Qızartısı yanaqlardan kəsilməz.

Şirin dilli, xoş avazlı sonam var,
Bircə sözdən Kərəm olub yanan var.
Nə qədər ki, Vətənim var, annam var,
Ana dilim dodaqlardan kəsilməz.

Adım hələ el yanında xar deyil,
Ürəyimdən keçən yollar dar deyil.
Nə qədər ki, dünya hələ kar deyil,
Haqqın səsi qulaqlardan kəsilməz.

1998

## BİR GÜNAH İŞLƏTDİM

Bir günah işlətdim, saxla yadında,
Alışdır sinəmi, oda bas məni.
Elə yanıram ki, sənin odunda
Cəhənnəm odu da yandırmaz məni.

İçdim gözündəki nur çeşməsindən,
Yaman borca düşdüm, minnətə düşdüm.
Yandım bu dünyada yandığımı mən,
Bəlkə o dünyada cənnətə düşdüm.

1998

## GÖZ YAŞI – CAN YANĞISI

Ürəyi yananda ağlayır insan,
Alışa-alışa ömür-gün sürər.
Göz yaşı doğulur can yanğısından,
O, can yanğısını necə söndürər?
1998

## NƏ XƏBƏRİN VAR

Min bir günahı var könül yıxmağın,
Sənin öz ovundan nə xəbərin var?
Qıyğacı-qıyğacı gizlin baxmağın,
Aşkar alovundan nə xəbərin var.

Sən mənim könlümə canımdan yaxın,
Ev yıxan, ev tikən cilvələrin var.
Gülüm, aşkar-aşkar oda yıxmağın,
Gizli yarasından nə xəbərin var.

Gizli də, aşkar da bir varlıqdadır,
Od həm gözündədir, həm iliyində.
Hər şeyin qüdrəti aşkarlıqdadır,
Eşqin qüdrətisə gizliliyində!
1998

## MƏNİ BƏXTƏVƏR EYLƏMƏ

Ömrüm gecəyə öyrəşib,
Gecəmi səhər eyləmə.
Könlümə dadlı qəm düşüb,
Vurub dərbədər eyləmə.

Yanmasam, yolu çaşaram,
Özüm qaynayıb daşaram.
Gördün oda tutaşıram,
Mənə heç xəbər eyləmə.

Dərddən kövrək bir simim yox,
Dərddən şirin tilsimim yox.
Xoşbəxtliyə dözümüm yox,
Məni bəxtəvər eyləmə.

1998

## ÖLMƏK BORCUM

Min sevinc itirib, mən qəm yemişəm,
Danmışam sevinib-gülmək borcumu.
Yaşamaq borcumu ödəməmişəm,
Mən necə ödəyim ölmək borcumu.
1998

## ÖMRÜMÜN SONUNDA

Yollarım yorulmaz, məni yormayın,
Ölüm qollarımı bağlaya bilməz.
Ömrümün sonunda daş basdırmayın,
Bu daş yollarımı saxlaya bilməz.
1992

## YAŞAMAQ OLMAZ

Dünya yarı sudur, yarı da torpaq,
Həmişə hər yerdə kef-damaq olmaz.
Heç kim gedə bilməz qismətdən qabaq,
Coşub-çağlamaqla könül çağ olmaz.

Danışan danışıb, yeyənlər yeyib,
Lüt qalan lüt qalıb, geyənlər geyib.
Hər asta gedənə günahkar deyib,
Hər yeyin gedənə oxşamaq olmaz.

Canımız dünyada nə qədər sağdır,
Gözümüz dünyaya şax baxacaqdır.
Can geri gedirsə, cəhdin nahaqdı,
Ömür paltar deyil, yaş yamaq olmaz.

Dünya sualdısa, ömür cavabdır,
Dünyaya ümidlə baxmaq savabdır.
Hərəni n öz yükü özünə babdır,
Hər izafi yükü daşımaq olmaz.

Gücsüzü ovlayır hörümçək toru,

Gecənin vəhmi var, gündüzün nuru.
Dünyadan pay umma, özünü qoru,
Özgə payı ilə yaşamaq olmaz.
1992

## SAAT

Ömrümüzdən gedir hər dəqiqəsi,
Gələnçün ucuzdur, gedənçün baha.
Zamanın səsidir saatın səsi,
Bizi tələsdirir sərvaxt olmağa.

Saatdır zamanın vurğusu, qəlbi,
Ömrü haqq-hesaba salan saatdır.
Deyirəm saatın iki əqrəbi
Zamanı uçurdan iki qanaddır.

Əqrəblər qayçıdır, dolanmır əbəs,
Zamanı doğrayır, gümanı kəsmir.
Əqrəbin böyüyü – məntək təngnəfəs,
Kiçiyi – balamtək hələ tələsmir.

Əqrəblər bir baxır xeyrə, şərə də,
Nə dərdinə qalıb, nələr olacaq.
Əqrəblər dolanır özü dövrədə,
Bizi dövrəmizdən çıxarır ancaq.

Əqrəbin həmişə biri qabaqdır,
Onlar əbəs yerə belə ötüşməz.
Əqrəbin biri vaxt, biri də baxtdır,
Həmişə ikisi üst-üstə düşməz.

Əlim daşdan olsa, qolum da tuncdan,
Əlim də acizdir, dilim də laldır.
Əqrəblər qayçıdır, elə bir ucdan
Ömür yolumuzu kəsib qısaldır.

Anlar arasında canlar qalsa da,
Arzu ötən anı haxlaya bilməz.
Əqrəblər yanlaşıb haça olsa da,
Zamana güc verib saxlaya bilməz.

Əqrəblər tələsir, könlüm qabarır,
Bu cansız saatın can nə vecinə!
Vaxtı olmayanlar ana yalvarır,
Vaxtı olanların an nə vecinə.

Narahat baxıram mən saatıma
Əqrəblər dərdimə niyə ilişmir.
Kimləsə görüşmək düşür yadıma,
Kimdənsə ayrılmaq yadıma düşmür.
1992

## PAYIZIN SON YARPAQLARI

Bir qoca qovağın dal budağında,
Söykənib budağa yarpaq çırpınır.
Yarpağı itirmək vahiməsindən
Qoşulub yarpağa budaq çırpılır.
Bir az da budaqda yaşamaq üçün
Həyat nə şirinmiş bu yarpaq üçün.
Sığınıb sonuncu gücə, çırpınır.
İlahi, bu yarpaq necə çırpınır.
İlahi, vaxt keçsin qoy asta-asta,
Qovağın altında xəzəl yığını…
Yaşat bu budağı hələ bir az da,
Bir də sübut eylə allahlığını.
2006

## DAHA TƏSƏLLİ DƏ YOXA ÇIXIBDIR

Bir şah dövran vardı, sözüm şax idi,
Ta necə bənzədim şaha özümü.
Təsəllim – özümü aldatmaq idi,
Aldada bilmirəm daha özümü.

Daha itirmişəm rahat yerimi,
Bir qara gümanla bir ağ saçım var.
Həqiqət daş olub, üzüb ömrümü,
Şirin nağıllara ehtiyacım var.

Min yoldan birini seçdi həqiqət,
Bir yaman dərd olur düşəndə bəndə.
Adicə sözddürsə, heçdir həqiqət,
Dönüb allah olur gerçəkləşəndə.

Nədənsə həqiqət bizdən qaçaqdır,
Kimə qul olub ki, bizə görünmür.
Dedik, hər şey yalan, tək allah haqdır,
O da baxtımızdan gözə görünmür.

Təsəlli-həmişə ömrün baharı
Ümid qaya çapıb, ümid daş yarıb
Təsəlli-dünyanın ən zəngin varı,
O da üzülübsə dünya qurtarıb.

Xəyal köhlənində min səmtə çatdıq,
İndii ümid var ki, o, fərli olsun.
Tutaq ki, bir təzə təsəlli tapdıq,
Nəyə bağlayaq ki, təpərli olsun.

Elə bil haqq ilə nahaq səsləşib,
Zamanın əlində haqq qırıq-qırıq.
Köhnə təsəllilər gərəksizləşib,
Təzə təsəlliyə don tapammadıq.

Biz görən dünyanın zamanı keçdi,
Ümid uydurmağın mənası yoxdur.
Köhnə təsəllinin dövranı kedi,
Təzə təsəllinin binası yoxdur.

Nahaq haqq üstünə möhür qoyubsa,
İnsanı yalanla doydurmaq olmaz.
Bir zərrə işığa bənd olmayıbsa,
Bir zərrə təsəlli uydurmaq olmaz.

Haqq daha itirib kəsərini də,
Ha otur gözlə ki, təzə haqq gələr.
Yenə yoxsul tapır təsəlini də,
Varlı yoxsullaşsa, çatlayıb ölər.

Vaxt gəlir, yolları duman-çən kəsir,
İnsan ocaq olub, köz əlləşdirir.
Var-dövlət gizlicə ömürdən kəsir,
Ümid ömrü-günü gözəlləşdirir.

2006

## GÖZÜNDƏN ÇIXIR

Sözü qaynadırsan ürək içində,
Ürək sözə baxmır, sözündən çıxır.
Tufan-qar içində, külək içində,
Ayaq cığırından, izindən çıxır.

Donub damarında qan ki, yoruldu,
Bütün ömrün, günün sanki yoruldu.
Bədən ki, qurudu, can ki, yoruldu,
Taqətin sıyrılıb, dizindən çıxır.

Bir ocaq bənd olar bir çöl-çöpünə,
Şələ var ki, sığmaz şələ ipinə.
Atırsan ürəyin dərin dibinə,
Dərdin yenə sızıb gözündən çıxır.
Fikir çöl-bayırdan yığışmayanda,
Quruyan çəmənə su qoşmayanda.
Dolub, öz-özünə sığışmayanda,
İnsan aşıb-daşır, özündən çıxır.

2006

## PAYIZ XƏZƏLLƏRİ

Hələ qar görünmür, hələ şaxta yox,
Baxıb xəzəllərə üşünürəm mən.
Bir xəzəl görəndə ölüm haqda yox,
Ancaq həyat haqda düşünürəm mən.

2006

## TƏBİƏT

Təbiət qurtarmır, iş görür hələ,
Varlığa başqa don geydirmək üçün.
Yarpaqlar budaqda dönür xəzələ,
Bir də təbiəti sevdirmək üçün.

2006

## ŞƏR QALİB GƏLİR

Şirin nağılları biz uydurmuşuq,

İgid qalib gəlir, ər qalib gəlir.
Xəyal dünyasında meydan qurmuşuq,
Axırda nər oğlu nər qalib gəlir.

Bəli, haqq deyilən bir hayan da var,
Deyilən düz sözü düz sayan da var.
Zəri basıb keçən, tapdayan da var,
Amma çoxlarına zər qalib gəlir.

Arzu göyərməmiş, qında ölürsə,
Ürək çapalayıb qanda ölürsə,
Bütün doğulanlar sonda ölürsə,
Demək bu dünyada şər qalib gəlir.
2006

## BELƏCƏ

Xəzəllər torpağı necə çığınıb,
Bir zaman göyərən solar beləcə.
Zəmanə zirvəyə qaldırdığını
Ayaq altına da salar beləcə.
2006

## BU YARPAQ

Bu yarpaqda hələ sevgi, naz qalıb,
Onun yaşıl köynəyinə baxıram.
Bu yarpağın solmağına az qalıb,
Ona yaşıl deməyə də qorxuram.
Ayaq altda yarpaqlar var sapsarı,
Torpaq olub gözləyəcək baharı.
Sarı yarpaq göyərəcək yenə də,
Yaşıl gözlə baxacaqdır mənə də.
Bu saralmış yarpaqlara baxıram,
Sarı yarpaq deməyə də qorxuram!
2006

## AYIRIN TORAQDAN, XƏZƏLDƏN MƏNİ

Sığmaram sevgimlə yerə, göyə mən,

Haqq belə yaradıb əzəldən məni.
Hopmuşam gözələ, gözəlliyə mən,
Tapın gözəllikdən, gözəldən məni!
Baxıram tikana, gülə – həyatdır,
Baxıram dərəyə, çölə – həyatdır.
Mənimçün ölüm də elə həyatdır,
Bu həyat eşqidir közərdən məni.

Ürəyim od ilə yazılmış kitab,
Gəl aç, istədiyin diləyini tap.
Çöp olsam mən haqqın nəzərində lap
Min göz sala bilməz nəzərdən məni.

Baxın ürəyimə, nəyim var, budur,
Məhəbbətim qədər qəlbim yer tutur.
Bir sadə qələmim haqq qılıncıdır,
Bircə nahaq salar kəsərdən məni!

Yoxu var, varı da heç bilirəm mən,
Əriyə-əriyə kiçilirəm mən.
Bu gün o xəzəldən seçilirəm mən,
Sabah sən gəl ayır xəzəldən məni.

2006

## ADAM VAR Kİ…

Qəribə, qəribə yaranıb həyat,
İnsanı insana ülfəğt yaşadır.
Adam var – üzünə baxmaq mükafat,
Adam var – üzünə baxmaq cəzadır.

2006

## BƏDGÜMAN EYLƏR

Puçdur var-dövlətə satılan ismət,
Bir gün yiyəsini peşiman eylər.
Bu qoca dünyada belədir qismət,
Nökəri qaldırıb birdən xan eylər.

Evin kimi şirin hansı künc olar,
Ağıllı kədərdə həm sevinc olar.
Həyat eşqi olan özü dinc olar,

Həyatdan qaçanlar nahaq qan eylər.

Qara niyyət üçün ayıq yatmağı,
Vətəni mal bilib yada satmağı,
Dövlətdən dəm vurub pul oynatmağı
Nadanlar özünə şərəf-şan eylər.

Ömür sular kimi gedir birbaşa,
Ölümdən savayı kim baxır yaşa?
Adam var canını döndərər daşa,
Adam var daşı da döyüb can eylər.

Bil ki, asılıdır yer, göy sözündən,
Axır gəlir keçir hər şey sözündən.
Adam var, adamın bir çiy sözündən
Bütün sevgisini bədgüman eylər.

Sən dönmə yolundan, görsən də sərtdir,
Namərdi yola çək, mərd elə mərddir.
Özünə xəyanət – dəhşətli dərddir,
Bil ki, səni sənə o düşmən eylər.
2006

## ZƏHƏRİ DƏ VAR HARDASA

Dünya zülmətə dönsə də,
Səhəri də var hardasa.
Lap günəş özü sönsə də,
Bənzəri də var hardasa.

Vardır hər şeyin öz yeri,
Gedən var – qayıdır geri.
Ölüncə gülsə lap biri,
Qəhəri də var hardasa.
Dünya müəmmadır düzü,
Özünə öyrədir bizi.
Çiçək açıbsa daş özü,
Bəhəri də var hardasa.

Həyat bir ömür yuxusu,
Hərənin tale ulduzu.
Demə bu yabı ilxısı,
Kəhəri də var hardasa.

Dünya yoldur, gəlib keçək,
Arzu zəmidir, gəl biçək.
Ətir saçırsa bir çiçək,
Cövhəri də var hardasa.

Dünya həm naşı yetirib,
Həm ağıl – başı yetirib.
Dağlar ki, daşı yetirib,
Gövhəri də var hardasa.

Min olsa qohumun, yadın,
Ürəkdə qalır fəryadın.
Bu qədər şirin həyatın,
Zəhəri də var hardasa!

2006

## ŞAHDAN QABAQDIR

Başın salamatdı, varın yoxdusa,
Demə, var həmişə yoxdan qabaqdır.
Uca zirvələri vulkan yıxdısa,
Balaca təpələr dağdan qabaqdır.

Hər halal zəhmətin duz-çörəyi var,
Çılpaq dağların da daş-dirəyi var.
Demə, bu dünyada acın nəyi var,
Ac boğsa nəfsini toxdan qabaqdır.
Pas atar ürəkdə hey kin olanda,
Ürəkdə paxıllıq sakin olanda,
Var-dövlət arada hakim olanda,
Nahaq beş günlüyə haqdan qabaqdır.

İnsan məhəbbətə ac olur əvvəl,
Məhəbbət həyata tac olur əlbət.
Ağac var, gülləri açılır əvvəl,
Çiçək var, yapraqdan, şaxdan qabaqdır.

Baxtından aslıdır hökmü allahın,
Baxt başın üstündə allahdan yaxın.
Bir quru adı var talesiz şahın,
Baxtı gətirən qul şahdan qabaqdır.

2006

## GECƏLƏR

Şirin-şirin xəyalların canıdır,
Min dərdi-sər, min-min güman kanıdır.
Özümüzü özümüzə tanıdır,
Ürəkləri eşir, oyur gecələr.

Elə bil ki, dərə-təpə düzəlir,
Yerlə göyü qovuşdurur, dincəlir.
Qara daş da sinəsində incəlir,
Ürək olub, bizi duyur gecələr.

Sevgilərin möhnətini artırır,
Duyğuların zinətini artırır,
İşıqların qiymətini artırır,
Gündüzlərə qiymət qoyur gecələr.

Bir ümidlə könülləri xoş edir,
Neçə sirri bir-birinə tuş edir.
Neçə eşqin nəşəsini nuş edir,
Xumar-xumar yatır, uyur gecələr.
Bəmdə ötən bir saz olur qaranlıq,
Eşidilməz avaz olur qaranlıq.
Aşıqdan da həssas olur qaranlıq,
Neçə gizli sirr oxuyur gecələr.

Min-min düyün qaranlıqda ac olur,
Ulduzları öz ömrünə tac olur.
Min həsrətə, min bir dərdə ac olur,
Bir ümidə baxıb doyur gecələr.

Bu gecələr bir qaranlıq quyudur,
Kimin vayı, kimlərinsə toyudur.
Yuxu verib, bir dünyanı uyudur,
Sevənlərə necə qıyır gecələr?!
2006

## HƏR SƏHƏR TƏZƏDƏN DOĞULUR İNSAN

Sirr olur gecələr, dönüb pir olur,
Elə bil əriyib yox olur insan.

Gecələr qəribə bir iksir olur,
Hər səhər təzədən doğulur insan!
2006

## SIĞIŞMIR

Payızın öz yükü, qışın öz yükü,
Payızın qayğısı qışa sığışmır.
Palıdın öz kökü, gülün öz kökü,
Bir zərif gül kökü daşa sığışmır.

İnsan ağlının da qan-qadası var,
Görünməyən ağlın nə faydası var?!
Ağlın, zəkanın da öz qaydası var,
Doluya sığışır, boşa sığışmır.
Sən yer üzünə bax, göy üzünə bax,
Dünyanı dolaşan söz izinə bax.
Sən insan ağlının möcüzünə bax,
Başdan çıxır, sonra başa sığışmır.

Əsl qiymətini bilməz gözəllər,
Görməzə, bilməzə könül bəzərlər.
Sağ ikən sevənlər qoşa gəzərlər,
Sevənlər məzara qoşa sığışmır.

Qayğılar ürəyi sıxır ölümçün,
Bizi boğmalayır, boğur ölümçün.
Yaş ancaq bəhanə yığır ölümçün,
İnsan ömrü-günü yaşa sığışmır.
2006

## QORDİ DÜYÜNÜ

Dünya sevgi ilə göyərər, gülər,
Namərdlər sevgidən bezərlər ancaq.
İnciyib, küsməyi nadan nə bilər,
Ürəyi yuxalar küsərlər ancaq.

Hər şeyin dünyada bir çarəsi var,
Ağıldan güclüdür ilk dönməz qərar.
Açılan kələfə düyün vurarlar,

Açılmaz düyünü kəsərlər ancaq.
2006

## ƏS, EY KÜLƏK

Sinəm üstü köz-köz olub,
Yanır canım, əs, ey külək.
Aralıqda bir söz olub,
Gəl, bu şəri kəs, ey külək.
Əsən külək dərd oyadır,
Sevənlərin dili batır.
Sən əsirsən, odum artır,
Bu nə sirdir, bəs, ey külək.

Ümid gətir, güman gətir,
Çiskin gətir, duman gətir.
Yağış gətir, tufan gətir,
Nəs gətirmə, nəs, ey külək.

Sən xəyalın əvəzisən,
Min ürəyin həvəsisən.
Sən bir sevgi nəfəsisən,
Ürək-ürək gəz, ey külək.
2000

## MƏNİ BÜTÜN YANANLARDAN BAŞ EYLƏ

Xoş baxışla dindir məni bircə gün,
Demirəm ki, sən günümü xoş eylə.
Bu odumdan, bu yanğımdan bir çəkin,
Taleyimi taleyinə tuş eylə.

Əzəl başdan zildə mənəm, bəndə sən,
İstəmirəm yaşayasan qəmdə sən.
Ürəyimdə həm qəm vardır, həm də sən,
Çıxart qəmi öz mülkünü boş eylə.

Nəfəsindən həyat alım, kiriyim,
Kövrük kimi havalanım, körüyüm.
Yanğım qoymur yollarınca yeriyim,
Məni hərdən bir qanadlı quş eylə.

Ha silsən də, nişanım var adında,
Bir atəşik, yaxşı saxla yadında.
Ya mum eylə, ərit məni odunda,
Ya da məni əbədilik daş eylə.
Sevən tap ki, şirin dilə yanmasın,
Sevən tap ki, dönüb külə yanmasın.
Elə yandır, heç kəs belə yanmasın,
Məni bütün yananlardan baş eylə!
2006

## HARDASAN

Həsrətim də sənsiz yaman darıxır,
Həsrətimlə yatammıram, hardasan?
Xəyallarım daha çaşır, karıxır,
Xəyallara çatammıram, hardasan?

Mən demirəm dərdi-səri kəm gətir,
Dərdi-səri yığ başına, cəm gətir.
Mənə şirin, mənə doğma qəm gətir,
Mən hər qəmi dadammıram, hardasan?

Harayıma, dadıma çat bu gündə,
Arzularım, xəyallarım düyündə.
Ümidim var bir dəryanın dibində,
Bu dəryada batammıram, hardasan?

Gəl bir görün gözlərimin yaşında,
Ümid əkim ürəyinin daşında.
Gizlətmişəm səni bağrım başında,
Axtarıram, tapammıram, hardasan?
2006

## DOĞMALAŞIR

İnsan oğlu öyrəşəndə
Yox da, var da doğmalaşır.
Dərd içində can bişəndə,
Dərd-azar da doğmalaşır.
Bər-bəzəyi qoruyursa,
Daş-kəsəyi qoruyursa,

Bir çiçəyi qoruyursa,
Kol hasar da doğmalaşır.

Ömrümüzün yolu kəsə,
Yol gedirik əsə-əsə.
Ölənəcən səninləsə
Gün-güzar da doğmalaşır.

Yağ yaranıb çıraq üçün,
Qızıl üzük barmaq üçün.
Gül açırsa torpaq üçün
Yad məzar da doğmalaşır.
2006

## BAŞIMIN ÜSTÜNDƏ KAİNAT DURUR

Baş alıb gedirəm ölüm yoluyla,
Amma yan-yörəmdə bir həyat durur.
Gedirəm dünyanın min sualıyla,
Suallar gözümdə ikiqat durur.

Ümid bir çay kimi məni daşdırır,
Yollar hərdən məni bir az çaşdırır.
Sevgim yadları da doğmalaşdırır,
Burdan qohum baxır, orda yad durur.

Hələ od-alovdan gen düşməmişəm,
Hələ mən deyən tək mən bişməmişəm.
Həyatın dadını dəyişməmişəm,
Hələ ki, ağzımda həmin dad durur.

Qalır od-ocağın istisi küldə,
Çağlayır dağların suları çöldə.
Gör neçə dünyalar yatır könüldə,
Nəşələr içində xərabat durur.
İnsan oğlu özü ayrıca dünya,
Min yolu bağlayıb uc-uca dünya.
Şahmat oyunudur bu qoca dünya,
Şah ölüb gedibdir, təkcə mat durur.

Ömrü dərdi-sərdən alırmış ürək,
Özüylə bir kədər doğur hər dilək.
Ürək rahatdısa, ölübdür demək,

Yaxşı ki, ürəyim narahat durur.

Sual var, önündə dil qıfıllanır,
Cavab var, önündə dünya nurlanır.
İnsanın başına dünya dolanır,
İnsan öz yerində farağat durur.

Düşür taleyimiz bərkə əbədi,
Nə qədər günəş var, kölgə əbədi.
Ömürmüş, həyatmış bəlkə əbədi,
Bəlkə dünya özü amanat durur.

2006

## DAŞDAN SAVAYI

Gizli düyünü var qışla yazın da,
Yazı kim sevdirər qışdan savayı.
Nələr var yer ilə göy arasında,
Kim bilər, kim duyar quşdan savayı.

Dünyada ömürdən ağır yükmü var?
Dünyada sevgidən bir böyükmü var?
Hissin ağıldan da ağır hökmü var,
Nə enir sinəyə başdan savayı?

Soyuqdan qaçanlar gündən yanarlar,
Qananlar bir kiçik himdən qanarlar.
İçi boş olanlar havalanarlar,
Havanı nə tutar boşdan savayı.
Dünya nə görüb ki, savaşdan özgə,
O baş da sualdır, bu başdan özgə.
Bizi nə qaldırır, de, yaşdan özgə,
Bizi nə endirir yaşdan savayı.

İllər pilə oldu, biz göyə qalxdıq,
Bir ömrün sonunu görməyə qalxdıq.
Dırmaşa-dırmaşa zirvəyə qalxdıq,
Zirvədə nə tapdıq daşdan savayı.

2006

## DÜŞMÜŞÜK BİR ÖMÜR SINAĞINA BİZ

İnsan ömür boyu ömür dustağı,

Nə deyək bir ömrün dustağına biz.
Çəkir gördüyümüz bizə göz dağı,
Ölüncə dözürük göz dağına biz.

Şişirdib yalançı nər yaratmışıq,
Ev yıxan, qan tökən zər yaratmışıq.
Fitnə törətmişik, şər yaratmışıq,
Yazmışıq allahın ayağına biz.

Qoruyur əslini dünyada hər şey,
Vermir bir-birinə sirrini yer-göy.
Böyüyüb torpaqdan uzaşdıqca hey,
Enirik bir məzar torpağına biz.

İnsan müdrik olur göz ağladıqca,
Durulur, nur olur su çağladıqca.
Həyatı daha çox qucaqladıqca,
Çəkirik ölümü lap yaxına biz.

Gecəli, gündüzlü şamla oluruq,
Arzuyla oluruq, kamla oluruq.
Dəryadan ayrılıb damla oluruq,
Təzədən qaçırıq gur axına biz.
Gücsüzə kəm baxma, düşər izinə,
Güvənmə həmişə zorlu dizinə.
Baxmırıq qartalın iti gözünə,
Baxırıq tək iti caynağına biz.

Həmişə tərsinə dolanır cahan,
Onu durğun kimi hiss edir baxan.
Yaşamaq imtahan, ölmək imtahan,
Düşmüşük bir ömrün sınağına biz.

2006

## ETİBARSIZ DEYƏ-DEYƏ

Sular kimi çağlamışıq,
Qismətə bel bağlamışıq,
Tale üçün ağlamışıq,
Tale karsız deyə-deyə.

Arzu həyatı sazlayıb,
Qəm dünyanı tarazlayıb,

Sular söyüdü nazlayıb,
Söyüd barsız deyə-deyə.

Qəlbi qəmlə tox eylədik,
Arzumuzu şux eylədik.
Neçə varı yox eylədik,
Ömür varsız deyə-deyə.

Od axtardıq yana-yana,
Qana batdıq qana-qana.
Hamımız uyduq dövrana,
Dövran arsız deyə-deyə.

Can şumlayıb dərd bitirdik,
Nisyə alıb, nağd itirdik.
Dağdan çölə qəm gətirdik,
Çöl qubarsız deyə-deyə.
Kimlər varına qıymadı,
Kimlər varına uymadı,
Heç kəs dünyadan doymadı,
Etibarsız deyə-deyə.

2006

## KEÇDİM BU YOLLARI BİRNƏFƏSƏ MƏN

*Mənimlə olsa idi, mən cahana gəlməz idim,*
*Məni gətirdilər, əmma mən ona gəlməz idim.*
***S.Əzim***

Mənə gəl-gəl deyən hansı səs oldu,
Qoşulub gəlmişəm hansı səsə mən.
Bir ömür mənimçün bir qəfəs oldu,
Sığışa bilmədim bu qəfəsə mən.

Ha düzə çıxsam da tora dolaşdım,
Gur ocaq qaladım, hisə bulaşdım.
Qoydum düz yolumu, kəsə yol aşdım,
Ömür yollarımı kəsə-kəsə mən.

Özümdən özümə çatmayır səsim,
Haradan calayım, haradan kəsim?
Kəsildi yollarım, söndü həvəsim,
Allahlıq edərdim bu həvəsə mən.

Könlüm bir şah idi kəm sarayımda,
Göz yaşlarım sızan nəm sarayımda.
Qəmmi çatışmayır qəm sarayımda,
Qəmlər axtarıram təzə-təzə mən.

Arxada tutaşan çöllərim qalıb,
Hələ açılmamış güllərim qalıb,
Neçə yaşanmamış illərim qalıb,
Ötüşüb gəlmişəm birnəfəsə mən.

2006

## ÖMRÜN QİYMƏTİNİ YOXSULLAR BİLƏR

Kaman öz dərdini simə tapşırıb,
Bunu o segahlar, o şurlar bilər.
Allah gör kimləri kimə tapşırıb,
Peyğəmbərlər bilər, xızırlar bilər.

Dostu ol dərdini qandığın kəsin,
Hal tutub, halına yandığın kəsin.
Adam var peyğəmbər sandığın kəsin
İçində nə qədər qüsurlar bilər.

Neçə əyəni var gör bir düz yolun,
Namərdə tuş olar hey sağın, solun.
Bir ruzi yolu var halal yoxsulun,
Varlı yollar bilər, üsullar bilər.

Əzəldən halala haram qatılıb,
Xaliqin işinə məxluq mat olub.
Kimlərdən alınıb, kimə satılıb,
Danışdıra bilsən, qızıllar bilər.

Varlının zövqü yox bağça-bağa da,
Pul həyat eşqini boğur daha da.
Yoxsullar ac olur yaşamağa da,
Ömrün qiymətini yoxsullar bilər.

2006

## AXIR HƏR NƏDİR, HƏYATDIR

Ömür sürdüm zülüm-zülüm,

Hey puça çıxdı sünbülüm,
Canım yandı dilim-dilim,
Bu da bir cür xatiratdır,
Axır hər nədir, həyatdır.

Qəmli keçdi uşaqlığım,
Yaxşı gündən uzaqlığım.
Axır var idi sağlığım,
Dərd oyandı, baxtım yatdı,
Axır hər nədir, həyatdır.

Çox da ki, günüm saz deyil,
Payızım gəlib, yaz deyil.
Dərdi-sərim də az deyil,
Canım sağdır, salamatdır,
Axır hər nədir, həyatdır.

Bağlarda barı görürəm,
Dağlarda qarı görürəm,
Axan suları görürəm,
Çox da ömür amanatdır,
Axır hər nədir, həyatdır.

Sinəmdə qəm yaşayıram,
Taleyi kəm yaşayıram.
Dərdlə bahəm yaşayıram,
Çox da taleyim bərbaddır,
Axır hər nədir, həyatdır.

2006

## NECƏ GƏLİB ÇATDIM

Ömür yollarının daş-kəsəyilə
Necə gəlib çatdım bu yetmişə mən.
Həyatın beş günlük bər-bəzəyilə
Salmadım özümü dilə-dişə mən.

Könlüm sığışmadı öz qəfəsinə,
Tikana tuş oldum gül həvəsinə.
Arzumla qalxıram dağ zirvəsinə,
Dərdimlə zirvədən düşə-düşə mən.
Gör neçə ümidim yox oldu, getdi,

Yüz güman bir yerə yığıldı, getdi.
Çox arzum zirvədən yıxıldı, getdit,
Yondum qəm dağını tişə-tişə mən.

İllərin əlində daş məni qovdu,
Bahardan doymamış qış məni qovdu.
Arzu tələsdirdi, yaş məni qovdu,
Qaldım içərimdən bişə-bişə mən.

Sönmədi qəlbimin odu, ocağı,
Açıldı üstümə min dərd qucağı.
Yollarımı kəsən qaya-qapçağı
Keçdim iynə ilə deşə-eşə mən.

Nə gördüm, nə çəkdim illərdən bəri,
İtirdim nələri, tapdım nələri?!
Yanıb külə dönmüş xatirələri
Qalmışam indi də eşə-eşə mən.
2006

## ÖLSƏM DƏ, TAMAM ÖLMƏRƏM

*«No ə vesğ ne umru»*
***A.S.Puşkin***

Min bir dərdin yuvasıyam,
Bir sevginin duasıyam.
Gizli bir od şüasıyam,
Arzuyam, kamam, ölmərəm!

Mənəm dərdimlə barışam,
Dərdi dərdinə qarışam.
Özü-özündən alışan,
Əbədi şamam, ölmərəm.

Həsrət dağ basıb dilimə,
Könlüm uyuşub zülümə.
Öyrəşməmişəm ölümə,
Hələ ki, xamam, ölmərəm.

Ömrümün tanrısı sənsən,
Baxtımın barısı sənsən,
Canımın yarısı sənsən,
Ölsəm də, tamam ölmərəm!

2006

## QAYIDA BİLİRSƏN, GƏL, QAYIT GÖRÜM

Yüz ürək çırpınır bir ürəyində,
Araz ürəyində, Kür ürəyində.
Bir dilsiz əsirdir sirr ürəyində,
Bıçaq al, ürəyi dağıt, yırt, görüm.

Daş olsan, külüngü daşdan vurarlar,
Boş olsan, zərbəni boşdan vurarlar.
Başını qaldırsan, başdan vurarlar,
Gəl indii başını uca tut, görüm.

Gedir mis satan da, gövhər satan da,
Halala, harama əl uzadan da.
Əbədilik yatır baxtın yatanda,
Onu top-tüfənglə gəl ayılt, görüm.

Əyrinin sınması düzə sübutdur,
Yanğısız bir ürək viranə yurddur.
Söz dilin ucunda tutaşan oddur,
Bacara bilirsən, gəl, soyut, görüm.

Hər haqq çağırana haqq kömək olmur,
Hər yerdə şərikli qəm yemək olmur.
Vaxtı çatan sözü deməmək olmur,
Zəhərdi, şəkərdi, indii ud, görüm.

Çıxıb dar bətindən dara gedirik,
Ha qanad çalsaq da tora gedirik.
Hamımız bilirk hara gedirik,
Qayıda bilirsən, gəl qayıt, görüm.
2006

## ELİN XƏBƏRİ YOXDUMU

Keçilməz yolları keçdik,
Biçilməz kolları biçdik,
Eşqin şərbətini içdik,
Eşqin zəhəri yoxdumu?!

Yandıq o dərdə, bu dərdə,
Ömür qurtardı kədərdə.
Ömrün gecəsi qədər də
Ömrün səhəri yoxdumu?

Dənizlərin dalğası var,
Sahillərin arxası var,
Dəryanın qasırğası var,
Dürrü gövhəri yoxdumu?

Onsuz da əyilir belim,
Mən daha kimə əyilim.
Həyatın çəpəri ölüm,
Ölmün çəpəri yoxdumu?

Həyat bir vuruş səngəri,
Ümid bir döyüş xəncəri.
Ölüm ömrün son səfəri,
Başqa səfəri yoxdumu?

Bir şah olsa da hayanım,
Uçqun olacaq bir yanım.
Dünya neynəsin, dünyanın
Qəzyə-qədəri yoxdumu?
Cahilin sözü nahaqdır,
Yolu, irizi nahaqdır.
Haqqın bir üzü nahaqdır,
Elin xəbəri yoxdumu?
1999

## KİŞİ OL, KİŞİ, AY BALA

Mübarək olsun bu toyun,
Sözüm var, eşit, ay bala.
Bu dünya büsbütün oyun,
Dərd çeşid-çeşid, ay bala.

Min dərd var könül sazında,
Bülbüllərin avazında,
Gedir qurdların ağzında,
Vətənin leşi, ay bala.

Ayıq baş yoxdur düşünə,

Bax bu dünyanın işinə.
Dirənib çaqqal döşünə,
Pələngin döşü, ay bala.

Haqq deyən haqqı haxlamır,
El-elə könül bağlamır.
Vətən deyib qan ağlamır,
Minindən beşi, ay bala.

Böyü, dağlara bax yenə,
Dağ qalsa sən böyüyənə.
Kəm baxma yəhər-yüyənə,
Danma keçmişi, ay bala.

Axrımız nədir, kim bilir,
Kim var ki, qəmi qəm bilir.
Kimlər dərmanı yem bilir,
Kimlər kişmişi, ay bala.
Bir gün ürəyin səs elər,
Sevgin ürəyə bəs elər.
Vallah, sevgiylə düzələr,
Dünyanın işi, ay bala.

Vətən deyənlər yatıbdır,
Yurdu bir kefə satıbdır.
Pələng ol, qana batıbdır,
Çaqqalın dişi, ay bala.

Köhnə yaram da göyərib,
Könlüm yamanca köyrəlib.
Kişilər yaman seyrəlib,
Kişi ol, kişi, ay bala.

Yollar öz səmtindən çıxır,
Təpələr dağları yıxır,
İnsançün yaman darıxır,
Dağların döşü, ay bala.

Can deyirəm, toyuna can,
Harayına, hayına can.
Böyü, gələn toyunacan,
Çıxart mənim ürəyimdən
Qorxu, təşvişi, ay bala.

Kişilər yaman seyrəlib,
Kişi ol, kişi, ay bala.
2006

## DÜNYA TALAN OLUR

Dünya talan olur, hərki-hərkidir,
Dünyanın şərikli qızıl tacı yox!
Dünya min illərdən qalan sərgidir,
Baxıb heyran qalan tamaşaçı yox.

Gərək haqqın özü göydən enməli,
Hər yarpaq altında bir qurd gizlənir.
Min bir gözəllik var, əzizlənməli,
Gözəllik satılır pul əzizlənir.

Harın, üyüdülüb keçsə ələkdən,
Nə xeyri, onsuz da harındır yenə.
Aşağı dayanıb qarın ürəkdən,
Ürəyə hökm edən qarındır yenə.

Bu dərd çoxdan bəri qəlbimdə idi,
Bizdən imdad umur göy meşələr də.
Ətrini bilsəydi, dərdim nə idi,
Eşşəyə yem olur bənövşələr də.

Millət fəxr eləyir naxoşluğuyla,
İtirib ümidi, gümanı insan.
Sökməz yuvasını quş-quşluğuyla,
Sökür yaşadığı dünyanı insan.

Əməllər tərsinə döndü həyatda,
Dəyişdi torpaqda ayaq izi də.
Dindarlıq, möminlik pərdəsi altda,
Dinara satıldı dinin özü də.

Durum nə deyim ki, dərd dərddən üstün,
Bu dünyanın qərbi, şərqi bilinmir.
Arzular tamaha dönüb büsbütün,
Ölüylə dirinin fərqi bilinmir.

Aşkardan seçilmir indi yuxular,

Söz sözü qiymətdən salıbdır ancaq.
Daha ölüb gedib bütün duyğular,
İybilmə duyğusu qalıbdır ancaq.

Hərə bir şir olur söz meydanında,
Söz hissi taxtından yıxdısa, heç nə.
Torpaqdan yaranan insan qanında,
Bir torpaq duyğusu yoxdusa, heç nə.

Azad deyildirsə, çırpınan könül,
Dəm vurma bir yurdun azadlığından.
Ağlın kasadlığı elə dərd deyil,
Qorxuram mən hissin kasadlığından.

Hayana baxırsan min gahgir insan,
Onunçün nə fərqi, gün gündür yenə.
Öz doğma ruhunu satan bir insan
Ən xain düşməndən xaindir yenə.

Balıqlar dəryada gəlib cəm olur,
Sudan pəhrizi var lap balığın da.
Dünyanı yeyənlər özü yem olur,
Dünya yenə qalır dünyalığında.

Demə bu dünyadan düşərəm uzaq,
Ölsə də, dəryada qərq olur qayıq.
Dünyanı qoruyaq, dünyanı ancaq,
Öləndən sonra da bu dünyadayıq.
2006

## ATA ÜRƏYİ

Bükür dərd içinə o bir ürəyi,
Yanıb xırda-xırda qopur ürəyi.
Əriyib, yollara hopur ürəyi,
Bəmdə ağlayırmış, zili yox imiş!

Dörd yandan dərdi-sər onu dövrələr,
Kökündən xəbərsiz qalar pöhrələr.
Bəzən elə yanar, elə kövrələr,
Deyərsən heç bərkdə əli yox imiş.

Neçə gülşənini zaman qurutmuş,
Neçə arzusunu dövran unutmuş.
Ata – dolub qalan qara buludmuş,
Şimşəyi var imiş, seli yox imiş.

Odu var, üzündən buz bağlasa da,
Nigarandır, səni qucaqlasa da,
Belindən gələnə bel bağlasa da,
Ağrısız, şələsiz beli yox imiş.

Həmişə qayğıyla nəfəs-nəfəsə,
Bir ümid tapsa da, salar qəfəsə.
Ata sevincinin bilmirəm, nəsə
Qönçəsi var imiş, gülü yox imiş.

Qaralar kösövtək bağrının başı,
Asılır köksündən dəyirman daşı.
Ana ürəyinin dili – göz yaşı,
Ata ürəyinin dili yox imiş.

Yüz budaq əyilib tuta kökündən,
Bir çöp də azalmaz, vallah, yükündən.
Dünyaya ilk övlad gəldiyi gündən
Öz günü, öz ayı, ili yox imiş.

Min dünya sığışar bir ürəyinə,
Quzu qanı axar şir ürəyinə.
Əlinə məşəl al, gir ürəyinə,
İçi bir aləmmiş, çölü yox imiş.

Atalar – gözüymüş elin-obanın,
Qolunun gücüdür min pəhləvanın.
Haqqı-say itirib, ömür tapanın
Obası yox imiş, eli yox imiş.

1999

## SEVİNCİ BÖLƏNDƏ

Elə ki, çöllərə bahar iz salır,
Daşıb şaxələnir Kür də, Araz da.
Kədəri böləndə kədər azalır,
Sevinci böləndə artır bir az da!

1999

## KƏDƏRİM MƏNİ

Dərdi-sər dolanır düzü dünyanı,
Dolanıb könlümü hey həmdəm tutar.
Görmüşəm sevincə bel bağlayanı
Sevinc bizi atar, bizi kəm tutar.

Məni dərdim görər gözümdən qabaq,
Mənim dərdim ilə açılar sabah.
Gəl gir ürəyimin işığına bax,
Çox da gözlərimi tez-tez nəm tutar.

Qayğısız bir ömür – dərviş güzarı,
İnamsız bir ürək – ümid məzarı.
Mən ha əyilsəm də, sevincə sarı
Yenə yıxılanda məni qəm tutar.

Xəyallar göylərə məni çəkəndə,
Üzümə qəm gülər hər pilləkəndə.
Hərdən gözlərimə zülmət çökəndə
Qəm çıraq yandırar, kədər şəm tutar.

Hər arzu könlümü bir yana dartar,
Kədərsiz ürəkdə arsızlıq artar.
Sevinc sirlərimi açıb-ağardar,
Mənim sirlərimi qəm mübhəm tutar.

Kədər karvanıyla gedir ömür-gün,
Ömür yollarında cilvəsi min-min.
Bilir havasını mənim ömrümün
Mənim taleyimə kədər dəm tutar.
1999

## HƏYATDA BİR AZ DA BÜDRƏMƏK GƏRƏK

Həyatda bir az da büdrəmək gərək,
Həyatda bir az da titrəmək gərək.
Yıxılmaq gərəkdir hərdən bir az da,
Həyatın mizanı qalsın tarazda.

Yolunu düz gedər daşlı yol gedən,
Demə dünya elə cənnət bağıdır.
Həyatı bu qədər şirinləşdirən
İnsanın büdrəyib yıxılmağıdır.

Həyatda dərd çəkib sıxılmağımız,
Bizi bu dünyada bərkidir, düzü.
Həyatda büdrəyib yıxılmağımız,
Bir azca ölümə ləngidir bizi.

Birbaşa hamar yol nəyə gərəkdir,
Nə xoşdur qayadan, daşdan yol açmaq.
Büdrəyib yıxılmaq – həyat deməkdir,
Birbaşa getməksə ölümə qaçmaq!

1999

## YAŞAYAR

İl cürbəcür…
Bu başqadır, o başqa,
Rəqəm olub, durar səfə yaşayar.
Ruzi üçün zillət çəkər qarışqa,
Elə bilmə baxıb kefə yaşayar.

Quş ləpiri bir yağışda silinər,
Cığır var ki, neçə səmtə bölünər.
Getdiyi yol arzusundan bilinər,
Kimi haqqa, kimi nəfə yaşayar.

Adam var ki, qan uddurur, qan udur,
Adam var ki, yarı canlı yarıdır.
Kimi ömür, kimi ölüm tanıdır,
Sən baxma ki, kimsə xəfə yaşayar.

İnsan oğlu düşər haldan-hallara,
Məlul baxar başındakı çallara.
Ömür var ki, səpələnər yollara,
Ömür var ki, girər evə, yaşayar.

Bu qanundur bağa qalmaz bağdakı,
Soldakının yerin tutar sağdakı.
Min-min ömrün bir səmti var, çoxda ki

Hərə üzü bir tərəfə yaşayar.

Bu dünyaya bir də gələm desələr,
Bir də gəlsə, guya dünya düzələr.
İnsanlıqçün bir ömür də bəs elər,
Haqq yaşayar, bircə dəfə yaşayar.
1999

## YARAŞAR

İlk baharda göyərməyə nə var ki,
Yaşıl xalı sağa-sola yaraşar.
Könlümdəki bahar elə bahar ki,
Gözümdəki min suala yaraşar.

Gözüm yaşı birdən dönüb sel olsa,
Nə dərdim var, sel yığılıb göl olsa.
Bəzək vuran mən dediyim əl olsa,
Ağ qaraya, yaşıl ala yaraşar.
Bir xəzəli sığallasa öz əlin,
Dönüb rəngi yaşıllaşar xəzəlin.
Ürəyində odu varsa gözəlin,
Dəmir halqa gümüş qola yaraşar.

Yenə dönüb bahar gələr bu donda,
Min çiçəyin rəngi qalar yadında.
Bir gözəlin baxışının odunda,
Qoşa dursa, şah da qula yaraşar.

Nadan gözü bir bürküdür – deyiblər,
Dünya Süleyman mülküdür, deyiblər.
Pul dünyada əl çirkidir, deyiblər,
Halal əllər halal pula yaraşar.

Ürəklərdə atəş olaq, təki biz,
Bu yollara işıq salaq ikimiz.
Bir ümidi göyərdirsə sevgimiz,
Saçımıza düşən çala yaraşar.

Hər ürəkdə sevgi odu qalansa,
Qara telin ahlarımla daransa,
Aralıqda mehr, ülfət yaransa,
Tər bənövşə qara kola yaraşar.

Daş göyərməz, göylər leysan töksə də,
Torpaq ölməz göylər yerə çöksə də,
Bir mərd oğul qaratikan əksə də,
Bir obaya, bir mahala yaraşar.

1999

## GƏRƏKDİR

İnsan oğlu ömür satdı, yaş aldı,
Hansı ürək söz deməklə boşaldı.
Bir canda ki, iki atəş baş aldı,
Aralıqda daş hasarı gərəkdir.
Dərya könül bir çiy sözdən bulanar,
Dərd dərd üstdə qalandıqca qalanar.
Xəyal çox da bu dünyanı dolanar,
Hər xəyalın öz güzarı gərəkdir.

Aqil insan boş xəyala qapılmaz,
Bağlı ürək xəncərlə də çapılmaz.
Hər düz sözün xiridarı tapılmaz,
Hər düz sözün öz bazarı gərəkdir.

Qar-yağışsız gedən yollar tozlanar,
Sevən könül qəm üstündə nazlanar.
Qəm olmasa, ürəklər də paslanar,
Qəlbin hərdən intizarı gərəkdir.

Azar var ki, sağ çinarın səlbəsi,
Adam var ki, min həsrətin cilvəsi,
Azar var ki, bir idrakın zirvəsi,
Mənə ağlın bu azarı gərəkdir.

Bax dünyaya, idrak eylə bu seyri,
Könül istə, ya mən olum, ya qeyri,
Baxt ki, döndü, lap şah olum, nə xeyri,
Baxtın üzü mənə sarı gərəkdir.

Sən demə ki, hər qapını zər açar,
Şər qapını əvvəl-axır şər açar,
Hər ürəyi aça bilməz hər açar,
Hər ürəyin öz açarı gərəkdir.

1998

## BƏSİMDİR

*Əziz Firuzə bacımıza*

Bir candərdi ömür sürmək qubardır,
Hər gələn il ömür üçün nübardır.
Desələr ki, səndən sonra bahardır,
Lap bilsəm ki, qarlı qışam, bəsimdir.

Daha gecdir, vaxt o vaxtdan keçibdir,
Daha ömür kef-damaqdan keçibdir.
Daha baxtı sınamaqdan keçibdir,
Bu baxtımdan nə almışam, bəsimdir.

Əksik yerdə görünmədim yaxşı ki,
Haqq deməyə ərinmədim yaxşı ki.
Ayaqlarda sürünmədim yaxşı ki,
Göydə tənha uçan quşam, bəsimdir.

Bir duyğusu yox olanla yoxam mən,
Bir sevgiyə ac olanda – toxam mən.
Öz-özümə qul olanda şaham mən,
Hansı səmtə daha tuşam, bəsimdir.

Acı-şirin röyalarım nə qədər,
Gizli-gizli dualarım nə qədər,
Bir işığam, şüalarım nə qədər,
Hər ağızda bir alqışam, bəsimdir.

Baxtabaxtdır, iki kimə, üç kimə,
Dürlü-dürlü rəng qatmadım eşqimə.
Mən özümü oxşatmadım heç kimə,
Öz ömrümü yaşamışam, bəsimdir.
1999

## MƏNİ

Ana qucağında mən nazlanardım,
Həyat saldı yerə qucaqdan məni.
Budaqdan-budağa pərvazlanardım,
Bir dilbər ovladı uzaqdan məni.

Demə bir ürəyə dünya dar imiş,
Qəlbin naləsinə zaman kar imiş,
Yaxşı ki, sinəmdə odum var imiş,
Qorudu şaxtadan, sazaqdan məni.

Kol-tikan içindən yola süründüm,
Şöhrətə ərindim, ada ərindim.
Yanıb acı-acı tüstüyə döndüm,
Küləklər sovurdu ocaqdan məni.

Sevgim, məhəbbətim təmizdir, haqdır,
Nifrətim ürəkdə iti bıçaqdır.
Ürəyim əzəlki körpə uşaqdır,
Ağlımdır ayıran uşaqdan məni.

Bir yaşıl çayıram uca dağ üstdə,
Yüz möhnət görmüşəm yaşamaq üstdə,
Əmanət yarpağam bir budaq üstdə,
Yel əsər, qoparar budaqdan məni.

Başımdan ötüşdü min bir qan-qada,
Mən əyri yolları salmadım yada.
Ömrümün qoşunu qalıb arxada,
Ölüm hədələyir qabaqdan məni.

Ötüşər bu gün də duman, çən kimi,
Düşərəm torpağa bir gün dən kimi,
Göyərməsəm bu dən göyərən kimi,
Kim tutub qaldırar torpaqdan məni.

Gücüm çatmayanla heç güləşmərəm,
Mən yüz sifət olub güzgüləşmərəm.
Özüm ola-ola özgələşmərəm,
Yüz dara çəkələr nahaqdan məni.

1997

## DURSAM DA, BAXTIMI YAZAN YANINDA

*Gövhər zibil oldu nadan yanında*

***Aşıq Ələsgər***

Sən vecsiz budağın quru şaxısan,
Durub lovğalanma bağban yanında.

Nə sən bu diyarın şahənşahısan,
Nə mən qulluqçuyam xaqan yanında.

Gecələr əriyib bir səhər olar,
Kola  mehr salsan bağ bəhər olar.
Qananlar yanında toz gövhər olar,
«Gövhər zibil olar nadan yanında».

Üşütmə könlümü qar-sazaq kimi,
Yanırsan bir yol da yan ocaq kimi.
Gəl xəfə dolanma yalquzaq kimi,
Adam insan olar insan yanında.

Hər sönən ocağa «yan» demək olmaz,
Hər ballı qutuya şan demək olmaz,
Hər vuran ürəyə can demək olmaz,
Can da bir cahandır cahan yanında.

Bəndədən haqq umdum, allahdan kərəm,
Kimiyçün çay daşı, kimiyçün zərəm.
Ən ağır bir cəza ona deyərəm –
Yaxşılar yol gedə yaman yanında.

Söyüd bar gətirməz ha calaq etsən,
Uçacaq əl təki durub ağ etsən,
Bir el durub səni daşqalaq etsə,
Üzü ağ olasan vicdan yanında.

Böhtansız gedəsən, şərsiz gələsən,
Halalca tər töküb bir dincələsən.
Danışan yanında susa biləsən,
Danışa biləsən susan yanında.
Hələ bu əllərim xeyli yazacaq,
Könlümdən süzülən şeiri yazacaq.
Gözüm görə-görə əyri yozacaq,
Dursam da baxtımı yazan yanında.
1999

## MƏN TƏLƏSMİRƏM

*Böyük S. Vurğuna*

Mən də sığınıram böyük şairə,

Mən də tələsmirəm heç vaxt heç yerə.

Mən kəsə dolanıb yolu kəsmirəm,
Mənim dərdi-sərim səngiyir məgər,
Amma nə olsun ki, mən tələsmirəm.

Mən elə dünyadan gənclik umunca,
Yaxınlıq gör necə oldu uzaqlıq.
Mən elə gözümü açıb-yumunca,
Bir də görürük ki, ötüb uşaqlıq.

Zəmanə çəkmədi mənim nazımı,
Dönüb yaxşılığım oldu yamanlıq.
Deyib-qurtarmamış hələ arzumu,
Gördüm ki, qapımı kəsib cavanlıq.

Çəmənin qeydinə hələ qalmamış,
Gördüm yarpaqlara təzə xal düşüb.
Narahat sevgimdən cavab almamış,
Gördüm saçlarıma daha çal düşüb.

Biz elə quruca söz deyilik ki,
Arzudur, diləkdir ömür sərasər.
Tələsən zamandır, biz deyilik ki,
Bu qədər arzuyla adam tələsir?

Hələ gör nə qədər arzumuz yasaq,
Heç doymur yenə də göz bu dünyadan.
Zaman tələsdirir lap çox yaşasaq,
Çox şeylər umarıq biz bu dünyada.

Yel atı minməsək, piyada qalsaq,
Gedən ayağımız daş olub qalar.
Dünya tələsdirir, dünyada qalsaq
Dünyanın çox sirri faş olub gedər.

Çox da ki, min arzu düşür araya,
Çox da ki, yolları yoranlar da var.
Dünya tələsdirir, çünki dünyaya
Gəlmək növbəsinə duranlar da var.

Biz öz ömrümüzdən bir az kəsməsək,
Qanmarıq bu ömrün bahalığını.

Dünya tələsməsə, biz tələsməsək,
Bu dünya itirər dünyalığını.
1999

## GERİYƏ YOL VAR

Bir maral keçdimi bir dar keçiddən,
Bil ki, arxasınca sürüyə yol var.
Daş sümük yaranar dupduru süddən,
Sümüyün özündən iliyə yol var.

Bir insan ömründən çox bahar keçir,
İlıq yağış keçir, soyuq qar keçir.
Sən demə, xəlbirdən xırdalar keçir,
Hansı tərəfdənsə iriyə yol var.

Çiçəyin yerində sabah kol çıxar,
Bir yolun özündən neçə yol çıxar,
Dərədən dırmaşıb dağa yol çıxar,
Hardasa dağdan da dərəyə yol var.
Ürəklər həyata, ömrə susayır,
Çöldə ilğımı da elə su sayır.
Şumdakı dənə bax, ömür yaşayır,
Demə ki, tək elə diriyə yol var.

İnsan torpaq altda bekara yatmaz,
Dönüb torpaq olar, əslini satmaz.
Ömrümüzün yolu geri qayıtmaz,
Öləndən sonrasa geriyə yol var.
1999

## ÇAŞARSAN

Mən oxuyum nəğməsini könlümün,
Sən oxusan avazını, çaşarsan.
Mən bilirəm nə dərdi var ömrümün,
Sən baş qoşma, havasını çaşarsan.

Hər saqqalı ağarandan pir olmaz,
Hər hayqırıb, çığırandan şir olmaz.
Hər «gəl» deyən yolun ucu bir olmaz,
Yaxşısını, yavasını çaşarsan.

Hər ürəkdə bir tüstülü od yanar,
Hər odun da öz istisi, karı var.
Sarı bülbül naləsindən tanınar,
Sən axtarma yuvasını, çaşarsan.

Haqq deməram şirin gələn hər səsə,
Boş dualar gərək deyil bir kəsə.
Bircə sözü ürəyindən gəlməsə,
Sən ağzının duasını çaşarsan.

Könül verib sevməyənlər sevilməz,
Hər ağzında dili olan dil bilməz.
Vətən sənə can olmasa, yüz il gəz,
Hər elini, obasını çaşarsan.
Kimlər yanır, kimlər gəlir haraya,
Kimlər susur, kimlər girir araya,
Dərman vurma bilmədiyin yaraya,
Dərmanını, davasını çaşarsan.

Keçən keçdi, qalan gün də ziyanın,
Hay deyəndə kim olacaq hayanın?
Gəl yolunda tərs dayanma dünyanın,
O başını, bu başını çaşarsan.

1999

## AY ULU DÜNYA

Dünya, ay ulu dünya,
Ay özünün ağası,
Özünün qulu, dünya!
Minbir giley-güzarla
Ömür gəlir, ötüşür.
Səndə üst-üstə düşür.
Həyatın yolu ilə
Ölümün yolu, dünya.

Dünya, ay ulu dünya,
Dərd ilə dolu dünya,
Həyat qoxulu dünya,
Ölüm qoxulu dünya.
Hərdən bir az mülayim,
Hərdən qorxulu dünya.

Gah qurulu dünyasan,
Gah da yıxılı dünya.

Dünya, ay ulu dünya,
Yolu burulu dünya.
Sən elə fırlanırsan,
Sən elə dolanırsan.
Havapərəst olmusan,
Əbədi məst olmusan,
Yarı ayıq dünyasan,
Yarı yuxulu dünya.

Bəlkə tərsinə dönən
Sənin oxundu dünya.
Səndən gəlib boş keçən,
Bizə toxundu, dünya.
Nəyin varsa, gizlidir,
Aşkar yoxundu, dünya.
Bəlkə mənim gördüyüm
Sənin yuxundu, dünya.

Dünya, ay ulu dünya,
Yapış, tut qolumuzdan.
Çıxmışıq yolumuzdan,
Dünya, ay ulu dünya,
Sən yaxşı ki, azmadım
Heç zaman yolu, dünya!

1999

## ÜRƏYİN ODU, YAĞIŞI

Ürək oddan doğub, odda yaşamış,
Onun ayrı yazı, ayrı qışı var.
Ürəyin odunu söndürməz yağış,
Ürəyin öz odu, öz yağışı var.

Hərə bir cür keçir yol dar olsa da,
Hərə bir cür qanır söz car olsa da,
Min adamın gözü oxşar olsa da,
Yenə də hər gözün öz baxışı var.

Hər şirin nəğmədən könül uyumaz,
Yasını, pasını hər sular yumaz.

Nifrəti, sevgisi sözlə soyumaz,
Qəlbin öz alqışı, öz qarğışı var.
Dünyanın min dərdi ürəyə damır,
Narahat olmasa, ürək yaşamır.
Xoşbəxt talelər də yenə oxşamır,
Hər xoşbəxt taleyin öz naxışı var.

İnsan ruzi üçün qırx il daş çapır,
Tərə, qana dönüb torpağa hopur.
Rahat günündən də eşib dərd tapır,
İnsanın qəribə yaşamağı var.

Alır havasını payızın, yazın,
Hər dərdə-qubara açır yaxasın,
Dən vermə, su vermə, söz ver, yaşasın,
İnsanın nə sirli könül quşu var!
1999

## HƏYAT – ÖLÜM

İnsan torpaq ilə oynar uşaqkən,
Nə bilər bir zaman durar qəsdinə.
Bir oyuncaq bilər torpağı sağkən,
Öləndə tökülər torpaq üstünə.

Daş ilə oynayır insan bir zaman,
Getdiyi yolda da o, naşı olur.
Vədə ki, yetişdi, getdi dünyadan,
Bu daşların biri başdaşı olur.

Su ilə oynayır uşaqlar hər gün,
Oyunun sonunu uşaq nə bilər?
Qəlbinin odunu söndürmək üçün
Bu su məzarının üstə tökülər.

Salır uşaqları atəş də bəndə,
Od ilə oynayır, oda vurulur.
Böyüyüb, qocalıb, ölüb gedəndə
Qəbrinin üstündə şam yandırılır.
Gül ilə əylənər körpə könüllər,
Nə bilər bu günlər gedir kisədən.
Yonub sinəsinə basdığı güllər
Məzarı üstündə qalxır təzədən.

Gizlənpaç oyunu gələrdi kara,
Buna uşaq ikən de, kim qapılmır?!
Elə gizlənir ki, torpaqda, sonra
İnsan itib-gedir, daha tapılmır.

Kimə irad tutum, kimə uşaqkən,
Gör necə günləri verdim əlimlə.
İnsan bu dünyada, demə, uşaqkən
Həm həyatla oynar, həm də ölümlə!

Ürəyim çox çəkib məlamətləri,
Hər dərdin özünün nişanəsi var.
Həyatda ölümün əlamətləri,
Ölümdə həyatın nişanəsi var.

1999

## ÖYRƏŞİRƏM, DARIXIRAM

Yaman tez öyrəşib, alışıram mən,
Yaman tez qaynayıb, qarışıram mən.
Bir ağac yanında, bir kol yanında,
Bir cığır yanında, bir yol yanında,
Bir saat durdummu, öyrəşirəm mən.
Könül istəyinə, könül mehrinə
Möhrümü vurdummu, öyrəşirəm mən.

Nə sükuta yadam, nə də coşana,
Coşğun xəyallarım sığmır məkana.
Lap yol üstündə bitən qaratikana
Öyrəşdim, ayrıldım, darıxıram mən.

Başımın üstündə duran buluda,
Əlimdə tutduğum bir qırıq ota,
Tüstüyə, dumana, ocağa, oda
Öyrəşdim, ayrıldım, darıxıram mən.

Bir köhnə qələmə, köhnə eynəyə,
Əynimdə bir günlük qalan köynəyə,
Dəsmala, düyməyə, sapa, iynəyə
Öyrəşdim, alışdım, darıxıram mən.

Hər il başa yetən ömür yaşıma,
İlıq baharıma, soyuq qışıma,
Hər günkü naməlum yol yoldaşıma
Öyrəşdim, alışdım, darıxıram mən.

Arzu qalmır elə bir mərtəbədə,
Dəyişir dərə də, dağ da, təpə də.
Həmişə gördüyüm vecsiz çöpə də
Öyrəşdim, ayrıldım, darıxıram mən.

Düşəndə kədər də gəlir karıma,
Uyub öyrəşirəm ahu-zarıma,
Narahat, nigaran qayğılarıma
Öyrəşdim, ayrıldım, darıxıram mən.

Ömür-gün sürmüşəm bəs bu qədər mən,
Bir gün bu ömür-gün getsə əlimdən,
Mən bu ayrılığa, bu intizara,
Təzəcə köçdüyüm soyuq məzara
Həyatdakı kimi öyrəşərəmmi?
Birdən haray çəkib, birdən darıxıb
Vurub məzarımı mən deşərəmmi?

Təbiət öləni ayıltmır, demək,
Hansı nöqtədəsə dirəşir insan.
Bu qədər gedən ki, qayıtmır, demək,
Qəbrə də əbədi öyrəşir insan.
Təkcə alçaqlığa, təkcə pisliyə,
Məkrə, cahilliyə, qeyrətsizliyə
Alışmaq, öyrəşmək çətindir, çətin,
Bunlar – düşmənidir əbədiyyətin!

1999

## OD – QIĞILCIM

Ürək yansa, min ürəyə od qoşar,
Eldən ayrı bir ürəkdə köz sönər.
Qığılcımdan od törəyər, alışar,
Oddan qopan qığılcımsa tez sönər.

1985

## ÖMÜR XATİRƏLƏRİ

Od olar, yandırsan sən yenə kömrü,
Sən demə, ömür-gün qayıtmaz geri.
Tamamlaya bilər yarımçıq ömrü
Bu ömrün öz şirin xatirələri!

1985

## QARANLIQDA DEYİLMİ

Aç sinəni, gör dərdlərim neçədir,
Canım pətək, dərdi-sərim beçədir.
Ömrümüzün tən yarısı gecədir,
Ümidimiz toranlıqda deyilmi?

Dərd olmasa, insanlıqdan çıxıram,
Mən dünyaya dərd üstündən baxıram.
Elə bilmə viranlıqdan qorxuram,
Xəzinələr viranlıqda deyilmi?

İndi bildim daha nədir qaranlıq,
Öz sirriylə şahanədir qaranlıq,
Yanmayana bəhanədir qaranlıq,
Ürək özü qaranlıqda deyilmi?

1999

## QARA RƏNG, AĞ RƏNG

Qara gündə nə geyinsən, fərqi yoxdur,
Al, yaşıl da onda qara görünəcək.
Qara günün yaman üzü çox soyuqdur,
Qaranlıqlar hər cür rəngi udur gerçək.

Üzü ağ ol, ağ görəndə qara çaşır,
Bu ağ rəngin şöləsindən haqq görünür.
Qaranlıqda bütün rənglər qaralaşır,
Qaranlıqda təkcə ağ rəng ağ görünür.

Günəş nuru toqquşsa yaz yağışıyla,
Görünməzmi qövsi-quzeh-nur çələngi?!
Ağ gün əgər qarşılaşsa göz yaşıyla,
Aşkar olar ömrün-günün yeddi rəngi.

1997

## YOXDUSA

Dünya pul üstündə dayana bilər,
Dolanmaz bir eşqin zoru olmasa,
Təbiət günəşlə oyana bilər,
İsinməz ülfətin nuru yoxdusa.

Uymuşam ətrinə gül nəfəsinin,
Sirri var hər ömür mərtəbəsinin.
Nə xeyri bir böyük kül təpəsinin
Kül altda ocağın qoru yoxdusa.

İnsan yer tutmalı çox, ürəkdə çox,
Eşqi bilinməyən bir ömür soyuq.
Yeriylə tanınar insan, zərlə yox,
Kəfəni neynəyir, goru yoxdusa.

Dünyanın min fəndi, min tələsi var,
Ömürlər hiylədən, məkrdən solar.
Qaçar ölümündən ov da qurtular,
Ovçunun bərəsi, toru yoxdusa.

Bizim başımızı arzular qatır,
Bilmirik dağ hara, aran haradır.
Ürək bir qaranlıq boş mağaradır,
Sevgisi, həvəsi, şuru yoxdusa.
1997

## HƏYAT ELƏ BAX, BU İMİŞ

Doğmaların dad üzündən,
Nə tapmısan yad üzündən.
Ömrün-günün vadisində
Arzu mələr arzu imiş!

Yanır ürəyimin başı,
Yaxır-yalayır daş daşı.
Yanğıdan doğur göz yaşı,
İnsan gah od, gah su imiş.

Dərd əlində qalan dünya,
Bu boşalıb-dolan dünya,
Sənə şərbət olan dünya
Başqasına ağu imiş.

Verilən pay – ömür-gündür,
Bu dünya axır yerindir.
Həyat ki, belə şirindir,
Görünür, o, yuxu imiş.
Yol açırıq yad ölümə,
Ha yüyür qaç, çat ölümə.
Ömür qazan, sat ölümə,
Həyat elə bax bu imiş!
2003

## ÇOXDAN DÜZƏLMİŞDİ BU ƏYRİ DÜNYA

Biz qoca dünyanı seyrə çıxmışıq,
Görək haçan pozur bu seyri dünya.
Çox da ki, dünyada biz darıxmışıq,
Bu dünyadan savay yox qeyri-dünya.

Hələ düz yolunu tapmayb bəşər,
Mərdin qismətinə dərdi-sər düşər.
Xeyir həmən xeyir, şər də həmən şər,
Fitrətin, hikmətin nə xeyri, dünya.

Kimi zər-zinətə bükər sevgini,
Kimi tərəziyə çəkər sevgini.
Allah bilsək idik əgər sevgini,
Çoxdan düzəlmişdi bu əyri dünya!
2003

## ÜRƏYİN DİBİNƏ GEDİB-ÇIXAN YOX

Ürək bir bənzərsiz tilsim dünyadır,
Çəməndir, çiçəkdir, daşdır, qayadır.
Bu ürək dediyin dibsiz dəryadır,
Ürəyin dibinə gedib-çıxan yox!

Ona nə sahil var, nə də ki, sərhəd,

Açammaz sehrini min dərin sənət.
Mən öz ürəyimə özüm nabələd,
Ürəyin dibinə gedib-çıxan yox!
O neçə xanəli, neçə guşəli,
Min-min duyğusu var, ayıq, nəşəli.
Min ocağı yandır, yüz min məşəli,
Ürəyin dibinə gedib-çıxan yox!

Könül lövhəsində dərdi rəsm edir,
Min-min müsibəti alır, həzm edir.
Məchul dünyaları çəkir, cəzb edir,
Ürəyin dibinə gedib-çıxan yox!

Həsrəti duyğudur, azarı duyğu,
Güzarı duyğudur, bazarı duyğu.
Cizli xəzinədir, açarı duyğu,
Ürəyin dibinə gedib-çıxan yox!

Qatı açılmamış söz – ürəyində,
Kökü bilinməyən köz – ürəyində.
Adam itib-batar öz ürəyində,
Ürəyin dibinə gedib-çıxan yox!
Bir şah damarında min şah gizlənib,
Savab duasında günah gizlənib.
Ürəyin dibində allah gizləni,
Ürəyin dibinə gedib-çıxan yox!
2003

## GÖRDÜM

*Vəfa hər kimsədən kim, istədim, ondan cəfa gördüm,*
*Kimi kim bivəfa dünyada gördüm bivəfa gördüm.*
***Füzuli***

Cahandan ummuram, könül zəhərində dəva gördüm,
Eşqin əzabından qaçan hər qəlbi binəfa gördüm.

Dünya özü bir yelkəndir, üzür eşqin havasında,
Dünyadan baş çıxardanın başında bir hava gördüm.

Sinəsində çiçək bitən dağ çiçəkdən zərif olar,
Sevdasız gül gözəllərə ha baxdımsa, qaba gördüm!

Bir zərrə mehrini görsə, düşər ayağına vəhşi,
Mehrsiz gəzən insanı vəhşidən də yava gördüm.

Əzabına bircə qətrə ümid qatan min il yaşar,
Mən sevginin cəfasından görünməmiş səfa gördüm.

Çox yandırdım, çox incitdim, yenə qorudum sevgimi,
Haçan baxtım ürəyimə, ürəyimə vəfa gördüm!
2003

## UMMUŞAM

Taleyimin üzü məndən dönəndə,
Bir gözəlin ay üzünü ummuşam.
Tərlan könlüm göydən yerə enəndə,
Yar-yoldaşın qayğısını ummuşam.

Tər güllərin açılmamış solsa da,
Gözlərimə həsrət yükü dolsa da,
Təsəllini, yalan belə olsa da,
Qış uzunu, yay uzunu ummuşam!

Kiriməyib hayıf, hayıf, ürəyim,
Bu dünyanı sınaq sayıb ürəyim.
Baharndan yarımayıb ürəyim,
Bu dünyanın payızını ummuşam!

Gedən gedib, uyumuşam qalanla,
Yol getmişəm bir könlümü alanla,
Ürəyimi kiritsəm də yalanla,
Həqiqətin lay üzünü ummuşam.

Mən könlümü aydan arı bilmişəm,
Haqq üzünü mənə sarı bilmişəm.
Mən sevgimi ulu tanrı bilmişəm,
Bu tanrının ta özünü ummuşam!
2003

## QURBAN OLUM MƏN

Taladın könlümü, sən incə-incə,
Sənin talanına qurban olum mən!

Mənə təzə-təzə dərd gətirincə,
Köhnə olanına qurban olum mən!

Hanı o gül kimi açılan sözün,
Könlümə zər kimi saçılan sözün.
Filan vaxt dediyin o filan sözün,
Filan filanına qurban olum mən.

Atəşdən-atəşə fənd atdın məni,
Məcnunlar dərdinə sən qatdın məni.
Şirin yalan deyib aldatdın məni,
Şirin yalanına qurban olum mən!
2001

## GÖRÜM ÜZÜNÜ

Göz yaşım suvarıb, üzün gül acıb,
Kövrək baxışımla dərim üzünü.
Çoxdandır həsrətdən dilim dolaşıb,
Həsrətli üzümə sərim üzündü!

Yollar müntəzirdir, durma köç deyə,
Könül gileylidir ömür heç deyə.
Arzular dayanıb bir-bir səcdəyə,
Gərək ibadətə verim üzünü!

Xəyalım bürküdə, zənnim kölgədə,
Güman bir cərgədə, dərd bir cərgədə.
Qadir allahımı gördüm bəlkə də,
Eşidim səsini, görüm üzünü!
2003

## MƏNDƏN SONRA ÇOX ŞEY QALIR MƏNİMÇÜN

Demə getdim, daha hər şey qurtardı,
Nə can, nə qan, nə hey qalar mənimçün.
Bu telli saz, bu kamandı, bu tardı,
Nalə çəkən o ney qalar mənimçün.

Yenə açar bənövşələr təzə-tər,
Torpağımda güllər açar nə qədər!
Bahar hər il məzarımı göyərdər,

Sular qalar, yer, göy qalar mənimçün.

Sən demə ki, tez kəsilər bazarım,
Bu torpaqdan hündür olmaz hasarım.
Məclis açar, yada salar dostlarım,
Yaddaş olub o mey qalar mənimçün.

Məndən sonra gör kim mənə bağlıdır,
Mən budağam, köküm mənə bağlıdır.
Bir əbədi sevgi mənə bağlıdır,
Doğma qalır, ögey qalır mənimçün!

Güllərində gözüm qalan bağça-bağ,
Məzarıma layla çalan bu torpaq,
Məndən sonra qalanlara mən ortaq,
Məndən sonra çox şey qalar mənimçün!
2003

## ÇƏKƏ BİLMİR

Üzdən qiymət vermə hər gördüyünə,
İnsan qarışqatək yol çəkə bilməz.
Bədəndə iki qol fərqlidir yenə –
Sağın çəkdiyini sol çəkə bilməz.

Bir bəndə qəmi var, bir allah qəmi,
Gah sevinci tutur könül, gah qəmi.
Qulun qul qəmi var, şahın şah qəmi,
Şahın çəkdiyini qul çəkə bilməz.

Gecə də, gündüz də fikir dərbədər,
İnsan min gümanla qoşa yol gedər.
Söz var ki, dağ boyda yükü tərpədər,
Yük var, dağ hündürdə pul çəkə bilməz.

Söz bir yurddan gəlir, dərd min məkandan,
Qızıl dağdan çıxar, zinət dükandan.
Arı şirə çəkər qaratikandan,
Amma qızılgıldən bal çəkə bilməz.

Dünyada qalacaq mehr-məhəbbət,
Cövhəri əzabdır, bəzəyi həsrət.
Qal var ki, qəm verər, qal var ki, hikmət,

Hər oğulun başı qal çəkə bilməz!

Tale ömürlərə gör nələr verər,
Kimə şər gətirər, kimə zər verər.
İnsana hər hökmü talelər verər,
Ürəksə hər hökmə qol çəkə bilməz!
2003

## EŞQİN TUTUB MƏNİ QAN TUTAN KİMİ

Bir dərdə dolmuşam, dərman ovutmaz,
Dolmuşam sünbüllər dən tutan kimi!
Sədəf də incini heç belə tutmaz,
Sinəmdə dərdini can tutan kimi.

Həsrətdən gözümün kökü saralır,
Macal tapmayanda vaxt da daralır.
Sən mənim günümsən, baxtım qaralır,
Üzünü üzümdən yan tutan kimi!

Odum allahacan şüa salıbdır,
Baxt dərddən boynuma dua salıbdır,
Min dərd ürəyimdə yuva salıbdır,
Arılar pətəkdə şan tutan kimi.

Məcnun torpağından mən yoğrulmuşam,
Dərdimə dərd ilə çarə qılmışam.
Ümidi öldürüb, qanlı olmuşam,
Eşqin tutub məni qan tutan kimi!
2003

## YAT Kİ, YATASAN!

Ağacam, budağım başabaş quru,
Min budaq saxlamaz bu vurhavuru.
Gedirəm, qabaqda bir dərd nohuru,
Girirəm içinə, bat ki, batasan!

Ömür gəlib-keçir daşda, qayada,
Əzabçün gəlmişik biz bu həyata.
İllər atlı gedir, biz də piyada,
Ha yüyür, ha tələs, çat ki, çatasan!

Hərdən dünya bizi lap tutur girə,
Əl çata bilməyir söz çatan yerə.
Daş ola arzular lap birdən-birə,
Qoyasan sapanda, at ki, atasan!

Bir üzü aşikar, bir üzü xəlvət,
Dünya nə dünyadır bilərsən əlbət.
Bir əlində zəhər, birində şərbət,
Dünyaya nə var ki, qat ki, qatasan!
Hələ ki, dünyadır, başında sərdar,
Nə zülmü azalar, nə rəhmi artar.
Bihuşdarı verib səni yatırdar,
Gedərsən yuxuya, yat ki, yatasan!
1999

## DÜNYA ARTIB-ƏKSİLİRMİ GÖRƏSƏN

Damla gəlib buxar olur təzədən,
Qış dolanıb bahar olur təzədən.
Dlünya dönür yox var olur təzədən,
Dünya artıb-əksilirmi görəsən?!

Tum cücərir, palıd olur dağ kimi,
Dağ əriyir zərrə-zərrə yağ kimi.
Vaxtı keçir, gül qarıyır şax kimi,
Dünya artıb-əksilirmi görəsən?!

Şaxta düşür, sazaq gəlir dünyaya,
Yaxın gedir, uzaq gəlir dünyaya.
Qoca gedir, uşaq gəlir dünyaya,
Dünya artıb-əksilirmi görəsən?!

Sellər gəlib çöl-çəməni aparsa,
Ətirşahı, yasəməni aparsa,
Əcəl gəlib bir gün məni aparsa,
Dünya artıb-əksilirmi görəsən?!
2003

## TALEYİM

Bu dünyaya yaman gündə doğuldum,

Məni dərdlə qarşıladı taleyim.
Arzuların bir küncünə sıxıldım,
Kədər əkdi, dərd suladı taleyim!

Arzum daşdı, atdı məni qırağa,
Canım yandı, könlüm döndü çırağa.
Yaxşı günüm döndü sısqa bulağa,
Zərrə-zərrə damcıladı taleyim!

İnsan oğlu gah ovçudur, gah şikar,
Ömrü boyu olammadı aşikar.
Ürəyimlə düşmən oldu ruzigar,
Gecə-gündüz qamçıladı taleyim!

Baxt başıma nə gətirdi, gör indi,
Ömrüm-günüm haqq dalınca süründü.
Gördü həyat hər bir şeydən şirindi,
Zəhər qatdı, acıladı taleyim!
2003

## BİLƏK QƏDRİNİ

Gəl gülün vaxtında duyaq ətrini,
Güllər vəhşiləşib kola dönməmiş!
Gəl otun, çiçəyin bilək qədrini,
Arı pətəyində bala dönməmiş!

Ürəyimiz birdir, dünyamız iki,
Bu dünyada qalır həsrətin kökü.
Ataq çiynimizdən gərəksiz yükü,
Belimiz əyilib, nala dönməmiş!

Qatmayaq ələfə lalələri də,
Görək dilsiz qalan taleləri də.
Duyaq arxadakı nalələri də,
Ağrımız qanrılıb, dala dönməmiş!

Ağrımaz başlara ağrı qoymayaq,
Biz öz sinəmizi dağlı qoymayaq.
Doğma qapımızı bağlı qoymayaq,
Özgə qapısında qula dönməmiş!
Babalar ər olub, biz də ər olaq,
Açılan sabahla xoşxəbər olaq.

Gəlin nalə çəkib bir çəpər olaq,
Çəmənlər tapdanıb yola dönməmiş!
1998

## HAYIFSILANIR

Vətən talan olur,
özüm bir yana.
Yad da bu talana hayıfsılanır.
Ömrümüz-günümüz dönür gümana,
Dolana-dolana hayıfsılanır.

Yalvarır, yalmanır yalanımız da,
Boşdan beşbetərdir dolanımız da.
Olmayan kimidir olanımız da,
Adam bu olana hayıfsılanır.

Uzundur dünyanın, bala, quyruğu,
Sönür ürəklərdə ümid qırığı.
Adam, öz əlilə boyunduruğu
Boynuna salana hayıfsılanır.

Qayalar uçulur, heç dolmur dərə,
Xeyir təslim olub, bac verir şərə.
Dünyadan gedənlər can verə-verə,
Dünyada qalana hayıfsılanır.

Bu gün qovan kimdi, dünən kim idi,
Dünən çalınan da qırıq sim idi.
Dünya son gümanı, axır ümidi,
Gözündə solana hayıfsılanır.

Demə yurddan uman yurda verəcək,
Burda tapdığını gorda verəcək.
Bilir ki, yiyəsi qurda verəcək,
Adam qoç olana hayıfsılanır.

Ağılsız yanında ağıl fənadır,
Bu dünya da bir cür dəlixanadır.
Bilirsən sınacaq qolu, qanadı,
Adam ucalana hayıfsılanır.
1999

## ÖMÜR YOLU

Elə iki rəqəm görmüşük məgər,
Ömrümüzü harda əritmişik biz?
Bu iki rəqəmin arası qədər
Deməli, dünyada yol getmişik biz?

Qəlbi dərd yandırır, arzu susadır,
Ağı da sirlidir qarası qədər.
Onsuz da insanın ömrü qısadır,
Bu iki rəqəmin arası qədər.

İnsan yemi olur kədərin, qəmin,
Dolanbac yollarda zillət çəkilir.
Niyə arasında iki rəqəmin
Dolaşıq xətt deyil, düz xətt çəkilir.

Sağlıqlar deyirik həyatda bol-bol,
Ölüm fikri çətin gümana gəlir.
Bir ömrün getdiyi əyri-üyrü yol,
Axır son mənzildə gəlib düzəlir.

Ömür var, son rəqəm hədd ola bilər,
Ömür var, yaşayır ölümdən də çox.
Bir rəqəm hamıyçün yazıla bilər,
İkinci rəqəmsə hamı üçün yox!

1999

## AYILMAZ

Şeyda bülbül bircə dərddən oxuyar,
Yuvasını bir qəm üstə toxuyar.
Üç ay qışın arı gedər yuxuya,
Zəhmətinin həvəsindən ayılmaz!

Tutaş oda, ey ürəyim, yan, tökül,
Bu atəşdən nə daldalan, nə çəkil.
Bahar üçün tələsməyən qızıl gül,
Yüz baharın nəfəsindən ayılmaz!

Ürəksizdir ürəyini verməyən,
Sinəsii hər əzaba gərməyən,

Boş yolda da ümid yeri görməyən,
Min arzunun qüvvəsindən ayılmaz.

Hansı daş var, damicılardan oyulmur,
Hansı kiprik göz yaşında yuyulmur.
Kim ki, qəlbin öz səsindən ayılmır,
Top atsan da, top səsindən ayılmaz!
1998

## KÜLÜMDƏN DƏ TANINARAM

Kaman eylə, çal könlümü,
Dağa-daşa sal könlümü.
İnsaf eylə, al könlümü,
Könlümdən də tanınaram!

Sözüm yanar, dilim donsa,
Dərdim sınmaz, qəlbim sınsa.
İçərimdə ocaq yansa,
Çölümdən də tanınaram!

Yanıb haqqa qarışıram,
Qismətimlə barışıram.
Mən ki, belə alışıram,
Külümdən da tanınaram!
1997

## BULUDLAR

Dolanır göyləri hey asta-asta,
Görmədim atını çapa buludlar.
Gah bir dağa dönür yazda, payızda,
Gah dönür dolaşan sapa buludlar.

Sərkərdan dolanıb, dərdi-sər udub,
Səmtini itirib, yolu unudub.
Ovcunda od ilə suyu bir tutub,
Bu pambıq buludlar, lopa buludlar.

Dəli kişnərtisi yer silkələyir,
Qara çadrasına göyü bələyir.
Oduma səpilən yağış çiləyir,

Nahamar buludlar, qara buludlar.

Dərdi var, aşikar qovrulmasa da,
Odu var, kül olub sovrulmasa da.
Əbədi mənzili heç olmasa da,
Kim görüb, göylərdən qopa buludlar?!

Aran yanan yerdə tökülər dağa,
Hərdən rəhm eləməz körpə budağa.
Birdən yağış olub, enər torpağa,
İstər ki, bir həmdəm tapa buludlar.

Baxasan, məst olub göylər yatanda,
Buludlar laybalay ayrılır onda.
Dərdləşib ağlamaq vaxtı çatanda,
Yığışar, birləşər topa buludlar.

Bir sirli çadırdır göylərdə özü,
Kim tamam dərk edib gecə-gündüzü.
Niyə pərdə tutub, azdırır bizi,
Bu çadır buludlar, oba buludlar.

Göydə bulud olur yerin buxarı,
Yeri bənd eləyib göyün vüqarı.
Allahdan aşağı, bizdən yuxarı,
Çox sirri gizlədir baba buludlar.
1996

## İNSAN VƏ DÜNYA

Bir ömrü sürüyür dağdan, arandan,
Günəşlə yarışır gün qızarandan.
Ağaclar dad çəkir qardan, borandan,
Ömürsə boy atır boran içində.

Zülümdən zülümə qovur illəri,
Əlləşib xeyirə döndərir şəri.
Qarışır torpağa insanın təri,
Gül-çiçək yetişir şoran içində.

Niyə düz görünmür bu dünya haqsa,
Niyə baş aldadır axırı yoxsa.
İnsan iki gözlə yüz il də baxsa,

Görür bu dünyanı toran içində.

Ümidsiz, inamsız quru nəfəsdir,
Oddan su umursa, deməz əbəsdir.
Bir Quran sözünə tapınsa, bəsdir,
Neçə min ayə var Quran içində.

Zülümsüz ömürdən nişanə qalmaz,
Zillətdən qaralan bir üz ağarmaz.
Taleyin vurduğu yara sağalmaz,
Bir gizli köz qalar yaran içində!
Ömrü şum eyləyib, qayğı əkirik,
Qismət qabağında diz də çökürük.
Ömür daş yüküdür, min il çəkirik,
Atanda atırıq bir an içində!
1980

## BİR ÜMİD GÖRÜRƏM GÖZLƏRİNDƏ MƏN

Bir ümid görürəm gözlərində mən,
Onu da kipriklə çəpərləmişəm.
Elə yapışmışam mən ətəyindən,
Məni dərd başına sən hərləmisən.

Bu ümid könlümün sarı simidir,
Bu ümid ayrıca ömür kimidir.
Səndən qoruyuram mən bu ümidi,
Bir yol bu ümidi zəhərləmisən.

Hər ümiddən ötrü belə yapnmıram,
Kölgə arxasında daldalanmıram.
Ömrüm bir şeirdir, mən inanmıram,
Sən ondan bir sətir əzbərləmisən.

Ümid var hələ ki, ağlama, könlüm,
Ümid var işığı bir də mən görüm.
Mən bu ümid ilə qalıram, ömrüm,
Sən artıq atını yəhərləmisən!
1999

## YAPMA ÇİÇƏKLƏR

Bir bahar dolandı, biri də gəldi,
Hələ də solmayıb kağız çiçəklər.
Solanlar solsa da, yenə gözəldi,
Qalanlar nə ilə seçiləcəklər?!
Könlümdə bir qubar qaralıb gedir,
Göyərmək həsrəti yaxamı yırtır.
Canlı çiçkəklər ki, saralıb gedir,
Cansız çiçəklərə acığım tutur.

Ötən günlər üçün qəm yemişəm ki,
Daha başımızdan duman-çən gedir.
Saçımız ağarıb, bilməmişik ki,
Bu da bu həyatın başqa rəngidir!

Min bir cilvəsi var qoca dünyanın,
Böyüdür, üyüdür, yaşadır yenə.
Hərdənbir solmağı bacarmayanın
İnana bilmirəm göyərməyinə!

Saraldır, soldurur ömür bizi də,
Ömür rəngbərəngdir, gün rənbərəngdir.
Həmişə bir rəngdə qalmaq özü də,
Elə bu dünyada ölüm deməkdir!
1999

## YAŞAT BU DÜNYANI

Bir gün tanıyırsan dünyanı, əlbət,
Görərsən dərdimiz başlanıb hardan.
Sənə bir sözüm var dünyadan xəlvət,
Məni baxışınla ayır dünyadan!

Vallah, dolanaram bu qara günlə,
Təki dünya səni heç küsdürməsin.
Çaşdır bu dünyanı gözəlliyinlə,
Qoy sənin yanında məni görməsin!

Kiçilt böu dünyanı, dünya qocalmır,
Dünyanı saxlayım öz ürəyimdə.
Bu dünya sözümü vecinə almır,
Dünyanı yandırsın söz ürəyimdə!
Hicrana gedirsə, yolu düyünlə,

Bir də yara vurma sən həsrətimə.
Böyüt bu dünyanı zərifliyinlə,
Bu dünya dar gəlir məhəbbətimə!

Mehrinlə, sehrinlə ucalt dünyanı,
Ucalıq olmasa, usanıram mən.
Mənim dərdlərimlə qocalt dünyanı,
Səni bu dünyaya qısqanıram mən.

Yaşat bu dünyanı, yaşat bir görüm,
Bizsiz bu dünyanın çəkisi yoxdur.
Dünya sevgimizlə yaşasın, gülüm,
Dünyanın özünün sevgisi yoxdur!
1996

## ÖMÜR YOLLARI

İnanmalı varmış pirdən başqa da,
Baxmışıq bu yerin pir tərəfinə.
Bu yolda fil də var, lap qarışqa da,
Göz baxır bu yolun şir tərəfinə.

İnsanın bir ömrə başı qarışıq,
Hər arzu alnında bir iz, qırışıq.
Görən kainatda varmı bir işıq,
Çatsın bir ürəyin sirr tərəfinə?!

Çəkmişik ismətin qarovolunu,
Kimi canı güdüb, kimi pulunu.
Key kimi getmişik ömür yolunu,
Görmüşük bu yolun bir tərəfini!
1999

## ÇƏTİNDİR

Bu səadət həm gerçəkdir, həm yuxu
Axıracan ilham almaq çətindir.
Bir tərəfi ya dərd olur, ya qorxu,
Axıracan bir kam almaq çətindir.
1996

## MƏN NECƏ KEÇMİŞƏ DÖNÜB BAXMAYIM

Tərlan cavanlığım qalıb arxada,
Şahlığım, xanlığım qalıb arxada.
Orda polad kimi can sağlığım var,
Mən necə keçmişə dönüb baxmayım?!

Ordadır anamın məsum baxışı,
Mənim taleyimin min bir naxışı.
Ordadır yaz ətri, payız yağışı,
Mən necə keçmişə dönüb baxmayım?!

Budağım bu tayda, köküm o tayda,
Hələ bir karvanlıq yüküm o tayda.
Bir az duman kimi çöküm o tayda,
Mən necə keçmişə dönüb baxmayım?!

Mənim ilk eşqimi saxlar o günlər,
İlləri illərə bağlar o günlər.
Arxamca mələşib ağlar o günlər,
Mən necə keçmişə dönüb baxmayım?!

Orda mənsiz qalıb yanan yetim var,
Orda bir yarımçıq hekayətim var.
Bu gündən o günə şikayətim var,
Mən necə keçmişə dönüb baxmayım?!

Arxaya baxmasam, günü görmərəm,
Səmti tapammaram, yönü görmərəm.
Arxaya baxmasam, önü görmərəm,
Mən necə keçmişə dönüb baxmayım?!

Qalxıb boylanıram, məni dərd əyir,
Vaxtın atdığı daş sinəmdən dəyir.
O günçün burnumun ucu göynəyr,
Mən necə keçmişə dönüb baxmayım?!

İndiki dərdlərin dərmanı orda,
Çay kimi daşmağın zamanı orda.
Görürəm yaxşını, yamanı orda,
Mən necə keçmişə dönüb baxmayım?!

Odlara tutaşıb ha yanmışam mən,
Elə yana-yana oyanmışam mən.
Keçmişin üstündə dayanmışam mən,
Mən necə keçmişə dönüb baxmayım?!

Gəl mənim arzuma az rişxənd elə,
Gəl daha sözünü şəkər, qənd elə.
Sən məni bu günə elə bənd elə,
Mən necə keçmişə dönüb baxmayım?!
1999

## YAZ LEYSANI

Elə bil deşildi göylərin damı,
Göydən çubuq kimi töküldü leysan.
Bir leysan həsrəti açdı yaxamı,
Sinəmin atəşi içdi yağışdan.

İki həsrət kimi qovuşdu yer, göy,
Ötüşdü, od qopdu dodaqlarından.
Yuyundu, darandı dünyada hər şey
Öpdü gur leysanın ayaqlarından.

Dərəni-təpəni yaladı sellər,
Sel-selə qovuşdu, çaylar-çaylara.
Əyildi, büküldü, solmadı güllər,
Yaydı qoxusunu dar dolaylara.

Bürüdü aləmi bir kövşən ətri,
Yeraltı atəşin buxarı qalxdı.
Elə bil leysanı içməkdən ötrü
Dağlar da bir azca yuxarı qalxdı.

Budaqda yarpaqlar döndü növçaya,
Hər daşın dibində bulaq yaranda.
Güclü leysan düşdü bağa-bağçaya,
Hardasa susuzdan bir səhra yandı.

Leysan yağışına mən də təşnəyəm,
Cadar-cadar olan səhralar kimi.
Buludlar ağlaya, göylər kişnəyə,
Bir az sərinlədə yanan könlümü.

Mənimçün leysanın bərabəri yox,
Od qopur köksümdən, dodaqlarımdan.
Leysanlar səhraya gərəkdir ən çox,
Dərə-təpələrə düşür çox zaman.

Alışam dünyada mən səhralar tək,
Tökülə ümidlər leysanlar kimi.
Arzular gələndə axan sular tək,
Təbiət düşünə insanlar kimi!

1985

## BU YOLLAR

Aparar, gətirər bu yollar bizi,
Bir gün də itirər bu yollar bizi!

1985

## MƏHƏBBƏT

Yandıqca qəlbimiz çıxmır düyündən,
Ürək ömür boyu imtahan verir.
Eşq doğur ürəyin zəifliyindən,
Sonra bu ürəyi dağa döndərir!

1996

## BİR AN

Bir anın zəhmi də, hökmü də çoxdur,
Sən demə, an nədir, il var əlimdə.
Baxma an kiçikdir, ölçüsü yoxdur,
Həyat da sığışar ona, ölüm də!

1986

## YUXU

Ömrü yapşayırıq yuxularda biz,
Ürək gecə-gündüz yanır köz kimi.
Bəzən yuxu kimi keçir ömrümüz,
Yuxularımız isə ömrümüz kimi!

1987

## TAPMAQ ÇƏTİNDİR

Könül otağının şamı pərişan,
Dünyanın aqili, xamı pərişan.
Həyata baxırsan – hamı pərişan,
Fikri başında cəm tapmaq çətindir.

Bu gündən bir ümid qalır o günə,
Baxırsan il ili aldadır yenə.
Şər basıb zor ilə gülür ömrünə,
Bir mübarək qədəm tapmaq çətindir.

Qəlbindən gələn səs boğulub qalar,
Qananın gözündə dopdolu yaş var.
Şəbnəm gül üstündə, çiçəkdə olar,
Tikan üstdə şəbnəm tapmaq çətindir.

Canlısan, cansızsan, bilmirsən nəsən,
Axtarıb dərd tapır bir ümid gəzən.
Həmdərd tapmaq olar nə qədər desən,
Bir ağıllı həmdəm tapmaq çətindir.
1999

## NEÇƏSİ QALDI

Dolandı, taleyin döndü təkəri,
Özüm öz baxtımın oldum nökəri.
Sıxıldı ömrümün şəhdi-şəkəri,
Mənə qupquruca cecəsi qaldı.

Gəldi qocalığın təzə nübarı,
Töküldü üstümə dərdi-qubarı.
Uçuldu xanəmin daşı, divarı,
İkicə amanat haçası qaldı.

Kiminsə yolunda gəlib bitmədim,
Haramı özümə halal etmədim.
Ruzi budağına tamam yetmədim,
Alçağı dərildi, ucası qaldı.

Məni nadanların dərdi keyitdi,
Dərd məni həm yıxdı, həm də böyütdü.
Vaxtın dəyirmanı ömrü üyütdü,

Əlimdə tək elə puçası qaldı.

Baxma gün dalınca, dönməz o bir də,
Yalançı dayaqdır daha səbr də.
Gecə-gündüz olmur heç vaxt ömürdə,
Gündüzü qurtardı, gecəsi qaldı.
Ürək şan-şan olub, bal hanı, könlüm,
Balı arı çəkər, bəlanı könlüm.
Görüb neçə-neçə talanı könlüm,
Balı talan oldu beçəsi qaldı.

Qəlbim gen olduqca yolum dar oldu,
Dedim bir söz deyim, bəlkə var oldu.
«Həyat, həyat» dedim fələk kar oldu,
Yadında sonuncu hecası qaldı.

Ağ saç nişanıdır yoldu yönümün,
Sirri açılmayıb çox düyünümün.
Qismətimə düşən ömür günümün,
Görən, ay Ağasən, neçəsi qaldı?
1999

## QƏRARI OLMAZ

Qış da ürəkdədir, yaz da ürəkdə,
Hər gülü açanın baharı olmaz.
Sıyrılmış qılıncla gəlsə fələk də,
Əyilər, könlümdən yuxarı olmaz.

Boş-boş təsəllilər gəldi-gedərdi,
Dərdimiz ürəkdə arzu qədərdi.
Tən bölmək istəsən sevinci, dərdi,
Dərdə çox pay düşər, tən yarı olmaz.

Yaşı sonalamaz başı qal çəkən,
Nahaqqa söykənməz haqqa qol çəkən,
Şan çəkmək asandır, amma bal çəkən
Bal arısı olar, cır arı olmaz.

Yağışın öz dəmi, qarın öz dəmin,
Heç vaxt ağlar gözün çəkilməz nəmi.
Könül hey dolanıb gəzər aləmi,
Amma dərd əlindən fərari olmaz.

Ümid işığıyla yollar nurlanır,
Dünyanın hökmüylə dünya korlanır.
İndi ki, dünyanın başı fırlanır,
Onun düz-əməlli qərarı olmaz!

1999

## TUT AĞACI

*Tut ağacı boyunca,*
*Tut yemədim doyunca.*
*Yarı xəlvətdə gördüm,*
*Danışmadım doyunca.*

***Bayatı***

Ay atlaz ağacım, ay tut ağacım,
Ay doğma ağacım, ay yurd ağacım.

Hamının həmdəmi, hamının payı,
Sən bizi növlərə ayırmamısan.
Lap elə müftəcə, elə havayı,
Kimlərin qarnını doyurmamısan!

Amma biz bölmüşük budaqlarını,
Bu mənim budağım, bu qardaşımın.
Bağlardım könlümün otaqlarını,
Belə bir vaxtıydı hələ yaşımın.

Aclıq adamları salmışdı bəndə,
Bu tut olmasaydı, tamam batardıq.
Çörək tikəsini biz boş görəndə,
Dolu budaqlara əl uzadardıq.

Könlümüz gəzərdi gül bağlarını,
Nə söz anlayardıq, nə söz qanardıq.
Sənin atlas kimi yarpaqlarını
Barama qurduna biz qısqanardıq.

Hamını, hamını sən yarıtmısan,
Başımız üstündə bir bulud olub.
Ən ağır günlərdə bizi tutmusan,
Bəlkə ona görə adın «tut» olub.

Düşüb kölgələrin eyvanımıza,

Eyvanı bəzəyib xalça yerinə.
Sərinlik vermisən hey canımıza,
Biz də sığınmışıq kölgələrinə.

Yenə kövrəlirəm, nə düşdü yada,
Qəhər boğazımda dərd tıxacıdır.
Vallah, tut ağacı, bəlkə dünyada,
Ən ulu, müqəddəs pir ağacıdır.

Babalar gör necə həmdəm tapıb ki,
Dərd düşüb bir azca taxtı-tacından.
Dərdimiz canına elə hopub ki,
Telli söz yaranıb tut ağacından.

Min ömür gərəkdir insan oğluna,
Nə qədər bulanıb, durulmuşam mən.
Görən necə baxar sevgilim mənə,
İlk dəfə ağaca vurulmuşam mən.

Elə təsəlliylə ötür ömür-gün,
Əlhəzər zamanın qaş-qabağından.
Bu qədər rəhimdil olduğu üçün
İpək də yaranır tut yarpağından.

Ən şirin xatirə, ən ulu duyğu,
Alışmışıq bu cür tut ağacına.
Elə bilirəm ki, insanın ruhu
Lap birinci köçür tut ağacına.

Bu tut ipək olub, gəzirsə əl-əl,
Gəl, gör haqq-hesabın dönüklüyünə.
Tutun zirvəsində görmüşəm əvvəl,
Dünyanın boyunu, böyüklüyünü.

Boylana bilməzdim mən hər tərəfə,
Görərdim tay-tuşum hey ötüb məni.
Qaldırıb çiynine birinci dəfə
Bizim tut ağacı böyüdüb məni.

Nələr eşidirdim vaxt dodağından,
Ürəyə salırdım, vallah, çoxunu.
Baxıb tutumuzun şah budağından,
Bildim ucalığın nə olduğunu.

Nanəcib olubmu bu qədər insan,
Ağaclar qırılır, meşələr gedir.
Bunu haqq-hesaba durub vurasan,
Böyük xəzinədən gör nələr gedir.

Dilbər ağaclara balta vuran kəs,
Heç zaman insanlıq adını tapmaz.
Çörək ağacına əl qaldıran kəs
Çörəyini tapar, dadını tapmaz.

Qaçaq başımıza kül eləyəndən,
Dədədən qalandan nə qalıb daha?
İnsan təbiətə zülm eləyəndən,
Adamlıq, insanlıq azalıb daha!
1999

## GÖR ONDA BİZ NECƏ ÖMÜR SÜRMÜŞÜK

Üç aylıq ömrüylə bahar baharsa,
Üç ay yay dünyanı oda yaxarsa,
Dünyada üç aylıq ömür də varsa,
Gör onda bir necə ömür sürmüşük?!

Əl çəkə bilmirik elə nəşədən,
Barı utanmırıq heç bənövşədən.
Qopursa beşillik budaq rişədən,
Gör onda bir necə ömür sürmüşük?!

Dünyada çiçək var – həyatı beş gün,
On illik həyat var – beş ili düşkün.
Yüz illik adı var bir illik eşqin,
Gör onda bir necə ömür sürmüşük?!

Şimşəyin bir anlıq ömrü var ancaq,
Gör neçə hökmü var, əmri var ancaq.
Bir cınqa atəşdən yanar min ocaq,
Gör onda bir necə ömür sürmüşük?!

Gileylən, gör Cəfər nə deyər sənə,
Sabirim məzardan boylanır yenə.
Bölək ömrümüzü Müşfiq ömrünə,

Gör onda bir necə ömür sürmüşük?!

Yüz illik ömür var – bir ötəri səs,
On illik ömür var, şirin, müqəddəs.
Beş il bir igidin ömrüdürsə, bəs
Gör onda bir necə ömür sürmüşük?!

Ömür var, nur tapıb çimir içində,
Ömür var, yüz ömrü kömür içində.
Ömürlər var isə ömür içində,
Gör onda bir necə ömür sürmüşük?!
1999

## CAVANLIQ

Ötür uşaqlığın güllü bağından,
Arxada nə qalıb, yoxlamır daha.
Dərs alıb uşaqkən ağlamağından,
Büdrəyir, yıxılır, ağlamır daha.
Daha uşaqlığı onunçün boyat,
Onun arzusuna dar gəlir həyat.
Özünə güvənir, nə qohum, nə yad,
Heç kəsə belini bağlamır daha.

Qolu bağlansa da, o, sərbəst olur,
Bilmir öz içindən ona qəsd olur,
Meysiz, məzəsiz də elə məst olur,
Ancaq mürgü vurub yuxlamır daha.

Vaxt olur, üzülür ayağı yerdən,
Qızmış pələng sanır özünü hərdən,
Düşür yüz arzunun dalınca birdən,
Qovub axıracan haxlamır daha.

Hərdən fikrə gedir, dərdimənd olur,
Uğursuz hər yükü ona fənd olur,
Elə ki, birinə uyur, bənd olur,
Çaya bənd vurulur, çağlamır daha.

Bir yolunda ayıq, bir yolunda xam,
Bilmir ki, əriyir üzərində şam,
Ömrün alovunu yandırır tamam,
Qocalığa alov saxlamır daha.

1999

## GƏL

Daha səbri yoxdur, dözmür can indi,
Vəfalı çiçəyim, könül dağım, gəl!
Yolumu gözlərəm, hardasan indi,
Qayıt ilk baharım, son baharım gəl!

Daha taqətsizəm, yoxdur o nəşəm,
Daha axşam-axşam batan günəşəm.
Baharla leysanım, qışda bənövşəm,
Payızda günəşim, yayda qarım, gəl!
Dolub həsrətinlə dağım-düzənim,
Qayıt dərdlərinlə yenə bəzənim.
Yanımda canımı alıb üzənim,
Uzaqda həmdəmim, havadarım, gəl!

Sığındım sevgimin ilk nübarına,
Sığındım könlümün qəm-qubarına,
Güvəndim vəfana, etibarına,
Vəfasız dövranla vəfadarım, gəl!

Uzaqdan xəbər al, könlümü dindir,
Sevgiylə gələn gün, bir ayrı gündür.
Ölümmü, qalımmı, hökm sənindir,
Gəl ey hökmdarım, son qərarım, gəl!
2003

## HƏR ŞEYİN HƏR ŞEYƏ DƏXLİ VAR

İşıq öz gücünü sudan yığırsa,
Daşın, dəmirin də əqli var demək.
Həyatın min gizli bağları varsa,
Hər şeyin, hər şeyə dəxli var demək!
1999

## BƏLKƏ İNSANLAR DA YARPAQLANARDI

Bu güllər gələn yaz yenə açacaq,
Yenə dörd tərəfə ətir saçacaq.

O palıd yenə də cavanlaşacaq,
Pöhrə budaqları rəvanlaşacaq,
Çinar neçə qarış boy atacaqır,
Bənövşə təzədən qayıdacaqdır.

Yenə göyərəcək bələs, qarağac,
Könül oxşayacaq yenə hər ağac.
Təkcə insan bir boy qocalacaqdır,
Bir boy düşəcəkdir, azalacaqdır,
Bir azca solacaq, bir az sönəcək,
Boyu da bir yarpaq qısalacaqdır.

Biriyçün bahar var, biriyçün xəzan,
İnsan bu torpaqdan bir az kənardı.
Ağactək bitsəydi torpaqda insan,
Hər yaz o da dönüb yarapqlanardı.

İnsan arzusundan bar-bəhər dərir,
Ağac yaşıllaşır yaz sularıyla,
Ağac yarpağıyla hər yaz göyərir,
İnsansa təzəcə arzularıyla!

2003

## BİR AĞILLI BAŞLI ADAM YOXDU Kİ

Özündən razılar elə çoxdur ki,
Dünyanı ayağı altda top sanar.
Bir ağıllı-başlı adam yoxdu ki,
Baxsın, görsün necə ağıllımız var.

1999

## QOPUR

Bu qoca dünyanın təzadına bax,
Gecənin qoynundan al gündüz qopur.
Könül dünyasının büsatına bax,
Əl boyda ürəkdən necə söz qopur.

Bəzən sevinc üçün gərək dərd çəkəm,
Bir yandan şeşəmsə, bir yandan yekəm.
İnsanın cavanı dağ kimi möhkəm,
Budağın cavanı daha tez qopur.

Həm sözün balı var, həm sözün düzü,
Baha papaq üçün kəsilir quzu.
Budaq var, yananda közü qırmızı,
Budaq var, odundan qara köz qopur.

İnsanı diz üstdə çökdürür çiçək,
Şamtək işıq salır kiçik bir böcək.
Pənbə buludlardan qorxulu şimşək,
Daşı qayalardan gəlir, tez qopur.

Olur savabın da, olur suçun da,
Həmişə qalmışıq yol ayrıcında.
Söz var ki, ilişir dilin ucunda,
Söz var ki, ürəkdən sorğusuz qopur.

Söz var, bir zülməti işıqlandırır,
Söz var, bir tarixi sənə andırır.
Söz var, donub qalır, səni yandırır,
Söz var, alovundan qara buz qopur.

2003

## DÜNYADA ƏVVƏLCƏ SEVGİ YARANIB

Sevgi bir ilahi oda calanıb,
Sevən gah qul olub, gah şah olubdur.
Dünyada əvvəlcə sevgi yaranıb,
